ISSN 25 10-4 104

AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ

# ADAU-nun Elmi Əsərləri



Gəncə - 2020, №1

*İSSN 2310-4104*

**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**

# ADAU-nun ELMİ ƏSƏRLƏRİ

**GƏNCƏ – 2020, №1**

*Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi Mətbu
Nəşrlərin reyestrinə daxil
edilmə nömrəsi № 2209,
20.04.2007*

*1958-ci ildən nəşr olunur
(ildə 3 ... 5 sayda buraxılır)*

**İ.H.Cəfərov** - Aqrar elmlər üzrə elmlər doktoru, professor, AMEA –nın müxbir üzvü, ADAU-nun rektoru - **baş redaktor;**

**N.Y.Seyidəliyev** - Aqrar elmlər üzrə elmlər doktoru, professor - **baş redaktorun müavini;**

**A.Q.Məsimov** - Texnika elmləri üzrə fəlsəfə doktoru dosent - **məsul redaktor.**

**Redaksiya Şurasının üzvləri:**

**R.Ə.Balayev** - İqtisad elmlər doktoru, professor;

**M.Babadost** - Bitki mühafizəsi üzrə doktor, professor (İllinays Universiteti, ABŞ);

**F.Ə.Əliyev** - Kimya elmləri doktoru, akademik, AMEA-nın həqiqi üzvü;

**R.M.Əliquliyev** - Texnika elmləri doktoru, akademik, AMEA-nın həqiqi üzvi;

**V.A.Solopov** - İqtisad elmləri doktoru, professor (Miçurin DAU-nun prorektoru);

**A.V.Nikitin** - İqtisad elmləri doktoru, professor (Rusiya);

**Erol Yıldırım** - Bitki mühafizəsi ixtisası üzrə doktor, professor (Türkiyə);

**Mustafa Yıldırm** - Sosial bölümlər üzrə doktor, professor (Türkiyə);

**Ə.H.Tağızadə** - Texnika elmləri doktoru, professor (AzTU);

**A.R.Şərifov** - Texnika elmləri doktoru, professor (AzİMİ);

**© ADAU nəşriyyatı, 2020, №1**
**SSN – L – 104 - 48**

***Elm sahələri üzrə redaksiya heyətinin tərkibi:***

***Aqronomluq, ekologiya və aqrotexnologiya ixtisasları üzrə:***
Z.M.Həsənov - aqrar elmlər üzrə elmlər doktoru, professor
H.K.Fətəliyev - texnika elmləri doktoru, professor
H.Ə.İdrisov - aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent
A.M.Hüseynov -aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent
Z.İ.Hümbətov - biologiya üzrə fəlsəfə doktoru, dosent
Z.A.İbrahimov - aqrar elmlər üzrə elmlər doktoru, professor

***Zoobaytarlıq və əmtəəşünaslıq ixtisasları üzrə:***
Q.Q.Abdullayev - aqrar elmlər üzrə elmlər doktoru, professor
M.M.Əliyev – biologiya elmləri doktoru, professor
İ.F.Gənciyev – baytarlıq üzrə fəlsəfə doktoru, dosent
A.Ə.Tağıyev - aqrar elmlər üzrə elmlər doktoru, professor əvəzi
T.B.İsgəndərov - baytarlıq üzrə fəlsəfə doktoru, dosent

***Mühəndislik, memarlıq və dizayn ixtisasları üzrə:***
X.H.Qurbanov - texnika elmləri doktoru, professor
C.Ə.Məmmədov - texnika elmləri doktoru, professor
N.N.Məmmədov – texnika elmləri doktoru, professor
Q.İ.Əliyev – texnika elmləri doktoru, professor
Q.B. Məmmədov – texnika elmləri doktoru, professor
Z.M.Abbasov - texnika elmləri doktoru, professor

***İqtisadiyyat və humanitar elmlər üzrə:***
M.C.Hüseynov – iqtisad elmləri doktoru, professor
N.Ə.Cavadov – iqtisad elmləri doktoru, professor əvəzi
B.M.Əliyev – iqtisad üzrə fəlsəfə doktoru, dosent
A.N.Hətəmov – iqtisad üzrə fəlsəfə doktoru, dosent
Ə.Ə.Əsgərov - iqtisad üzrə fəlsəfə doktoru, dosent
A.M.Bayramov–fəlsəfə elmləri üzrə fəlsəfə doktoru, dosent
A.M.Həsənova – filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent

**Elektron ünvan:** **www.adau.edu.az**
**e-mail:** **info@adau.edu.az**

## AQRONOMLUQ, EKOLOGİYA, BİOLOGİYA

**UOT 634.8**

# NİZAMİ İTBURNU (*Rosa Nisami D. Sosn.*) BİTKİSİNİN MORFOLOJİ ANATOMİK QURULUŞ XÜSUSİYYƏTLƏRİ

***B.M.Əliyev, S.A.Məmmədova***
***Azərbaycan Dövlət Aqrar Universiteti***

**Açar sözlər:** *parenxim, ksilem, kök, yarpaq, floem, topa*

İtburnuların Şimal yerkürəsində 550-600, Qafqazda 56, Azərbaycanda isə 42 növü yayılmışdır.

Nizami it burnu Azərbaycanda Kiçik Qafqazda və Naxçıvanda yayılmışdır. Ta qədimdən elmi və xalq təbabətində müxtəlif vitaminlərlə (“C”, “A”, $B_2$ və s.) üzvi turşularla şəkər, piyli yağ və korotinoidlərlə zəngin olan bitkinin meyvəsindən azqanlılıqda, gözün görməsini yaxşılaşdırmaqda, sinir sisteminin möhkəmləndirilməsində, böyrək, ürək, qara ciyər, şəkər, dəri və . xəstəliklərin müalicəsində istifadə edilir [1...4].

**Material və metodlar.**Tədqiqat materialı Kiçik Qafqazın Göy-göl və Daşkəsən rayonları ərazisində geniş yayılmış və yaxşı uyğunlaşmalar qazanmış (*Rosa Nisami D.Sosn.)* bitkisidir.

Bitkinin təyinatında A.A.Qrossheym “Flora Qafqaza” və “Flora Azerbaydjana”-dan istifadə edilmişdir (1939-1967, 1954).

Götürülmüş nümunələrdən həm herbarilər hazırlanmış, həm də anatomik tədqiqatların aparılması üçün 70% spirtdə fiksə edilmişdir. Həm təzə, həm də spirtə qoyulmuş materiallardan müvəqqəti və daimi preparatlar hazırlanmışdır. Preparatlar ümumi qəbul olunmuş anatomik metodlar (Metkalfe, 1950; Tutayuq 1980; Barikina, 2004; Hümbətov, Əliyev, Əliyeva, 2015) əsasında hazırlanmışdır. Kəsiklər safraninlə, floroqlyusinin spirtdə məhlulu ilə və son olaraq xlorid turşusunda yod, kalium-yod və sudan III-ün spirtdə məhlulu ilə rənglənmişdir.

Bitkinin vegetativ orqanlarının morfoloji xüsusiyyətləri "MBS-2" binokulyar lupasının köməkliyi ilə hazırlanmış, preparatlar isə "MBl-3" və "Biolam" mikroskoplarında tədqiq olunmuşdur. Anatomik şəkillərin çəkilməsində "RA-4" şəkil aparatından və Mİ-4100D mikroskopundan "Tucsen" kamerasından istifadə edilmişdir [3].

**Yarpaq (*Folium*).** Yarpaq eninə kəsikdə dorzoventral quruluşludur. (Şəkil 1). Yarpağın üst səthi alt səthindən kəskin fərqlənir. Yarpaq istər üst, istərsə də alt tərəfdən bit qat epidermislə örtülmüşdür. Yarpağın üst epidermisini xaricdən kutikul qatı örtmüşdür. Alt dəriciyində üzərində nisbətən nazik kutikul qatı vardır. Üst dəricikdə ağızcıqlar görünmür. Üst epidermisdən daxilə iki qat uzunsov formalı çəpərvariparenximi yerləşir. O yarpağın yarısını tutmuşdur. Sütunvarı parenximdən daxilə süngərvari parenxim yerləşir. Alt dəricikdə ağızcıqlar vardır. Yarpağın mezofilində lifli-borulu topalar vardır.

Onlar yarpağın damar sistemini əmələ gətirir. Topalar xaricdən bir qat əhatəedici hüceyrələrlə əhatə olunmuşdur. Yarpağın həm alt həm də üst səthində seyrək şəklində tükcüklər vardır.




***Şəkil 1. Nizami it burnu (Rosa Nisami) yarpağının eninə kəsiyi 1-dəricik, 2-çəpərvari parenximi, 3-ksilem, 4-süngərvari parenxim, 6-floem,7-ağızcıq***

Yarpağın anatomik quruluşunda kserofitlik əlamətləri (üst səthdə yaxşı inkişaf etmiş, kutikul qatının olması, dəricik hüceyrələrinin kip yerləşməsi ağızcıqların alt səthdə olması və büküklər vasitəsilə mühafizə olunması, yarpağın histoloji elementlərin kip yerləşməsi və s.) müşahidə olunur.




***Şəkil 2.Nizami it burnu (Rosa Nisami) saplağının eninə kəsiyi 1-kutikul, 2-dəricik, xlorenxim, 4-saplaq parenximi, 5-əhatəedici hüceyrələr, 6-ksilem, 7-floem***

**Saplaq (*Petiolus*)**. Yarpaq ayası zoğa saplaq vasitəsilə birləşir. Saplaq yarpağın ikinci əsas hissəsi olmaqla yarpaq ayasını günəş şüalarının ardınca hərəkət etdirir və zoğ ilə aya arasında əlaqə saxlayır [4...6].

Saplaq eninə kəsikdə künclü quruluşludur (şəkil 2). Xaricdən bir qat dəriciklə əhatə olunmuşdur. Bu hüceyrələr xırda həcmli olmaqla sıx yerləşmişlər. Saplaq xaricdən kutikul təbəqəsi ilə örtülmüşdür. Dəricikdən daxilə 2-3 qat hüxceyrədən ibarət xlorenxim inkişaf etmişdir. Xlorenximdən daxilə 8-11 qat hüceyrədən təşkil olunmuş saplaq parenximi yerləşir. Bu hüceyrələr dairəvi formalı olmaqla nisbətən seyrək yerləşir. Ötürücü topa güclü inkişaf etmişdir. Saplaq topa quruluşludur. Saplağın mərkəzində bir ədəd iri həcmli əsas topa, künclərdə isə 2 ədəd (hər küncdə bir ədəd) əlavə topalar yerləşir. Əsas topa güclü inkişaf etmişdir. Topalar xaricdən bir qat əhatəedici hüceyrələrlə əhatə olunmuşdur. Bu hüceyrələr topa elementlər ilə saplaq parenximi arasında əlaqə saxlayır.

Ötürücü toxumanın quruluşu forması və əmələ gəlməsi yalnız növ üçün xarakterikdir və diaqnostik nişanə kimi taksonomik əhəmiyyət kəsb edir. Saplaq xaricdən 3 seyrək şəkildə sadə tükcüklərlə əhatə olunmuşdur.

**Gövdə (*Caulis*)**. Gövdə iki mühüm orqanı kökü və yarpaqları birləşdirməklə onlar arasındakı əlaqəni təmin edir.

Gövdə eninə kəsikdə qeyri-topa quruluşludur (şəkil 3). Xaricdən bir qat dəriciklə əhatə olunmuşdur. Dəriciyin üzərində qalın kutikul təbəqəsi inkişaf etmişdir. Dəricikdən daxilə 15-19 qatdan ibarət xırda həcmli, sıx yerləşmiş dairəvi formalı qabıq parenximi yerləşir. Həmin parenximdən daxildə topa-topa yerləşmiş mexaniki toxuma sklerenxim inkişaf etmişdir. Bu hüceyrələr gövdə birinci quruluşdan ikinci quruluşa keçid dövründə peritsikldən əmələ gəlmişdir. Peritsiklin törətdiyi bu mexaniki hüceyrə topalarından daxildə floem sahəcikləri və kambinin törətdiyi parenxim yerləşir. Floemdə parenxim hüceyrələri ilə əhatə olunmuş ələkvari borular və qonşu hüceyrələr yerləşir. Ksilem güclü inkişaf etmişdir.




***Şəkil 3. Nizami it burnu (Rosa Nisami) gövdəsinin eninə kəsiyi***
***1-kutikul, 2-dəricik, 3-qabıq parenximi, 4-klerenxim, 5-floem, 6-ksilem. 7-özək***

Gövdənin mərkəzini özək parenximi tutmuşdur. Bu hüceyrələr iri həcmlidir. Özəkdən qabığa doğru radial istiqamətdə özək şüaları uzanır. Gövdənin bütün canlı hüceyrə sistemi özək şüalarının hüceyrələri vasitəsi ilə birləşir.

**Kök (*Radix*)**. Kök eninə kəsikdə dairəvi quruluşludur. Kökün ikinci quruluşu hissəsi gövdəyə daha çox bənzəyir. Buna səbəb birinci quruluşdan fərqli olaraq sorulmuş maddələri gövdəyə keçirməkdir. Beləliklə vəzifəsinə görə də gövdəyə yaxınlaşır.[7]

Kök xaricdən mantar örtüyü və ya peridermlə örtülmüşdür. Peridermdən daxilə 8-10 qatdan ibarət qabıq parenximi yerləşir. Bu hüceyrələr dairəvi formalı olmaqla sıx yerləşmişdir. Kökün qabıq hissəsində 3-4 qatdan ibarət yumşaq liflər (sklerenxim) yayılmışdır. Bunların xarakterik quruluşları vardır. Onlar uzunsov formalı olmaqla, qılafları kəskin qalınlaşmışdır. Sklerenxim hüceyrələri biri-digəri ilə kip bitişmiş olur. Floem hissəcikləri bütünlüklə kambi qurşağından törəmişdir. Kambi qabığın ən daxili qatı olmaqla 2-3 qat hüceyrədən təşkil olunmuşdur. Kambidən daxilə mərkəzi silindir-oduncaq yerləşir. Onun daxili hissəsində birinci ksilemin şüaları yerləşmişdir. Bu şüaların mabədi şəklində qabığa tərəf parenxim hüceyrələrdən ibarət özək şüaları yönəlmişdir. Bu hüceyrələr mərkəzi silindrlə qabıq arasında əlaqə yaradır. Kökün ikinci quruluşunun birinci quruluşdan əsas fərqi radial tipli topaların kollateral tipli topalarla əvəz olunmasıdır. Kökün ikinci quruluşunda mərkəzi hissəsi birinci ksilemin qalığı ilə işğal olunmuşdur.

**NƏTİCƏ:** Tədqiqatlar nəticəsində yarpaqda, saplaqda, gövdədə və kökdə aşkar olunan ötürücü topalar, onların quruluşu, forması, əmələ gəlməsi və s. diaqnostik əhəmiyyət kəsb edir. Ilk dəfə aşkar olunan bu nişanələr və digər məlumatlar Azərbaycan Milli florasının tərkibində istifadə oluna bilər.

## ƏDƏBİYYAT


1. Tutayuq V.X. Bitki anatomiyası və morfologiyası. Bakı: «Maarif», 1967, s.107, 287 s.
2. Hümbətov Z.İ. Bitki anatomiyası və morfologiyası. Bakı: 2017,679 s.
3. Hümbətov Z.İ., Əliyev B.M., Əliyeva İ.F. Botanika fənnindən tədris və tədqiqat metodları. Bakı: 2015.
4. Qurbanov E. “Ali bitkilərin sistematikası” Bakı:2009. S.254
5. Алиев В.М. Строение узла в зависимости от листорасположения у некоторых растений Азербайджана. Бот.жур., №2, С.Петербург, 1993, с.65...68.
6. Алиев Б.М., Габилов М.Ю., Алиева И.Ф. Features of thetructureof the Castaneasativa Mill. European Sciencereview, Scientific journal. № 3...4.Vienna, 2018
7. Коровкин О.А. Анатомия и морфология растений. М.,Мир, 2008, 309 с.


**Morphological and anatomical features of the structure of *Rosa Nisami C.***


***B.Aliev, S.Mammadova***
***Azerbaijan State Agrarian University***


## SUMMARY


**Key words:** *parenchyma, xylem, root, leaf, phloem, bunch*

The article examines the morphological and anatomical features of the species *Rosa Nisami C.*, which are widespread on the territory of our republic. The *R. Nizami* is a Shrub of medium size, 120-180 cm the height, branches and twigs are covered with the same type, large, back bent, flattened, widened at the base. Leaflets are almost leathery, large, 2.5-3.5 cm long and 1.8-2.5 cm wide, obovate, narrowed at the base, dark green on the upper side, paler below. Fruits are ellipsoidal, large, 2 cm long and 1.5 cm wide, brick red or red, like pedicels covered with stalk glands.

The fruit contains tannins (4.5%), sugar (8.0-18%), pectin (2.7%), organic acids (1.3-2%), vitamin C (400-500 mg % ) *Rose* frut as a natural vitamin concentrate, containing a number of vitamins are widely used for vitamin deficiency and scurvy.

Leaf, petiole, and stem — are an xerophyte in their anatomical structure. The structure, shape and location of the conductive beams in the leaf petiole are characteristic of this species and can be used as a diagnostic feature.

The results are diagnosis of the recommended for the *Rosaceae* family.

**Морфолого-анатомические особенности структуры *Rosa Nisami C.***

***Б.Алиев, С.Мамедова***
***Азербайджанский государственный аграрный университет***

## РЕЗЮМЕ

**Ключевые слова:** *паренхима, ксилема, корень, лист, флоэма, пучок.*

В статье исследуются морфологические и анатомические особенности вида *Rosa Nisami C.*, который широко распространен на территории нашей республики. Кустарник средних размеров, 120-180 см высоты. Ветви и веточки покрыты однотипными, крупными, назад отогнутыми, плосковатыми, при основании расширенными. Листочки почти кожистые, крупные, 2,5-3,5 см длины и 1,8 -2,5 см ширины, обратнояйцевидные, при основании сужённые, с верхней стороны тёмно-зелёные, снизу более бледные. Плоды эллипсоидные, крупные, 2 см длины и 1,5 см ширины, кирпично-красные или красные, как и цветоножки покрытые стебельчатыми желёзками.

В мякоти плодов содержится дубильные вещества (4,5 %), сахара (8,0-18 %), пектин (2,7 %), органические кислоты (1,3-2 %), витамин С (400-500 мг %). Плоды шиповника как природный витаминный концентрат, содержащий ряд витаминов, широко применяются при авитаминозах и при цинге.

Лист, черешок и стебель – по анатомическому строению являются ксерофитами. Строение, форма и расположение проводящих пучков в черешке листа являются характерными для этого вида и могут быть использованы как диагностический признак.

Полученные результаты рекомендуется для диагностики семейства *Rosaceae*.

*Redaksiyaya daxilolma: 18.11.2019*

*Çapa qəbul olunma: 30.11.2019*

UOT 631.4

# ADAU-nun TƏDRİS TƏCRÜBƏ TƏSƏRRÜFATI TORPAQLARINDA EROZİYAYA MƏRUZ QALMIŞ TORPAQLARIN MÜHAFİZƏSİ

***A.M.Vəliyeva, S.F.Əliyeva, T.R.Məmmədova***

**Açar sözləri:** *eroziya, humus, torpaq, münbitlik, aqrotexniki tədbirlər, terras, mühafizə tədbirləri, ekoloji problemlər*

Dünyada qlobollaşma şəraitində bir çox neqativ proseslərin–səhralaşma,devegetasiya, torpaqların eroziyası, çirklənməsi, şorlaşması, əkinaltı qatın kipləşməsi və s. mənfi təzahürlər insan cəmiyyətinin gələcək inkişafını boyük təhlükə qarşısında qoyur. Xüsusilə, torpaqların ekoloji problemləri bütün dünyada həyacan doğurur və son illərdə dərinləşməkdə olan "aclıq böhranı" bizi bir daha məcbur edir ki, hər qarış torpaqdan səmərəli istifadə etmək üçün yalnız mütəxəssislər hazırlamaq kifayət deyil, həm də bu istiqamətdə bütün cəmiyyəti maarifləndirmək lazimdır [1].

Torpaq eroziyası respublikamızın əsasən dağ və dağətəyi rayonlarında kənd təsərrüfatına olduqca böyük ziyan vurur. Respublikamızın vahid torpaq fondunun 3.470.823 hektarı bu və ya digər dərəcədə eroziyaya məruz qalmışdır. Həmin torpaqların yayılma areallarının "Dövlət proqramı"-nda nəzərdə tutulmuş vaxt ərzində öyrənilməsi müəyyən edilməsi və müvafiq tədbirlərin hazırlanması qərara alınmışdır [2].

Ölkə prezidenti cənab İlham Əliyevin tapşırıqları təbii ki, gələcəkdə də ərzaq bolluğunun yaradılmasına xidmət edir. Heç kimə sirr deyil ki, bu gün bir çox dünya ölkələrinin əhalisi ərzaq qıtlığı ilə üzləşməkdədir. Azərbaycan xalqının gələcəkdə ərzaq qıtlığı ilə üzləşməməsi üçün mütəxəssislər, xüsusən də kənd təsərrüfatı ilə məşğul olan hər bir iş adamı eroziyaya uğramış, şoranlaşmış, şorakətləşmiş və digər səbəblərdən deqradasiyaya məruz qalmış torpaqları istifadəyə yararlı hala gətirmək üçün çalışmağa borcludur.Torpaq eroziyasının xüsusiyyətləri nə qədər diqqətlə tədqiq edilərsə,nəticədə meliorasiya işlərinin aparılması bir o qədər asanlaşar [3].

Torpaqların yuxarı qatları daha möhkəm, ana suxurları isə zəif möhkəmliyə malikdir. Qara torpaqlar başqa torpaqlara nisbətən yuyulmağa daha davamlıdırlar. Dağınıq struktursuz torpaqlar, eroziyaya tez uğrayırlar. Bitki örtüyünə malik olan torpaqlar eroziyaya davamlı olurlar. Bitki örtüyünün təsiri nəticəsində torpaq sturukturu yaxşılaşır. Onun yuyulmağa davamlığı artır və suvarma qabilliyyəti yaxşılaşır.

İnsanın təsərrüfat fəaliyyəti torpaq eroziyasının inkişafında həlledici rol oynayır.Torpaqdan düzgün istifadə edilməsi eroziyanın güclənməsinə səbəb olur. Eroziyanın baş verməsinin aydınlaşdırılması torpağın becərilməsi və eroziyadan mühafizəsi üçün daha mütərrəqi üsulların istifadə olunmasına imkan verir [4].

Torpağın səthi eroziyası x.t və k.t –na böyük ziyan vurur. Torpağın üst qatının yuyulması nəticəsində əkin sahəsinin böyük hissəsi bu və ya digər dərəcədə qaz münbitliyini itirmişdir. Bərk hissəciklərdən başqa səthi sular coxlu miqdarda suda həll olmuş qıda maddələrini sahədən aparırlar. Güclü və orta dərəcədə yuyulmuş torpaqlar çuxur. Qobu və vadiləri 1002 *m* uzunluqda zolaq şəklində haşiyələndirirlər. Yuyulmuş torpaqlarin yuyulma xarakterinə və hidroqrafik şəbəkənin uzunluğunu bilərək. Hansısa bir torpaq iqlim şəraitində bu torpaqların ümumi sahələri hesablamaq olar.Yuyulmamış torpaqlara nisbətən yuyulmuş torpaqlarda humus və başqa qida maddələri az olur.ona görədə orada k.t-ı bitkiləri əkərkən xüsusi aqrotexniki işlər tələb edilir.Belə yerlərdə gübrələrin daha yüksək və xüsusi qaydada becərmə işlərinin aparılması hökmən lazımdır. Eroziya torpaqların münbitliyinin azaltması ilə yanaşı bərk axımı gölməcilərə, nohurlara, su anbarlarının lillənməsinə və cayların kicilməsinə səbəb olur .

Beləliklə, torpaq eroziyası insanlar üçün çox təhlükəlidir,ona görədə onun qarşısının alınması ən vacib məsələdir. Elm və təcrübə torpaqların eroziyadan qorunması ücün kompleks tədbirlər işlənib hazırlanmışdır ki, onlardan ən mühümü meşə meliorasiya tədbirləridir [5].

Torpaq tərəfindən udulan atmosfer çökün-tüləri əsasən fizki buxarlanmaya və bitkilərin transprasiyasına sərf olunur.Bu suların bir hissəsidə qrunt sularına çevrilib, dərinliyə sizaraq, sukeçirməyən qatın istiqamətində işləyərək bu sular qruntda axır, ondan isə çaylar il ərzində qidalanırlar. Suyun səti axımı çox vaxt təkçə t-at baxımından əhəmiyyətsiz olmur, həm də x.t-na ziyan vurur. Suyun atran  səthi axımı suların daşmasına səbəb olur və nəticədə torpağın səthini dağıdır. Torpağın əsasən geoloji və tezləşmiş eroziyanın fərqləndirirlər.Geoloji eroziya müxtəlif  təbii səbəblərdən qrunun səthinin dağıdılması kimi başa düşülür. Müasir dövrdə belə eroziyanın tempi

aşağıdır. Xarici görnüşcə nəzərəçarpacaq deyil və torpaqəmələgəlmə prosesi ilə nəticələnir.

FAO-nun məlumatına əsasən qlobal torpaq ehtiyatlarının 33% deqradasiyaya uğramasına baxmayaraq, insanın torpağa təsiri artaraq kritik miqyaslara çatmışdır. FAO xəbərdarlıq edir ki, torpağa yeni yanaşmalar tətbiq edilməzsə, 2050-ci ilə hər adama düşən əkin və münbit torpaq sahəsi 1960-ci ildəki sahənin dörddə bir səviyyəsini təşkil edəcək [6].

"Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyasında aqrar sektorun inkişafı və əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi əsas istiqamətlərdən biri kimi qeyd olunur. Bu məqsədlə aparılan tədqiqat işi yüksək aktuallığa malikdir.

***Tədqiqat işinin məqsəd və vəzifələri:*** Tədqiqat işinin əsas məqsədi ADAU-nun Tədris Təcrübə Təsərrüfatı ərazisində eroziyaya məruz qalmış torpaqların mühafizəsidir. Bunun üçün lazımi tədbirlər planının həyata keçirilməsi əsas vəzifə kimi qarşıda durur.

***Tədqiqat işinin öyrənilmə səviyyəsi və müasir vəziyyəti:***

Torpaq eroziyası get-gedə inkişaf edən proses olduğundan ona qarşı müntəzəm mübarizə tədbirləri aparmaq lazımdır. Torpaq eroziyasına qarşı mübarizə apararkən, ilk növbədə onu əmələ gətirən səbəblər aradan qaldırılmalıdır. Çünki eroziyanın qarşısını əvvəlcədən almaq onun nəticələri ilə mübarizə aparmaqdan xeyli asandır.

Torpağı eroziyadan mühafizə etmək, dağlıq rayonlarının iqtisadiyyatını yüksəltmək və ekoloji şəraiti yaxşılaşdırmaq üçün eroziyaya qarşı aparılan mübarizə tədbirləri (təsərrüfat-təşkilati, aqrotexniki, fiziomeliorativ, hidrotexniki tədbirlər, həm çinin eroziyaya məruz qalmış torpaqların münbitliyinin yüksəlməsi) kompleks şəkildə həyata keçirilməlidir.

***Tədqiqat işinin obyekti, materialı və metodikası:***

Tədqiqat işi ADAU-nun Tədris-Təcrübə Təsərrüfatında yayılmış gəcli boz-qəhvəyi torpaqlarda aparılmışdır. Torpaq şəraitinin eroziyaya təsiri onun sukeçiriciliyi ilə müəyyən olunur və ona görə də torpağın qranulometrik tərkibindən, strukturluğundan, humus horizontlarının qalınlığından, sıxlıq və üst horizontların nəmliyindən asılıdır. Suyu asanlıqla canına hopduran torpaqlar (strukturlu, yüngül qranulometrik tərkibli, yumşaq) su eroziyasına qarşı daha dayanaqlıdır.

Torpaq şəraitinin eroziyaya təsiri onun sukeçiriciliyi ilə müəyyən olunur və ona görə də torpağın qranulometrik tərkibindən, struk turluğundan, humus horizontlarının qalınlığından, sıxlıq və üst horizontların nəmliyindən asılıdır. Suyu asanlıqla canına hopduran torpaqlar (strukturlu, yüngül qranulometrik tərkibli, yumşaq) su eroziyasına qarşı daha dayanıqlıdır.

Üst horizontlarıbərkimiş struktursuz torpaqlar eroziyaya qarşı davamsızdır. Bu baxımdan-qara torpaqlar eroziyaya qarşı davamlı, çimli-podzol və boz torpaqlar isə davamsız hesab olunurlar. Defliyasiyaya qumlu və qumsal, həmçinin səthi qurumuş struktursuz gilliсəli və gilli torpaqlar daha asanlıqla məruz qalır. Bitki örtüyü eroziyaya qarşı ən əhəmiyyətli vasitə hesab olunur. Bitki örtüyü nə qədər sıx və məhsuldar olarsa, eroziya bir o qədər zəif olar.Bitki örtüyünün torpaqqoruyucu rolu aşağıdakı səbəblərlə izah olunur. Qranulometrik tərkib torpaqların su rejiminin tənzimlənməsində, eləcə də suvarma və qurudulma meliorasiyası işlərinin həyata keçirilməsi zamanı əhəmiyyətli rol oynayır. Torpaqların quruma sürətinə onun təsiri olduqca böyükdür.Eyni zamanda qranulometrik tərkib qumsal və gilli torpaqların qeyri-bərabər tapışqanlığı və sıxlığı ilə əlaqədar olaraq torpaqbecərən alətlərin təsirindən torpağın müxtəlif dərəcəli müqavimətini müəyyən edir. Qumsal və qumluca torpaqlar asan becərilir və buna görə də yüngül adlanır,əksinə olaraq ağır gilli və gilli torpaqlar ağır adlanır.

***Tədqiqat işinin nəticələri və onların müzakirəsi:***

Apardığımız analizlər nəticəsində müəyyən etdik ki, ərazidə eroziyanın inkişafının əsas səbəbi–insan tərəfindən ərazidən, xüsusən də təbii şəraitin eroziyanın üzə çıxması üçün əlverişli olduğu torpaqlardan düzgün istifadə edilməməsidir. Ona görədə eroziyanın inkişafının sosial-iqtisadi və təbii şəraitləri fərqləndirilir. Torpaqdan təsərrüfatda düzgün istifadə etməyən zaman eroziyanın inkişafına təsir edən təbii şəraitlərə iqlim, relyef, ərazinin geoloji quruluşu, torpaq şəraiti və bitki örtüyü aid edilir. İqlim şəraitləri içərisində yağıntıların miqdarı və rejimi böyük əhəmiyyət kəsb edir. Leysan yağışları(iri damcılı yağışların intensivliyi 0,5-1 mm/dəqiqə və daha çox) və bitki örtüyünün zəif inkişaf etdiyi dövrdə uzun müddət davam edən yağışlar xüsusilə təhlükəlidir. Bitki kökləri torpaq hissəciklərini bir-birinə möhkəm bağlamaqla onların yuyulmasının və ya sovrulmasının qarşısını alır.

Humusun itirilməsi torpağın bioloji fəallığını zəiflədir: əkinçilik üçün əhəmiyyət kəsb edən faydalı mikroorqanizmlərin sayı azalır, fermentlərin fəallığı aşağı düşür. Bir sıra xassələri ilə yanaşı yuyulmuş torpaqların qida, su və bioloji rejimlərinin pisləşməsi münbitliyinin aşağı

düşməsinə səbəb olur. Ərazidə Eroziya prosesininəmələ gəlməsinə və şiddətli şəkildə getməsi nə səbəb olan amillərdən başlıcası insanın düzgün olmayan bəzi təsərrüfat fəaliyyətidir. Respublikamızın əsasən orta və yüksək dağlıq, həmçinin aşağı dağlıq və dağətəyi ərazilərində düzgün aparılmayan təsərrüfat fəaliyyəti nəticəsində bitki örtüyünün məhv edilməsi, yamacların üzü aşağı şumlanması və mal-qaranın sistem siz otarılması eroziya proseslərinin əmələ gəlməsinə səbəb olmuş dur.

Təşkilati-təsərrüfat tədbirləri eroziya əleyhinə tədbirlər planının əsaslandırılmasını, tərtibini və onun həyata keçirilməsinin təmin edilməsini nəzərdə tutur. Bura da ən əhəmiyyətli iş ərazinin eroziya əleyhinə dayanaqlığını müəyyən edən m terialların–torpaq xəritələrinin və eroziya kartoqramlarının, relyef və süxur xəri tələrinin hazırlanmasıdır.

Aqrotexniki tədbirlərə birillik və çoxillik ot bitkilərinin torpaqqoruyucu xassələrindən istifadə etmək, torpaqların eroziya əleyhinə becərmə qaydalarının tətbiqi, qarın süni surətdə tarlada saxlanması və qarərimənin tənzimlənməsi, eroziyaya məruz qalmış torpaqların münbitliyinin artırılmasının aqrokimyəvi vasitələri daxildi. Meşəmeliorativ tədbirlər müxtəlif təyinatlı meşə əkmələrinin (küləkkəsiçi, tarlaqoruyucu, yarğan bərkidən, suqoyucu və s.) yaradılmasını nəzərdə tutur. Hidrotexniki tədbirlər eroziya əleyhinə başqa tədbirlərin eroziya proseslərinin qarşısını almaq imkanı olmayan zaman tətbiq edilir. Bura yamac axınlarının qarşısını alan və tənzimləyən hidrotexniki qurğuların tikilməsi terrasların, bəndlərin salınması, xəndəklərin çəkilməsi, və s.aid edilir. Münbitliyin aşağı düşməsi yuyulmanın dərəcəsindən, məhsuldar üst qatların kənarlaşmasından və az məhsuldar aşağı qatların əkin qatına cəlb edilməsindən asılıdır. Bu zaman torpağın kimyəvi tərkibi, xassə və rejimləri pisləşir: humusun miqdarı və ehtiyatı azalır, çox vaxt keyfiyyət tərkibi pisləşir, qiada elementlərinin ehtiyatı və onaların mütəhərrik formaları azalır, torpağın fiziki və bioloji xassələri pisləşir. Eroziyaya məruz qalmış torpaqlarda torpaqların strukturluğu aşağı düşdüyündən, məsaməliyi azalır və sıxlığı artır. Bu da onun sukeçiriciliyi nin azalmasına səbəb olur ki, nəticədə səth axınlarının miqdarı artır, sututumu azalır və torpaqda bitki üçün faydalı su ehtiyatı azalır. Əksər hallarda eroziyaya məruz qalmış torpaqlarda mübadilə olunan kati onların tərkibi də pisləşir və torpağın reaksiyası dəyişir.

ADAU-nun Tədris Təcrübə Təsərrüfatı torpaqlarında eroziya prosesinin qarşısının alınması üçün mühafizə tədbirləri həyata keçirilməlidir. Birillik və çoxillik ot bitkilərinin torpaqqoruyucu xassələrindən istifadə olunması, torpaqların eroziya əleyhinə becərmə qaydalarının tətbiqi, qarın süni surətdə tarlada saxlanması və qarərimənin tənzimlənməsi, müxtəlif təyinatlı meşə əkmələrinin (küləkkəsiçi, tarlaqoruyucu, yarğan bərkidən, suqoyucu və s.) yaradılması, yamac axınlarının qarşısını alan və tənzimləyən hidrotexniki qurğuların tikilməsi, terrasların, bəndlərin salınması, xəndəklərin çəkilməsi, və s. tədbirlər həyata keçirilməsi məqsədəuyğundur.

## ƏDƏBİYYAT


1. Babayev A.H.–Torpaq keyfiyyətinin monitorinqi və ekoloji nəzarət, Bakı: 2012
2. Cəfərov M.İ. Torpaqşünaslıq. Bakı: Elm, 2005. 460 s.
3. Hüseynov A.M.,Hüseynov N.V. Torpaq kimyası. Bakı: 2012
4. Məmmədov Q.Ş.,Xəlilov M.Y.Ekologiya, ətraf mühit və insan.Bakı:"Elm",2006, s.394...400.
5. Məmmədov Q.Ş.,Xəlilov M.Y.,Məmmədova S.Z., Aqroekologiya, Bakı: "Elm", nəşr., 2011, 448 s.
6. Mustafayev X.M. Torpaq eroziyası və ona qarşı mübarizə tədbirləri. Azərbaycan dövlət nəş., Bakı: 1974.


## Protection of eroded soils in ADAU Teaching Practice Farm

*AM Valiyeva, S.F Aliyeva, T.R.Aliyeva*

## SUMMARY

**Key words:** *erosion, humus, soil, fertility, agrotechnical measures, environmental problems*

As a result of our analyzes, we found that the main cause of erosion in the area- improper use of land by the person, especially the lands where natural conditions are favorable for erosion. Therefore, the socio-economic and natural conditions for the development of erosion are different.

Natural conditions affecting the development of erosion when land is not properly used include climate, relief, geological structure of the territory, soil conditions and vegetation. Within the climatic

conditions, the amount and regime of precipitation is of great importance. The loss of humus weakens the biological activity of the soil: the number of useful microorganisms that are important for agriculture is reduced, and the enzyme activity is reduced. The deterioration of the nutritional, water and biological regimes of the soils, along with a number of properties, results in lower fertility.

The main factors contributing to the erosion and erosion in the area are some of the human activities that are not right. Erosion processes have resulted in the destruction of vegetation as a result of inadequate economic activities, slowing down slopes and systematic grazing of livestock.

**УДК 631.4**

**Защита эродированных почв в учебно-методической мастерской АДАУ**

***А.М. Валиева, С.Ф. Алиева, Т.Р.Алиева***

**РЕЗЮМЕ**

**Ключевые слова**: *эрозия, гумус, почва, плодородие, агротехнические мероприятия, экологические проблемы*

В результате нашего анализа мы обнаружили, что основная причина эрозии в районе - неправильное использование земли человеком, особенно там, где природные условия благоприятны для эрозии. Поэтому социально-экономические и природные условия развития эрозии различны.Природные условия, влияющие на развитие эрозии при неправильном использовании земли, включают климат, рельеф, геологическое строение территории, состояние почвы и растительность. В климатических условиях большое значение имеют количество и режим осадков. Потеря гумуса ослабляет биологическую активность почвы: уменьшается полезное количество микроорганизмов, важных для сельского хозяйства, а активность ферментов снижается. Ухудшение питательного, водного и биологического режимов почв, а также ряда свойств приводит к снижению плодородия.

Основными факторами, способствующими эрозии и эрозии в этом районе, являются некоторые виды деятельности человека, которые не соответствуют действительности. Эрозийные процессы привели к уничтожению растительности в результате неадекватной экономической деятельности, замедления склонов и систематического выпаса скота.

*Redaksiyaya daxilolma: 01.12.2019*

*Çapa qəbul olunma: 11.12.2019*

UOT 633.15.631.56

# ADAU-80 QARĞIDALI SORTUNUN AQROTEXNİKASI

*F.H.Qurbanov, X.Ə.Əsgərova, Ş.M.Allazov*
*Azərbaycan Dövlət Aqrar Universiteti*

**Açar sözlər:** *qarğıdalı, şum, toxum, arat, torpaq, gübrə, suvarma, azot, fosfor, kalium, kultivasiya, kombayn, silos*

Qarğıdalı xalq təsərrüfatında ərzaq texniki və yem kimi istifadə edilən bitkidir. Dünya əkinçilik sistemində qarğıdalı ən mühüm yem bitkisidir. Dünya ölkələri qarğıdalı dəninin 20%-ni ərzaq, 15-20%-ni texniki məqsədlər və yerdə qalan 3/2 hissəsini yem kimi istifadə edilir. Dənin tərkibində torpaq iqlim şəraitindən və becərmə texnologiyasından aslı olaraq 65-75% nişasta, 7,5-12% zülal 1-2% şəkər, 4-8% yağ, 1,5-2% kül elementləri, mineralduzlar və vitminlər var. Müəyyən edilmişdir ki, ərzaq və texniki məqsədlə bitkidən 146 məlumatın hazırlanmasında istifadə olunur. Qarğıdalı dənindən un, yarma, konservo, nişasta, elit spirti, pivə, qlükoza, soxaroza, sirop (şirə), yağ, mis (cu) elementi, E və C vitaminləri alınır.

Qarğıdalı qədim bitkidir.Vətəni Mərkəzi və Cənubi Amerikanın tropik və subtropik zonaları hesab olunur. Azərbaycanda XVIII əsrin axırı, XIX əvvələrində Gürcüstandan gətrilərək Qazax və Zaqatala rayonlarında becərilməyə başlamışdır.

Azərbaycan Dövlət Aqrar Universitetinin "Taxıl və paxlalı bitkilər" sahəvi laboratoriyasında alınmış və seleksiya naliyyətlərinin sınağı və mühafizəsi üzrə Dövlət kamissyasının qərarı ilə 2011-ci il rayonlaşdırılmış ADAU-80 sortu orta yetişən qrupa aid olub, vegetasiya müddəti 105-110 gündür. Sortun bitkiləri 3m-ə qədər hündürlüyündə olmaqla yarpaq sayı 18-20 ədəddir. Sort yatmaya qarşı davamlıdır. Qıcada cərgə sayı 16-18 dir. Sortun hər hektardan dən məhsuldarlığı 70-75 s-dır. ADAU-80 sortu qida maddələrinə tələbkardır, yaxşı aqrotexnika şəraitində yüksək dən və silos məhsulu verən qiymətli bitkidir. Suvarma şəraitində daha yüksək məhsul verir. Təbii otlaqların olmadığı quraqlıq ərazilərdə qarğıdalı heyvandarlığı yem bazasının möhkəmləndirilməsində əsas rol oynayır. Suvarma şəraitində becərilən bitkilər içərisində qarğıdalı əsas yer tutur.

Qarğıdalı yemi başqa bitkilərin yeminə nisbətən ucuz başa gəlir.

Qarğıdalı cərgəarası becərilən bitki kimi torpağı sonrakı bitkilər üçün alaq otlarından təmizləyən yaxşı sələfdir. Başqa dənli bitkilərə nisbətən qarğıdalı ziyanvericilərlə az zədələnir, yığım zamanı yatmır.

Qarğıdalı respublikamızda suvarma şəraitində bir ildə eyni sahədən 2 məhsul alınmasını təmin edir. Qarğıdalı bitkisi enli və uzun yarpaqları, hündür və yoğun gövdəsi ilə digər taxıllardan fəqlənir. Qarğıdalı müxtəlifcinsli, birevli çarpaz tozlanan bitkidir, onun gövdəsinin yuxarı hissəsində süpürgədə erkəkciklər, gövdə boyu yarpaqlarla əhatə olunan qıcalarda isə dişiciklər yerləşir. Qarğıdalının kökü saçaqlıdır. Bir bitkidə 8-45 yarpaq əmələ gəlir. Qarğıdalı gödəkgünlü, işıqsevər bitkidir. Sıx əkinlərdə və alaq basmış sahələrdə işıq catışmadıqda qarğıdalı bitkisində yarpaqların və qıcaların sayı xeyli azalır və məhsuldarlıq aşağı düşür.

Qarğıdalı bitkisi sələflərə çox tələbkar deyil. Dəmiyə şəraitində qarğıdalını günəbaxan, şəkər çuğunduru bitkilərindən sora əkmək məsləhət görülmür. Bir çox rayonlarda torpağa mineral və gübrələr verməklə qarğıdalını eyni sahədə 6-8 il əkirlər.

Qarğıdalı əkiləcək sahələrdə əsas şuma qədər sahəyə hesblanmış miqdarda fosfor, kalium gübrələri və peyin verilməlidir.Sonra dondurma şumu aparılmalıdır. Dondurma şumu oktyabr-noyabrda aparılmalıdır.

Şumdan sonra torpaq yaylı mala ilə hamarlanmalıdır. Ağır gilli torpaqlarda aratının keçirilməsi vacibdir.

Arat aparılmış sahələrdə səpin qabağı 6-8sm dərinlikdə becərmə aparılmalı, disklənməli, mal alanıb hamarlanmalıdır.

Səpin СУПН-8 və СПД-6 seyalkalRI ilə cərgəarası 70 sm olmaqla aparılır.

Normal və sağlam cücərtilər almaq üçün eyni ölçülü, cücərmə qabiliyyəti 100%-ə yaxın yüksək keyfiyyətli 1 nəsil ($F_1$) toxumlar səpilməlidir. Səpiləcək 1ci sinif toxumun keyfiffəti 20582-80 nömrəli DÜİST-in tələblərinə cavab verməli təmizliyi 99% laboratorya cücərmə qabiliyyəti 96% və nəmliyi 14%, ümümi cücərmə qabiliyyəti 80% olmalıdır.

Qarğıdalı yazlıq bitkidir, onun toxumu torpağın üst qatında 10-12$^0$c istilik olduqda səpmək lazımdır.

Azərbaycanda ADAU-80 qarğıdalı sortu aprelin sonu, mayın əvvələrində səpildikdə dən məhsuldarlığı 93,5 s/ha olmuşdur. Ona göre dəm-yə əkinçiliyi şəraitində ADAU-80 qarğıdalı sortunu aprelin sonu, mayın əvvəli səpilməsi məsləhət görülür.

Azərbaycanın suvarılan düzən rayonlarında qarğıdalı sortunu aprelin 10-20-də səpdikdə onu dən üçün yığdıqdan sonra yerinə yaşıl kütlə üçün təkrar qarğıdalı səpmək olar.

Qarğıdalı toxumlarını torpağın xüsusiyyətlərindən asılı olaraq 4-6sm dərinliyə basırmaq məsləhət görülür.

Qarğıdalı gübrəyə tələbkar bitkidir. Gübrə torpaq münbitliyini və bitkinin məhsuldarlığını yüksəldir. Üzvü və mineral gübrələrin mənimsənilməsini yaxşılaşdırmaq və və bitkinin bütün vegetasiya müddətində qida maddələri ilə daha daha yaxşı təmin etmək məqsədilə fosforun 50-70%-ni, kalium və üzvü gübrələrin hamısını dondurma şumunun altına fosforun yerdə qalan hissəsinin bir qismini toxumla cərgəyə, qalanını son yemləmədə vermək lazımdır.

Azot gübrəsinin 3/1bitkisinin 2-4 yarpaq, 3/2 gövdələmə fazalarında yemləmə gürəsi kimi verilməlidir.

Gübrə bitkinin vegetasiya müddətində boyunu yaş və quru maddənin toplanmasını artırır, məhsulun sturuktur göstəricilərini xeyli yaxşılaşdırır. Gübrələr qarğıdalının məhsuldarlığını 30-40% yüksəldə bilir.

Gübrələr məhsuldarlığı yüksəltməklə yanaşı dənin keyfiyyət göstəricilərini də yaxşılaşdırır.

Yüksək məhsul almağın əsas faktorlarından biridə suvarmadır.

Suvarma-arat, səpsuvar və vegetasya suvarmaları şəklində həyata keçirilir.Bir qayda olaraq qarğıdalı üçün 1300-1600m$^3$ da normada və yaz aratı; 0 mümkün olmadıqda 1200-1500m$^3$ ha sənsuvar aparılır.Qarğıdalının vegetasiya dövründə ona 4-6 dəfə hər birində 800-1200m$^3$ha normada vegetasiya suvarmaları əsas rol oynayır. Qarğıdalının vegetasiya suvarmaları 3-4 yarpaq, çiçəkləmə, süd yetişmə, fazalarında vermək lazımdır.Vegetasiyanın 2-ci yarısında verilən suvarmalar əsas suvarmalar hesab olunur.

Qarğıdalı əkinlərində vegetasiya suvarmaları şırımlarla aparılır. Şırımların 150-200m uzunluğunda olması normal hesab edilir, hər şırıma 0,6-1,2 l/san buraxılması məsləhətdir.

Suvarma şəraiyində məhsuldarlıq 25-30%ə qədər yüksəlir.

Qarğıdalı əkininə aparılan qulluq işlərindən biri cərgəaraası becərilməsidir. Qarğıdalı bitkisi vegetasiya dövründə çıxış alındıqdan sonra kultivasiya aparılmalıdır. Qarğıdalı bitkisində 3-4 dəfə kultivasiya aparılır.

1-ci kultivasiya 8,10sm, sonrakı kultivasiyalar 6-8sm dərinlikdə aparılmalıdır.Dən üçün qarğıdalı tam tam yetişkənlik fazasında kombaynlarla yığılmalıdır.(kkп-3, Ky-2, Xercon, ck-2)

Qarğıdalı silos üçün becərilərsə, yaşıl kütlə süd-mum yetişmə dövründə CHK- 2,6 və CK-5 markalı kombayınla biçilib silos basdırılmalıdır.

Qarğıdalı qıcasının dənində nəmlik 12-13% olmalıdır, nəmlik artıq olduqda onu 2-3 cərgə yığmaq şərti ilə günəş altında bir neçə gün qurutmaq lazımdır. Sonra qıcalar seçilməli, zədələnmiş, xəstə qıcalar çıxdaş edilib, heyvandarlıqda yem kimi işlədilməlidir.

## ƏDƏBİYYAT


1. İbrahimov A.Q.,Qurbanov F.H.,Hüseynov M.S., Qarğıdalının sort və hibritlər, becərilmə texnologiyası.Bakı:1017,
2. Qurbanov F.H Kınd Təsərrüfatı bitkilərinin seleksiyası və toxumçuluğu.
3. M.Hüseyinov, A.Q.İbrahimov, A.Həsənova Aqranomiyanın əsasları. Bakı: “Araz nəşr”, 2015.


## Aqrotechnology of the maizy sort “adau-80”


***F.H.Gurbanov, X.A.Asrafova*, *S.M.Alazov***

***Azerbaijan State Agrarian University***


## SUMMARY


**Key words:** *corn, plow, seed, watering plowed soil before sowing, soil, fertilizer, irrigation, nitrogen, phosphorus, potassium, cultivation, combine harvester, silage*



Corn is an ancient plant. Homeland is considered the tropical and subtropical zones of Central and South America.

By the end of the XVIII century, in the XIX century, it was brought from Georgia and began to be cultivated in Gazakh and Zagatala regions in Azerbaijan.

ADAU-80 varieties belong to the average grown group, his vegetation duration takes 105-110 days.

Variety of plants have height up to 3m and number of leaves is 18-20 units.

Sort productivity 70-75 sen per hectare. In our republic irugated corn gices 2 times same gields over 1 year. Seeds should be planted to a depth of 4-6 cm. Corn vegetation watering should be given in 3-4 leaves, flowering, milking, phases. Watering in the second half of vegetation are considered main irrigation.

**УДК 633.15:631.5**

**Агротехника сорта кукурузы “adau-80”**

***Ф.Г.Курбанов, Х.А. Ашрафова, Ш.М.Аллазов***
***Азербайджанский государственный аграрный университет***

**РЕЗЮМЕ**

**Клочевые слова:** *кукруза, растение, почвы, зернистое растение, вспашка, семена.*

Кукруза древнее растение. Родина этого растения, тропичеекие и субтропические зоны центральная и Южная Америки.

В Азербайджане XVIII-XIX век начали в первыевыращиватъкукрузу. Семена были привезены из Грузии и выращивались в Газахских и Закаталинских зонах.

Сорт “ ADAU- 80” относитя к групые средно выращиваемых, срок вегетации 105-110 дней. С каждого гектара этого сорта где высота составлеет 3.м с числом листьев 18-20 шт, урожайностъ составляет 70-75 цен.

В нашей республике в орошение каждей участок кукурузы дает урожай 2 раза за год

Семена надо сажатъ на глубину – 4-6 см.

Вегетоционные орошения кукурузы проводятся в фазах 3-4 листочков, 7-9 листочков, 13-14 листов, цветения и молочного созревание. В течение периода вегетации растения подкормливают 2-3 раза, 3-4 раза полива.

*Redaksiyaya daxilolma: 20.11.2019*

*Çapa qəbul olunma: 30.11.2019*

UOT 631.8, 633.854.78

# ÜZVİ VƏ MİNERAL GÜBRƏLƏRİN GÜNƏBAXAN BİTKİSININ MƏHSULDARLIĞINA TƏSİRİ

*G.Ə.Əliyeva, A.Ə.Əliyeva*
*Gəncə Dövlət Universiteti*

**Açar sözlər:** *günəbaxan, bitki, torpaq, açıq boz-qəhvəyi, gübrə, azot, fosfor, kalium*

Texniki bitkilər Azərbaycan Respublikasında geniş yayılmışdır. Bu səbəbdən Azərbaycanı texniki bitkilər laboratoriyası adlandırsaq heç də yanılmarıq. Respublikamızın aparıcı texniki bitkisi pambıqdır. Bundan sonrakı yerləri tütün, şəkər çuğunduru, günəbaxan, biyan, efir yağlı qızılgül və s. tutur.

Günəbaxan MDB ölkələrinin əsas yağlı bitkisidir və yağlı bitkilər əkinlərinin 75 %-ni tutur. Toxumlarının tərkibində 47-50% yağ vardır. Günəbaxanın müasir sortlarının toxumlarının tərkibində isə 50-54% açıq-sarı, yarımquruyan, yaxşı tamlı ərzaq yağı vardır. Günəbaxan yağı çox yayılmış bitki yağlarındandır və ondan marqarin istehsalında geniş istifadə olunur. Bundan başqa, konserv sənayesində, əlif hazırlığında, sabun bişirilməsində, amin turşusu və stearin istehsalında da geniş tətbiq edilir. Eyni zamanda lak-boyaq, göndəri aşılama, ətriyyat, toxuculuq və s. sənaye sahələrində istifadə olunur. Günəbaxan toxumlarının qabığından xammal kimi sənayedə heksoz və pentoz şəkərlərinin alınmasında istifadə olunur. Heksoz şəkərlərindən spirt, pentoz şəkərindən furfurol alınır ki, bundan da süni lif, plastmas, qırılmayan şüşələr və s. alınır. Eyni zamanda sənayedə müşəmbə (linoleum), su keçirməyən parçalar və s. alınır. Yağlı bitkilər həm də bitki zülalı mənbəyidirlər. Toxumların yağı emal edilərkən qalan jmıx və cecədə 35-40 % zülal olur. Yağın emalından sonra qalan cecənin bir sentneri 102 yem vahidinə yaxud 3,6 kq proteinə bərabərdir. Qara şabalıdı torpaqlar və boz meşə torpaqları günəbaxan yetişdirmək üçün yararlıdır. O, qumsal və şoran torpaqlarda və gec qızan ağır mexaniki tərkibli torpaqlarda pis böyüyür.

Günəbaxanın yaxşı inkişaf edən 2-3 m və çox dərinliyə çatan mil kök sistemi vardır. Bu bitki, quraqlığa davamlı sayılsa da, yüksək məhsul əldə edilməsindən ötrü torpaqda müəyyən miqdarda rütubət olmasını tələb edir. Onun sudan istifadə əmsalı 600 təşkil edir.

Günəbaxanın yüksək məhsulu payızlıqlardan sonra, qarğıdalı və taxıl-paxlalılardan sonra əldə edilir. Yazlıq buğda, vələmir və kartof qarğıdalı üçün pis sələflər deyil. Günəbaxanın məhsulun formalaşması üçün istifadə etdiyi qida elementlərinin ümumi miqdarı intensiv sortların məhsuldarlıq hektarda 40-60 sentnerə çatanda xeyli böyük olur. Qida maddələrinin çıxarılması konkret torpaq iqlim şəraitləri, sortun məhsuldarlığı, həyata keçirilmiş aqrotexniki və təşkilati tədbirlərlə müəyyən edilir. Digər tarla bitkilərinə nisbətən günəbaxan çoxlu miqdarda azot və fosfor çıxardır, kaliumun çıxarılmasına görə isə onun bərabəri yoxdur. 20 sen/ha miqdarında toxum əmələ gəlməsi üçün o, 120 kq/ha azot, 50-fosfor və 250-300 kq/ha kalium istifadə edir. Mühit amilləri və qidalanma şəraitindən asılı olaraq bu göstəricilər xeyli dəyişə bilər.

Son illərdə əkinçilik institutunda bir sıra məhsuldar sortlar yaradılmışdır ki, günəbaxanın Yaxşılaşdırılmış VNİİMK-883 sortu da bu qəbildəndir. Bu məqsədlə də biz öz təcrübəmizdə Yaxşılaşdırılmış VNİİMK-883 sortundan istifadə etməyi və müxtəlif qida maddələrinin onun biokimyəvi xüsusiyyətlərinə, məhsuldarlığına təsirini öyrənməyi qarşımıza məqsəd qoymuşuq.

**Tədqiqatın metodikası.**Torpaqda gedən proseslərin elmi təhlili, qanunauyğunluqların müəyyənləşdirilməsi və elmi əsaslarla proqnozların verilməsində metodologiyanın tətbiqi əsas rol oynayır. Bu baxımdan tədqiqat üsullarının seçilməsi məqsaədəuyğun hesab edilir. Bunu nəzərə alaraq tədqiqat dövründə açıq boz-qəhvəyi torpaqlarda analitik təhlillər üçün aşağıdakı üsullardan istifadə edilmişdir.

Torpaq kəsimləri klassik üsulla qoyulmuş, genetik qatlar müəyyənləşdirilərək nümunələr götürülmüşdür. Çöl tədqiqatları zamanı torpağın eroziyaya uğrama dərəcəsinin təyinində S.S.Sobolyev və K.Ə.Ələkbərov üsullarından istifadə edilmişdir. Torpaqda qaranulometrik tərkib N.A.-Kaçinski üsuli ilə, humus İ.M. Tyurin üsulu ilə, ümumi azot Kyeldal, karbonatlar Şeybler üsulu ilə təhlil edilmişdir. Torpağın pH-ı pH-metrlə, elektrik keçiriciliyi Ec cihazında, hiqroskopik nəmlik termik üsulla (torpaq 105°C hərarətdə qurudulur), ümumi kalium AAS (Atomic Absorbtion Spektrometr) cihazında təyin edilmişdir [4].

Təcrübə 2020-2022-ci illərdə Samux rayonunun Ziyadlı kəndi ərazisində aparılacaq, təcrübədə variantın sayı 5, təkrarların sayı isə 3 götürülməsi nəzərdə tutulmuşdur. Mineral gübrələr-

dən ammonium şorası (azot-34%), adi superfosfat ($P_2O_5$-20%), kalium sulfat ($K_2O$-50%) tətbiq etməyi planlaşdırmışıq [1].

**Təhlil və müzakirə.** Təcrübə qoyulacaq torpaqlarda müvafiq analizlər aparılıb və aşağıdakı cədvəllərdə analizinin nəticələriöz əksini tapmışdır.Torpağın qranulometrik tərkibi onun ümumi fiziki və fiziki-mexaniki xassələrini formalaşmasına, su, hava və istilik xassələrinə, oksidləşmə-bərpa şəraitinə, uduculuq qabiliyyətinə, torpaqda humusun, kül elementlərinin və azotun toplanmasına əhəmiyyətli təsir göstərir. [4]

Analizlərin nəticələrinə əsasən açıq boz-qəhvəyi torpaqlar qranulometrik tərkibcə ümumilikdə 0 – 30 sm-lik qatda əsasən ağır gillicəlidir, belə ki, 0-10 sm-lik qatda fiziki gilin miqdarı – 59,02 %, 10-20 sm-lik qatda – 58,35%, 20-30 sm-lik qatda isə - 37,95% olmuşdur [5].

Apardığımız analizlər nəticəsində müəyyən etdik ki, (cədvəl 1) ərazidə yerləşən açıq boz-qəhvəyi torpaqlar qranulometrik tərkibcə əsasən 30-40 sm-lik üst qatda ağır gillicəli, aşağı 50-60 sm qatda isə gillicəlidir.

.

Cədvəl 1.

Samux rayonu açıq boz-qəhvəyi torpaqlarının qranulometrik tərkibi

| Dərinliks m-lə | Hissəciklərin miqdarı, %-lə, ölçüsü, mm-lə | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | 1-0,25 | 0,25-0,05 | 0,05-0,01 | 0,01-0,005 | 0,005-0,001 | <0,001 | <0,01 |
| 0-10 | 2,33 | 13,25 | 26,44 | 16,02 | 30,08 | 12,89 | 61,73 |
| 10-20 | 4,85 | 21,79 | 15,04 | 9,92 | 20,16 | 28,24 | 58,32 |
| 20-30 | 3,27 | 47,43 | 11,28 | 8,48 | 14,96 | 14,48 | 37,92 |
| 30-40 | 2,98 | 23,42 | 15,94 | 11,12 | 25,12 | 21,92 | 58,16 |
| 40-50 | 7,04 | 15,68 | 12,64 | 18,56 | 24,00 | 22,08 | 64,64 |
| 50-60 | 3,96 | 17,16 | 17,76 | 18,16 | 16,08 | 26,28 | 61,12 |

2 nömrəli cədvəldə hiqroskopik nəmlik, humus, ümumi azot, karbon qazı, elektrik keçiriciliyi, mübadiləvi kalium, mütəhərrik fosfor və pH göstəriciləri təyin edilmişdir. Aşağı qatlara doğru getdikcə hiqroskopik nəmlik, humus, ümumi azot, mübadiləvi kalium və mütəhərrik fosforun miqdarı azalmış, karbon qazının və elektrik keçiriciliyinin miqdarı artmış, pH göstərisi isə üst qatda 7,5, aşağı qatda isə 6,5 olmuşdur. Cədvəldən aydın olur ki, bu torpaqlar qida elementləri ilə zəif təmin olunmuş, pH göstəricisi neytrala yaxındır. Günəbaxan bitkisi isə qida maddələrinə tələbkar olduğu üçün, bu torpaqlara üzvi və mineral gübrələrin verilməsi məqsədəuyğundur.

Cədvəl 2.

| **Dərinlik, sm** | **0-10** | **10-20** | **20-30** |
|---|---|---|---|
| **Hiqroskopik nəmlik, %** | 6.9 | 5.5 | 4.87 |
| **Humus,%** | 2.5 | 1.8 | 1,1 |
| **Ümumi azot,%** | 0.16 | 0.14 | 0.11 |
| **$CO_2$, %** | 14,8 | 16,3 | 19,1 |
| **EC, mS** | 0,26 | 0,31 | 0.33 |
| **Mübadiləvi kalium, $K_2O$, mq/kq** | 125.3 | 103.6 | 97.3 |
| **Mütəhərrik fosfor, $P_2O_5$, mq/kq** | 11.92 | 10.78 | 2.98 |
| **pH, su çəkintisində** | 7.5 | 7.0 | 6.5 |

## Nəticə

Apardığımız elmi-tədqiqat işinin nəticəsi kimi deyə bilərik ki, Respublikamızın Qərb bölgəsinin açıq boz-qəhvəyi torpaqlarında qranulometrik tərkib, hiqroskopik nəmlik, humus, ümumi azot, karbon qazı, elektrik keçiriciliyi, mübadiləvi kalium, mütəhərrik fosfor və pH göstəriciləri təyin edilmişdir. Bu torpaqlar qranulometrik tərkibcə əsasən 30-40 sm-lik üst qatda ağır gillicəli, aşağı 50-60 sm qatda isə gillicəlidir. Aşağı qatlara doğru getdikcə hiqroskopik nəmlik, humus, ümumi azot, mübadiləvi kalium və mütəhərrik fosforun miqdarı azalmış, karbon qazının və elektrik keçiriciliyinin miqdarı artmış, pH göstərisi isə üst qatda 7,5, aşağı qatda isə 6,5 olmuşdur. Cədvəldən aydın olur ki, bu torpaqlar qida elementləri ilə zəif təmin olunmuş, pH göstəricisi neytrala yaxındır. Günəbaxan bitkisi isə qida maddələrinə tələbkar olduğu üçün, bu torpaqlara üzvi və mineral gübrələrin miqdarını düzgün tətbiq etmək lazımdır.

## ƏDƏBİYYAT

1. Hacı A.M.Hüseynov, N.V.Hüseynov, K.Y.Məmədova "Aqrokimya", Bakı:2018

2. Минеев В.Г. Агрохимия. М., изд-во Московского Университета, 2006, с.718.
3. Babayev A.H., Babayev V.A., “Ekoloji kənd təsərrüfatının əsasları”. Qanun nəş., 2011, s. 543.
4.Məmmədov Q.Ş. Torpaqşünaslıq və torpaq coğrafiyası, Bakı: 2005, 383 s.
5. В.Д.Муха, Д.В.Муха, А.Л.Ачкасов «Практикум по агропочвоведению» М.:«Колос», 2010, с. 128...129, 296...298.
6. Glover, J.D.; Reganold, J.P.; Andrews, P.K. Systematic method for rating soil quality of conventional organic and integrated apple orchards in Washington State. *Agric. Ecosys. Environ.* 2000, *80*, 29...45.
7. Tu,C.;Ristaino, J.B.; Hu, S. Soil microbial biomass and activity in organic tomato farming systems: Effects of organic inputs and straw mulching. *Soil Biol. Biochem*. 2006, *38*, 247...255.
8. Məmmədov Q.Y., İsmayılov M.M. Bitkiçilik, Bakı: Şərq-Qərb, 2012, 356 s.
9. Hümbətov H.S., Xəlilov X.Q. Texniki bitkilər. Bakı: Aytac, 2010, 415 s.
10. www.stat.gov.az

**Effect of organic and mineral fertilizers on sunflower crop productivity**

***G.A.Aliyeva***
***Azerbaijan State Agricultural University***
***A.A.Aliyeva***
***Ganja State University***

**SUMMARY**

**Key words:** *sunflower, plant, soil, light grey-brown, fertilizer, nitrogen, phosphorus, potassium*

As a result of our research, we can say that, granulometric composition, hygroscopic moisture, humus, total nitrogen, carbon dioxide, electrical conductivity, exchange of potassium, phosphorus and pHare determined in light gray-brown soils (alfisols) in the western region of the Republic. These soils, in terms of granulometric composition, are mainly heavy clay in the upper layer of 30-40 cm, and clay in the lower 50-60 cm.As moving on the down layers the amount of hydroscopic humidity, humus, total nitrogen, exchangeable potassium and active phosphorus decreased, the ammount of carbon dioxide and electrical conductivity increased, the pH was 7.5 in the upper layer and 6.5 in the bottom. The table shows that these soils are poorly supplied with nutrients and the pH is close to neutral.

**Влияния биогумуса, органических и минеральных удобрений на урожайность пшеницы**

***Г.А.Алиева***
***Азербайджанский государственный аграрный университет***
***А.А.Алиева***
***Гянджинский государственный университет***

**РЕЗЮМЕ**

**Ключевые слова:** *подсолнух, растения, земля, светло серо-коричневый, удобрение, азот, фосфор, калий*

По результатам наших исследований можно сказать, что в западном регионе республики на светло серо-коричневый почвахустановлены гранулометрический состав, гигроскопическая влажность, гумус, общий азот, углекислый газ, электропроводность, обмен калия, фосфора и pH. Эти почвы, в основном в верхнем слое 30-40 см, а в нижнем 50-60 смпо гранулометрическому составу. По мере продвижения к нижним слоям количество водорода, гумуса, общего азота, обмена веществ и калия уменьшилось, диоксид углерода и электропроводность увеличились, а pH на верхнем слое составил 7,5, а дно - 6,5. Из таблицы видно, что эти почвы плохо снабжаются питательными веществами, а pH близок к нейтральному. Поскольку растениям подсолнечника требуются питательные вещества, важно вносить в эти земли необходимое количество органических и минеральных удобрений.

*Redaksiyaya daxilolma: 29.01.2020*

*Çapa qəbul olunma: 05.02.2020*

UOT 633.1:631.82

# PAYIZLIQ BUĞDANIN MƏHSULDARLIĞINA ÜZVİ VƏ MİNERAL GÜBRƏLƏRİN TƏSİRİ

***R.X.Quliyeva***
***Azərbaycan Dövlət Aqrar Universiteti***

**Açar sözlər:** *peyin, mineral gübrələr, torpağın üzvi maddəsi*

Payızlıq buğda yüksək keyfiyyətli qida olan dən məhsulu verməklə respublikamızda becərilən taxıl bitkiləri arasında ən çox xüsusi çəkiyə malikdir. Məhsuldarlığına görə çox böyük potensial imkanlara malik olan bu bitkinin nəzəri tədqiqatlar əsasında optimal qidalanma sistemini işləməklə, yüksək keyfiyyətli və maksimum məhsulun formalaşmasını reallaşdırmaq mümkündür.

Məlumdur ki, buğda bitkisi öz inkişafını toxumun cücərməsindən başlayır. Torpağa düşən dənlərin şişməsi ilə fermentlərin fəaliyyəti güclənir. Amilaza, maltaza və invertazanın təsiri altında mürəkkəb azotsuz sadə birləşmələrin çevrilməsi başlayır ki, bu da dənin rüşeymi tərəfindən boy artımı üçün istifadə olunur. Proteolitik fermentlər toxumda olan zülal maddələrini amid azotu və amin turşularına qədər parçalayır, bu da öz növbəsində cavan bitkilərin boy prosesində intensiv olaraq, zülalların sintezinə və digər üzvi birləşmələrin əmələ gəlməsinə sərf olunur. Azotlu birləşmələrin parçalanması üçün ən yaxşı şərait +14-16C hesab edilir. Bu proseslərdə fosfor turşusu mühüm rol oynayır. O, nəinki enerji mənbəyidir (ATF), həm də sulu-karbonların mübadiləsində ən vacib element hesab edilir ki, bu da nuklein turşularının (DNK, RNK), saxarofosfatların və digər mürəkkəb üzvi birləşmələrin toplanmasına səbəb olur. Bu bir daha payızlıq buğdaya səpinlə birlikdə cərgələrə dənəvərləşdirilmiş superfosfatın verilməsinin labüd olmasını sübut edir.

Buğda bitkisi torpağın turş reaksiyasına çox həssasdır. Torpaq məhlulunun reaksiyası neytrallığa yaxın (pH 6-7) olanda o yaxşı bitir, buna görə turş çimli-podzol torpaqlarda əhəngləmə ona müsbət təsir göstərir [2].

Payızlıq buğda kollanma və boruya çıxma zamanı qida elementlərini çox güclü sərf edir. Azot, fosfor və kaliumun əsas hissəsi buğdaya bu müddətdə daxil olur.Cücərmədən kollanmanın sonuna qədər azot və kül elementlərini buğdanın nisbətən az sərf etməsinə baxmayaraq, bu dövrdə bitkilər həmin elementlərin, xüsusən fosforun çatışmazlığına çox həssas olurlar. Payız dövründə fosfor-kalium qidasının artırılması buğdaya yaxşı təsir edir. Çünki bu gübrələr kök sisteminin güclü inkişaf etməsinə və bitkilərdə şəkərin toplanmasına səbəb olmaqla, payızlıq buğdanın qışa dözümlülüyünü yüksəldir. Payız dövründə buğdanın azotla çox qidalandırılması azotlu maddələr sintezini gücləndirir və şəkərin miqdarını azaldır. Sintetik proseslər belə istiqamət alanda buğda qışa az dözümlü olur və qışlama dövründə çox tələf olur. Payız dövründə buğdanın mineral elementlərlə təmin olunması bitkilərin qışı yaxşı keçirə bilməsi və yüksək məhsul verməsi üçün zəruri şərtdir [5].

Payızlıq buğdanın 1 hektardan yığılan 25 sentner dənində və 60 sentner küləş məhsulunda təxminən 105 kq N, 35 kq $P_2O_5$ və 70 kq $K_2O$ olur. Başqa dənli bitkilərlə müqayisədə buğda qida rejiminə daha çox tələbkardır. Onun bu tələbatı kök sisteminin çətin həll olan birləşmələrdən qida elementlərinin mənimsəmək qabiliyyətinin də nisbətən az olması ilə izah edilir [3].

Bu məqsədlə də biz öz təcrübəmizdə Aran sortundan istifadə etdik və müxtəlif qida maddələrinin onun biokimyəvi xüsusiyyətlərinə, məhsuldarlığına təsirini öyrəndik.

**Tədqiqatın metodikası.** Təcrübə Gəncə Regional Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzinin ərazisində aparılmışdır. Gübrələr buğda məhsulunun keyfiyyətinin yaxşılaşdırılmasında misilsiz rol oynayır.Tərkibində zülalın miqdarını artırmaqla yüksək keyfiyyətli buğda dəni istehsal etmək üçün azotlu gübrələr xüsusi əhəmiyyətə malikdir. “Buğdanın keyfiyyəti” anlamının onlarca əhəmiyyəti vardır ki, burada əsasən dənin kimyəvi tərkibi xarakterizə olunur. Məsələn, dənin tərkibində zülalın, nişastanın, sellülozun, həll olan sulukarbonların, yağların, kül elementlərinin və s. miqdarı bir başa onun keyfiyyət göstəriciləridir. Bu həm də onun üyüdülməsindən əldə edilən unun çörək bişirmə keyfiyyətinə və s. texnoloji vasitələrini ehtiva edir. Bütün bu göstəricilər bir-biri ilə qarşılıqlı əlaqədar olub, buğda ununun qidalılıq dəyərini və keyfiyyətini müəyyən edir [1].

Dənin ən mühüm fiziki göstəricilərinə natura kütləsi, şüşəvarilik, 1000 ədəd dənin çəkisi aiddir.

Natura kütləsi–1 litr dənin kütləsinin qramlarla ifadəsidir. Dənin normal natura kütləsi 800 qram hesab edilir. Yüksək natura çəkili dənin un çıxımı artıq olur, tərkibində endosperm qabıq çıxarına nisbəən çox kütləvi olur.

1000 ədəd dənin kütləsi–dənin dolğunluğunu xarakterizə edən əsas göstəricidir. Buğdanın

sortundan və növündən asılı olaraq 1000 dənin kütləsi 20-50 qram arasında tərəddüd edir.

Şüşəvarilik dənin tərkibinin zənginliyini xarakterizə edir. Belə dənlər yüksək zülallığı ilə fərqlənir. Bu dənin unu çörəkbişirmədə yüksək keyfiyyəti ilə seçilir.

Zülallılıq–buğda dəninin ən mühüm keyfiyyət göstəricisidir. Bütün bu qeyd edilən keyfiyyət göstəriciləri buğda göstəriciləri buğda bitkisinin gübrələmə sisteminin düzgün müəyyən edilməsindən birbaşa asılıdır. Gübrələrin əsas şum altına, səpinlə birlikdə və yemləmələrlə verilməsinin optimallaşdırılması yüksək keyfiyyətli dən məhsullarının alınması ilə nəticələnir [5].

Mineral gübrələrdən ammonium şorası (azot–34%), adi superfosfat ($P_2O_5$–20%), kalium sulfat ($K_2O$ – 50%) tətbiq etdik Gübrələrin başqa formaları – ammofos, nitrofoska, nitroammofoska və başqaları səmərəli olsa da, superfosfatdan üstün deyil [4].

Respublikamızın müxtəlif torpaq-iqlim şəraitlərində aparılmış təcrübələrin nəticələri göstərir ki, fosfor gübrəsinin payızlıq buğdanın cərgə aralarına verilməsi daha səmərəlidir.

Payızlıq buğdaya yazda əlavə gübrə verilməsinin gecikdirilməsi onun səmərəliliyini azaldır. Bununla əlaqədar olaraq payızın axırlarında davamlı şaxtalar başlanıb, bitkilərin böyüməsi dayandıqda azot verilməsi fermerləri maraqlandırır. Lakin bu yalnız relyefi hamar olan şəraitdə mümkündür. Çünki maili ərazilərdə yazda əriyən qar suları yamaclardan gübrələri yuyub apara bilər [1].

Peyin torpağın mühüm aqronomiki xassələrinə hərtərəfli təsir göstərir və ondan düzgün istifadə etdikdə kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı kəskin artır. Hər şeydən əvvəl bu gübrə bitkilər üçün qidalı maddələr mənbəyidir. Peyinlə birlikdə bitkilərə lazım olan bütün qidalı elementlər (makro və mikroelementlər) torpağa daxil olur. Bütün bunlar peyinin birinci dərəcəli qiymətli gübrə olduğunu göstərir.

Peyin torpaqda mütəhərrik qida elementlərinin ehtiyatını tamalayaraq, torpaq-bitki sistemində makro və mikroelementlərin dövranını yaxşılaşdırır.Torpaqdakı qida maddələrinin və verilən mineral gübrələrin xeyli hissəsi bitkilər tərəfindən istifadə olunur, sonra heyvanlar yem kimi qəbul edir və peyin şəkilində torpağa qaytarılır. Ona görə də heyvandarlıq sahəsindən toplanan üzvi gübrələr əkinçilikdə qida maddələrinin balansını müntəzəm yaxşılaşdıraraq, məhsuldarlığı və onun keyfiyyətini yüksəldir.

Torpağa verilən peyin konkret olaraq üç əsas funksiyanı yerinə yetirir: 1) torpağı qida maddələri ilə təmin edir. 2) torpağın fiziki-kimyəvi, fiziki-mexaniki xüsusiyyətlərini yaxşılaşdırır. 3) torpaqda gedən mikro-bioloji proseslərin fəallığını yüksəldir) [1,3].

Torpaq kəsimləri klassik üsulla qoyulmuş, genetik qatlar müəyyənləşdirilərək nümunələr götürülmüşdür. Torpaqda humus İ.M. Tyurin üsulu ilə, ümumi azot Kyeldal, karbonatlar Şeybler, qaranulometrik tərkib N.A.Kaçinski üsulu ilə təhlil edilmişdir. Torpağın pH-ı pH-metrlə, elektirik keçiriciliyi Ec cihazında, hiqroskopik nəmlik termik üsulla (torpaq 105ºC hərarətdə qurudulur), ümumi kalium, mikroelementlər AAS (Atomic Absorbtion Spektrometr) cihazında təyin edilmişdir [6].

**Təhlil və müzakirə.**Ümumiyyətlə, payızlıq buğdanın gübrələmə sistemi, bütün başqa bitkilər kimi, üç üsulla başa çatır: əsas, səpinqabağı və yemləmələrlə gübrələmə.

Əsas gübrələmədə qida maddələrinin norması və nisbəti xeyli dərəcədə sələf bitkilərindən asılıdır. Çünki o, torpağın qida rejiminin göstəricisi olmaqla yanaşı, həm də gübrələrin diferensial doza və nisbətlərini müəyyən etməyə kömək edir. Bu isə əhəmiyyətli dərəcədə bitkilərin payız dövründəki inkişafına kömək etməklə, onların qışlamasına və məhsuldarlığına da öz müsbət təsirini göstərir.

Bitkili herikdən və müxtəlif sələf bitkilərindən sonra əkilən payızlıq buğdaya səpindən əvvəl fosforlu və kaliumlu gübrələrlə, kiçik doza ilə azotlu gübrələri də vermək məqsədə uyğundur. Çünki o payız dövründə bitkilərin yaxşı böyüməsinə səbəb olur.

Beləliklə, bitkili heriklərdən və qeyri-herik sələflərdən sonra əkilən payızlıq buğdanın gübrələmə sisteminə səpindən əvvəl fosforlu-kaliumlu gübrələrin və kiçik azot normasının verilməsi, səpin zamanı cərgələrin superfosfatla gübrələnməsi və azotla yemləmələr daxil olur. Belə olduqda bitkilər onların sələflərinin altına verilmiş peyinin sonrakı təsirindən də istifadə edirlər.

Öz məhsulunu formalaşdırmaq üçün payızlıq buğdanın qida maddələrinə tələbatı (1 ton məhsul üçün kq ilə) azot–37, fosfor–13, kalium 23-dür.

Payızlıq buğdanın azota tələbatı iki mərhələdə güclü hiss olunur:

1) boyun artması başladıqda; 2) dənin dolmağa başlamasında.

İlkin mərhələdə azot çatışmazlığı məhsulun azalmasına, ikinci mərhələdə isə dənin keyfiyyətinin pisləşməsinə, xüsusilə zülalın az toplanmasına səbəb olur.

Kalium boyun artmasının birinci günündən başlayaraq, çiçəkləməyə qədər torpaqdan bitkilərə daxil olur. Bu elementə ən çox tələbat boruya çıxma və və sünbülləmə fazasında müşahidə olunur.

Payızlıq buğdanın fosfora olan tələbatı çıxışdan başlayaraq sünbülləməyə qədər olan müddətdə qeydə alınmışdır. Payızlıq buğda inkişafının ilk dövründə torpaq fosforun çatışmazlığına çox həssas olur. Bu zaman zəif inkişaf etmiş kök sistemi torpağın çətin həll olan birləşmələrindən fosforu mənimsəməyə qabil olmur. Səpin zamanı cərgələrə superfosfat verilməsi bu gübrədən istifadə olunmasınının çox səmərəli üsuludur. Superfosfat cərgələrə verildikdə sonralar bitkilər torpağın və əsas gübrənin qida maddələrindən yaxşı istifadə edirlər. Bu gübrənin cərgələrə verilməsində, onun başqa üsullarla tətbiqinə nisbətən, məhsul artımı xeyli yüksək olur.

Payızlıq buğdanın qidalanma şəraitini və su ilə təmin olunmasını kompleks aqrotexniki tədbirləri düzgün həyata keçirməklə də yaxşılaşdırmaq olar. Bu tədbirlərə yaxşı sələf bitkisi seçmək, fərqli olaraq becərmələri aparmaq, gübrələrin optimal doza və nisbətlərini müəyyənləşdirmək, səpin vaxtını düzgün seçmək və s. aiddir.

Normal səpin aparılıb, vaxtında çıxış alınarsa, eyni zamanda torpaqda kifayət qədər rütubət və qida maddələri olarsa, payızlıq buğdanın cücərtilərinin alınmasından 14-15 gün sonra kollanma fazası başlaya bilər. Əgər bütün bu şəraitlər qaydasında olarsa, kollanma əsasən payızda başa çata bilər və bitkilərin kök sistemi vaxtında kök sistemi vaxtında formalaşar və artıq payız fəslində kök sistemi torpağın 40 sm dərinliyinə qədər nüfuz edə bilər.

Tədqiq edilən ərazidə qatlar üzrə torpaq nümunələrinin nəticələri 1 saylı cədvəldəki kimi olmuşdur.

**Cədvəl 1**

**Torpaq analizlərinin nəticələri**

| Dərinlik, sm | 0-20 | 20-30 | 30-40 |
|---|---|---|---|
| Hiqroskopik nəmlik, % | 7.2 | 6.8 | 5.6 |
| Humus,% | 2.1 | 1.6 | 0,9 |
| Ümumi azot,% | 0.18 | 0.15 | 0.13 |
| $CO_2$, % | 18,7 | 19,1 | 23,9 |
| EC, mS | 0,32 | 0,39 | 0.47 |
| Mübadiləvi kalium, $K_2O$, mq/kq | 136.1 | 98.52 | 83.9 |
| Mütəhərrik fosfor, $P_2O_5$, mq/kq | 10.2 | 8.6 | 1.62 |
| pH, su çəkintisində | 7.1 | 6.9 | 6.8 |

1 nömrəli cədvəldə hiqroskopik nəmlik, humus, ümumi azot, karbon qazı, elektrik keçiriciliyi, mübadiləvi kalium, mütəhərrik fosfor və pH göstəriciləri təyin edilmişdir. Aşağı qatlara doğru getdikcə hiqroskopik nəmlik, humus, ümumi azot, mübadiləvi kalium və mütəhərrik fosforun miqdarı azalmış, karbon qazının və elektrik keçiriciliyinin miqdarı artmış, pH göstərisi isə üst qatda 7,1, aşağı qatda isə 6,8 olmuşdur. pH göstəricisi neytrala yaxındır.Bu torpaqlarda Ec 0,32-0,47 arasında dəyişir, bu o deməkdir ki, heç bir duzluluq yoxur. Cədvəldən aydın olur ki, bu torpaqlar qida elementləri ilə zəif təmin olunmuşdur. Bu torpaqlarda üzvi və mineral gübrələrin norma əsasında verilməsinə ehtiyac vardır.

## ƏDƏBİYYAT


1. Hacı A.M.Hüseynov, N.V.Hüseynov, K.Y.Məmmədova "Aqrokimya", Bakı:2018
2. Məmmədov Q.Ş Torpaqşünaslıq və Torpaq coğrafiyasının əsasları (Ali məktəblər üçün dərslik), Bakı: "Elm", 2007, s 661
3. Zamanov P.B. Torpaq və bitkilərin əsas qida maddələrinə tələbatı. Torpaqşünaslıq və aqrokimya əsərlər toplusu. XX cild, Bakı: "Elm", 2011, s. 367...371
4. Zamanov P.B. Qida elementlərinin və gübrələrin torpaq xassələrinə və bitkilərin məhsuldarlığına təsirinin aqrokimyəvi əsasları. Bakı:Elm, 2017, s. 266
5. Plant nutrition for food security. A guide for integrated nutrient management. FAO Fertilizer and Plant Nutrition Bulletin No 16. Rome, 2006., 368 pp
6. Glover, J.D.; Reganold, J.P.; Andrews, P.K. Systematic method for rating soil quality of conventional organic and integrated apple orchards in Washington State. *Agric. Ecosys. Environ.* 2000, *80*, 29...45.

### Influence of organic and mineral fertilizers on the yield of winter wheat

***R.Kh.Guliyeva***
***Azerbaijan State Agrarian University***

### SUMMARY

**Key words:** *manure, mineral fertilizers, soil's organic matter*

As a result we can say that, delivery of organic and mineral fertilizers in time plays a positive role in increasing the crop of autumn wheat. So that, the optimization of giving the fertilizer under the main plow, at the sowing time and with feeding, results in getting high quality grain products. In general, early spring feedings are of great importance for enhancing the productivity of winter plants. Because, during the winter plants, additional fertilization with nitrogen fertilizers of the plants stimulates their growth, as a result, they use water collected from the soil in the autumn-spring period more intensively. Besides this, in the early spring, additional fertilization of the plants enables them to effectively use the nutrients of the soil.

Getting such higher yields from the nitrogen feedings in early spring is explained by the fact that plants begin to grow in the spring and at this time they are in great demand for nitrogen, but because of low temperatures, microbiological processes in the soil are weak and therefore nitrogen is poorly mobilized.

### Влияние органических и минеральных удобрений на урожайность озимой пшеницы

***Р.Х.Кулиева***
***Азербайджанский государственный аграрный университет***

### РЕЗЮМЕ

**Ключевая слова:** *навоз, минеральные удобрения, органическое вещество почвы.*

В результате мы можем сказать что, своевременная доставка органических и минеральных удобрений играет позитивную роль в увеличении производства осенней пшеницы. Таким образом, оптимизация удобрения под основным вспашком, во время посева и кормлением приводит к приобретению высококачественных зерновых продуктов. В целом, для повышения продуктивности озимых растений ранние яровые кормления имеет большое значение. Потому что во время озимые дополнительное удобрение растений азотными удобрениями усиливает их рост, в результате они более интенсивно используют воду, собранную из почвы в осенне-весенний период. Кроме того, ранней весной дополнительное удобрение растений позволяет им эффективно использовать питательные вещества почвы.

Получение такие высокие урожаи при подаче азота ранней весной, объясняются тем, что растения начинают расти весной, когда они они особенно нуждаются в азоте, но из-за низких температур микробиологические процессы в почве слабы и, следовательно, азот слабо мобилизуется.

*Redaksiyaya daxilolma: 31.01.2020*

*Çapa qəbul olunma: 06.02.2020*

UOT 620. 003.

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ŞƏRAİTİNDƏ TƏRƏVƏZ NOXUDU BİTKİSİNİN TORPAQDA MİNERAL AZOTU TOPLAMAQ XÜSUSİYYƏTİ

***F.Fərəcova***
***Akademik H.Ə.Əliyev adına "Araz" Elm İstehsalat Birliyi***

**Açar sözlər:** *tərəvəz, noxud, paxla, zulal, toxum, azot, humus, kök bakteriyaları, gübrə, sələf*

Tərəvəz noxudu bitkisinin məhsulu həm insanlar tərəfindən yüksək keyfiyyətli ərzaq kimi istifadə olunur, həm də kənd təsərrüfatı heyvanlarının yemləndirilməsində yüksək kalorili yem kimi işlədilir. (1, s. 6) Eyni zamanda bu bitkinin vegetativ orqanları (yarpaq, gövdə, sapalaq və s.) amin turşuları və başqa bir çox əhəmiyyətli üzvi turşular və zülallarla zəngin olduqlarına görə yüksək keyfiyyətli yaşıl yem kimi heyvanların yemləndirilməsində müvəffəqiyyətlə istifadə olunur. (2, s.8 ). Bundan başqa həmin yaşıl bitki kütləsi torpağın münbitliyini artırmaq üçün yaşıl gübrə kimi sahədə onu şumlayaraq torpaqla qarışdırılır. (6, s. 23.) Tərəvəz noxudu bitkisinin əhəmiyyətli cəhətlərindən biri də onun torpağı azotla zənginləşdirməsindədir. Bütün paxlalılar kimi onlar da köklərindəki bakteriyalar vasitəsilə havanın sərbəst azotunu mənimsəyərək kök yumruları vasitəsilə torpaqda toplayır və mineral azotun torpaqda çoxalmasına səbəb olur. Paxlalı bitkilərin, o cümlədən tərəvəz noxudunun bu xüsusiyyətinə görə, yəni torpağı azotla zənginləşdirdiyinə görə onlar əksər kənd təsərrüfatı bitkiləri üçün yaxşı sələf bitkisi hesab olunur.

D.N.Pryanişnikova, İ.V.Yakuşina (7, s.14), L.Q.Razumovskaya (8, s. 82) və

N.V.Lyapinaya (9, s.24) görə paxlalı bitkilər çox da münbit olmayan torpaqlarda da əkilib becərilə bilər və onlar başqa bitkilər üçün ən yaxşı sələf bitkiləri hesab olunurlar. Çünki paxlalı bitkilərin köklərində kök bakteriyaları əmələ gəlir və onlar inkişaf edərək havanın sərbəst azotu ilə əlaqə yaratmaq qabiliyyətinə malikdirlər. Kök bakteriyalarının belə bir böyük əhəmiyyət kəsb etməsini nəzərə alan alimlər açıq sahə şəraitində bir sıra paxlalı bitkilərin köklərini bu bakteriyalarla yoluxdurmaq yolu ilə çox yaxşı nəticələr əldə etmişlər. Sonralar kənd təsərrüfatı sahəsində müxtəlif əkinlərdə bu metoddan geniş istifadəyə başlanmışdır.

Tərəvəz noxudu bitkisinin məhsuldarlığını yüksəltmək və torpaqda mineral azotun toplanmasını təmin edən şərtlərdən biri də bitkidə optimal yarpaq səthinin əmələ gəlməsi böyük əhəmiyyət kəsb edir. Yarpaq səthinin normal böyüməsini təmin edən hər bir amilin (gübrə və su rejimləri, torpaq şəraiti, işıq, istilik və s.) mövcudluğu üçün çalışmaq yüksək məhsuldarlıq uğrunda mübarizə kimi dəyərləndirilə bilər. Həmin amillərin içərisində ən təsirlisi və səmərəlisi gübrə və su rejimlərinin tətbiq edilməsidir. C. Ə. Əliyevin (3, s.28) öz əməkdaşları ilə apardığı tədqiqat işlərinin nəticələri göstərmişdir ki, optimal və fəal yarpaq səthinin əmələ gəlməsi yollarından biri də uzun müddət həyat fəaliyyətinə və səmərəli işləyən yarpaq səthinə malik yeni bitki sortlarının yaradılmasıdır.

Azərbaycan Respublikasında N.H.İsmayılov və L.Q.Sadıxova (4,s.29.; 5.,s.89;) tərəfindən tərəvəz noxudunun sortnümunələri hərtərəfli öyrənilmiş və nəticədə kompleks təsərrüfat qiymətli əlamətlərə malik olan sortlar seçilərək seleksiyada başlanğıc material kimi istifadə üçün məsləhət bilinmişdir.

Paxlalı tərəvəz bitkilərinin torpağı azotla zənginləşdirməsi həm nəzəri, həm də praktiki cəhətdən insanlara çoxdan məlumdur. Lakin ədəbiyyat mənbələrinin araşdırması göstərmişdir ki, Respublikamızdz tərəvəz noxudu bitkisinin torpağı azotla zənginləşdirməsi indiyə qədər öyrənilməmişdir və ona görə də bu günə qədər həmin bitkinin torpaqda topladığı azotun dəqiq miqdarı elmə məlum deyildir. Elmdə mövcud olan bu boşluğu doldurmaq üçün həmin məsələnin tədqiq olunması zərurəti yaranmışdır. Bunu nəzərə alaraq tərəfimizdən 2017-2019-cu illərdə tərəvəz noxudu bitkisinin torpaqda topladığı mineral azotun miqdarını və həmin bitkinin azotu toplamaq xüsusiyyətini öyrənmək məqsədilə geniş tədqiqat işləri aparılmışdır.

Təcrübələr Naxçıvan Muxtar Respublikasının suvarılan boz torpaqları şəraitində Akademik H.Ə.Əliyev adına "Araz" Elm İstehsallat Birliyinin Yardımçı Təcrübə Təsərrüfatının sahəsində aparılmışdır. Tədqiqat işlərində tərəvəz noxudu bitkisinin rayonlaşmış və perspektivli sortnümunələrindən istifadə olunmuşdur. Tərəvəz noxudu bitkisinin mineral azotun torpaqda toplanmasını öyrənmək üçün əkin sahəsindən vegetasiya ərzində 3 dəfə torpaq nümunələri götürülmüşdür: 1) səpindən qabaq, 2) bitkilərin çiçəkləmə inkişaf fazasında, 3) bitkilərin vegetasiyasının sonunda. Laboratoriya analizləri üçün torpaq nümunələri götürmək məqsədilə əkin sahəsinin 2-3 müxtəlif yerində 4

kəsimə (qata), yəni torpağın 0-10; 10-20; 20-30 və 30-40 sm dərinliyinə ayrılmışdır. Sonralar sahənin müxtəlif yerlərindən hər kəsim üzrə götürülmüş torpaq nümunələri birləşdirilərək hər kəsim üzrə ümumi bir nümunə təşkil edilmişdir. Laboratoriya analizləri zamanı torpaqda mineral azotla yanaşı humus, kalium və fosforun miqdarı da təyin edilmişdir.

Cədvəl 1.

Tərəvəz noxudu bitkisinin torpaqda mineral azot elementinin artmasına təsiri (3 ildə orta)

| Sıra sayı | Torpağın qatları, sm | Humus, % | Azot, M mq/kq | Fosfor, mq/kq | Kalium, mq,kq |
|---|---|---|---|---|---|
| Səpindən qabaq | | | | | |
| 1 | 0-10 | 1,65 | 7,82 | 70,18 | 233,86 |
| 2 | 10-20 | 1,42 | 6,93 | 73,12 | 220,42 |
| 3 | 20-30 | 1,42 | 6,11 | 70,18 | 163,58 |
| 4 | 30-40 | 1,13 | 4,32 | 33,84 | 84,72 |
| Çiçəkləmə fazası | | | | | |
| 1 | 0-10 | 2,15 | 11,32 | 81,47 | 184,63 |
| 2 | 10-20 | 1,93 | 33,36 | 67,53 | 155,48 |
| 3 | 20-30 | 1,57 | 11,27 | 53,15 | 126,64 |
| 4 | 30-40 | 1,08 | 9,58 | 25,56 | 96,37 |
| Vegetasiyanın sonu | | | | | |
| 1 | 0-10 | 2,43 | 15,46 | 66,24 | 117,16 |
| 2 | 10-20 | 2,14 | 12,28 | 51,92 | 126,53 |
| 3 | 20-30 | 1,85 | 11,23 | 25,61 | 121,38 |
| 4 | 30-40 | 1,42 | 10,31 | 14,48 | 14,42 |

Azot T. H. İvanovskayanın, humus isə İ. V. Tyurinin metodu ilə təyin edilmişdir.

Alınmış nəticələr ( cədvəl 1. ) göstərmişdir ki, torpaqda mineral azotun toplanması bitkilərin bioloji xüsusiyyətlərindən, torpaq qatlarından bitkilərin inkişaf fazalarından və ayrı-ayrı illərin iqlim şəraitindən asılı olaraq geniş miqyasda dəyişmişdir. Belə ki, mineral azotun torpaqda ən çox toplanması tərəvəz noxudu bitkisinin kök ətrafında baş vermişdir və onun maksimal həddi 10-20 sm-lik, torpaq qatında qeydə alınmışdır, minimal həddi isə ən aşağı qatda 30-40 sm dərinlikdə toplanmışdır. Hesablamalar göstərmişdir ki, qeyd olunmuş inkişaf fazalarında toplanmış mineral azotun miqdarı 1 hektar əkində tərəvəz noxudunda 140-150 kq təşkil etmişdir.

Tərəvəz noxudu əkinlərində toplanmış azotun miqdarı vegetasiyanın sonuna doğru azalmağa məruz qalır, çünki bitkilər sonrakı inkişaf fazalarında özlərinin boyatmaları üçün həmin azotdan istifadə edirlər. Qeyd etmək lazımdır ki, tərəvəz noxudu güclü boyatma qabiliyyətinə malikdir və bir hektarda 20-22 ton quru bioloji kütlə əmələ gətirir. Ona görə də toplanmış azotun təqribən 70 %-ni bu bitki özü üçün istifadə edir və vegetasiyanın sonunda cəmi 30 % torpaqda qalmış olur.

Vegetasiyanın sonunda ayrı-ayrı torpaq qatlarında azotun miqdarı tədqiq olunmuş bitkilərin bioloji xüsusiyyətlərindən asılı olaraq xeyli dəyişkən olmuşdur. Belə ki, tərəvəz noxudu bitkisinin əkinlərində azotun ən çox miqdarı üst qatda 0-10 sm-də qalmışdır və torpağın dərin qatlarına getdikcə onun miqdarı azalmış və minimal həddi 30-40 sm dərinlikdə olmuşdur. Göründüyü kimi mineral azotun tərəvəz noxudu bitkisi tərəfindən toplanıb torpaqda yığılması bitkinin bioloji xüsusiyyətindən və bitkilərin inkişaf fazalarından asılı olaraq çox mürəkkəb xarakter daşımışdır.

Yuxarıda qeyd edildiyi kimi torpaq analizləri zamanı mineral azotla yanaşı, humus, kalium və fosforun miqdarı da edilmişdir. Alınmış nəticələr (cədvəl. 1.) göstərmişdir ki, torpaq qatlarında vegetasiya ərzində humusun miqdarı az da olsa artmağa məruz qalmışdır. Bu çoxalma tərəvəz noxudu üzrə torpağın, əsasən, üst qatlarında : 0-10 və 10-20 sm toplanması baş vermişdir. Bitki üzrə humusun maksimal həddi vegetasiyanın sonunda qeydə alınmışdır. Tərəvəz noxudu bitkisinin torpaqda kaliumun və fosforun maksimal həddi səpindən qabaq müəyyən edilmişdir və bitkinin vegetasiya ərzində özlərinin boy və inkişafları üçün həmin elementlərdən istifadə etdiklərinə görə onların miqdarı vegetasiyanın sonuna doğru tədricən azalmağa məruz qalmışdır. Onların minimal həddi vegetasiyanın sonunda qeydə alınmışdır. Kalium və fosfor elementlərinin vegetasiya ərzində azalması tərəvəz noxudu bitkisinin öz güclü boyatmasına istifadə etdiyinə görə məhz bu səbəbdən yüksək olmuşdur.

Yuxarıda göstərilənləri yekunlaşdıraraq qeyd etmək olar ki, torpaqda mineral azotun toplanması tərəvəz noxudu bitkisinin bioloji xüsusiyyətlərindən, bitkinin inkişaf fazalarından və torpaq qatlarından asılı olaraq geniş miqyasda dəyişir. Belə ki, tərəvəz noxudu bitkisinin əkinlərində azotun maksimal toplanması bitkilərin çiçəkləmə

fazasında baş vermiş və sonralar vegetasiyanın sonuna doğru bitki tərəfindən öz boy və inkişafları üçün istifadə etdiklərinə görə o azalmağa məruz qalmışdır. Vegetasiya ərzində toplanmış azotun maksimal həddi tərəvəz noxudu bitkisində 10-20 sm torpaq qatında qeydə alınmışdır.

Aşkar edilmişdir ki, toplanmış azotun tərəvəz noxudu üzrə 70 %-i, bitkilər tərəfindən özlərinin boy və inkişaflarına sərf etmişlər və özlərindən sonra saxladıqları azotun miqdarı yəni 30 %-i torpaqda toplanmş halda qalmışdır. Əkində humusun miqdarı vegetasiya ərzində bir qədər artaraq vegetasiyanın sonunda maksimal həddə çatmışdır. Tərəvəz noxudu torpağı mineral azot və humusla zənginləşdirdiyinə görə bir çox kənd təsərrüfatı bitkiləri üçün yaxşı sələf bitkisi ola bilər.

## ƏDƏBİYYAT


1. Tərəvəzçinin məlumat kitabı. Bakı: 1992, 230 s.
2. Əliyev Ş. A. Tərəvəzçilik. İİ hissə. Bakı: 1991, s. 51.
3. Əliyev C. Ə. Tərəvəz bitkilərinin mineral elementlərlə qidalanması və məhsulun fiziologiyası, Bakı: Azərnəşr. 1981. 92 s.
4. Исмаилов Н. Г. Влияние схемы посева на урожайность овощного гороха в условиях Апшеронской зоны Азербайджанской ССР // Записки ЛСХИ, 1972, т.211. с. 29...30.
5. Садыхова Л. Г. Генофонд холодоустойчивых образцов гороха // Азербайджанская Аграрная Наука, 2001, № 3-4. с. 89...91.
6. Сеидов Г. А. Развитие овощеводства в Азербайджане. Баку: 1968. с. 91.
7. Прянишников Д. Н., Якушин М. В. Растения полевых культур. Частное земледелие. М.: 1938. с. 317.
8. Разумовская З. Г. Пути повышения количества и качества урожая и семенах нута при заряжения клубеньковой бактерией // Труды прикладной ботанике, генетике и селекции, 1933, серия 3, № 1, с. 81...97.


## The ability of vegetable pea plants to collect mineral nitrogen in the soil in Nakhchivan Autonomous Respublic


***F.Farajova,***

***H.A.Aliyev "Araz" Scientiflic Production Association***


## SUMMARY


**Key words:** *vegetables, peas, beans, protein, seeds, nitrogen, humus, root, bacteria, fertilizer, predecessor.*

The article explores the properties of vegetable peas to collect mineral nitrogen in the soil. Studies have shown that vegetable peas spend 70 % of the nitrogen harvested from atmospheric air on plant growth and development, and the remaining 30 % mineral nitrogen by the end of the growing season, remains in the soil. Mineral nitrogen the end of the vegetation. Vegetable peas, have a powerful extending capacity, create 20-22 tons of dry biological mass per hectare. Generally, studies have shown that vegetable peas can collect up to 140-150 kg of mineral nitrogen in 1 hectare crop during the developmental stages.


## Особенности овощного гороха накоплять минерального азота в почве в условиях Нахчыванской Автономной Республики


***Фазиля Фараджова***

***Научно-производственное обьединение «Араз» имени академика Г.А.Алиева***


## РЕЗЮМЕ


**Ключевые слова:** *овощ, горох, боб, белок, семя, азот, гумус, корневые бактерии, удобрение, предшественник.*

В статье исследуется особенности овощного гороха накоплять минерального азота в почве. Исследования показали, что 70 % азота, которого овощной горох накоплял из атмосферного воздуха, растение использует для своего развития. Оставщиеся к концу вегетации 30 % остаются в почве. Овощной горох обладая мощной способностью вырастать, образует на гектаре 20-22 тонны сухой биологической массы.

В целом исследования определили, что в фазе развития овощной горох на одном гектаре посадки может накоплять до 140-150 кг минерального азота.



*Redaksiyaya daxilolma: 03.02.2020*

*Çapa qəbul olunma: 10.02.2020*

# QARĞIDALI BITKISININ XƏSTƏLIKLƏRI VƏ ONLARLA MÜBARIZƏ TƏDBIRLƏRI

***F.H.Qurbanov***
***S.İ.Məmmədova. Ş.M.Allazov***
***Azərbaycan Dövlət Aqrar Universiteti***

**Açar sözlər:** *qarğıdlı, bitki, xəstəlik, qovuqlu və toz sürmə, pas xəstəliyi, kif xəstəliyi, virus xəstəlikləri, spor, göbələk çürümə xəstəliyi*

Qarğıdalı bitkisinin xəstəliiklərinə vegetasiya müddətində həm dən və ya qıcanın saxlanılan dövründə təsadüf edilir.

Qarğıdalının ən geniş yayılmış xəstəliklərindən qovuqlu və toz sürmə, fuzarioz çürüməsi, niqrozporioz, helmintosporioz, diplodioz, pas, toxumaların kit xəstəliyi, akterioz və virus xəstəliklərini göstərmək olar.

Qovuqlu sürmə daha geniş yayılmış xəstəliklərdəndir və böyük ziyan vurur xəstəlik bitkinin torpaq üstü orqanlarını zədələyərək qovuqlar, və ya fırlar əmələ gətirir. Qovuqların diametri 15sm və daha çox ola bilir. Onlar spor yığımından ibarət olub, ilk dəfə ağ rəngdə, sonra isə bozumtul, ağ, nəhayət açıq-qara rəngdə olur. Xəstəlik ilk dəfə yarpaq qınlarında, gövdə də, sonra isə yarpaqda, süpürgədə, dəndə və qıcada əmələ gəlir.

Orovuqlu sürmə xəstəliyini Ustiloqo zeae (Beskim) Unqer göbələyi törədir. Xəstəlik bitkilərin bütün vegetasiya dövründə inkişaf edir. Bu dövrdə qovuqlar partlayır və içərisində olan külli miqdarda xlamidosporlar xaricə çıxıb, küləklə yayılaraq, sağlam bitkilərin üzərinə düşüb onları xəstələndirir.

Xlamidosporlar damcı suda bir neçə saatdan sonra cücərib bazidi və bazidiosporlar verir. Bu sporlar bitkilərə yoluxaraq xəstəlik torədir. Bu sporlar bitkilərə yoluxaraq xəstəlik törədir. Bəzi hallarda bzidiosporlar əlavə tumurcuqlanma yolu ilə çoxalaraq konidilər verir. Bunlar isə xəstəliik əmələ gətirir.

Xlamidosporların cücərməsi üçün optimal t-r $23^0$S- $25^0$S Syilir. $15^0$-$18^0$- s-də t-da xlamidorların cücərməsi dayanır. Göbələk bitki qalıqlarında, toxumlarda xlomidospor halında qışlayır. Xlomidosporlar quraqlıq şəraitində 4 ilə qədər və cücərmə qabiliyyətini saxlayır. Qovuqlu sürmə bitki orqanlarında yerli xəstəlik törədir.

Bu göbələkdən diffuz mitsel inkişaf etmir

Xəstəliyin inkişafı ücün havada və torpaqda rütubətin çox olması zəruridir. Xəstəliyə tutulmuş qarğıdalı bitkisinin məhsulu aşağı düşür və keyfiyyəti pisləşir.

Bitkilərdə xəstəlik güclü inkişaf etdikdə qıca əmələ gəlmir.Bitki orqanlarında əmələ gələn qovuqlar və ya firlar heyvan üçün zərərli sayılır.

Mübarizə üsulları- xəstəliyə qarşı mübarizə məqsədilə əkin üçün sağlam toxum seçməli və səpin üçün hazırlamalı

Məhsul toplandiqdan sonra sahələrdə qalmış bitki qalıqlarını yiğıb məhv etməli və orada dərin şum aparılmalıdır. Bu zaman xlamidosporlar torpağın alt qatına düşərək tələf olur. Xəstəliyə qarşı davamlı sortlardan və hibridlərdən istifadə etmək lazımdır.

Vegetasiya dövründə əmələ gələn yüksək aqrotexnika dərin şum bitki qalıqlarının sahədən kənarlaşdırılması və toxumların dərmanlanması əsas tədbirlərdən biridir. Torpağın qovuqlu sürmə və bir çox digər xəstəlik törədicilərdən bioloji təmizlənməsinə nail olmaq üçün qarğıdalı əvvəlki əkin yerinəö 3-4 ildən sonra əkilməlidir. Qarğıdalıdan yüksək məhsul alınmasını təmin etmək üçün bitkilərin bütün vegetasiya dövrü normal nəmliklə təminatı vacibdir.

Su və hava rejimlərini yaxşılaşdırmaq səpinə qədər alaq ehtiyatlarını məhf etmək üçün erkən yazda iki kultivasiyanın aparılması vacibdir. Toxum materialını xəstəlikdən qorumaq üçün toxumlar dərmanlanmalıdır. Səpinə 2-3 ay qalmış 2kq 80%-li TMTD 5/1 suda qarışdırılır, işçi məhlul hazirlanır və 1 ton toxum hesabi ilə dərmanlanır. Əgər bu iş birbaşa səpindən əvvəl yerinə yetirilsə preparatın məsarifi 0,5 kiq/1 artırılır.

Qarğıdalıda toz sürmə-Sorosporium relianum (kuihn) Me AlpF

Qarğıdalının toz sürmə xəstəliyi uzun illərdir ki, ölkəmizin qarğıdalı əkin sahələrində geniş yayılmış və ciddi ziyan vuran xəstəlikdir. Xəstəlik xüsusuilə yay ayları nisbətən mülayim keçən Şəki-Zaqatala, Quba-Xacmaz, Gəncə-Qazax, eləcədə dağlıq və dağətəyi rayonlarda yayılmışdır.

Xəstəlik bitkilərin qıca və süpürgəsini zədələyərək tünd və ya qaramtıl rəngli toz əmələ gətirir. Toz qıcanın üzərində dənələr olan hissədə inkişaf edir. İlk dəfə qaramtıl toz üzərində ağ pərdə olur, sonra həmin pərdə dağılaraq qaramtıl toz səpələnir.

Bu toz göbələyin xlamidosporlarından ibarət olub xəstəliyi yayır. Qaramtıl toz toz süpürgədə də əmələ gəlir. Bu xəstəliyi sorosporium relli-anum (Kühn) McAlp, göbələyi törədir. Xəstəliyin mənbəyi toxum və torpaq sayılır. Xlamidosporlar toxumda və torpaqda qalıb, bitkilərin ilk inkişaf dövründə onları yoluxduraraq xəstələndirir.

Toz sürmə xəstəliyi dənlərin süd dövründə meydana çıxır. Xəstəliyə tutulmuş bitkilər zəif inkişaf edir, qıcada dən olmur. Xəstəliyin törədicisi ilk dəfə Misirdə Sorqo üzərində tapılmış sonra İtalyada qarğıdalıda aşkar edildikdən sonra təsvir edilmişdir. Ölkəmizdə qarğıdalının toz sürməsinin yayılması haqqinda da ədəbiyyat məlumatları mövcuddur.

Qarğıdalı əkinləri ardıcıl eyni sahələrdə olduqda xəstəliyin zərəri artır.

Bitkinin itehsalat əkinlərində yoluxma 10-25% olduqda məhsul itkisi 1,1-40% təşkil edir. Xəstəlik gizli inkişaf edərək düzünə və dolayı itkilərə səs olur.

Mübarizə tədbirləri-Yüksək aqrotexnika, növbəli əkinə əməl edilməsi xəstəliklə mübarizədə əsas vasitələrdəndir.

Optimal müddətlərdə səpin aparılması zəruridir. Eyni sahəyən qarğıdalının 3-4 ildən sonra əkilməsi məsləhətdir.

Adətən toxumların dərmanlanması bitkiləri qismən xəstəlikdən azad edir. Son illər ölkəmizin pestisit bazarına daxil olan 50%-li pentatiuran it-2kq/t, 75%-li vitavaks -200 i/t-2,5 kq/t, 19,5%-li baytan universal i,t-3kq/t və s kimi preparatlar yüksək səmərəlilik göstərir.

Qarğıdalı bitkisində fuzarioz çürümə xəstəliyi–xəstəliyi fusarium monililiforme scheld göbələyi törədir. Bu göbələk bitkinin qıca və dənlərini zədələyir. Xəstəliyə tutulmuş qıcada dənlərin arasında və dənlərdə ağ örtük, sonra isə cəhrayı yastıqcıqlar inkişaf edir. Örtük göbələyin mitseli, yastıqcıqlar isə sporlarından ibarətdir. Göbələyin iki formada sporu əmələ gəlir. Mikrokonidi çubuq şəkilli və bir hüceyrəli olur. İkincisi isə makrokonidi aypara formalı nisbətən iri və çox hüceyrəli olur. Bu sporlar bir neçə dəfə təkrar əmələ gələrək xəstəliyin geniş yayılmasına səbəb olur.

Göbələk qışı mitsel və spor halında qıcada və dəndə keçirir.Xəstəlik sahədə dən yetişən dövrdə anbarda isə qıca və dən saxlanılan müddətində inkişaf edir. Xəstəliyə tutulmuş dənlər çürüdüyündən səpildikdə pis cücərti alınır. Belə sahələrdə bitkilər seyrək bitir. Bəzi hallarda xəstəliyə tutulmuş cücərtilər soluxub tələf olur.

Azərbaycanın Şəki Zaqatala, Quba Xaçmaz və Lənkəran Astara zonalarında becərilən qarğıdalı əkinləri də xəstəliklə zəif dərəcədə yoluxurlar. Göbələyin inkişafı üçün optimal t-r $30^{0c}$ minimal t-r $10\text{-}14^{0c}$ maksimal t-r $35\text{-}39^{0c}$ dir.

Mübarizə tədbirləri- xəstəliyə qarşı mübarizə məqsədilə əkin üçün sağlam toxum seçməli və səpin üçün hazırlamalı. Məhsul toplandıqdan sonra sahələrdə qalmış bitki qalıqlarını yığıb məhv etməli və orada dərin şum aparılmalıdır. Bu zaman xlamidosporlar torpağın alt qatına düşərək məhv olur. Xəstəliyə qarşı davamlı sortlardan və hibritlərdən istifadə etmək lazimdır.

Vegetasiya dövründə əmələ gələn qovuqları əllə toplayıb məhv etməli. Səpin qabağı toxumları qranozan ( 1 ton toxuma 1,5 kl ) və ya 80% TMTD) 1 ton toxuma 2kq) preparatları ilə çiləmə aparılması ( 100 l suya 2 kq preparat qatışdırılır) məsləhətdir.

Qarğıdalı cücərtilərinin fuzariozu- Fusarium spp- Xəstəlik hər yerdə geniş yayılmışdır.

Cücərməkdə olan dənciyin səthində göbələyin cəhrayı və ya ağ rəmgli örtüyü bürüyür. Bitkilər torpağın səthinə cıxandan dərhal sonra cücərti qonurlaşır və ölür. Həttda cücərti yaşayırsa belə zəif kök sisteminə malik olduğundan xəstə bitkilər böyümədən qalır, yarpaqlar quruyurlar v.s.

Xəstəliyin törədiciləri–müxtəlif kif göbələkləridir. Bir çoxu Fuzarium cinsinə aiddirlər. Onlar torpaqda bitki qalıqlarında və toxumlarda saxlanırlar.

Xəstəliyin zərəri ən çoxu toxumların yoluxma dərəcəsindən aslıdır. Sirayətlənmiş toxumların sayı çox olduqda cücərmə dövrü xəstə bitkilərin də faizi yüksək olur. Toxumların zəif yoluxma dərəcəsində onların cücərməsi 14% güclüdə 40% aşağı düşür. Xəstəlik xüsusilə yazı uzun və havası rütubətli zonalarda zərərlidir.

Mübarizə tədbirləri-səpindən əvvəl toxumlar dərmanlanmalıdır. Bu zaman müasir çeşidli toxum dərmanlarından istifadə edilməsi məqsədə uyğundur.

Bunlardan əlavə qarğıdalı bitkiində aşağıdakı xəstəliklərdə müşahidə olunur.

Qarğıdalı bitkisində Niqrosporioz və ya boz çürümə xəstəliyi.Xəstəliyi Niqrospora oruzae Petch göbələyi törədir.

Qarğıdalıda ağ çürümə xəstəliyi- Selerotina scleratiorum(LiB) de Bary.

Dipladioz və ya quru çürümə xəstəliyi-Diplodiya reae Zev göbələyi törədir.

Helmintosporioz- Helmintosporioz.

## ƏDƏBİYYAT

1. İ.H.Cəfərov.Fitoterapiya " Elm nəşriyyatı" 2002
2. İ.H.Cəfərov.Tarla bitkilərinin xəstəlikləri 2005
3. İ.H.Cəfərov.Fitopatologiya. Bakı: Şərq- Qərb nəş.,

## Болезни кукуруза и меры борьбы с ним

***Ф. Г. Курбанов, С.И.Мамедова, Ш.М.Аллазов***

## РЕЗЮМЕ

**Клочевые слова:** *кукуруз, болезни, грибы, возбудитель, меры борьбы, растение.*

Фузариозная гниль кукурузы распроетранена во всех регионах выращивания кукурузы. Болезни кукурузы возникают во время вегетации и хранения на складах

Наиболее распространенные гнилостные заболевания кукурузы, бактериалъная и порошкообразная форма распада фузариоа, могут проявлятъ плесенъ, а вирусные заболевания могут проявлятъся в виде ржавчины семян.

Ржавчина наносит ущерб подземным органаь растения.

Меры боръбы- здорове семена и высолие агротехнические навыки.

## Diseases of corn and measures to combat it

***F.H. Gurbanov S.I.Mammadova Sh.M.Allazov***

**Key words:** *corn, diseases, vegetation, bacterial, fuzariosis, malingnant*

Corn plant diseases occur during both vegetation and storage in the warehouses

The most common malingnant diseases of corn the bacterial and powdered fuzariosis decay form can show mildew and viral discases of may appear as seeds rust.Rust creates damage to the underground organs of the plant. Control measures- healthy seeds and high agrotechnical skills.

*Redaksiyaya daxilolma: 03.02.2020*
*Çapa qəbul olunma: 10.02.2020*

## ZOOBAYTARLIQ

UOT 619:616.9.022.1

# RESPUBLİKANIN QƏRB BÖLGƏSİNDƏ HEYVANLARIN XƏSTƏLİKLƏRİ ZAMANI APARILAN TƏDBİRLƏRİN MAHİYYƏTİ

***A.B.Nağıyeva, R.T.Məmmədov, M.Ə.Qulubəyova, A.E.Rüstəmova***
***Azərbaycan Dövlət Aqrar Universiteti***

**Açar sözlər:** *helmint, parazit, infeksiya, invaziya, xəstəlik, mübarizə tədbirləri, dezinvaziya, dehelmintizasiya*

Azərbaycanda heyvandarlığı daha çox inkişaf etdirmək, sağlam bala almaq, onları yetişdirmək, xəstəlikdən qorumaq və heyvanların məhsuldarlığının artırılmasında fermaların binalarının münasib sahələrin düzgün seçilməsində və yerləşdirilməsində sanitar-gigiyenik tələblərə ciddi riayət olunmalıdır. Ümumiyyətlə, fermalar Salınarkən tikinti materialları, torpaq sahəsinin düzgün seçilməsi, sanitar-gigiyenik qaydalara və şərtlərə əməl olunmalıdır [6,7].

Hazırda, kənd təsərrüfatı heyvanlarının və quşların inkişafına mane olan heyvandarlıq məhsullarının keyfiyyətini aşağı salan, insanların xəstələnməsinə səbəb olan amillərdən başlıcası və əsası heyvanların və quşların müxtəlif xəstəliklərə tutulmalarıdır [1].

Kənd təsərrüfatı heyvanları və quşların müxtəlif yolxucu xəstəliklərinin törədiciləri xarici mühitdə yaşayaraq hər an xəstəlik baş verməsi üçün təhlükə törədirlər. Ona görə də xarici mühitdə həmin mikroorqanizmlərin vaxtında zərərsizləşdirilməsi vacibdir. Kənd təsərrüfatı heyvanlarında xəstəlik əmələ gətirən mikroblar xarici mühitdə bir neçə saatdan-günədək, hətta aylar və illərlə öz həyat fəaliyyətini saxlayırlar. Bu xarici mühit şəraitindən əlavə həm də mikrobun növündən və onun bioloji xüsusiyyətindən asılıdır [6].

İri heyvandarlıq komplekslərində, quşçuluq fabriklərində və digər ixtisaslaşdırılmış təsərrüfatlarda baytarlıq işi elə qurulmalıdır ki, infeksiyanın və invaziyanın kənardan gətirilməsinə yol verilməsin. Buna görə baytarlıq xidməti tam tədbirlər kompleksi hazırlayıb həyata keçirməlidir. Buraya ferma salınması üçün nəzərdə tutulmuş yerdən başlamış, həmçinin işə salınma və tikililərin istismarı kimi bütün texnoloji mərhələlər də daxildir [5].

İlk növbədə fermalara gətirilmiş heyvan və ya quşlar 30 gün müddətində karantində, ümumi mal-qaradan və quşdan təcrid olunmuş halda saxlanmalı, rayon baytarlıq idarəsinə və ya sahə baytar məntəqəsinə məlumat verilməlidir [7].

Heyvandarlıqda gedən islahatlar, xüsusilə özəl təsərrüfatların yaradılması ilə əlaqədar olaraq profilaktik tədbirlərin vaxtında və düzgün həyata keçirilməsi daha mühüm əhəmiyyət kəsb edir ki, burada dezinfeksiyanın rolu böyükdür [4,5].

Bütün heyvandarlıq sahələrində dezinfeksiya işləri epizootiya əleyhinə aparılan tədbirlər planına daxil olub ümumi istehsal tədbirlərinin bir hissəsini təşkil edir.

Ümumiyyətlə, xəstəlikdən söhbət düşəndə, ilk növbədə konkret adın verilməsində müəyyən qaydalar əsas götürülür. Müxtəlif baytarlıq-təbabət yönümlü mənbələrdə xəstəliklər onun səbəbi və səbəbkarın mənşəyi baxımından mənalandırılır. Xüsusilə, yoluxucu məfhumunun yalnız infeksion xəstəliklərlə məhdudlaşdırılması düzgün sayıla bilməz. Çünki, bitki mənşəli törədicilərdən fərqli olaraq, qurd, gənə, cücülərin törətdiyi xəstəliklər təsnifata görə invazion qrupa aid edilir. Bəzən mütəxəssislərin birgə, yanaşı işlətdiyi invazion və parazitar xəstəliklər anlayışı da çaşqınlıq yaradır. Əslində isə heyvan mənşəli tüfeylilərin törətdiyi xəstəliklər ya parazitar, yaxud da invazion termini ilə təqdim oluna bilər.

Xəstəliklər haqqında ilkin ibtidai, bəsit təsəvvürlər hələ qədim zamanlardan (Aristotel, Hippokrat) formalaşıb. Hətta, helmint ifadəsi Hippokrat dövründən indiyənə qədər dəyişməz qalır. Sonralar, bütövlükdə təbabət elminin təşəkkülündə müstəsna xidmətləri ilə tanınan Əbu Əli İbn Sina, bəşəri dəyərlərə yeni düşüncə tərzi gətirdi. İftixarla qeyd etmək olar ki, vətən alimlərinin gərgin əməyi sayəsində Azərbaycan Milli Baytarlıq Məktəbi sayılıb-seçilənlər sırasında yer alıb.

Parazitizm yer üzərində geniş yayılmış yaşayış tərzi olduğundan, bu barədə müəyyən bilgilərin mənimsənilməsinə ehtiyac duyulur. Aparılan araşdırmalar sayəsində aşkar edilmişdir ki, indiyənə qədər elmə məlum olan 2 milyondan artıq növə ayrılan heyvandan ən azı 90 mini tüfeylilərlə təmsil olunub. İnvazion xəstəliklərin törədicilərinə qurdlar, gənələr, əvvəllər həşəratlar adı ilə tanınan cücülər və ibtidai varlıqlar aid edilir.

Latınca yazılışına uyğun olaraq onların törətdiyi xəstəliklər helmintozlar, akarozlar, entomozlar, protozoozlar adlanır [2,3].

Fermerlərə yaxşı məlum olan fassiolyoz zamanı ət çıxarı 15-17% azalır, piydən isə ötəri əlamət qalır. Ət itkisindən dəyən zərər 14-16 manata çatır. Əgər fermerlər heç olmasa, bircə başdan dəyən ziyanı nəzərə alsa, külli miqdarda itkilərə yol verilməz. Həyat tərzinə və sistematik mənsubiyyətinə görə xəstəlik törədənlərin hamısı tüfeylilərə aid edilməsinə baxmayaraq, onların hər birinə qarşı ayrı-ayrı dərman vasitələri məsləhət görülür. Daha doğrusu, eyni tərkibli preparatla onların qırılması, məhv edilməsi hələlik gələcək arzularda reallaşa bilər. Hal-hazırda, xəstəliklərə qarşı aparılan mübarizə bir qayda olaraq ümumi tədbirlərdən başlayır. Çünki, aşkarlanmış xəstəni naxırdan (sürüdən, ilxıdan) ayırmasaq, növbəti əməliyyatın uğuru şübhə altında qalır. Qoyulmuş diaqnoza müvafiq yemləmə, saxlanma, baxım, qulluq şəraitinin yaxşılaşdırılması ilə yanaşı həyata keçirilir. Ətraf mühitə səpələnmiş parazitlərin inkişafını, artırıb-çoxalma imkanlarını məhdudlaşdırmaq naminə vaxtaşırı dezinfeksiya, dezinvaziya, dezinseksiya, dehelmintizasiya aparılır. Bütövlükdə xəstədən sağlamın yoluxmasının və ətraf mühitdən (yem, su, hava) xəstəlik törədicisinin (bakteriya, göbələk, spor, maya, yumurta, sürfə) orqanizmə təcavüzünün qarşısını almaq üçün ən kəsərli üsullar həyata keçirilir. Sağalma dövrünün qısaldılması və gümrahlaşma prosesinin sürətlənməsinə təmiz saf hava, günəş şüaları, mülayim temperatur, sabit rütubət, gəzinti müsbət təsir göstərir.

Şübhə yoxdur ki, pasterellyoz, quduzluq, çiçək, dabağa qarşı nəzərdə tutulan tədbirlər zəhərlənmə, ishal, fassilyoz, bitlilik və yaxud qoturluq zamanı fərqli üsullarla həyata keçirilir. Mövcud qabaqlayıcı profilaktiki tədbirlər içərisində ən kəsərlisi, səmərəlisi və etibarlısı peyvəndləmə (vaksinasiya) sayılır. Əksər hallarda vaksin yalnız xəstəliyə tutulmamış sağlam heyvanlara vurulur. Peyvəndlənmiş heyvanlar ancaq bir müddət (6-12 ay) immunitet (toxunulmazlıq, davamlılıq, dözümlülük) halını qoruyub saxlayır. İndiyə qədər qurdlara, gənələrə və cücülərə qarşı münasib vaksin tapılmadığından qurdqovan dərmanlara, gənəqıran və ürküdücü (diksindirici) vasitələrə üstünlük verilir.

Parazitlərə qarşı çoxsaylı kimyəvi və sintetik birləşmələr sırasında geniş təsir dairəsi və ekolojiliyilə seçilən dərmanlar daha sərfəli hesab olunur. Heyvanlara, insanlara, həmçinin heyvandarlıq məhsullarının təhlükəsizliyi və zərərsizliyi baxımından bitkilərdən hazırlanmış çay, dəmləmə şirə, sıyıq və qarışqalar ən perspektivli müalicə vasitələri sayılır.

Xəstəliyin profilaktikası təsərrüfatın xaricdən törədicinin gətirilməsindən qorunmasına, bütün heyvanların sistematiki vaksinasiyasına əsaslanır. Ümumi profilaktik tədbirlər xəstə heyvanların təcrid olunmasına, binaların və oradakı bütün əşyaların dezinfeksiyasına yönəldilir. Dezinfeksiya üçün 3%-li formaldehid, 7%-li dempa və 4%-li xlorlu əhəng məhlulları işlədilir. Mikroorqanizmlərin havada konsentrasiyasının azaldılması üçün binalar yaxşı ventilyasiya edilməlidir (1 saatda 15-20 dəfə hava dəyişdirilməlidir).

**Nəticə:** Aparılan tədqiqat işindən aydın olur ki, heyvanlar arasında vaxtı-vaxtında peyvəndləmə, dezinfeksiya, deratizasiya, dehelmintizasiya, peyinin zərərsizləşdirilməsi, tövlələrin davamlı olaraq təmizlənməsi işlərinin sistematik olaraq həyata keçirilməməsidir. Nəticədə yoluxucu xəstəliklərin törədiciləri üçün əlverişlə şərait yaranır. Odur ki, heyvanları və quşları yoluxucu xəstəliklərdən qorumaq üçün ilk növbədə baytarlıq-sanitariya və gigiyena tədbirlərinə əməl edilməlidir. Eyni zamanda, ümumi baytarlıq-profilaktika və təsərrüfat tədbirlərinə ciddi fikir vermək lazımdır. Bu tədbirləri hər bir fermer, sahibkar və həmin təsərrüfatların zoobaytar mütəxəsissləri həyata keçirməlidirlər.

## ƏDƏBİYYAT

1. Eyubov İ.Z., Hacıyev Y.H., Şirinov F.B., Ə. Məmmədov vəb. Baytarlıq təbabəti (məlumat kitabı). Bakı: Azərnəşr, 2005, 736 s.
2. Qocayev E.Q., Axundov S.M., Nəsibov F.N. Heyvanlarda qurd xəstəliklərinin müalicə və profilaktikası. Gəncə: 2000
3. Məmmədov A.Q., Hacıyev Y.H., Şirinov N.M., Ağayev Ə.Ə. Baytarlıq parazitologiyası. Bakı:1986
4. Əliyev E.A., Əzimov İ.M., Vəliyev U.M., Səfi N.V. Epizootologiya və infeksion xəstəliklər. Bakı: UniPrint, 2013, 1070 s.
5. Qədimov R.A., Məmmədov İ.B., Ələsgərov Z.Ə. Epizootologiya. Maarif, 1998, 278 s.
6. Yusifov A.H., Əhmədov Ç.Ə., Əsgərov C.Ə., Məmmədov Ə.T. Baytarlıq sanitariyasının əsasları. Bakı:2006, 232 s.

7.Məmmədli Ə.T., Murtuzov Q.M., Şahmarov Ə.T. Kənd təsərrüfatı heyvanlarının xəstəliklərdən mühafizəsi. Bakı: 2015, 168 s.

**Ledding main measures during the diseases of animals in west regions of republic**

***Q.B. Nagieva, R.T.Mammadov, M.A.Gulubeyova, A.E.Rustamova***
***Azerbaijan State Agricultural University***

**SUMMARY**

**Key words:** *helminthes, parasite, infection, invasion, disease, struggling measures, dezinvation, dehelmintization*

**Brief case:** In this article is dealing about the struggling measures against the infection diseases of animals in west regions of republic. When infected diseases happen among the animals and birds it must be quarantined in farms, agriculture, dwelling houses and animals frock. It has great influence the quarantines measures prophylaxis- healing works against the helminthozis. In accordance it must be led main veterinary-sanitary works and organized agricultural measures due preventing the spreading of diseases. The experiments show that for recovering animals from diseases it must be held complex measures against the infection and invazion diseases. It shows that while holding the measures against infection and invazion in planned forms and in accordance with instructions the diseases cases is getting below.

**УДК 619:616.9.022.1**

**Значение проведенных мероприятий во время заболевания животных в западных регионах республики**

***А.Б.Нагиева, Р.Т.Мамедов, М.А.Кулубекова, А.Э.Рустамова***
***Азербайджанский государственный аграрный университет***

**РЕЗЮМЕ**

**Ключевые слова***: гельминт, паразит, инфекция, инвазия, болезнь, мероприятия по борьбе, дезинвазия, дегельминтизация*

В статье говориться о проведении мероприятии у зараженных животных в западной зоне республики. Если произошло заражение животных и птиц, в зависимости от степени зараженности (инфекция и инвазия) в хозяйстве, в фермах, в различных стадах и населенных пунктах ставиться карантин. В борьбе с гельминтозами большое значение имеет проведение лечебно-профилактических мероприятий, а также карантин. Для предотвращения инвазии необходимо проведение основных ветеринарно-санитарных и организационных мероприятий. Опыт и инвазионных болезни, если проводить комплексные мероприятия по оздоровлению животных. В связи с проведением плановых мероприятии в борьбе с инфекцией с инвазией, в нашей стране, число больных животных год за годом уменьшается.

*Redaksiyaya daxilolma: 19.11.2019*
*Çapa qəbul olunma: 24.11.2019*

UOT 636:3238

# GƏNCƏ-QAZAX ZONASINDA QARABAĞ QOYUN CİNSLƏRİNİN DƏRİLƏRİNİN ƏMTƏƏLİK KEYFİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

***Dissertant T.T.Pənahova***
***Azərbaycan Dövlət Aqrar Universiteti***

**Açar sözlər.** *Qarabağ qoyun cinsi, xəz-dəri, əmtəəlik keyfiyyəti, saxlanma, yemləmə, qiymətləndirmə*

Azərbaycanda qoyunçuluğun qədim tarixi vardır. Təbii iqlim şəraiti, geniş əraziyə malik yay və qış otlaqları burada qoyunçuluğun genişlənməsinə zəmin yaratmışdır. Hələ keçmiş zamanlarda vətənimizdə xalçaçılq sənətinin meydana gəlməsi və inkişafı da qoyunçuluqla bağlıdır [1].

Azərbaycanın elə bölgəsi, rayonu, sahəsi tapılmaz ki, orada qoyunçuluqla məşğul olunmasın. Respublika əhalisinin qoyunçuluq sahəsi ilə belə ciddi və maraqla məşğul olmaları həm irsi olaraq nəsildən-nəsilə keçmiş və həm də əhalinin qoyunçuluq məhsullarına olan tələbat və maraqları bu prosesə təkan vermişdir. Heyvandarlığın əsas sahələrindən biri olan qoyunçuluq, yun-parça toxuyan sənayeni əvəzedilməz yun ilə təmin edir. Yun özünün hiqroskopikliyi, möhkəmliyi, əyrilməsi, rənglənməsi və uzun müddət saxlanması və s. fiziki xassələri ilə başqa bütün liflərdən üstündür [2,3].

Xalqımızın heyvandarlıq məhsullarına olan tələbatı günü-gündən artır. Elə ona görə də, vaxtaşırı bir çox müxtəlif tədbirlər həyata keçirməklə, ölkəmizdə heyvandarlıq məhsulları bolluğunu yaratmaq kimi heyvandarlarımız qarşısında çox mühüm vəzifə qoyulur. Bu vəzifənin həyata keçirilməsi ölkədə heyvanların miqdarını artırmaq, mövcud cinsləri təkmilləşdirmək, məhsuldarlığını yüksəltmək, heyvandarlıq təsərrüfatlarında möhkəm və keyfiyyətli yem bazası yaratmaq mümkündür [4,5].

Azərbaycanda qoyun dərilərinin xəzlik-kürklük əmtəəlik keyfiyyətinin öyrənilməsi istiqamətində elmi-tədqiqat işlərinin aparılmadığı nərəzə alınaraq, müəllifin rəhbərliyi və iştirakı ilə qoyun cinsləri və tiplərinin cinsiyyəti və yaş qrupları üzrə dərilərinin əmtəəlik xəzlik-kürklük keyfiyyəti öyrə-nilmişdir. Dərilər üzərində tədqiqat işləri ilk emaldan hazır yarımfabrikata qədər davam etdirilmişdir. Müəyyən edilmişdir ki, ətlik-yunluq istiqamətli ana qoyunların dərisi nisbətən iri ölçülüdür. İncə konstitusiya tipinə aid qoyunların dərisi digər tiplərə nisbətən xırdadır. Ətlik-yunluq toğluların dərilərinin kiçikliyi və yun küllüyü onların təkamülünün hələ başa çatmadığını göstərir.

Respublikanın qərb bölgəsində "Süleyman" kəndli-fermer təsərrüfatında yetişdirilən Qarabağ qoyun cinsinin quzularının yaşından, yemləmə səviyyəsindən və fəsildən asılı olaraq dərilərin fiziki-mexaniki xüsusiyyətləri öyrənilmişdir [6].

Azərbaycanın yerli qabayunlu qoyunları içərisində vaxtı ilə şöhrət qazanan və geniş ərazidə yayılan Qarabağ cinsi bir çox müsbət xüsusiyyətləri ilə məşhurdur. Bu qoyunlar il boyu həvəsə gəlmək qabiliyyətinə malik olduğundan daha çox bala verirlər (100 qoyundan 110-120 quzu). Qarabağ qoyununun yaxşı inkişaf etmiş bədən quruluşu, iri və geniş döş qəfəsi, iri. Yağlı quyruğu olur, bədəni yunla qeyri-kafi örtülüdür. Yunu əksər hallarda boz, kürən və bu rənglərin müxtəlif çalarlarında olur. Qoç və qoyunlarının əksəriyyəti buynuzsuz və qulaqsız (kərə) olur. Diri çəki, qoçlarda 70-90 kq, qoyunlarda 45-50 kq, ət çıxarı isə müvafiq olaraq 54-57 və 52-54% arasında dəyişir.

Qarabağ qoyunları yüksək məhsuldarlığı ilə fərqlənmir. Yunları isə öz tərkibinə görə Hisar qoyunlarının yununa oxşardır, yaz qırxımında 1,7-1,8 kq, payız qırxımında isə 0,5-0,6 (iki qırxımda 2,2-2,4 kq), qoçlar isə 3,4-3,6 kq yun verir. Yunun tərkibində çoxlu qılan və ölü tük olur.

Qarabağ qoyununun 70-80 kq ümumi, 35-40 kq əmtəəlik süd məhsulu olur. Qarabağ qoyunları vaxtı ilə Mil-Qarabağ zonasında və Dağlıq Qarabağ Muxtar Vilayətinin bütün rayonlarında geniş yayılmışdır. Azərbaycanda 1934-cü ildən başlayaraq aparılan qabayunlu yerli qoyunların yaxşılaşdırılması prosesində Qarabağ qoyunları zərifyunlu damazlıq törədici qoçlarla çarpazlaşmada geniş istifadə edilmişdir.

Hesablamalar göstərir ki, istehsal olunan yarımfabrikatların (müxtəlif mənşəli əmtəəlik dəriləri) çıxarı 86,1-93,0% arasında dəyişir ki, bu da xəz sənayesində qəbul edilmiş normadan artıqdır.

Xəz məmulatının davamlılığı onun istifadəsi zamanı yun örtüyünün sürtünmə qüvvəsinə qarşı müqaviməti də müəyyyən olunur. Xəz məmulatının davamlılığı onun istifadə qaydasından, keyfiyyətindən, yun örtüyünün xüsusiyyətindən və bir çox başqa səbəblərdən də çox asılıdır. Ona

görə də xəzin keyfiyyətini düzgün müəyyən etmək bir sıra çətinliklərlə bağlıdır. Xəzlik-kürklük dəri istehsalı zamanı əsas tələbat dərinin yun örtüyü ilə dəri hissəsinin qarşılıqlı əlaqəsinin möhkəmliyinə aid edilir.

Əmtəəlik dərilərin və yarımfabrikatların keyfiyyətinin qorunub saxlanmasında onların bütün işlənmə proseslərində təbii xassələrinin mühafizə olunması əsas şərtdir. Dərinin tərkib hissəsindəki keyfiyyət və kəmiyyət dəyişkənliyi quzunun embrion dövründən başlayır və qoyun kəsilən müddətə qədər davam edir. Ona görə də qoyunları yetişdirilmə üsulu, yemləmə, bəsləmə şəraiti, cinsi və cinsiyyəti dərinin xəzlik keyfiyyətinə öz təsirini göstərir. Xəz-dəri yarımfabrikatlarının keyfiyyəti əsasən dəridəki yun örtüyünün xarakter və xüsusiyyətlərindən asılıdır.

Əmtəəlik xəzlik dərilərin yun örtüyünün aşağıda qeyd olunan təbii əlamətləri əsasən onların texnoloji qiymətini və dəyərini müəyyən edir:

**Yun örtüyünün birtipliliyi.** Dəri üzərindəki yunun birtipliliyi nə qədər yüksək olsa, ondan hazırlanmış xəz məmulatı da o qədər yaraşıqlı və incə olar. Ona görə də zərifyunlu dərilərdən əsasən yüksək keyfiyyətli xəz məmulatı hazırlanır. Dərinin yun örtüyündə keçid və qılan tükləri olduqda ondan hazırlanmış xəz məmulatı nisbətən quru və az yaraşıqlı olur. Digər tərəfdən, belə dərilərin boyanması da arzu olunan nəticəni vermir. Belə ki, tiftik və qılan tüklərin boyanma dərəcəsi müxtəlifdir:

Hazır xəzin keyfiyyəti dərinin ayrı-ayrı topoqrafiya sahələrinin yun örtüyünün keyfiyyətindən də çox asılıdır.

**Yunun sıxlığı.** Əmtəəlik xəz məmulatın qiymətləndirilməsində və onun istiliksaxlama qabiliyyətinin yüksək olmasında dəri yunu sıxlığının böyük əhəmiyyəti var. Xəz məmulatı üçün istehsal olunan əmtəəlik dərilərin yun örtüyünün sıxlığı çox böyük dəyişkənliyə malikdir:

1 $mm^2$-də yunun sıxlığı 15-100 lif arasında dəyişir. Dərinin yun örtüyü seyrək olduqda ondan hazırlanmış məmulat keyfiyyətsiz olur və istiliyi yaxşı saxlamır.

**Yunun nazikliyi.** Yunun nazikliyi onun birtipliliyi və sıxlığı ilə düz mütənasib olmaqla xəz sənayesində və xəzlik əmtəə istehsalında əsas göstəricilərdən biridir. Lakin çox zərif (70-80 keyfiyyətli) və sıx yun örtüyü olan xəzlik dərilərin derma hissəsinin möhkəmliyi tələbatı ödəmir:

**Yun örtüyünün yüksəkliyi.** Dəridə yun örtüyünün yüksəkliyi xəz məmulatının keyfiyyətinə təsir edir. Xəzlik dəridə yunun yüksəkliyi 1 sm-dən az olduqda dərilər xəz məmulatı üçün yararsız sayılır. Yun örtüyünün arzu olunan hündürlüyü 2-5 sm arasında dəyişir.

**Yun örütyünün müntəzəmliyi.** Yüksək keyfiyyətli xəz məmulatı istehsal etmək üçün dərinin bütün topoqrafiya sahələrində yun örtüyünün müntəzəmliyi, birtipliliyi zərifliyi və sıxlığı əsas şərtdir. Belə mütənasibliyin pozulması əmtəənin keyfiyyətini aşağı salır, yarımfabrikatın istifadəli sahəsinin həcmini azaldır və xəz məmulatının istehsalını çətinləşdirir.

**Yun örtüyünün rəngi.** Dərinin yun örütüyünün təbii rənginin xəz məmulatının istehsalında böyük əhəmiyyəti vardır. Xəz məmulatı üçün ağ rəng çox əlverişli hesab olunur. Belə ki, ağ rəngli dəriləri bütün rəng və çalarlara boyamaq olur. Eyni zamanda, onlardan öz rəngində məmulat da hazırlanır. Piqmentli və digər rəngli dəriləri isə xəz məmulatı istehsalında yalnız qara rəngə boyamaq olur ki, bu da xoşa gəlməyən əlamətdir.

**Yun örtüyünün parlaqlığı** hazır xəz məmulatına yaraşıq verir. Onun parlaqlığı müxtəlif amilləri təsirindən dəyişir. Yun örtüyünün qılan tüklərə xas olan yumuşaq, mütənasib və şüşəvarı olmayan parlaqlığı arzu olunan əlamətdir. Yun örtüyünün təbii parlaqlığı xəz istehsalı zamanı bir qədər qüvvətləndirilir ki, bu da məmulatın görkəmini yaxşılaşdırır.

**Yun örtüyünün yumşaqlığı,** bir qayda olaraq, yunun nazikliyindən, mütəzəmliyindən və yun lifi tüklərinin nisbətindən asılıdır. Xəz dərinin yun örtüyünün yumşaq, zərif və xoşagələn görkəmi onun müsbət keyfiyyətidir. (Yun örtüyünün yumşaqlıq keyfiyyətinin müəyyən edilməsi üsulu hələlik təkmilləşmədiyi üçün bu əlamətin qiymətləndirilməsi təxmini xarakter daşıyır).

**Yun örtüyünün yapıxması** müxtəlif təsirlər nəticəsində baş verir və xoşagəlməz əlamətdir. Yapıxmış yun örtüyü olan əmtəəlik dərilərin xəz istehsalında istifadə olunması çətindir. Belə ki, yun örtüyü daranarkən onun sıxlığı azalır, keyfiyyəti pisləşir və xəz məmulatı üçün yararsız hala düşdüyündən çıxdaş edilir.

Dərilərin əmtəəlik keyfiyyəti və bununla əlaqədar olaraq ondan istehsal edilən məmulatların keyfiyyəti bir çox faktorlardan asılıdır. Bunlardan ən başlıcası yemləmə və bəsləmə şəraiti, quyunların fizioloji vəziyyəti və iqlim şəraitidir.

Yemləmə və bəsləmə şəraitinin pis olması, xüsusilə də boğazlıq, əmizdirmə və yunun inkişafı dövrlərində onun miqdarına mənfi təsir etməklə yanaşı, yunun və dərinin fiziki-mexaniki, texnoloji xassəsinə də təsir göstərir.

Bu zaman yun yavaş sürətlə inkişaf edir. Həddən çox nazilir və bununla əlaqədar olaraq möhkəmliyi çox aşağı olur.

Yunun əsas xassələrinin saxlanmasına xarici amillərdən işıq, ultrabənövşəyi şüalar, nəmlik, havanın temperaturu və s. daha çox təsir göstərir. Bunların təsirindən yun keratinin tərkibinə daxil olan amin yurşuları parçalanır və nəticədə yun telinin xassələri pisləşir.

Apardığımız tədqiqatlardan məlum olmuşdur ki, istehsal edilən dərilərinin qiymətləndirilməsi zamanı Qarabağ qoyun cisinin dərilərinin əmtəəlik keyfiyyəti səviyyəsinə nail olunmuşdur. Yuxarıda göstərilənləri nəzərə alaraq, Qarabağ qoyun cinsinin dərilərinin əmtəəlik keyfiyyətinin əldə edilməsi zamanı düzgün saxlanma sistemlərindən istifadə edilməsinin əhəmiyyəti böyükdür.

**Nəticə.** Tədqiqatın nəticəsindən aydın oldu ki, Qarabağ cinsinin Azərbaycanın Gəncə-Qazax bölgəsində təbii-coğrafi iqlim şəraitinə uyğunlaşması öyrənilmişdir. Çarpazlaşdırma yolu ilə yetişdirməklə və baş sayını artırmaqla, gələcəkdə Azərbaycanda Qarabağ qoyun cinsinin dərilərinin qiymətləndirilməsi zamanı qoyunların dərilərindən hazırlanmış yarımfabrikatların yun örtüyünün sıxlığı tam kifayətləndirici olmaqla, xəz sənayesinin tələbinə uyğun əmtəəlik istiqamətli qoyun sürüləri yaradılmışdır. Gəncə-Qazax bölgəsində Qarabağ qoyun cinsinin yetişdirilməsi üçün lazım olan baytarlıq tədbirlərini tam həyata keçirmək üçün bütün profilaktik tədbirlər görülmüşdür.

## ƏDƏBİYYAT


1. Abasov İ. Ərzaq təhlükəsizliyi və kənd təsərrüfatının prioritet istiqamətləri. Bakı: 2011, s.219...224.
2. Abdullayev Q.Q., Əliyev M.İ. Qoyunçuluq. 2014, 452 s.
3. Abdullayev Q.Q., Əliyev M.İ. Yunun əmtəəşunaslığı və ilkin emalı texnologiyası. Bakı:2003, 192 s.
4. Abdullayev M.A. Azərbaycan qoyunçuluğu və onun inkişaf yolları. Bakı: 1978, 83 s.
5. Abdullayev M.A. Azərbaycanın ətlik-yunluq qoyunu. Bakı: 1983, 111 s.
6. Pənahova T.T. Qarabağ qoyun cinsinin cavanlarının dərilərinin fəsildən asılı olaraq fiziki-kimyəvi xassələri // Gəncə, ADAU-nun Elmi Əsərlər toplusu, 2019, №1, s.71....74.


## To state the value of commodity quality of qarabagh sheep skin in the region of ganja-qazakh


***Dissertate T.T.Panahova***

***Azerbaijan State Agrarian University***


## SUMMARY


**Key words:** *Qarabagh sheep race, fur –skin, commodity quality, keepimg, feeding, to state the value*



**Brief case:** During stating the value of commodity quality of Qarabagh sheep skin it was shown that the semifinished products are suitable to the demands of fur industry and in the scientific research work it was also shown its commodity quality. The research work was held in the farm of Shamkir`s region village “Suleyman” and “Veterinary medicine and zoo engineering faculty ” and in the chair of “Cattle breeding and fish products” laboratory. According our experiments in semifinished products we can see some changings in the density of woolen cover due to the topography areas. So, in the areas of shoulder blade and waist woolen density is 10-15% much more than the areas of shoulder and hauch.


## Оценка пород карабахских овец в гяндже-казахской зоне


***Диссертант Т.Т.Панахова***

***Азербайджанский государственный аграрный университет***


## РЕЗЮМЕ


**Ключевые слова:** *Пород Карабахских овец, шерсть, промышленное качества, оценивание*



В Гяндже-Кахахской зоне оценивание шерсти Карабахских овец. Использование широко распространённого промышленности полуфабрикатных шерстяных покрытий. Плотность шерсти Карабахских овцой соответствуют шерстяной промышленности. Было показано преднамеренно качества шерсти для использования шерстяной промышленности. Исследование проводились в фермерском хозяйстве «Сулейман» центре лабораториях кафедре » Технологий животноводства и рыболовства » на факультете «Ветеринарной медицины и зоотехническом». В результате проведенных исследований было определено о некоторых изменениях покрытии шерстяной плотности.



*Redaksiyaya daxilolma: 27.12.2019*

*Çapa qəbul olunma: 06.01.2020*

UOT 636.082.26

# MORFOLOJİ QURULUŞUN ƏTİN KEYFİYYƏTİNƏ TƏSİRİ

*Dissertant S.Z. İbrahimova*

**Açar sözlər:** *Ət, morfoloji, kimyəvi, dad, əzələ, sümük, birləşdirici toxuma*

**Mövzunun aktuallığı**: Məlum olduğu kimi ət məhsuldarlığının kəmiyyət və keyfiyyəti göstəricilərinin əsası onun morfoloji tərkibindən asılıdır. Ətin qidalılıq dəyərinin müəyyənləşdirilməsində onun morfoloji tərkibinin rolu az deyildir. Ət müxtəlif toxumaların-əzələ, sümük, birləşdirici toxuma, yağ və s. cəmindən ibarətdir. Əti təşkil edən toxumaların hər birinin kimyəvi tərkibi və anatomik quruluşu eyni deyildir.

Məlum olduğu kii, hər bir insan üçün normal fizioloji tələbatına görə gün ərzində 100-120 qram zülal tələb olunur. Zülalın keyfiyyət göstəricisi isə triptofanın, oksipriolin nisbətindən və əzələnin birləşdirici toxumaya nisbətindən asılıdır. Odur ki, ətin qidalılıq dəyəri, həzmə gediciliyi, enerji və bioloji dəyəri istər müxtəlif növ heyvanlarda və istərsədə eyni heyvanın müxtəlif nahiyyələrində çox fərqlidir. Orqan və toxumaların morfoloji quruluşu və onların bir-biri ilə korelyativ əlaqədarlığıda əsas göstəricidir. Bu göstəricilərə əsasən demək olar ki, bu günkü mövzu öz aktuallığı ilə fərqlənir.

**Tədqiqatın əsaslandırılması:** Ət məhsuldarlığının qiymətləndirilməsində cəmdk çəkisinin və onun çıxarının, kəsim göstəricilərinin rolu olduğu kimi, cəmdəyin sümüyə olan nisbəti və onun morfoloji quruluşu cəmdəyin keyfiyyətinə təsir göstərən faktordur. Cəmdəyin qiyməti yumşaq ətdə əzələnin yağa olan nisbətinə görə xarakterizə olunur. Cəmdəkdə sümük çoxluğu yumşaq ətin keyfiyyətini azaldır. Eyni zamanda cəmdəyin ətlilik əmsalı göstəricisini aşağı salır. Yəni 1 kq sümüyə düşən yumşaq ətin miqdarı as olur.

Qeyd etmək lazımdır ki, heyvanlarda sümüyün qeyri bərabər inkişafı yüksək ət məhsuldarlığının alınmasına mənfi təsir göstərir. Yaxşı morfoloji tərkibli cəmdəyin yüksək keyfiyyətli ət olması deməkdir.Cəmdəyin tərkibində əzələ, yağ, sümük və qığırdıqların nisbətləri heyvanın cinsindən, yaşından, saxlanma və bəslənmə şəraitindən asılıdır. Cəmdəkdə əzələ lifi ilə birlikdə, onun birləşdirici toxuma dayağı ətin keyfiyyətinə təsir göstərir. Birləşdirici toxuma dayağı (sarkolemma, endomiz, perimiz, erimiz və s.) ətin yetişməsinə və həzmə gediciliyinə təsir edir [1].

Məlum olmuşdur ki, ontogenezin ilkin mərhələlərində orqanizmdə sümük toxuması yaxşı inkişaflı olur, sonra əzələ toxuması və yaşlı dövürlərdə yağ toxuması toplanır [1,2].

Yağ toxuması, boş birləşdirici toxumanın yağ damlaları ilə doldurulmuş hüceyrələrdən ibarətdir. Yağ dəri altına, əzələlər arasına və daxili orqanlara toplanır. Kökəldilmiş ətlik və ətlik-südlük heyvanlarda yağ əzələ arasına toplanır və əzələləri kəsdikdə ona mərmərvarilik verir. Belə ətlər ən keyfiyyətli ət hesab edilir [1].

Cəmdəyin əzələsində birləşdirici toxumada heyvanın cinsindən, köklük dərəcəsindən asılı olaraq yerləşir. Birləşdirici toxumnı əsasən kollagen, elastik liflər təşkil edir. Onlar ayrı-ayrı orqanları bir–biri ilə və onları isə sümük toxumaları ilə birləşdirir. Məlum olduğu kimi cəmdəkdə anatomik hissələrinin qidalılıq qiyməti, dadı və mətbəx keyfiyyəti etibarlılıq baxımdan müxtəlifdir. Bunlar arasında ən qiymətli bel və çanaq hissələri hesab olunur. Cəmdəkdə məhz budun çıxarı, cəmdəyin müsbət göstərici kimi qiymətləndirilir.

Bu göstəricilərdən aydın olur ki, aparılan elmi-tədqiqat yekunlarından və alimlərin tədqiqatların müsbət nəticilərindən aydın olur ki, ətin keyfiyyət göstəriclərinin təhlili üçün ətin morfoloji quruluşunun təhlili vacibdir.

**Tədqiqatın nəticələri:** Elmi praktiki təcrübələr sübut edir ki, cəmdəyin morfoloji quruluşu, onun anatomik hissələrinin nisbətləri yaşdan, cinsiyyətdən, fizioloji vəziyyətindən və heyvanın genotipindən asılıdır.

Tədqiqat işin metodikasına uyğun olaraq təmizqanlı və mələz heyvanların kökəltmədən sonra 18 aylıq dövrdə cəmdəyin morfoloji quruluşunun öyrənilməsi nəzərdə tutulmuşdur.

Ət kəsim sexlərində cəmdəyi 5 təbii-anatomik hissələrə ayırdıq. Müxtəlif genotipli təcrübə qrup erkəklərin təbii-anatomik hissələri bir-birindən fərqlənmişlər. 18 aylıqda müxtəlif genotipli erkəklər arasında yüksək anatomik hissələri ilə fərqlənən üççinsli hibridlər üstünlük təşkil etmişdir (Cədvəl.1-2).

Cəmdəkdə ən çox nahiyə çanaq nahiyəsinin əti hesab olunur. Eyni zamanda bu nahiyənin əti sümüyə nisbətən çoxluq təşkil etməklə bir kq sümüyə ən çox ət düçür.

Apardığımız tədqiqatların təhlilində ətin morfoloji quruluşunu öyrənərək qruplar üzrə aşağıdakı cədvəldə göstərmişik.

Cədvəl 1.

Təmizqanlı və mələz (Aberdin-anqus X Qara-ala) cöngələrin cəmdəyinin təbii-anatomik hissələrinin mütləq çəkisi

| sıra № | Təcrübə qrup erkəklər | | Kons-tantlar | Soyudulmuş cəmdək çəkisi, kq | Cəmdəyin təbii-anatomik hissələri, kq | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | boyun | Kürək-çiyin | Döş-arxa | Bel | Çanaq-bud |
| 1. | Qara-ala | | X±m | 212,1±3,9 | 20,0 ± 0,58 | 38,8 ± 1,63 | 65,2 ± 0,12 | 22,4 ± 0,9 | 65,7 ± 0,77 |
| | | | Σ | 2,49 | 1,63 | 2,87 | 3,27 | 1,25 | 3,68 |
| | | | Cv | 1,18 | 8,16 | 7,42 | 5,03 | 5,59 | 5,61 |
| | | | Td | - | - | - | - | - | - |
| 2. | Aberdin-anqus X Qara ala | kq | X±m | 244,0 ± 3,2 | 22,86 ± 0,89 | 44,85 ± 0,86 | 75,9 ± 0,9 | 23 0 ± 0,62 | 77,9 ± 0,5 |
| | | | Σ | 4,08 | 1,25 | 1,63 | 2,45 | 0,82 | 1,25 |
| | | | Cv | 1,67 | 5,50 | 3,63 | 3,22 | 3,55 | 1,59 |
| | | | Td | 6,67 | 1,29 | 1,92 | 2,69 | 0,45 | 3,26 |
| | | Qara-alaya nisbətən % | | 114,9,0 | 115,0 | 116,3 | 115,6 | 102,7 | 118,6 |

Cədvəldən göründüyü kimi cəmdəyin keyfiyyət göstəricilərindən biri də onun anatomik hissələrinin bir-birinə olan nisbətlər uyğunluğudur. Burada əsas göstərici gövdənin hansı anatomik hissələrində ətin çoxluğundan asılıdır. Çünki hər bir ana-tomik quruluşuna uyğun ətin öz keyfiyyət göstəriciləri vardır ki, bununla da hansı qrup da cəmdəyin birinci kateqoriyaya uyğun ətin çoxluğu onun keyfiyyətini yüksəldir. Qara ala cinsin erkəklərin soyudulmuş cəmdəyi 212, 1 kq olduğu halda mələzlərdə bu göstərici 244,0 kq olmuşdur. Boyun əti Qara-ala cinsində 20 kq olduğu halda, mələzlərdə bu göstərici 22,86 kq-a çatmışdır. Hər qrup üzrə kəsim üçün 5 baş erkək götürülmüşdür. Burada Qara-ala cinsində orta ədədi kəmiyyətə nisbətən cəmdək çəksisində kənarlanma σ=2,49 kq olduğu halda mələzlərdə bu göstərici σ=4,08 kq olmuşdur. Qrafik-1-də müxtəlif genotipli cavanların cəmdəyinin anatomik hissələri təsvir edilmişdir.

Əzələ dayağını təşkil edən birləşdirici toxumanın həzmə gediciliyi aşağı olduğu üçün ətin keyfiyyətinə pis təsir edir. Boyun, qarın və aşağı ətrafların əzələləri böyük fiziki iş gördüyü üçün lifləri qaba (qalın) olur, tərkibində sıx və elastiki liflər çox olur. Odur ki, onların həzmə gediciliyi yüksək olmur. Onurğa sütunun əzələləri isə incə lifli olurlar.




***Qrafik-1. Qruplar üzrə cəmdəyin təbii-anatomik hissələri***

Yaşla əlaqədar olaraq əzələ toxumasında bişirilərkən çəkisinin azalma miqdarı dəyişir. Əzələ toxumasının rəngi onun tərkibində olan mioxromun (mioqlobinin) miqdarından asılıdır. Əzələ işlək və yaşlı heyvanlarda tünd, cavan, işləməyən heyvanlarda açıq rəngdə olur. Əzələ toxumasından sonra ətin keyfiyyətini təyin edən ikinci tərkib hissəsi yağ toxumasıdır. Yağ toxuması yüksək yemləndirmə tətbiq edildikdə müsbət nəticə alınır. Bunlar isə xətt üzrə böyümənin öyrənilməsi əsasında meydana çıxır [ 1...5].

Südlük cinslərə nisbətən ətlik cinslərdə bu fərq az olur. Cəmdəyin anatomik hissələrinə görə

Yağ və əzələ cəmdəyin yumuşaq hissəsinə aid olub, əzələ toxuması ilə uyğunlaşması nəticəsində ətin dad keyfiyyətini, qidalılığını, xüsusilə enerji dəyərini artırır.

Ona görə də bizim tədqiqatımızda təcrübə qrup heyvanların ətində yağ, əzələ, sümük və qığırdaq nisbətini öyrənmək qərarında olduq.

Ən yaxşı ət cəmdəyin arxa hissəsinin 1\4 hissəsi hesab olunur. Ətlik mallarda bu hissə ümumi hissənin 47,3-49,3%-ni təşkil edir. Ətlik mallarda cəmdəyin ön və arxa hissə nisbətləri az

qiymətləndirilməsinin əsas keyfiyyət meyarı bütün nahiyələrdə ətin eyni morfoloji quruluşa malik olmaması və gövdənin nahiyələrinə uyğun ətin kəmiyyət və keyfiyyət göstəricilərinin fərqli olmaı ilə əlaqədardır (Şəkil-1).



**Şəkil-1. Cəmdəyin uzunluğunun ölçülməsi**

Cəmdəyin qiymətləndiriməsinin ən əsas üsullardan birisi də onların ölçülməsi və ölçülərə əsasən cəmdəyin tam ətlilik indeksini və tam əzələlik əmsalının hesablanmasıdır. Əsas aşağıdakı ölçülər: cəmdəyin uzunluğu, budun uzunluğu və budun qucumu götürülür. Həmin ölçülərə əsasən cəmdəyin tam ətlilik əmsalı və budun əzələlik əmsalı, % hesablanır. Əsas aşağıdakı ölçülər: cəmdəyin uzunluğu, budun uzunluğu və budun qucumu götürülür. Həmin ölçülərə əsasən cəmdəyin tam ətlilik əmsalı və budun əzələlik əmsalı, % hesablanır (Cədvəl-2).

Cədvəl 2.

Təcrübə qurup heyvanların cəmdəyinin ölçü və indeksləri

| Göstəricilər | Qruplar *(X ±m)*. | | |
|---|---|---|---|
| | Q.A | 1/2 A.A × 1/2 Q.A | |
| | | Fakt | Q.A.nisbətən % |
| Cəmdək çəkisi, кq | 201,5 ± 2,0 | 247,6 ± 1,2$^{xxx}$ | 122,9 |
| Cəmdək uzunluğu, sm | 184,5 ± 2,14 | 218,5 ± 2,02$^{xx}$ | 118,4 |
| Budun uzunluğu,sm | 84,5 ± 1,32 | 89 ± 1,55$^{x}$ | 105,3 |
| Budun qucumu,sm | 98,4 ± 1,4 | 125,0 ± 1,7$^{xxx}$ | 127,0 |
| Cəmdəyin tam ətlilik əmsalı, % | 109,2 ± 0,4 | 113,3 ± 0,65$^{x}$ | 103,8 |
| budun əzələlik əmsalı, % | 116,5 ± 0,3 | 140,4 ± 0,78$^{xx}$ | 120,5 |

Məlumatlar əsasən toplanılmış rəqəmlərdən aydın olur ki, tam ətlilik əmsalı və əzələlik indeksi cinsin təsirindən asılıdır. Bud, baldır, çanaq nahiyyəsinin inkişafı əzələlik əmsalı əsasında xarakterizə olunur. Cəmdəyin tamətlilik indeksi və əzələlik əmsalı ikicinsli mələzlərdə 113,3-140,4 və 103,8-120,5% olmuşdur

Cəmdəyin uzunluğu Qara-ala cinsində 184,5 sm olduğu halda bunun Aberdin-anqus cinsli mələzlərində 218,5 sm olmuşdur. Budun uzunluğu Qara-ala cinsində 84,5 sm olmuşdursa, mələzlərdə bu göstərici 89 sm olmuşdur. Təmizqanlı və mələzlərdə ən əsas göstərici budun qucumu olmuşdur. Təhlil olunan parametrlərdə budun qucumu çox fərqli olmuşdur ki, bu da mələzlərin ətlilik qabiliyyətinin və cəmdəkdə budun ətlik cinsə xas olan göstəricilərə mənsub olunması aydınlaşır. Cəmdəyin tam ətlilik əmsalı Qara-ala cinsində 109,2 olduğu halda onun Aberdin-anqus cinsindən alınmış mələzlərində bu göstərici müvafiq olaraq 113,3-ə bərabər olmuşdur. Budun əzələlik əmsalı da ətlik cinslər üçün çox önəmli parametrlərdən biridir. Qara-ala cinsində bu göstərici 116,5 % olduğu halda, mələzlədə bu göstərici 140,4% olmuşdur. Bu da Qara-ala cinsinə nisbətən 23,9% % budun əzələli olmasını göstərir.

Aydın olur ki, Aberdin-anqus cinsindən alınmış ikicinsli (Aberdin-anqus x Qara-ala) erkək mələzlərin cəmdəyinin tam ətlilik indeksi və əzələlik əmsal göstəriciləri təmizqanlılardan üstündür. Bu onu sübut edir ki, üççinsli mələzlərin cavanlarda ətlilik meyli daha yüksəkdir.

Cavanlarda ətlilik əmsalının cinsdən, yaşdan və köklük dərəcəsindən asılı olaraq dəyişməsi tək heyvanın anatomik quruluşuna əsasən hansı nahiyyədə yüksək olmasından asılı olmayaraq ümumi formada əzələnin cəmdəkdə daha çoxluq təşkil olunması aydınlaşmışdır.

Təcrübələrdə maraqlı cəhət cəmdəkdə əzələ, yağ və sümük nisbətlərinin öyrənilməsidir. Cəmdəkdə ən qiymətli və dəyərli əzələ toxuması hesab olunur ki, bu da iribuynuzlu qaramalda müxtəlif amillərin təsirindən asılı olaraq cəmdəyin 50-65%-ni təşkil edir [ 1,2].

Dünya alimlərinin apardığı tədqiqatlardan və bizim tədqiqatların yekunundan aydın olur ki,

ontogenez öz qaunauyğunluğu ilə davam etməklə ilkin mərhələlərində orqanizmdə sümük toxuması yaxşı inkişaflı olur, sonra əzələ toxuması və yaşlı dövürlərdə yağ toxuması toplanır [4].

İlkin ontogenezin mərhələlərində orqanizmin əzələ, sümük və yağ toplanma xüsusiyyəti yaş artdıqca fərqli olurlar.

Cədvəldən göründüyü kimi kəsimdən 24 saat sonra cəmdək çəkildikdə aydın olur ki, Qara-ala cinsin cəmdəyinin çəkisi 212,1 kq olduğu halda mələzlərdə bu göstərici 244,0 kq olmuşdur. Hər iki qrup üzrə sol cəmdək əzələ hissəsi sümükdən ayrılmış və müqayisəli təhlil eilmişdir. Məlum olmuşdur ki, Qara-ala cinsində cəmdəyin 164.4 kq-ı əzələ və 41,0 kq isə sümük olmuşdur. Ancaq mələzlərdə əzələ 192,4 kq olmuşdur ki, bu da Qara-alaya nisbətən 17,0 %-yuxarı əzləyə malik olması deməkdir.

Cədvəl 3.

Cəmdəyin morfoloji strukturu

| Göstəricilər | Qrupda erkəklər, кq (X ±m). | | |
|---|---|---|---|
| | Qara-ala | Aberdin-anqus X Qara-ala | |
| | | Fakt | Qara-alaya- nis.% |
| Cəmdəyin soyudulmuş kütləsi | 212,1 ± 2,7 | 244,0 ± 3,2$^{xxx}$ | 115,0 |
| Əzələ | 164,4 ± 2,9 | 192,4 ± 3,5$^{xxx}$ | 117,0 |
| Sümük | 41,0 ± 0,7 | 43,3 ± 1,05$^{xxx}$ | 105,6 |
| Vətərlər və qığırdaqlar | 5,3 ± 0,3 | 7,2 ± 0,3$^{xx}$ | 135,8 |
| Ayırmalarda itki % | 0,8 ± 0,03 | 0,9 ± 0,05 | 112,5 |

Yağ toxuması, boş birləşdirici toxumanın yağ damlaları ilə doldurulmuş hüceyrələrdən ibarətdir. Yağ dəri altına, əzələlər arasına və daxili orqanlara toplanır. Kökəldilmiş ətlik və ətlik-südlük heyvanlarda yağ əzələ arasına toplanır və əzələləri kəsdikdə ona mərmərvarilik verir. Belə ətlər ən keyfiyyətli ət hesab edilir.

Əzələdə birləşdirici toxumada heyvanın cinsindən, köklük dərəcəsindən asılı olaraq birləşdirici toxuma yerləşir. Birləşdirici toxumanı əsasən kollagen, elastik liflər təşkil edir. Onlar ayrı-ayrı orqanları bir-biri ilə və onları isə sümük toxumaları ilə birləşdirir.

Cəmdəyin morfoloji tərkibini öyrənmək məqsədilə Gəncə ət kəsim sexlərində cəmdək hissələrə ayrılmışdır.

Cəmdəkdə vətər və qığırdaqların miqdarına görə təcrübə qurup heyvanlarda eyni səviyyə müşahidə olunmuşdur. Təmizqanlılarda bu göstərici 6,04-6,8 % olduğu halda, mələzlərdə müvafiq olaraq 7,2-8,3% arasında özünü göstərmişdir.

Beləliklə təmizqanlı və mələz cavanların cəmdəyinin morfoloji quruluşunun yüksək olması, mələz cavanlarının kəsim və ətin texnoloji göstəricilərinin fərqli nəticəsi ilə əlaqədardır.

Ümumilikdə cəmdəyin morfoloji quruluşunun quruplar üzrə son təhlilində mələzlərin göstəricilərinin Qara-ala cinsin cavanlarından üstün olduğunu qeyd etmək lazımdır.

## ƏDƏBİYYAT


1. Abbasov S.A.,Məmmədov S.N., Abbasov R.T. Maldarlığın əsasları və südçülük. Bakı:”Agah” 2019, 342 s.
2. İbrahimova S.Z. Azərbaycan şəraitində Aberdin-anqus və Qara-ala mələzinin bioloji və təsərrüfat faydalı əlamətlərinin öyrənilməsi metodikası/Azərbaycan Milli Elmlər Akademiyası Gəncə bölməsi №1 (75) Gəncə: 2019, 113...119s.
3. İbrahimova S.Z. Mələzlərin böyüməsinə təsir göstərən genotipik və paratipik amillər/ ADAU-nun Elmi Əsərləri, Gəncə:2019.№1.82...86s.
4.. İbrahimova S.Z. Mələzlərdə xətt üzrə böyümənin öyrənilməsi/ADAU-nun Elmi Əsərləri, Gəncə:2019.№2. 83...87s.
5. Ибрагимова С.З. Влияние сбалансированного кормления на биологические особенности помесей /Современные научно-практические достижения в ветеринарии. Киров 2019. Выпуск-10. с. 123...127.

## The effect of morphological structure on meat quality

*Dissertant S.Z. Ibragimova*

**SUMMARY**

**Key words:** *meat, morphology, quality, taste, muscles, bones, connective tissue*

The quantitative and qualitative indicators of meat in assessing meat productivity depend on the ratio of the anatomical parts and the morphological structure of the carcass.

The connective tissue in the muscles of the carcass depends on the breed and the degree of fatness of the animal.

Connective tissue consists of collagen and elastin fibers. They combine different organs with each other, and they, in turn, are connected to the bone tissue.

As you know the nutritional value of the anatomical parts, the taste and culinary quality of the carcass are different.

The most valuable of them are the dorsal and femoral parts.

Exit of the femoral part is estimated as a positive indicator of mascara.

The same number of tendons and cartilage was observed in the carcass of animals of the experimental group.

While in purebreds this indicator amounted to 6.04-6.8%, and in crossbreeds - 7.2 and 8.3%.

**УДК 636.082.26**

## Влияние морфологической структуры на качество мяса

*Диссертант С.З.Ибрагимова*

**РЕЗЮМЕ**

**Ключевые слова:** *мясо, морфология, качество, вкус, мышцы, кости, соединительная ткань*

Количественные и качественные показатели мяса при оценке мясной продуктивности зависят от соотношения анатомических частей и морфологического строения туши.

Соединительная ткань в мышцах туши, зависит от породы и степени упитанности животного.

Соединительная ткань состоит из волокон коллагена и эластина. Они объединяют разные органы друг с другом, а они в свою очередь соединяются с костной тканью.

Как известно пищевая ценность анатомических частей, вкус и кулинарное качество туши бывают разными.

Наиболее ценными из них являются спинная и бедренная части.

Именно выход бедренной части оценивается, как положительный показатель туши.

Такое же количество сухожилий и хрящей наблюдалась в туше у животных опытной группы

В то время как у чистокровных этот показатель составил 6,04-6,8%, а у помесей - 7,2 и 8,3%.

*Redaksiyaya daxilolma: 27.12.2019*
*Çapa qəbul olunma: 06.01.2020*

UOT 615. 322

# GƏDƏBƏY RAYONU ƏRAZİSİNDƏ BİTƏN TERPENOİD VƏ EFİR YAĞLARI İLƏ ZƏNGİN DƏRMAN BİTKİLƏRİNİN FARMAKOQNOSTİK XARAKTERİSTİKASI

***Biologiya elmləri üzrə fəlsəfə doktoru A.Ə. Əliyev***
***Magistrant N.V. Rəhimova***
***Azərbaycan Dövlət Aqrar Universiteti***

**Açar sözlər:** *terpenlər və efir yağları, dərman bitkiləri, kəklikotu, qaraqınıq, boymadərən, farmakoqnostik analız*

Azərbaycan respublikasının əlverişli coğrafi-iqlim şəraiti, torpağın tərkibi və digər əlverişli təbii amillər bu bölgədə bitən dərman bitkilərinin tərkibini zənginləşdirdiyi üçün onların müalicəvi xassəsini dəfələrlə artırır. Elə ona görə də Azərbaycanda bu sahəyə həm əvvəllər, həm də hazırda maraq böyükdür və dərman bitkilərinin, bitki dərman vasitələrinin öyrənilməsi üzrə elmi tədqiqatlar aparılmışdır və bu istiqamətdə davam etdirilir. Bu bitkilər arasında yayılan böyük sayda dərman bitkilərindən böyük sayda efiryağlı bitkilər, yüzlərlə alkaloidli, vitaminli, flavonoidli, saponinli, açı və aşı maddələrlə zəngin dərman bitkiləri aşkar edilmiş və öyrənilmişdir. Bu sahədə respublikamızın bir qrup farmakoqnost alimlərinin [1,2,3,4,6] böyük xidmətləri olmuşdur.

Müasir dövrdə kimya-əczaçılıq sənayesi isthesal etdiyi dərman maddələrinin təxminən 40%-ni dərman bitkilərinin xammalı təşkil edir. Ən müxtəlif etiologiyalı və patogenetik xarakterli xəstəliklərin müalicəsində istifadə olunan bitki dərman xammalının həcmi 80-90 % təşkil edir. Bunun nəticəsidir ki, bitki dərman xammalına olan tələbat gündən-günə artmaqdadır.

Məlumdur ki, bitkilərin müalicəvi təsiri bilavasitə onların tərkibində olan bioloji fəal və farmakoloji maddələrin olması ilə əlaqədardır. Başqa sözlə, hər hansı dərman bitkisinin terapevtiki təyinatı onun farmakoloji tərkibi ilə müəyyən edilir. Məhz buna görə də dərman bit-kilərini farmakoloji təsirlərinə görə ayrı-ayrı qruplara bölürlər: iltihabəleyhi, bəlğəmgətirici, ödqovucu, sidikqovucu, büzüşdürücü, antiseptik, işlədici, tərqovucu, ürək vasitələri, qurdqovucu, ağrıkəsici, sakitləşdirici və s. Bu növ təsirləri isə bitkilərin tərkibindəki bioloji fəal kimyəvi birləşmələr (alkaloidlər, vitaminlər, fermentlər, qlikozidlər və s.).Qeyd olunan bioloji fəal birləşmələrdən böyük bir qrupunu terpenlər və efir yağları təşkil edir. Xalq təbabətində hələ ən qədim zamanlardan başlayaraq tərkibində terpenoidlər və efir yağları və toplanan dərman bitkilərindən istifadə edilmişdir. Eyni zamanda elmi təbabətdə də qeyd olunan dərman bitkilərindən və onların fitopreparatlarından geniş istifadə edilir.

Azərbaycan respublikasının olduqca böyük bitki sərvətindən, çox zəngin yerli floradan səmərəli istifadə etməklə, bu bitkilər arasından effektli dərman vasitələrinin, o cümlədən tərkibində terpenoidlər və efir yağları toplanan dərman bitkilərinin aşkarlanması, kəşf edilməsi, hərtərəfli öyrənilməsi və müalicə təcrübəsində tətbiq edilməsi məsələsini aktual edir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, zəngin bitki tərkibinə malik olan Gədəbəy rayonu ərazisində bitən tərkibində terpenoidlər və efir yağları toplanan dərman bitkilərinin öyrənilməsi və onların dərman xammalının farmakoqnostik təhlilinin aparılması mövzusunda tədqiqatların yerinə yetirilməsi qarşıya məqsəd qoyulmuşdur.

**Tədqiqatın materialı və metodları** Tədqiqatın məqsədi və vəzifəsi terpenoid və efir yağları ilə zəngin olan dərman bitkilərini seçib toplamaq, farmakoqnostik və farmakoloji təhlilini aparmaqdan ibarət olmuşdur. 2019-ci ilin aprel, may, iyun, iyul və eləcə də payız aylarında Gədəbəy rayonunun dağ zonasında yerləşən bir neçə kəndin (Xarxar, Maarif, Slavyanka, Gərgər) ərazilərində sistematik olaraq dərman bitkilərinin, xüsusilə tərkibində terpenoidlər və efir yağları toplanan bitkilərin aşkarlanması və toplanması üzrə müvafiq tədqiqatlar həyata keçirildi. Məlumdur ki, dərman bitki xammalının keyfiyyəti xammalın tədarük müddətinin, yığım texnologiyasının və qurudulma rejiminin düzgün seçilməsindən çox asılıdır.

Tədarük prosesində dərman bitkisinin bioloji xüsusiyyətləri, xammalda bioloji fəal maddələrin toplanması dinamikası, həmçinin tədarük prosesinin bitkinin kütləvi yayılma sahəsinin vəziyyətinə təsiri nəzərə alınmalıdır.

Bitki dərman xammalının tədarükü zamanı qəbul olunmuş bütün ümumi tədarük prosesi qaydalarına və tələb olunan bütün əməliyyatlar silsiləsinə, o cümlədən, yığım, ilkin emal, qurutma, standart vəziyyətə salınma, saxlanma və s. əməliyyatlara ardıcıl olaraq riayət olunmuşdur. Bitki dərman xammalının bəzi göstəricilərinin təyinində Dövlət Farmakopeyasına əsaslanmaqla müvafiq analiz üsullarından istifadə olundu. Makroskopiki analiz üsulu vasitəsilə morfoloji əlamət-

lərinə görə bitki dərman xammalının eyniliyi və onun keyfiyyətinin bəzi göstəriciləri təyin edildi. Bu üsulla adi gözlə və ya böyüdücü şüşə ilə bitki dərman xammalının xarici əlamətləri, görünüşü (morfologiyası), onun ayrı-ayrı hissələrinin ölçüsü, orqanoleptik üsulla rəngi, iyi ( qoxusu) və dadı və s. təyin edildi.

Dərman bitki xammalının təyinində həmçinin mikroskopik analiz üsulundan istifadə edildi. Mikroskopik analiz üsulu mikroskopun köməyi ilə tədqiq edilən obyektin (xammalın müxtılif elementlərinin) anatomik quruluşundakı fərqli diaqnostik əlamətlərə görə onun eyniliyinin təyininə əsaslanırdı [ 5,7,8,9,].

**TƏDQİQATIN NƏTİCƏLƏRİ**. Aparılmış tədqiqatların nəticələrinin təhlili göstərir ki, Gədəbəy rayonu ərazisi çox zəngin floraya malikdir və bu zəngin floranın xeyli hissəsini dərman bitkiləri təşkil edir.Rayonun Xarxar, Maarif, Slavyanka və Gərgər kəndləri ərazilərindən əldə edilmış bitki materialı nın botaniki mənsubiyyətini araşdırarkən onların arasında dərman bitkisi kimi artıq öz təsdiqini tapmış 35-dən artıq bitki növünün olması müəyyənləşdirildi.

O cümlədən, topladığımız bitkilərin xeyli hissəsini tərkibi terpenlərlə və efir yağları ilə zəngin bitkilər təşkil edirdi. Bu bitkilərdən kəklikotunu, qaraqınığı, su nanəsini, adaçayını, adi dazını, boymadərəni və s. qeyd etmək lazımdır.

Yuxarıda qeyd edildiyi kimi dərman bitkilərinin müalıcəvi təyinatı onların tərkibindəki bioloji fəal, daha dəqiq, farmakoloji maddələrin olması ilə izah edilir. Bu baxımdan, bizim tədqiq etdiyimiz kəklikotu, qaraqınıq, adaçayı,su nanəsi, adi dazı, boymadərən bitkilərinin müalicəvi təsiri onların tərkibindəki efir yağlarının və terpenoidlərin (məsələn, fenollar qrupuna mənsub olan timol və karvakrol birləşmələri olan efir yağları və terpenoidlər və s.) mövcudluğu ilə əlaqədardır.

Bitki dərman xammalının tədarükü zamanı qəbul olunmuş bütün ümumi tədarük prosesi qaydalarına və tələb olunan bütün əməliyyatlar silsiləsinə ( yığım, ilkin emal, qurutma, standart vəziyyətə gətirilmə, saxlanma və s.) ardıcıl olaraq riayət olunmaqla, əldə edilmiş kəklikotu, qaraqınıq, yarpız ( su nanəsi), adaçayı, boymadərən bitkilərinin dərman xammalının farmakoqnostik təhlili göstərdi ki, bunlar xarici əlamətlər, mikroskopik quruluş və keyfiyyətinin qiymətləndirilməsini əks etdirən göstəricilərinə ( nəmlik ümumi kül, bitkinin qaralmış və qonurlaşmış hissələri gövdə və yan budaqların qırıqları, o cümlədən analiz zamanı ayrılmışlar, müvafiq ələklərdən (deşiklərinin diametri 7 mm və 0,5 mm olan) keçməyən hissəciklər, üzvı qatışıqlar, mineral qatışıqlar və s.) görə Dövlət Farmakopeyasında təsbit olunmuş standartlara uyğundurlar.

Gədəbəy rayonu ərazisində bitən tərkibi efir yağları ilə zəngin bitkilərdən qaraqınıq, kəklikotu, yarpız və dərman adaçayı dərman xammalarında efir yağlarının miqdarının təyini göstərdi ki, bu bitkilər efir yağları ilə kifayət qədər zəngindirlər:

a) qaraqınıq:2,1% (Farmakopeya üzrə bu göstərici 2% -dən az olmamalıdır);

b) kəklikotu: 1,3% (Farmakopeya üzrə bu göstərici 1% -dən az olmamalıdır);

d) dərman adaçayı: 1,05% (Farmakopeya üzrə bu göstərici 0,8% -dən az olmamalıdır);

e) boymadərən otu: 0,9% (Farmakopeya üzrə bu göstərici 0,8% -dən az olmamalıdır.

Aparılan müşahidələr göstərdi ki, Gədəbəy rayonu ərazilərdə tərkibi terpenoidlər və efir yağları ilə zəngin dərman bitkilərinin (boymadərən və qaraqınıq) təbii ehtiyatları da kifayət qədər çoxdur. Belə ki, qəbul olunmuş müvafiq üsullarla aparılmış hesablamalar göstərdi ki, boymadərən bitkisi bitən 210 $m^2$ sahədə 48,72 kiloqram dərman xammalı, qaraqınıq bitkisi bitən 432 $m^2$ sahədə isə təxminən 95,7 kiloqram dərman xammalı ehtiyatı təşkil edə bilər.

Tədqiqat işinin nəticələrinə əsasən dərman bitkilərinin bir sıra üstünlüklərini, eləcə də Gədəbəy rayonunun rəngarəng florasının dərman bitkiləri ilə zənginliyini nəzərə alaraq bu bölgədə farmakoqnostik tədqiqatları genişləndirmək, dərman bitkilərinin, o cümlədən tərkibi terpenoid və efir yağları ilə zəngin kəklikotu, qaraqınıq, su nanəsi, boymadərən, adaçayı və s. bitkilərin müəyyənləşdirilməsi, daha ətraflı və daha dərindən öyrənilməsinə diqqəti artırmaq, bu bitkilərin sənaye istehsalını təşkil etmək, bunların dərman xammalından dərman yığıntılarının hazırlanmasında daha məqsədyönlü şəkildə istifadə etmək təklif olunur.

## ƏDƏBİYYAT

1. Abbasov R.Ə. Göygöl rayonu ərazisində bitən bəzi öskürəkəleyhi dərman bit kilərinin farmakoqnostik analizi və xammal ehtiyatlarinin təyini.Magistrantların XII Respublika Elmi Konfransının materialları. I hissə, Sumqayıt: 2012, s. 355.

2. Cavadova N.A. Efir yağları saxlayan dərman bitkilərinin farmakoloji və farmakoqnostik xarakteristikası.Ümummilli lider H.Əliyevin 92-ci ildönümünə və 2015-ci ilin Azərbaycanda “Kənd Təsərrüfati ili” elan edilməsinə həsr olunmuş magistrantların elmi-praktiki konfransının materialları. Gəncə: ADAU, 2015, s. 147.
3. Dəmirov İ.A., Manafov Ə.B., İslamova N.A. Farmakoqnoziya. Dərslik. Bakı:“Maarif” nəş., 1984, 263 s.
4. Dəmirov İ.A.İslamova N.A.,Kərimov Y.B., Mahmudov P.M.Azərbaycanın müalicə əhəmiyyətli bitkiləri. Bakı: “Azərnəşr”,1988, 182 s..
5. Hümbətov Z.İ., Əliyev B.M., Əliyeva İ.F. Botanika fənnindən tədris və tədqiqat metodları . Dərs vəsaiti. Bakı: “Apostroff”, 160 s.
6. Kərimov Y.,Süleymanov T.,İsayev C.,Xəlilov C Farmakoqnoziya. Dərslik. Bakı:2010, 771 s.
7. Süleymanov T., Kərimov Y., İsayev C. Farmakoqnoziya. Praktikum. Dərslik. Bakı: 2017.
8. Государственная Фармакопея СССР-X1 М.: изд. “Медицина” выпуск 2, 1990.
9. Самылина И.А.Аносова О.Г.Фармакогнозия.Атлас.Учебное пособие.М.:изд-во «ГЕОТАР-Медиа», 2007.

## Pharmacognostic characteristics of rich in terpenoids and essential oils medicinal plants of growing in the Kedabay region

***PhD on biological Sciences A.A.Aliyev***
***Master student N. V. Ragimova***
***Azerbaijan State Agricultural University***

**SUMMARY**

**Key words:** *terpenoids and essential oils, plants, medicinal raw materials, pharmacognostic analysis*

As a result of the studies, it was determined that a considerable part of the rich flora of Kedabay region is made up of medicinal plants, including plants rich in terpenes and essential oils: Thymus caucasica, Origanum vulgare, Millefolium officinalis, Mentha aquatica, Salvia officinalis, Hypericum perforatum. A pharmacognostic analysis of these plants was carried out, the amount of essential oils in their composition was determined, as well as the stocks of medicinal raw materials of these plants.

**УДК 615. 322**

## Фармакогностическая характеристика богатых терпеноидами и эфирными маслами лекарственных растений, произрастающих на территории Кедабекского района

***Доктор философии по биологическим наукам А.А.Алиев,***
***Магистрант Н.В.Рагимова***
***Азербайджанский Государственный Аграрный Университет***

**РЕЗЮМЕ**

**Ключевые слова:** *терпеноиды и эфирные масла, растения, лекарственное сырье, фармакогностический анализ*

В результате проведенных исследований установлено, что в составе богатой флоры Кедабекского района немалую часть составляют лекарственные растения, в том числе растения богатые терпенами и эфирными маслами: чабрец, душица, тысячелистник, мята болотная, шалфей, зверобой. Проведен фармакогностический анализ этих растений, определено количество эфирных масел в их составе, а также запасы лекарственного сырья этих растений.

*Redaksiyaya daxilolma: 03.02.2020*
*Çapa qəbul olunma: 10.02.2020*

## MÜHƏNDİSLİK

UOT 004.43

# MÜASİR PROQRAMLAŞDIRMA DİLLƏRİNİN İNKİŞAF TENDENSİYALARI VƏ PERSPEKTİVLƏRİ

*t. f. d. M. N.Məmmədov*
*Azərbaycan Dövlət Aqrar Universiteti*
*magistr E. M.Neymanlı*
*Azərbaycan Texnologiya Universiteti*

**Açar sözlər:** *proqram təminatı, proqramlaşdırma dilləri, proqramlaşdırma mühiti, proqramlaşdırmanın xüsusiyyətləri, reytinq portalları, proqram kodu, funksional proqramlaşdırma, proqramlaşdırma trendi, proqramlaşdırma arqumentləri.*

Müasir dövrdə istənilən sahədə biznes daha çox nəticəyə yönümlü olur. Məsələlərin daha mürəkkəb həll üsullarını təklif edən mütəxəssislər artıq əvvəlki kimi elə də maraqlı deyillər. Hal-hazırda qoyulmuş məsələləri tez, səmərəli və keyfiyyətli həll edən mütəxəssislərə daha yüksək tələb var. Hətta əgər məsələnin həlli üçün mürəkkəb və uzun yol lazım olsa da həmin yol özünü doğrulda bilən olmalıdır.

Bu baxımdan hazırda proqram təminatı ilə məşğul olan peşəkar proqramlaşdırıcı başa düşür ki, hər qoyulan məsələnin həlli üçün yeni proqram işləyib hazırlamaq lazım deyil. Bəzi hallarda artıq mövcud olan proqramdan, bəzi hallarda isə mövcud bir neçə proqramın birləşdirilərək istifadə edilməsi daha düzgün qərar hesab edilir. Lakin bütün bunlara baxmayaraq elə məsələlər var ki, onların həlli yeni proqramlar işlənib hazırlanmadan mümkün deyil. Proqram təminatını işləyib hazırlayan hər bir peşəkar, eləcə də peşəkar olmayan mütəxəssis üçün ən vacib olanı qoyulan məsələyə strateji olaraq düzgün yanaşmanın seçilməsidir. Qeyd olunanlardan məlum olur ki, bu cür məsələlərin həllində qabaqlayıcı hərəkətlərə malik peşəkar mütəxəssislər daha yüksək qiymətləndirilir. Başqa sözlə savadlı, səriştəli proqramlaşdırıcı elə proqram təminatını işləyib hazırlamalıdır ki, yaradılmış məhsul yalnız cari vaxtda deyil, gələcəkdə də bütün tələblərə cavab verməklə aktual olmalıdır [1].

Digər tərəfdən böyük həcmli müəssisələrdə çoxsəviyyəli məsələlərin həlli üçün yararlı olan proqramlar daha vacibdir. Buradan da aydın olur ki, müasir peşəkar proqramlaşdırıcının hazırlıq səviyyəsi unversallığa malik olmalıdır. Məhz bu xüsusiyyətlərə malik olan proqram təminatının yaradıcısı həm kiçik müəssisələrin işlərinin avtomatlaşdırılması və həm də iri informasiya sistemləri üçün mürəkkəb həllərin reallaşdırılması üçün müvəffəqiyyətlə proqram təminatını yarada bilir.

İstənilən sahədə mütəxəssislərin istifadə etdikləri müəyyən alətlər paketi mövcud olur. İnformasiya texnologiyaları sahəsində bu proqramlaşdırma dilləri və proqramların hazırlanması mühitidir. Adətən məhz bunların imkanlarından asılı olaraq fəaliyyət istiqaməti müəyyənləşdirilir. Qeyd edək ki, burada əsas arqument kimi çıxış edən asanlıq və rahatlıq deyil, praktiki maraqdır, başqa sözlə alət kimi bazarda daha çox tələbat olan hansı proqramlaşdırma dilinin öyrənilməsi və istifadəsidir [2].

Müasir dövrdə informasiya texnologiyaları bazarında hansı proqramlaşdırma dillərinin daha çox tələbata və reytinq üstünlüyünə malik olması sahə mütəxəssisləri üçün mühüm əhəmiyyətə malikdir. Proqramlaşdırma dillərinin qeyd olunan xüsuiyyətlərinin araşdırılması və təhlili üçün müxtəlif portalların məlumatları istifadə edilir. Bunlardan daha çox istifadə olunanlar aşağıdakılardır:

TİOBE- ən populyar olan mənbəələrdən biri hesab edilir, hər ay proqramlaşdırma dillərinin populyarlıq reytinqini dərc edir. Reytinq cədvəlinin tərtib olunmasında əsas kimi axtarış sistemlərində, o cümlədən sosial şəbəkələrdə göstərilən dilə aid olan sorğular götürülür.

PYPL- proqramlaşdırma dillərinin populyarlığını TİOBE ilə analoji olaraq müəyyənləşdirir, lakin bu zaman yalnız Google axtarış sistemindən istifadə ilə kifayətlənir. Təhlil üsulunun TİOBE ilə oxşar olmasına baxmayaraq dillərin reytinq cədvəlləri bir-birindən hiss olunacaq dərəcədə fərqlənirlər.

GitHub- ən populyar portal olub kodla işləməklə dillərin reytinqini tərtib edir. Reytinq cədvəli son 12 ayın məlumatları üzrə aparılır və bu cədvələ proqram hazırlayanların məhsuldarlığı böyük təsir göstərir.

StackOverflow- formal olaraq Stack Overflow reytinqi forumda ona müraciətin tezliyi və xüsusi illik səsverməyə uyğun reytinq kimi iki

parametrə görə müəyyənləşdirilir. StackOverflow səsvermərsində proqramlaşdırma dilləri üçün bir çox nominasiyalar mövcuddur ki, buraya da müxtəlif sorğu və suallara cavablar da daxildir.

RedMonk - bu portal GitHub portalındakı dərc edilmiş mənbələrin sayına və StackOverflow portalının isə teqlərdə müraciətlərinin miqdarına görə siyahılarına əsaslanaraq proqramlaşdırma dillərinin tələbata uyğun reytinq cədvəlini tərtib edir [3].

Yuxarıda qeyd olunan portalların məlumatlarının ümumi təhlilindən məlum olur ki, yaxın illərdə biznes-proseslərin avtomatlaşdırılması ilə əlaqədar proqramlaşdırma dillərindən istifadə trendi üstünlük təşkil edəcək. Digər tərəfdən bir çox aparıcı mütəxəssislərin fikinə görə müasir dövrdə daha çox populyar olan internet mağazalar üçün süni intellekt texnologiyaları perspektiv istiqamətlərdən hesab edilir. Eyni zamanda çatbotlardan istifadə də xüsusi tələbata malikdir.

Proqram təminatının işlənib hazırlanması ilə əlaqədar vacib aspektlərdən biri proqramlaşdırma dillərinin aktuallığıdır. Qeyd olunan portalların reytinq siyahılarına görə JavaScript yenə də reytinq cədvəlində özünəməxsus yer tutur. Bu proqramlaşdırma dili yalnız desktop əlavələrin deyil, həm də mobil əlavələrin işlənib hazırlanması üçün optimal dildir. Bu proqramlaşdırma dilinin öz populyarlığını saxlamasının bir səbəbini də onun Reast.js, Angular və Vue.js kimi kitabxanalarından istifadə etməsi ilə də izah etmək olar.

Hazırda aktual olan proqramlaşdırma dillərindən biri də Python dilidir. Son zamanlar bu dilə daha çox proqramlaşdırıcılar müraciət edir. Bu isə ondan irəli gəlir ki, Python yalnız layihə üzərində işləmək üçün deyil, həm də hazır məhsulun dəstəklənməsini də həyata keçirə bilir. Eyni zamanda dil orta səviyyəli biznesin təşkili və idarə olunması əlavələrinin hazırlanması üçün də əlverişli alətdir [2].

Python və JavaScript dillərindən başqa populyar dillər arasında Google şirkətinin işləyib hazırladığı paralel hesablamaların dəstəklənməsi əlavələrinin hazırlanmasında müvəffəqiyyətlə istifadə olunan Go dili də özünəməxsus yer tutur.

Müasir dövrdə geniş istifadə olunan Android sistemi üçün əlavələrin hazırlanmasında Kotlin proqramlaşdırma dilindən istifadəyə üstünlük verilir. Bu proqramlaşdırma dili sadələşdirilmiş sintaksisə malik olduğuna görə optimal hesab edilə bilər. Onun sadələyi mobil əlavələri yaradılmasında böyük üstünlüyə malikdir.

Müasir proqram hazırlanması mühiti mütəxəssisin təmiz kodun yazılması ilə əlaqədar vərdişlərə malik olmanı tələb edir. Proqramın təmiz kodu aşağıdakı əlamətlərə malik olmalıdır:

- başa düşülən olmalıdır;
- modifikasiya olunmasının asan olmalıdır;
- testləşdirmə mərhələsi sadəliyi ilə seçilməlidir;
- işin korrekt olması təmin olunmalıdır.

Proqramlaşdırıcı proqram kodunu digərlərinin başa düşməsi üçün şərhlərlə hazırlayarsa, onda bu proqram əlavəsinin daha böyük perspektivləri mövcuddur.

Son illərdə proqramlaşdırma dillərinin fəaliyyətinin araşdırılması və müxtəlif mənbələrin məlumatlarının təhlili göstərir ki, 2017-ci ildən başlayaraq funksional proqramlaşdırmaya qayıtma tendensiyaları artmışdır. Bu kateqoriyadan olan proqramlaşdırma dilləri artıq müəyyənləşdirilmişdir və onlar aşağıdakıları dəstəkləyirlər:

- sıxlaşdırılmış və aydın sintaksisin təmin olunması;
- kompilyasiya prosesində səhvlərin keyfiyyətli yoxlanması;
- paralel hesablamaların dəstəklənməsi.

Proqramlaşdırmanın bu istiqamətinin qabaqcıl texnologiyalara aid olmasına baxmayaraq, Clojure, Scala, Haskell kimi proqramlaşdırma dilləri də buraya aiddir:

Proqramlaşdırmanın verilmiş trendi üçün xarakterik olan bir sıra alətlər də mövcuddur. Onları müəyyənləşdirən əlamətlərə aşağıdakılar aid edilir:

- təmiz funksiyaların kombinə edilməsi;
- mütəxəssislər tərəfindən imperativ deyil, deklarativ yanaşmaya üstünlük verilməsi;
- bölüşdürülən məsafələr, müxtəlif fəsadlar kimi hadisələrdən uzaq durmaq.

Bir tətəfdən funksional proqramlaşdırma yeni imkanlar açır, digər tərəfdən isə o, bir çox mütəxəssislərin işləməsi üçün mürəkkəbdir. Bu səbəbdən də bu istiqamət hətta səriştəli mütəxəssislərə də bəzi çətinliklər yaradır. Məhz bu səbəbdən funksional proqramlaşdırmanın malik olduğu üstünlüklərlə yanaşı, mütəxəssis onun çatışmamazlıqlarını da bilməlidir:

- səmərəli nizamlanmamış lüğət və çoxluqların olmaması;
- alqoritmləşdirmə üçün qraflardan istifadənin mümkünsüzlüyü;
- bütövlükdə proqramlaşdırmanın imperativ prinsipinə əsaslanan həllər üçün istifadənin mümkünsüzlüyü.

Funksional proqramlaşdırma tərəfdarları yuxarıda göstərilən ikinci və üçüncü arqumentlərin çatışmamazlıq olmamasını təsdiq edirlər və funksional proqramlaşdırmadan onun ilkin təyi-

natında nəzərdə tutulmamış məqsədlər üçün istifadə olunmasını məsləhət görmürlər. Eyni zamanda funksional proramlaşdırmanın aşağıdakı əlavə üstünlüklərə malik olduğunu göstərirlər:

- yüksək səviyyəli mücərrədlik;
- daha qısa kod, bunun da nəticəsində daha az səhv etmə riski;
- dil primitivlərinin az olması;
- dilin strukturunun çevikliyi və onun plastikliyi.

Funksional proqramlaşdırma dilləri ilə işləmə vərdişlərinə malik olmayan, lakin onlarla işləmək istəyən mütəxəsssilərə daha sadə məsələlərdən başlamaq məsləhət görülür [4].

Bütün qeyd olunanlardan aydın olur ki, proqram təminatının işlənib hazırlanması ilə məşğul olmaq istəyən hər bir şəxs bu sahədəki şəraitə davam gətirmək üçün sürətlə dəyişən tendensiyalar mühitinə uyğunlaşmalıdır. Qeyd edək ki, tendensiyalar bir çoxlarının göstərdiyi kimi yalnız taktiki olaraq deyil, həm də strateji olaraq da sürətlə dəyişir. Reytinq portalları üzrə aparılan tədqiqatlar, eləcə də öyrənilən inkişaf tendensiyaları sübut edir ki, hal-hazırki vəziyyət yaxın illərdə davam edəcəkdir. Bu baxımdan hələlik əsas proqramlaşdırma aləti kimi JavaScript və onun kitabxanaları proqram təminatının işlənib hazırlanmasında əsas yerlərdən birini tutacaq. Qeyd edək ki, ildən-ilə proqram təminatının işləyib hazırlayanların sayının artmasına baxmayaraq onlardan yalnız müəyyən bir hissəsi yuxarıda göstərilən tələblərə cavab verərək, xüsusi texniki istedada və proqramlaşdırmanın yaxın dövrdəki inkişaf tendensiyalarını görmə qabliyyətinə malikdir. Bu qəbildən olan proqram təminatı sahəsi mütəxəssisləri aşağıdakı xüsusiyyətlərə malik olmalıdırlar:

-yalnız axım şəkilli məsələlərin həlli üçün deyil, həm də hipotetik gələcək üçün proqram təminatını işləyib hazırlamanı bacarığına;

-funksional proqramlaşdırma vərdişlərinə;

-proqram təminatının işlənib hazırlanmasında istifadə olunanhər bir alət və üsulun mümkün potensialından maksimal istifadə etmə qabliyyətinə malik olmalıdır.

Proqram təminatı sahəsinin mütəxəssisi olmaq üçün bu bacarıq və vərdişlərə yiyələnmək, istehlakçı kimi proqram təminayını işləyib hazırlayan mütəxəssisə müraciət etdikdə isə məhz göstərilən tələbləri ödəyən mütəxəssisi seçmək lazımdır.

## ƏDƏBİYYAT


1. Гергель В.П. Современные языки и технологии паралелльного программирования: Учебник. — М.: МГУ, 2016. — 408 с.
2. Лаврищева Е. М. Программная инженерия и технологии программирования сложных систем : учебник для вузов.— 2-е изд., испр. и доп. — М. : Издательство Юрайт, 2019. — 432 с.
3. www.info-comp.ru/top- popular-programming-language
4. www.prog-time.ru


**УДК 004.43**

## Тенденции и перспективы развития современных программных языков


***д. ф. т. Мамедов М. Н.***
***Азербайджанский Государственный Аграрный Университет***
***магистр Нейманлы Е. М.***
***Азербайджанский Технологический Университет***


## РЕЗЮМЕ

**Ключевые слова:** *программное обеспечение, языки программирования, среда программирования, особенности программирования, рейтинговые порталы, программный код, функциональное программирование, тренд программирования, аргументы программирования.*

Статья посвящена изучению, анализу, тенденциям развития и возможным перспективам языков программирования, которые рассматриваются в качестве основных инструментов информационных технологий, играющих особую роль в развитии различных областей. С этой целью были изучены основные характеристики, возможности и использование различных групп языков программирования и связанных с ними сред программирования, которые в настоящее время используются в разработке программного обеспечения, и получены соответствующие результаты.

Изучены основные характеристики и принципы работы различных рейтинговых порталов, которые играют важную роль в оценке и использовании современных языков программирования. По результатам изучение основных списков результатов этих рейтинговых порталов и исследований определены тенденции и перспективы развития современных языков программирования.

**Development tendencies and perspectives of modern programming languages**

***d. p. t. Mamedov M. N.***
***Azerbaijan State Agrarian University***
***Master Neymanli E. M.***
***Azerbaijan Technology University***

**SUMMARY**

**Keywords:** *software, programming languages, programming environment, programming features, rating portals, program code, functional programming, programming trend, programming arguments.*

The article is devoted to the study, analysis, development trends and possible perspectives of programming languages, which are considered as the main tools of information technology that play a special role in the development of various fields. To this end, the main features, capabilities, and uses of the different groups of programming languages currently being used in software development, and related programming environments, have been investigated and appropriate results have been obtained.

Different rating portals, their main features and working principles are given, which play an important role in the evaluation and use of modern programming languages. According to the results of these rating portals and research, development and prospects of development of programming languages are explained.

*Redaksiyaya daxilolma: 21.01.2020*
*Çapa qəbul olunma: 30.01.2020*

UOT 635.21

# KƏND TƏSƏRRÜFATI TORPAQLARININ BİOLOJİ TƏMİZLƏNMƏ ÜSULLARI

*Ş.M. Babayev, İ.A.Alıyev, S.B.İsmayılov, M.H.Cəfərov, S.Ə.Katibli*
*Azərbaycan Dövlət Aqrar Universiteti*

**Açar sözlər:** *torpaq çirklənmə, bioloji təmizləmə, bitki növləri, relyef, aqrotexniki becərmə, torpaq orqanizmiləri, məhsul.*

Uzun illər mərkəzləşdirilmiş kənd təsərrüfatında nəyin bahasına olursa olsun "verilmiş planın" yerinə yetirilməsi bəzən təbiəti qoruyucu və onu mühafizə edici tədbirlərin unudulmasına və ya düzgün həyata keçirilməməsinə səbəb olmuşdur. Həmin dövrdə İttifaqın "kənd təsərrüfatının kimyalaşdırılması "kompaniyası da çox zaman yerlərdə duzgun yerinə yetirilməyərək, ətraf mühitə böyük ziyan vurmuşdur. 1990-cı illərin axırlarında Respublikanın ayrı-ayrı əkin sahələrinə verilmiş mineral kübrələrin miqdarı orta İttifaq normasından qat-qat 20-30 dəfə, kənd təsərrüfatı bitkilərinin zərərvericiləri, xəstəlikləri və alaq otları ilə mübarizədə istifadə edilən zəhərləyici kimyəvi preparatların konsentrasiyası isə normativdə nəzərdə tutulan miqdarlardan 15-25 dəfə artıq olmuşdur.

Bu zərərli kimyəvi maddələrin çoxunun təbiətdə tonlama (kumulyasiya edilmə) xüsusiyyətlərinə malik olması onların tədricən yığılaraq öz konsentrasiyasını toksiki səviyyəyə çatdırmasına və nəticədə bir çox əkin sahələrinin yüksək dərəcədə çirkləndirilməsinə səbəb olmuşdur.

Aqrar sahədə aparılmış islahatlar nəticəsində əhalı arasında paylanmış torpaqların deyilən səbəblərdən çirkli olması və ona görə də münbitliyinin aşağı düşməsi indiki torpaq sahibkarlarının və fermerlərin orada təbiəti qoruyucu və onu mühafizə edici tədbirlər həyata keçirərək onun tədricən bioloji təmizlənməsinə və münbitliyinin bərpasına şərait yaratması günün aktual problemlərindən biridir.

Torpağın çirklənmə dərəcəsinin qiymətləndirilməsi onun sanitariya göstərmə göstəricilər əsasında aparılır (cədvəl 1).

Torpağın öz-özünü təmizləməsi mürəkkəb və uzun müddət davam edən bioloji prosesdir [1]. Bu prosesdə üzvi maddələr suya, karbon qazına, mineral duzlara və humusa çevrilir, patogen törədicilər isə ölür.

**Cədvəl 1.**

Torpağın öz–özünü bioloji təmizləmə prosesinə müxtəlif faktorlar təsir edir.

| Torpağın sanitariya vəziyyəti | Koli-titri | Anaeroblar- titri | Torpağın 1 kq-da askarıd yumurta-larının sayı | Sanitariya ədədi |
|---|---|---|---|---|
| Təmizdir | 1 və bundan çoxdur | 0,1 və bundan çoxdur | 0 | 0,98-1,0 |
| Az çirklənmişdir | 1,0-0,01 | 1,0-0,001 | 10-a qədər | 0,85-0,98 |
| Orta dərəcədə çirklənmişdir | 0,01-0,001 | 0,001-0,0001 | 10-100 | 0,75-0,98 |
| Çox çirklənmişdir | 0,001 və bundan azdır | 0,0001 və bundan azdır | 100-dən çoxdur | 0,70-dən azdır |

Torpağın öz–özünü təmizləmə qabiliyyəti məhduddur, müəyyən şəraitdə həyata keçirilir və müxtəlif faktorlardan asılıdır. Bunlardan ən başlıcası torpağın çirklənmə növü və dərəcəsidir. Torpağın aşağıdakı çirklənmə növləri vardır.

1.Kimyavi çirklənmə. Pestisidlər, mineral gübrələr, ağır metallar, neft və neft məmuulatları, radionuklidlər tərəfindən baş verən çirklənmələr;

2. Bioloji çirklənmə kənd təsərrüfatı (bitki və heyvanat) məhsulları tullantıları ilə, mikrobioloji, entomoloji zülal-vitamin məhsulları hazırlayan təsərrüfatların tullantıları ilə baş verən çirklənmələr.

Torpağın bioloji təmizlənməsində becərilən bitki növlərinin mühüm rolu vardır. Mədəni bitkilər müxtəlif bioloji xüsusiyyətlərə malik olduqlarına görə torpağa, orada yaşayış amillərinə (suya, qidaya, havaya, mikroorqanizmlərə) müxtəlif tələbat göstərirlər. Bitkilərin bu xüsusiyyətlərindən istifadə edərək torpağın bioloji təmizliyinə nail olmaq olar. Hər hansı bir bitkinin becərilmə prosesi zamanı sahədə bir çox aqrotexniki, kimyəvi, mexaniki və bioloji tədbirlər aparılır. Bu tədbirlərin bəziləri bir tərəfdən bitkilərin inkişafına müsbət təsir göstərirsə, digər tərəfdən torpağın münbitliyini azaldır və bioloji təmizliyini pozur. Məsələn, mexaniki aqreqatların vegetasiya müddətində sahədə hərəkət etməsi, torpağın üst qatının strukturunun pozulmasına səbəb olur. Mineral gübrələrin yüksək dozada verilməsi bitkilər tərəfindən tam istifadə edilmədiyinə görə torpaqda və qrunt sularında nitratların, çətin həll olunan

fosfor birləşmələrinin və xlorun miqdarını artıraraq onu çirkləndirir. Ziyanvericilərə və alaq otlarına qarşı zəhərli maddələrin tozlanması və çilənməsi torpaqda olan faydalı mikroorqanizmlərin məhv edilib azalmasına səbəb olur, bu da torpaqda olan üzvü maddələrin və qalıqların parçalanmasını ləngidir. Mədəni bitkilərin öz bioloji xüsusiyyətlərinə və morfoloji quruluşlarına görə də bir-birindən fərqlənirlər. Bu fərqlər torpağa və mühitə olan tələbatın müxtəlifliyindən irəli gəlir. Odur ki, bitkilər tərəfindən torpaqda olan qida elementlərinin müxtəlif miqdarda istifadə edilməsi, onları dis balansına gətirir. Bu da bəzi elementlərin çoxalması və bəzilərinin azalması nəticəsində bioloji tarazlığı pozur. Qida maddələrinin belə birtərəfli istifadə edilməsi ilk növbədə eyni bitkilərin bir neçə eyni sahədə əkilməsi zamanı müşahidə edilir. Onların qidalara müxtəlif tələbatı və kök sistemlərinin quruluşu (saçaqlı kök-dənli bitkilər, mil-kök cərgəarası becərilən bitkilər və s.)Bütün əkin qatından qida maddələrinin mənimsənilməsinə nail olmağa imkan verər. Bəzi bitkilər öz kökləri ilə şorlanmanın, erroziyanın qarşısını alaraq torpağı üzvü maddələrlə zənginləşdirilir və bununla torpağın münbitliyini artırır. Belə bitkilərlə çoxillik paxlalı bitkilər (yonca, üçyarpaq yonca, xaşa və b.) aiddir. Bir çox ziyanvericilər, xəstəliklər və alaq otları müxtəlif bitkilərə uyğunlaşdığına görə monokultura zamanı torpağı bioloji cəhətdən zibilləyir.Beləliklə, torpağın münbitliyini bərpa etmək və torpağın əkin qatının bioloji təmizliyini nizamlamaq üçün ən effektli vasitə kimi elmi cəhətdən əsaslandırılmış növbəli əkin sisteminin və orada bitkilərin düzgün növbələşdirilməsini tədbiq etmək lazımdır. Bundan əlavə bütün mədəni bitkilər torpağın xüsusiyyətlərinə, münbitliyinə, torpaqda yaşayan orqanızmlərə, həşaratlara, oradakı alaq otlarına və bütün torpaq mikroflorasına təsir göstərir. Öz növbəsində torpağın daxılındəki və xaricindəki bütün təbii orqanizmlər və bitkilər mədəni bitkilərlə müxtəlif formada təsir göstərir. Müxtəlif mədəni bitkilər torpaqdakı qidalı maddələrlə və onların nisbətlərinə müxtəlif tələblər qoyur. Dənli mədəni bitkilər azot və fosforlu çox tələb edir, paxlalılar əhəngi, kökmeyvəlilər isə kaliumu. Ona görə də eyni mədəni bitkilərin ildən-ilə eyni sahələrdə əkilməsi torpağın qidalı maddələrinin birtərəfli istifadə edilərək, tükənməsinə gətirir. Torpağın qidalı maddələrinin belə qeyri-bərabər istifadəsi onun tərkibində bəzi elementlərin azalmasına, bəzilərinin isə əksinə yığılaraq artmasına səbəb olur. Bu isə torpağın münbitliyinin aşağı düşməsinə, orada xəstəlik törədici mikrobların və alaq otlarının artmasına və digər mənfi halların baş verməsinə səbəb olur. Belə mənfi halların baş verməməsi üçün növbəli əkin sistemini tətbiq etmək lazımdır.

Aqromühəndislik təcrübəsi göstərir ki, torpağın münbitliyini bərpa edən ən qiymətli bitkilərdən biri üç yarpaq yonca və bir çox başqa paxlalı bitkilərdir. Onlar öz kök sistemi ilə torpağı azotla zənginləşdirir, fosfor birləşmələrini həll edir və mənimsəyir. Eyni zamanda bu bitkilər torpağı bir çox alaq otlarından da təmizləyir. Qeyd etmək lazımdır ki, bəzi mədəni bitkilər özündən sonra torpağı yaxşı vəziyyətdə ( becərmədə tətbiq olunan aqrotexniki tədbirləri nəzərə almaqla) qoyur, yəni onu yumşaq, alaqlardan və xəstəlik törədici bakteriyalardan təmiz vəziyyətə salır. Torpağı yaxşı vəziyyətə gətirən mədəni bitkilərlə qarğıdalı, paxlalı və dənli bitkilər, kartof, çuğundur, paxlalı otlar, payızlıq buğda, yemçilik otları və digərləri aiddirlər. Bu üsusiyyətləri nəzərə alaraq aşağidaki nöbəli əkin sistemini tövsiyə etmək olar:

**Paxlalalı-Payızlıqlar-Kartof-Qarğıdalı-yazlıq-Sünbüllülər-Paxlalılar.** Torpağın bioloji təmizlənməsini və münbitliyinin artırılması istiqamətindəki əsas tədbirlərdən biri də torpağın dincə qoyulmasıdır. Dincə qoyulmuş torpaqlara əvvəlcə əkin altında olmuş, amma payızdan başlayaraq bir ildən artıq kənd təsərrüfatı birkilərinin səpini üçün istifadə edilməyən və herik üçün hazırlanmamış sahələr aiddir. Belə torpaqların torpaq örtüyünün üst qatı –çimlik-öt kökləri ilə çox dolaşmış olur. Çimlik əla strukturlu olmasına baxmayaraq o yumşaldılmasa oraya su və hava çətinliklə işləyir. Çimliyi düzgün becərməklə üç əsas məqsədə nail olunur: çim xırdalanır, çimləşmiş şum qatı yumşaldılır və otların kök qalıqları elə şəraitə düşür ki, orada parçalanıb mənimsənilən qida maddələrinin əmələ gəlməsinə səbəb olur. Mikroorqanizmlərin köməyi ilə bu qalıqların parçalanıb bitkilər mənimsəyə biləcək qida maddələri əmələ gətirməsi üçün müəyyən vaxt lazım gəlir ki, bu da onun dincə buraxılması ilə əldə olunur. Beləliklə, dincə buraxılan torpaqların münbitliyi və strukturu bərpa olunur, onlar alaq otlarından və zəhərli kimyavı qalıqlardan təmizlənir, orada xəstəlik törədən ziyanlı köbələklər, bakteriyalar məhv olur.

Torpaqların bioloji təmizlənməsində aqrotexniki becərilmə üsullarının da mühüm rolu vardır. Çünki mədəni bitkilərin məhsuldarlığı əsasən, bitkilərin suya, havaya, qida elementlərinə və istiliyə olan tələbatını torpağın ödəyə bilməsi qabiliyyətindən asılıdır.

Torpaqların bioloji cəhətdən təmiz olması ilk növbədə düzgün və optimal səviyyədə aparı-

lan aqrotexniki tədbirlərdən asılıdır. Mədəni bitkilərin yerli şəraitə uyğun seçilməsi əkinlərin elmi əsaslarla tədbiqi, torpağın becərilmə texnologiyası, yüksək keyfiyyətli toxumların hazırlanması və səpini, üzvü gübrələrdən geniş istifadə edilməsi, vegetasiya dövründə vaxtlı-vaxtında qulluq işlərinin aparılması, alaq otları, xəstəliklər və ziyanvericilərlə mübarizədə bioloji üsullardan geniş istifadə edilməsi əsasında torpaqların bioloji təmizliyinə nail olmaq olar.

Torpaqların bioloji təmizlənməsində torpaq orqanizmilərinin rolu da böyükdür. Çünki torpaqda yaşayan canlılar onu təkcə yaşamaq üçün istifadə etmirlər və eyni zamanda torpağı aktiv formada dəyişirlər. Ona görə də torpaq təkcə bu canlıların yaşayış yeri yox həm də onların yaratdıqları məhsuldur.

Torpaq heyvanat aləmi, torpağın mexaniki boşadılmasında, kimyəvi proseslərində humuş və struktur xüsusiyyətlərinin yaradılmasında, bioloji aktivliyinin artırılmasında iştirak edirlər. Torpağın bir qramında 1-5 milyarda kimi müxtəlif bakteriyalar fəaliyyət göstərir və hər hektar torpağın üst qatında onların kütləsi 5-7 tona çatır.

Çirklənmiş torpaq hava və sudan fərqli olaraq öz –özünə təmizlənmə prosesi çox zəif və uzunmüddətli gedir.

Bu prosesin intensivləşməsində faydalı mikroorqanizmlərin böyük rolu olduğu üçün onların fəaliyyətinə şərait yaratmaq lazımdır. Bunlar torpaqda üzvü qalıqları parçalayir və onların müxtəlif birləşmələr şəklinə düşməsinə və nəhayət bu birləşmələrin ali bitkilər tərəfindən mənimsənilməsinə şərait yaradır. Bundan başqa onların bir qismi ali bitkilərin atmosferdən mənimsəyə bilmədiyi sərbəst azotu mənimsəyir və onu da bitkilər mənimsəyə biləcək formaya salır. Bu faydalı mikroorqanizmlər torpağın humuş yaranma prosesində və bir çox mineralların parçalanması və sintezində iştirak edirlər. Onlar torpağa öz təsirini xüsusi fermentlər vasitəsi ilə göstərirlər. Demək olar ki, onlarsız münbit torpaq yaratmaq mümkün olmazdı. Torpaqda yaşayan başqa heyvanat aləminində torpağın təmizlənməsində böyük rolu vardır. Onlara qurdlar, gəmiricilər, həşaratlar və ibtidai orqanizmilər aiddirlər. Onlardan soxulcanlar həyat fəaliyyətində öz qida traktından torpaq və üzvü qalıqları keçirirlər. Bu zaman həmin kütlə bir-birinə yapışmış komacıqlar formasına düşür, onun strukturunu yaxşılaşdırır. Sahəsi 1 kv.m olan torpaqda soxulcanların açdıqları yolların ümumi uzunluğu 1 km-ə (bəzən isə 8 km-ə) çatır. Bu yollar hava və suyun daxil olmasına şərait yaradır. Bundan əlavə soxulcanlar bu yollarla torpağın aşağı qatını yuxarı qaldırır və üst qatın üzvi maddələrini isə torpağın dərinliyinə endirir. Soxulcanların təsiri nəticəsində torpağın kimyəvi tərkibi də dəyişir. Çünki onların fəaliyyət göstərdiyi yerlərində PH göstəriciləri artıq olur və bu da mikrobların inkişafına şərait yaradır. Gəmiricilər (yereşənlər, sıçan, siçovul, sünbül qranlar və s.) torpaqda çoxlu deşiklər, onun üstündə isə təpəciklər yaradaraq torpağın quruluşunu və relyefini dəyişir.

Köbələklər xarici mühitə ferment buraxır və qida maddələrini absorbotiv yolla qəbul edir, bitki və heyvanat mənşəli qalıqların minerallaşdırılmasında və torpaq yaranma prosesində iştirak edib, bakteriyalarla birlikdə həyat fəaliyyəti qalıqlarını və tullantılarını parçalayaraq elementlər formasında dövriyyəyə qaytarır. Torpaqların bioloji təmizlənməsində torpağın tipinin, onun relyefinin və orada becərilən mədəni və yabanı bitki örtüyünün böyük rolu vardır. Torpağın tipinin onun bioloji təmizlənməsinə təsiri hər bir tipin özünə məxsus xassələrinin olması ilə əlaqədardır.

Torpağın bu göstəricilərdən ən mühümmüsü onun strukturu, məsaməliyi, su sızdırma qabiliyyəti, hava tutumu və s. aiddir. Strukturlu və iri məsaməli torpaqlara hava və su yaxşı keçir. Orada torpaq orqanizmlərinin yaşamağa, inkişafına və fəaliyyətinə hər cür şərait yaradılır. Ona görə də ora düşmüş üzvi qalıqlar tez oksidləşərək tərkib hissələrinə parçalanır və beləliklə, torpağın öz-özünü bioloji təmizlənməsi asanlaşır.

Torpağın relyefinin müxtəlifliyi səth sularının paylanmasına və onun vasitəsi ilə torpağın canlı və bitki aləminin inkişafına və fəaliyyətinə böyük təsir göstərir. Maili torpaqlarda humus hissəsinin səth suları ilə eroziyaya uğraması baş verir, torpağın bərk və gilli hissəsi qalır ki, burada torpaq canlı və bitki aləmi məhdud olduğundan bioloji təmizləmə prosesi zəif gedir.

Bitki örtüyünün torpağın bioloji təmizlənməsində və münbitliyinin artırılmasında rolu böyük olduğundan növbəli əkin sistemi tətbiq olunur. Üç yarpaq yonca və digər paxlalı bitkilər öz kök sistemi vasitələri ilə torpağı müəyyən qidalı maddələrlə zənginləşdirməklə yanaşı, torpağın strukturunu əsaslı sürətdə yaxşılaşdırdığından orada bioloji təmizlənməyə zəmin yaranır. Özündən sonra torpağı yaxşı vəziyyətə gətirən bitkilərə qarğıdalı, paxlalı bitkilər, kartof, çuğundur, paxlalı otlar, payızlıq taxıl və yemçilik otları aiddirlər.

Aparılmış tədqiqat əsasında aşağıdakı nəticələrə gəlmək olar:

1. Bol və təmiz məhsul əldə etmək üçün hazırki fermer və torpaq sahibkarlarına öz torpaq sahələrinin çirklənmə dərəcəsinin qiymətləndir-

mələri və onların bioloji təmizləmələri tövsiyə olunur.

2. Çirkli torpaqların bioloji təmizlənmə imkanları mövcuddur, bu proses torpağın tipi və relyefindən, orada becərilən bitki növlərindən və onların növbələşdırilməsindən, aqrotexniki becərmə üsullarından və torpaq orqanizmlərindən, lazım gəldikdə isə torpağın dincə buraxılmasından asılıdır.

3. Hər bir konkret torpaq sahəsi və onun çirklənmə dərəcəsi üçün mütəxəssislər tərəfindən bioloji təmizlənmə üsullarından daha əlverişlisi təyin oluna bilər.

## ƏDƏBİYYAT

1.V.S.Quliyev, İ.A.Alıyev, S.Ə.Quliyev, Kənd təsərrüfatında təbiəti qoruyucu və onu mühafizəedici ekoloji tədbirlər. Gəncə: “Ekologiya” nəş., 2002,84 s.

## Methods of biological protection of agrotechnical soil

***Sh.M.Babayev, I.A. Aliev, S.B.Ismayilov, M.H.Jafarov, S.A Katibli***

## SUMMARY

**Key words:** *soil, pollution, biological treatment, plant variety, relief, agrotechnical treatment, soil microorganisms, crop*

Biological treatment of contaminated agricultural land depends on their type, relief, types of crops cultivated there, agro-technical and other rules of cultivation of soil, microorganisms in soil and other factors.

Cultural plants, because they have different biological characteristics, have different demands on soil, water, nutrients, air and microorganisms. Therefore, they use different amounts of nutrients in the soil, causing some toxins. As a result, cultivation of the same plants over the years in the same area will result in the growth of some elements and the decline of some. Prevention of such consequences creates a need for proper rotation of crops grown in the same area. Such measures lead to biological purification of the soil.

Its type and relief also play a role in biological treatment of soils. Because the soil structure, porosity, water leakage and air capacity play a great role. This is because the good quality of these indicators leads to the rapid oxidation, decomposition and, consequently, biological treatment of the soil.

**УДК635.21**

## Методы биологической очистки сельскохозяйственных земель

***Ш.М.Бабаев, И.А.Алиев, С.Б.Исмайлов, М.Х.Джафаров, С.А. Катибли***

## РЕЗЮМЕ

**Ключевые слова:** *Почва, загрязнение, биологическая очистка, сорт растений, рельеф, агротехническая обработка, микроорганизмы почвы, урожай.*

Биологическая очистка загрязненных сельскохозяйственных земель зависит от их типа и рельефа, от вида культивируемых там растений, от агротехнических и других способов обработки почвы, от микроорганизмов в почве и других.Имея различные биологические особенности культурные растения, представляют различные потребности в почве, в воде, в воздухе, питательным веществом и микроорганизмом. Поэтому они используя в различной степени, разные питательные вещества из почвы создает там дисбаланс этих веществ. В результате чего при неоднократном культировании одних и тех же растений на одном и том же земельном участке приводит к истощению одних элементов в почве и к повышению концентрации других элементов на этих участках. Для предотвращения этого негативного явления применяют рациональное чередование культивируемых растений на этих участках. Рациональное чередование сельскохозяйственных полях культивируемых растений в свою очередь приводит к биологической очистке этих земель.В биологической очистке земель определенную роль играет также тип самой почвы и ее рельеф. Потому, что структура самой почвы ее порустость, возможность пропуска жидкости, а также аэрация воздуха приводит к быстрому окислению и разложению органических материалов. В результате чего происходит биологическая очистка почвы. В биологической очистке земель существенную роль играет так же методы обработки почвы. Потому, что в процессе агротехнических, химических, механических и биологических способов обработки почвы, что и влияет биологическую очистку сельскохозяйственных земель.

*Redaksiyaya daxilolma: 13.01.2020*
*Çapa qəbul olunma: 18.01.2020*

## İQTİSADİYYAT

# AZƏRBAYCANDA ÇƏLTİKÇİLİYİN İNKİŞAFININ STİMULLAŞDIRILMASI BARƏDƏ

*A.N.Hətəmov*
*Azərbaycan Dövlət Aqrar Universiteti*

**Açar sözlər:** *çəltik; çəltikçilik; təmizlənmiş düyü; əkin sahəsi; istehsal; məhsuldarlıq; tələbat; idxal; özünütəminetmə; qiymət; subsidiya.*

Ərzaq təhlükəsizliyinin təmin olunmasında, əhalinin taxıl məhsullarına olan tələbatının ödənilməsində çəltikçiliyin rolu böyükdür. Tarixə nəzər salsaq görərik ki, ölkəmizdə Sovet hakimiyyətinin qurulduğu dövrə qədər çəltikçilik aparıcı kənd təsərrüfatı sahələrindən biri olmuşdur. Planlı təsərrüfatçılıq sistemi şəraitində əmək bölgüsünün müttəfiq respublikaların iqtisadi potensialı, müqayisəli üstünlüyü bir çox hallarda nəzərə alınmadan, inbzibati yollarla aparılması nəticəsində çəltikçilik kimi ənənəvi və müqayisəli üstünlüyə malik kənd təsərrüfatı sahəsinin inkişafı lazımi səviyyədə diqqət mərkəzində saxlanılmamışdır.

Dünyada çəltikçiliyin inkişaf dinamikasına baxdıqda son illərdə həm əkin sahəsinin, istehsalın və məhsuldarlığın artdığını görmək olar. Belə ki, 2018-ci ildə bu bitkinin əkin sahəsi 167,1 milyon hektar, istehsal 782,0 milyon ton olmuşdur. 2000-ci illə müqayisədə bu göstəricilər müvafiq olaraq 13,1 və 37 faiz artmışdır. Əkin sahəsi ilə müqayisədə istehsalın daha sürətlə artması məhsuldarlığın yüksəlməsinin təzahürüdür. Aparıcı ölkələrə gəlincə, 2018-ci ildə Çin Xalq Respublikasında 212,1 milyon ton, Hindistanda 172,6 milyon ton, İndoneziyada 83,0 milyon ton, Banqladeşdə 56,4 milyon ton, Vyetnamda 44,0 milyon ton, Tailandda 32,2 milyon ton, Myanmada 25,4 milyon ton, Filippində 19,1 milyon ton, Brazilyada 11,8 milyon ton məhsul istehsal olunmuşdur (1).

Azərbaycanda çəltiyin əkin sahəsi 1913-cü ildə 47,1 min hektar (istehsal 33,0 min ton), 1940-cı ildə 24,8 min hektar (48,5 min ton), 1950-ci ildə 15,5 min hektar (29,5 min ton), 1960-cı ildə 10,1 min hektar (20,5 min ton), 1970-ci ildə 3,9 min hektar (5,6 min ton), 1980-ci ildə 0,2 min hektar (0,3 min ton), 1990-ci ildə 0,5 min hektar (0,3 min ton), 1995-ci ildə 0,2 min hektar (3,8 min ton), 2000-ci ildə 4,5 min hektar (22,4 min ton), 2005-ci ildə 2,3 min hektar (8,3 min ton), 2010-cu ildə 1,6 min hektar (4,0 min ton), 2018-ci ildə 4,1 min hektar (12,4 min ton) olmuşdur. Hektardan məhsuldarlığın səviyyəsi illər üzrə müvafiq olaraq 7,0; 19,6, 19,0; 20,0; 14,2; 13,7; 6,6; 19;9; 50,2; 36,0; 24,7 və 30 sentner təşkil etmişdir. 2018-ci ildə cəmi əkinlərin 0,2 faizi çəltiyin payına düşmüşdür (2).

Çəltik ölkəmizin bütün bölgələrində deyil, əsasən Astara, Lənkəran, Masallı, Göyçay, Biləsuvar, Salyan, Yevlax, Ağdaş, Ucar, Zərdab, Fizuli, Ağsu, Şəki, Qəbələ və Samux rayonlarında becərilir. 2018-cu ildə istehsal olunan 12413,2 ton məhsulun regionlar üzrə quruluşuna nəzər saldıqda məlum olur ki, bunun 99,7 faizi (12373,8 ton) Aran (6138,4 ton) və Lənkəran (6055,8 ton) iqtisadi rayonlarının payına düşmüşdür.

"Azərbaycan Respublikasında sitrus meyvələri, çay və çəltik istehsalının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 3227 nömrəli Sərəncamına uyğun olaraq, ölkəmizdə çəltikçiliyin inkişafına dövlət dəstəyinin daha da gücləndirilməsi, bu sahənin potensial imkanlarından səmərəli istifadə edilməsi, çəltik istehsalına marağın artırılması məqsədi ilə "Azərbaycan Respublikasında çəltikçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı" təsdiq olunmuşdur. Dövlət Proqramının məqsədi ölkə əhalisinin düyüyə olan tələbatının daha dolğun ödənilməsi, idxalın əvəzlənməsi, çəltik emalı sənayesinin inkişaf etdirilməsi və kənd əhalisinin məşğulluq səviyyəsinin yüksəldilməsi üçün ölkədə çəltikçilik sahəsinin inkişafını stimullaşdırmaqdan ibarətdir. Proqramda çəltikçiliyin inkişafı sahəsində qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün rayonlar üzrə çəltiyin optimal əkin sahələrinin müəyyənləşdirilməsi, intensiv becərmə və mühəndis-suvarma texnologiyalarının tətbiqi hesabına istehsalın artırılması və bu sahədə yüksək səmərəliliyin təmin edilməsi, müasir texnika və texnoloji avadanlıqlarla təminatının yaxşılaşdırılması, növbəli əkin sisteminin tətbiq edilməsi, yüksək məhsuldar yerli və rayonlaşdırılmış xarici çəltik sortlarının keyfiyyətli toxumlarından istifadə edilməsi, fitosanitar və informasiya-məsləhət xidmətlərinin gücləndirilməsi, emal potensialının gücləndirilməsi nəzərdə tutulmuşdur (3).

Təhlil göstərir ki, son illərdə ölkəmizdə bu sahədə istehsalın artımı müşahidə edilsə də, təmizlənmiş düyü üzrə idxaldan asılılıq səviyyəsi 2013-cü ildə 85,5 faiz, 2014-cü ildə 91,7 faiz, 2015-ci ildə 90,5 faiz, 2016-cı ildə 90,0 faiz, 2017-ci ildə 76,2 faiz və 2018-ci ildə 80,6 faiz olmuşdur (4).

2013-2018-ci illərdə ölkədə təmizlənmiş düyü istehsalı və idxalının dinamikası aşağıdakı diaqramda verilmişdir (Diaqram 1).




***Diaqram 1. Azərbaycanda təmizlənmiş düyü istehsalı və idxalının dinamikası, ton***

Diaqramdan göründüyü kimi, müqayisənin aparıldığı illərdə təmizlənmiş düyünün idxalı 28485 tondan 49286 tona və ya 73 faiz, yerli istehsalı 4833 tondan 11975 tona (2,5 dəfə) yüksəlmişdir. İstehsalın artım sürətinin idxalın artım sürətini üstələməsi müsbət hal olmaqla bunu ölkəmizdə sahəyə marağın artması kimi qiymətləndirmək olar. Hər iki göstəricinin artması isə istehlakla bağlıdır. Belə ki, qeyd olunan dövrdə adambaşına istehlakın həcmi 3,4 kq-dan 6,1 kq-a çatmışdır (79,4 faiz).

Bütövlükdə ölkəmizdə çəltikçiliyin inkişafı, təmizlənmiş düyü ehtiyatları və ondan istifadə, idxal ilə əlaqədar göstəricilər aşağıdakı cədvəldə öz əksini tapmışdır (Cədvəl 1.).

| **Göstəricilər** | **İllər** | | | | | | **2018-ci ildə 2013-cü ilə nisbətən, %, yaxud dəfə** |
|---|---|---|---|---|---|---|---|
| | **2013** | **2014** | **2015** | **2016** | **2017** | **2018** | |
| 1.Əkin sahəsi, min ha | 2,1 | 1,1 | 1,2 | 2,5 | 5,1 | 4,1 | 195,2 |
| 2.İstehsal, ton | 4 833 | 2 679 | 2 834 | 5 406 | 15 916 | 11 975 | 4,47 dəfə |
| 3.Məhsuldarlıq, sent/ha | 23,3 | 24,6 | 23,7 | 21,5 | 31,1 | 29,0 | 124,5 |
| 4.Ərzaq məhsulu kimi istifadə edilmişdir, ton | 31 617 | 31 526 | 37 006 | 41 455 | 59 990 | 60 275 | 191,2 |
| 5.Adambaşına istehlak, kq | 3,4 | 3,3 | 3,9 | 4,3 | 6,2 | 6,1 | 184,8 |
| 6.Idxal: | | | | | | | |
| -Miqdarı, ton | 18 003,1 | 6 100,7 | 26 638,8 | 48 185,7 | 51 060,2 | 49 826,1 | 8,17 dəfə |
| -Dəyəri, min ABŞ dolları | 6 625,8 | 2 661,0 | 8 031,5 | 31 794,9 | 35 963,2 | 36 431,2 | 13,7 dəfə |
| -Vahidin qiyməti, ABŞ dolları | 368,0 | 436,2 | 301,5 | 659,8 | 704,3 | 731,2 | 167,6 |
| -ABŞ dollarının məzənnəsi, manat | 0,78 | 0,78 | 1,56 | 1,77 | 1,70 | 1,70 | 217,9 |
| -Vahidin qiyməti, manat | 287,0 | 340,1 | 470,3 | 1167,8 | 1197,3 | 1243,0 | 3,7 dəfə |
| 7.İdxaldan asılılıq səviyyəsi, %-lə | 85,5 | 91,7 | 90,5 | 90,0 | 76,2 | 80,6 | X |
| 8.Özünü təminetmə səviyyəsi, %-lə | 14,5 | 8,3 | 9,6 | 10,1 | 23,8 | 19,4 | X |

Cədvəldən göründüyü kimi, müqayisə olunan dövrdə ölkədə çəltiyin əkin sahəsi 95,2 faiz, istehsal 4,47 dəfə, məhsuldarlıq 24,5 faiz, ərzaq məhsulu kimi istifadə edilmiş təmizlənmiş düyünün miqdarı 91,2 faiz, adambaşına istehlak 84,8 faiz, idxalın miqdarı 8,17 dəfə, dəyəri 13,7 dəfə, idxal olunan məhsulun vahidinin qiyməti ABŞ dolları ilə ifadədə 67,6 faiz, manatla 3,7 dəfə artmışdır. Manatla ifadədə qiymətin artmasının əsas səbəbi ABŞ dollarının məzənnəsinin 117,9 faiz artmasıdır. Deməli, digər amillərlə yanaşı, manatın devalvasiyası prosesi ilə əlaqədar olaraq idxalın bahalaşması yerli istehsalın stimullaşdırılmasının əsas amillərindən birinə çevrilmişdir.

İdxalın coğrafiyasına nəzər saldıqda məlum olur ki, 2018-ci ildə ölkəyə Hindistan, Rusiya Federasiyası, Qazaxıstan, Tailand, Pakistan, Türkiyə, İtaliya və digər ölkələrdən düyü idxal edilmişdir. Məhsul vahidinin idxal qiymətlərini aşağıdakı diaqram vasitəsilə nəzərdən keçirək.




**Diaqram 2. 2018-ci ildə ölkəyə idxal olunan düyünün 1 tonunun ölkələr üzrə qiyməti, ABŞ dolları (5)**

Diaqramdan göründüyü kimi, ölkəmizə 1 ton düyünün idxalı 731,2, o cümlədən Hindistandan 898,1, Rusiya Federasiyasından 505,8, Qazaxıstandan 474,7, Tailanddan 553,0, Pakistandan 578,6, Türkiyədən 576,1, İtaliyadan 1564,4, digər ölkələrdən 2594,3 ABŞ dollarına başa gəlmişdir. Mövcud qaydaya görə idxalın dəyərinin qiymətləndirilməsi SİF qiymətləri və ya mal idxal edən ölkənin franko-sərhəd qiymətləri üzrə aparılır, yəni malın qiymətinə onun dəyəri, ölkənin sərhədlərinə qədər daşınması və sığorta xərcləri daxil edilir.

Son illərdə bu sahəyə marağın və dövlət dəstəyinin artması nəticəsində iri sahibkarlıq subyektləri tərəfindən çəltik emalı sahəsinə də investisiya qoyuluşlarının həcmi artmaqdadır. Buna misal olaraq Masallı - Nemətləri" MMC-nin çəltik emalı müəssisəsini göstərmək olar. Müəssisənin çəltik təsərrüfatının ümumi sahəsi isə 60 hektar olmaqla ən müasir avadanlıqlar və texnologiyalarla, o cümlədən 400 tonluq anbarla təchiz olunmuşdur. 25 hektar sahə isə Koreya Respublikasından gətirilmiş "Daydon" markalı texnikalar vasitəsilə ən müasir texnologiya əsasında əkilib.

Yuxarıda qeyd olunanlarla yanaşı ölkədə çəltik istehsalının stimullaşdırılması məqsədilə çəltik istehsalı ilə məşğul olan rayonlarda emal müəssisələrinin yaradılması prosesinin davam etdirilməsi, bu məqsədlə uzunmüddətli kreditlərin ayrılması məqsədəuyğun olardı.

Məlum olduğu kimi, Aqrar Subsidiya Şurası tərəfindən Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nın 2.4-cü bəndinə müvafiq olaraq, 2020-ci il üzrə bitkiçilik sahəsində subsidiya əmsalları və bü göstərici çəltik bitkisi üzrə 1,4 olmaqla bir hektar üçün 280 manat müəyyən edilmişdir (7). Hesab edirik ki, fermerlərin bu sahəyə olan marağının daha artırılması məqsədilə gələcəkdə bu əmsalın artırılması məsələsinə baxıla bilər.

Yerli çəltik- "Ağ ənbərbu", "Vilgəri", "Yetim", "Lənkəran sədrisi", "Ağ qılçıqlı" və digər yerli sortların "Made in Azerbaijan" brendi altında xarici bazarlarda təşviq edilməsi, yerli istehsalçıların xarici bazarın rəqabətinin mənfi təsirindən qorumaq üçün mövsümi rüsumlardan istifadə edilməsi, güzəştli kreditlərin verilməsi və sığortanın tətbiqi kimi məsələlələr də sahənin stimullaşdırılması tədbirlərinə daxil olmaqla onun inkişafına töhfələrini verə bilər.

## ƏDƏBİYYAT

1. Food and Agricultural Organisation, http://www.fao.org/faostat/en/#data/QC/visualize
2. Azərbaycanın kənd təsərrüfatı, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nəşri, Bakı 2019, 644 s.
3. "Azərbaycan Respublikasında çəltikçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı", Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 9 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir
4. Azərbaycanın ərzaq balansları, Statistik məcmuə, Bakı 2019, 94 s.
5. Azərbaycanın xarici ticarəti, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nəşri, Bakı 2019, 213 s.

6. www.akia.gov.az

### XÜLASƏ

Məqalədə Azərbaycanının ənənəvi kənd təsərrüfatı sahələrindən biri olan çəltikçiliyin inkişaf tarixinə dair bəzi göstəricilər, ölkəmizdə və dünyada çəltiyin əkin sahəsi, məhsuldarlığı, təmizlənmiş düyüyə olan tələbat və onun ödənilmə səviyyəsi, idxal olunan məhsulun ölkələr üzrə qiyməti və ona təsir edən amillər, bu sahəyə marağın artırılmasının və istehsalın stimullaşdırılmasının bir sıra istiqamətləri şərh olunur.

## On the stimulation of paddy farming in Azerbaijan

***A.N. Hatamov***
***Azerbaijan State Agricultural University***

### SUMMARY

**Keywords:** rice; paddy farming; refined rice; sown area; production; productivity; demand; import; self-sufficiency; price; subsidy.

The article provides some indicators on the history of paddy cultivation as one of the traditional agricultural sectors of Azerbaijan, paddy field in our country and in the world, productivity, demand for refined rice and its level of payment, price of imported products and factors affecting it. A number of issues of increasing interest and stimulating production are discussed.

*Redaksiyaya daxilolma: 13.01.2020*
*Çapa qəbul olunma: 18.01.2020*

UOT 336

# AQRAR SAHƏNİN İXRAC POTENSİALININ ARTIRILMASINDA STRATEJİ İDARƏETMƏNİN ROLU

***İ.B.Rzayev, S.İ.Həsənova, Ü.İ.Rzayeva, L.N.İsmayılova***
***Azərbaycan Dövlət Aqrar Universiteti***

**Açar sözlər:** *iqtisadi inkişaf strategiya, ixrac potensialı, sosial-iqtisadi, dövlət proqramı, infrastruktur biznes mühiti, investisiya mühiti, sahibkarlıq fəaliyyəti, strateji valyuta ehtiyatı, orta aylıq əmək haqqı, yoxsulluq səviyyəsi, açılmış iş yerləri, açılmış müəssisələr və s.*

Azərbaycan Respublikası Prezidentinin həyata keçirildiyi uzunmüddətli iqtisadi inkişaf strategiyası ölkənin regionlarının davamlı və tarazlı inkişafının təmin olunmasını, o cümlədən yerlərdə dayanaqlı inkişaf prinsiplərinə əsaslanan rəqabətqabiliyyətli iqtisadiyyat, yüksək standartlara cavab verən sosial rifah təbii resursların səmərəli istifadəsini və ətraf mühitin etibarlı mühafizəsini təmin edən ekoloji təhlükəsizlik sisteminin formalaşdırılmasına imkan verən əlverişli mühit yaratmaq məqsədini daşıyır [1...6].

Bu strategiyanın həyata keçirilməsində o cümlədən ölkənin regionlarının sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramları (2004-2008,2009-2013 və 2014-2018-ci illər üzrə) böyük əhəmiyyət kəsb edir [1].

Qəbul edilən dövlət proqramlarında məqsəd hər bir halda aydın və başa düşüləndir. Proqramın icrasında nəyə nail olunacağını həm ölkə Prezidenti, həm də icraçılar açıq-aydın görürlər.

Dövlət Proqramları çərçivəsində aqrar sahənin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər də əsas prioritet istiqamətlərdəndir. Aqrar sahənin vergilərdən azad edilməsi, subsidiyaların, güzəştli kreditlərin verilməsi və digər dövlət dəstəyi mexanizminin tətbiqi, bu sahədə infrastrukturun yaxşılaşdırılması, dövlət investisiyaları hesabına Taxtakörpü, Şəmkirçay, Tovuzçay və Göytəpə su anbarları, Baş Mil-Muğan kollektorunun tikintisi və digər iri layihələrin reallaşdırılması həyata keçirilən meliorativ tədbirlər aqrotexniki xidmət işlərinin yerinə yetirilməsinin keyfiyyətini yüksəltmək üçün “Aqrolizinq” ASC-nin yaradılması, 2015-ci ilin “Kənd təsərrüfatı ili” elan edilməsi kimi tədbirlər bu sahənin inkişafına təkan vermişdir. Bunun nəticəsidir ki, ötən dövrdə ölkədə ərzaq təhlükəsizliyinin təmin olunması üçün bitkiçilik və heyvandarlıq sahələri inkişaf etdirilmiş, ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsi daha da yaxşılaşdırılmışdır. Ötən müddət ərzində iri fermer təsərrüfatları, aqroparklar, intensiv bağçılıq təsərrüfatları, müasir istixanalar, logistik mərkəzlər yaradılmış, kənd təsərrüfatı məhsulları istehsalının inkişafına xidmət edən infrastrukturun maddi-texniki bazası möhkəmləndirilmişdir [5].

Aqrar sahənin innovativ əsaslara keçirilməsi, o cümlədən aqroparkların yaradılması əsas hədəflərdəndir. Dövlət başçısının tapşırığına uyğun olaraq hazırda 33 rayon üzrə 258,3 min hektar ərazidə 51 aqroparkın, o cümlədən 17 müasir cins heyvandarlıq kompleksinin və 34 iri bitkiçilik təsərrüfatlarının yaradılması üzrə işlər sürətlə davam etdirilir [2].

Bununla yanaşı Azərbaycan Respublikası Prezidenti tərəfindən ənənəvi kənd təsərrüfatı sahələrinin, o cümlədən pambıqçılığın, ipəkçiliyin, tütünçülüyün, çəltikçiliyin, çayçılığın, fındıqçılığın, sitrus meyvəçiliyin, üzümçülük və şərabçılığın inkişafı istiqamətində imzalanmış sərəncamlar, həmçinin istehsalçılara subsidiyaların verilməsi haqqında qəbul olunmuş qərarlar müvafiq sahələr üzrə istehsal və ixrac potensialının artırılmasına və məşğulluq səviyyəsinin yüksəlməsinə mühüm təkan vermişdir.

Aqrar sahədə həyata keçirilmiş sistemli tədbirlər nəticəsində ölkəmizin kənd təsərrüfatı və ərzaq məhsulları üzrə özünü təminetmə səviyyəsi yüksəlmiş, ərzaq məhsullarının istehsalı artmış ixrac imkanları genişlənmişdir.

2019-cu ilin yanvar-iyun aylarında Azərbaycanın hüquqi və fiziki şəxsləri dünyanın 177 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçiriblər.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən 103 ölkəyə məhsul ixrac olunub, 164 ölkədən isə idxal olunub.

2019-cu ilin yanvar-iyun aylarında ölkənin xarici ticarət dövriyyəsi 16866,2 milyon ABŞ dolları, o cümlədən ixracın dəyəri 7015,6 milyon dollar təşkil edibdir.

Nəticədə 2835,0 milyon dollarlıq müsbət ticarət saldosu yaranıbdır. 2018-ci ilin yanvar-iyun ayları ilə müqayisədə, xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 15,2 faiz, o cümlədən idxal 50,5 faiz artmış, ixrac isə 1,4 faiz azalmışdır. Real ifadədə isə dövriyyə 6,5 faiz, o cümlədən idxal 19,6 faiz, ixrac 0,4 faiz artıb.

2019-cu ilin yanvar-iyun aylarında ölkədən 979,1 milyon dollar dəyərində qeyri-neft-qaz məhsulları ixrac edilib ki, bu da 2018-ci ilin yanvar-iyun ayları ilə müqayisədə faktiki qiymətlərlə 15,7 faiz, real ifadədə isə 11,1 faiz çoxdur.

Qeyri neft-qaz məhsulları üzrə ixracın dəyərində Rusiyaya-36,3 faiz, Türkiyəyə 21,8 faiz, Gürcüstana-8,7 faiz, İsveçrəyə 7,5 faiz, İtaliyaya 3,1 faiz, Ukraynaya 2,4 faiz, Yunanıstana 2,1 faiz, İrana 1,8 faiz, Çinə 1,7 faiz və Almaniyaya 1,2 faiz göndərilmiş malların payı üstünlük təşkil edir.

2019-cu ilin yanvar-iyun aylarında 2018-ci ilin eyni dövrü ilə müqayisədə mühüm məhsul növlərindən təzə tərəvəz ixracı 3,1 faiz, təzə meyvə 31,3 faiz, şəkər 22,3 faiz, tütün 1,9 dəfə, meyvə və tərəvəz şirələri 37,9 faiz, meyvə və tərəvəz konservləri 10,5 faiz, marqarin, qida üçün yararlı digər qarışıqlar 34,5 faiz, pambıq lifi 2,9 dəfə, polietilin 1,1 faiz, pambıq ifliyi 50,3 faiz artmışdır. Kartof ixracı isə 7,4 faiz, çay 1,6 faiz, bitki yağları 32,5 faiz, təbii üzüm şərabları və üzüm silosu 27,3 faiz azalmışdır.

2018-ci ilin yanvar-iyun ayları ilə müqayisədə 2019-cu ilin yanvar-iyun aylarında buğda idxalı, 7,0 faiz, təzə tərəvəz 2,4 faiz, xam şəkər və şəkər 2,5 dəfə, bitki yağları 0,9 faiz, çay 1,7 faiz, kartof 13,6 faiz, quş əti və onun əlavə məhsulları 14 faiz, mal əti 8,8 faiz, təzə tərəvəz 39,2 faiz azalmışdır [4].

Aqrar sahənin strateji idarə olunması sayəsində əldə olunan nailiyyətləri daha da artırmaq və Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsinin 9,14-cü bəndinin icrasını təmin etmək məqsədilə “azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” qəbul edilmişdir.

Azərbaycan Respublikası regionlarının hərtərəfli inkişafı sahəsində 2004-cü ildən başlanmış məqsədyönlü siyasətin davamı olaraq Azərbaycan Prezidentinin 27 fevral 2014-cü il tarixli 118 nömrəli Fərmanı ilə Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı qəbul olunmuş və təsdiq edilmişdir.

Dövlət Proqramları çərçivəsində görülmüş işlər ölkədə həyata keçirilən ümumi sosial-iqtisadi inkişaf siyasətinə ciddi dəstək vermiş və nəticədə 2004-2018-ci illərdə ümumi daxili məhsul real ifadədə 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru 2,8 dəfə artmışdır.

Strateji valyuta ehtiyatları 2004-cü ilə nisbətən 24,3 dəfə artaraq 1 yanvar 2019-cu il tarixə 45 milyard ABŞ dolları səviyyəsini keçmişdir və həmin ildə daha 6,1 milyard artaraq 2020-ci ilin yanvarına 51,5 milyard manata çatmışdır.

Yaxın perspektivdə ixrac potensialına malik olan istehsal sahələrinin: pambıqçılığın, tütünçülüyün, çayçılığın, şəkər çuğunduru bitkisinin, qarğıdalı əkin sahəsinin, günəbaxan bitkisinin, cins südlük və ətlik istiqamətində maldarlığın intensiv yolla inkişaf etdirilməsi əsas prioritetlərdəndir.

## ƏDƏBİYYAT


1. “Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfrans” Respublika qəzeti. 30 yanvar 2018-ci il.
2. Azərbaycanın kənd təsərrüfatı Azərbaycan Dövlət Statistika Komitəsi 2018-ci il.
3. Azərbaycan Respublikası Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. Respublika qəzeti 20 yanvar 2019.
4. Azərbaycanın ən çox ixrac və idxal etdiyi məhsullar. FLD az. xəbərlər Aqşin Kərimov
5. “Azərtac” Bakı 19 iyul 2018-ci il.
6. İ.B.Rzayev, N.Q.Hüseynov, Ü.İ.Rzayeva Kənd təsərrüfatı istehsalının təşkili. Gəncə ADAU nəş., 2011-ci il.

**The role of strategic management in increasing the export potential of the agrarian sector**

*I.B Rzayev, S.I.Hasanova, U.I. Rzayeva, L.N.Ismayilova*
*Azerbaijan State Agrarian University*

**SUMMARY**

**Fərdi sahibkar təsərrüfatlarında istehsalın səviyyəsinin təhlili.**Kənd təsərrüfatında fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatları hakim mövqe tutduğundan məhsul istehsalının strukturunda da bu tendensiya özünü biruzə verir. Fərdi sahibkarlar–hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxsdir. Bu növ təsərrüfatlar mülkiyyəti və icarəsində olan torpaq və mülkdə kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və satışı ilə məşğul olur. Ailə kəndli və ev təsərrüfatlarında isə kənd əhalisinin şəxsi həyətyanı təsərrüfatı ilə yanaşı, torpaq islahatı nəticəsində aldığı pay torpaqları da vardır, ailəyə daimi və yaxud müvəqqəti istifadə üçün verilmiş torpaq sahəsində bitkiçilik və heyvandarlıq məhsulları istehsal edilir.Aşağıdakı cədvəldə fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatlarında əsas kənd təsərrüfatı məhsulları istehsalının dinamikası əksini tapmışdır.

Cədvəl Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatlarında əsas kənd təsərrüfatı məhsulları istehsalının dinamikası göstərir ki, 2014-cü ilə nisbətən taxıl istehsalı 22,5 faiz artaraq 2661,9 min ton, pambıq istehsalı 5,7 dəfə artaraq 205,2 min ton, tütün 2,3 dəfə artaraq 6,2 min ton, şəkər çuğunduru 41,5 faiz artaraq 178,5 min ton, dən üçün günəbaxan 16,8 faiz artaraq 22,3 min ton, kartof 9,5 faiz artaraq 880,8 min ton, tərəvəz 25,3 faiz artaraq 1431,4 min ton, meyvə-giləmeyvə 14,6 faiz artaraq 965,4 min ton, üzüm 11,5 faiz

artaraq 140,9 min ton, yaşıl çay yarpağı 2,9 dəfə artaraq 0,43 min ton istehsal edilmişdir. Müqayisə olunan dövrdə bostan məhsullarının istehsalı 8,5 faiz azalaraq 398,8 min ton olmuşdur. Bitkiçiliyin əksər sahələri kimi bu dövrdə heyvandarlıqda da məhsul istehsalının həcmi artmışdır. Belə ki, 2014-cu ilə nibətən ət istehsalı 17,7 faiz, süd 10,3 faiz, yumurta 20,3 faiz artmışdır. Yun istehsalı 8,5 faiz azalmışdır. 2018-ci ildə 265,3 min ton, 1994,6 min ton süd, 1032,1 mln ədəd yumurta, 15,1 min ton yun istehsal olunmuşdur. (cədvəl 2.).

Cədvəl 2

Fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatlarında əsas kənd təsərrüfatı məhsulları istehsalının dinamikası, (min ton)

| Məhsullar | İllər | | | | | 2014-cü ilə nisbətən 2018-ci ildə |
|---|---|---|---|---|---|---|
| | 2014 | 2015 | 2016 | 2017 | 2018 | |
| Taxıl, ilkin çəkidə | 2173,7 | 2726,6 | 2777,1 | 2665,1 | 2661,9 | 122,5 |
| təmizlənmiş çəkidə | 2117,2 | 2655,5 | 2704,8 | 2597,5 | 2791,2 | 131,8 |
| Pambıq | 36,1 | 27,1 | 74,6 | 194,9 | 205,2 | 5,7 dəfə |
| Tütün | 2,7 | 3,4 | 3,6 | 5,3 | 6,2 | 2,3 dəfə |
| Şəkər çuğunduru | 125,9 | 135,4 | 225,1 | 375,0 | 178,1 | 141,5 |
| Dən üçün günəbaxan | 19,1 | 17,0 | 16,4 | 28,6 | 22,3 | 116,8 |
| Kartof | 804,1 | 832,1 | 893,0 | 903,2 | 880,8 | 109,5 |
| Tərəvəz | 1142,1 | 1226,7 | 1201,7 | 1286,6 | 1431,4 | 125,3 |
| Bostan məhsulları | 436,0 | 475,3 | 456,8 | 434,3 | 398,8 | 91,5 |
| Meyvə və giləmeyvə | 842,4 | 871,4 | 856,5 | 918,3 | 965,7 | 114,6 |
| Üzüm | 126,4 | 137,7 | 117,0 | 131,6 | 140,9 | 111,5 |
| Yaşıl çay yarpağı | 0,15 | 0,16 | 0,36 | 0,37 | 0,43 | 2,9 dəfə |
| Mal-qara və quş əti (kəsilmiş çəkidə) | 225,4 | 237,7 | 246,6 | 253,1 | 265,3 | 117,7 |
| Süd | 1809,1 | 1856,5 | 1934,0 | 1942,5 | 1994,6 | 110,3 |
| Yumurta, milyon ədəd | 857,9 | 902,5 | 915,5 | 929,6 | 1032,1 | 120,3 |
| Yun (fiziki çəkidə) | 16,5 | 16,7 | 16,4 | 15,7 | 15,1 | 91,5 |

Təhlil göstərir ki, iqtisadiyyatın aqrar sahəsində həyata keçirilən islahatlar kənd təsərrüfatında çoxukladlı iqtisadiyyatın formalaşması ilə nəticələnmiş, respublikanın regionlarında real mülkiyətçilər, sahibkarlar ordusu yaradılmışdır. Aqrar sahədə həyata keçirilən transformasiya yönümlü dəyişikliklər nəticədə bütün təsərrüfat kateqoriyaları üzrə əksər kənd təsərrüfatı məhsullarının istehsalının artımına gətirib çıxarmışdır.

**Kənd təsərrüfatı müəssisələrində istehsalın mövcud vəziyyətinin təhlili.** Kənd təsərrüfatında fəaliyyət göstərən istehsal vahidləri arasında struktur dəyişiklikləri nəticəsində yaranan kənd təsərrüfatı müəssisələri önəmli rol oynayır. Onların səciyyəvi cəhətlərindən biri kollektiv təsərrüfat forması kimi fəaliyyət göstərməsi, satışın təşkili, kapital resurslarına, maddi-texniki resurslara olan ehtiyacların ödənilməsində fiziki şəxs statuslu ailə təsərrüfatlarından fərqli olaraq daha geniş manevr imkanlarına malik olmasıdır. Kənd təsərrüfatı müəssisələrinə hüquqi əsasda yaradılmış təsərrüfat formaları (səhmdar cəmiyyətləri kənd təsərrüfatı istehsalı kooperativləri, təsərrüfat cəmiyyətləri, kollektiv (birgə) təsərrüfatları, və s.), sənaye, nəqliyyat və sair müəssisə və təşkilatların nəzdində yaradılmış yardımçı kənd təsərrüfatları, habelə elmi-tədqiqat, tədris-təcrübə müəssisə və təşkilatlarının kənd təsərrüfatı fəaliyyəti daxil edilmişdir. Kənd təsərrüfatı müəssisələrində əsas kənd təsərrüfatı məhsulları istehsalının dinamikası 3 saylı cədvəldə öz əksini tapmışdır.

Cədvəl Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Kənd təsərrüfatı müəssisələrində əsas bitkiçilik və heyvandarlıq məhsullarının istehsalının dinamikasında artım və azalma meylləri müşahidə olunur. Belə ki, müqayisə olunan dövrdə bəzi məhsulların istehsalı bir neçə dəfə artmışdır. Məsələn, taxıl istehsalı 2,1 dəfə, pambıq istehsalı 5,8 dəfə, şəkər çuğunduru 2 dəfə, meyvə və giləmeyvə istehsalı 5,4 dəfə, dən üçün günəbaxan 85,7%, kartof 19,1%, tərəvəz 98,5%, üzüm 25,4%, yaşıl çay yarpağı 37,5% artmışdır.Artım tendesiyası ilə yanaşı bəzi bitkiçilik məhsullarında azalma müşahidə olunmuşdur.Belə ki, tütün istehsalı 50%, bostan məhsulları 36,7% azalmışdır. Heyvandarlıq məhsullarından ət istehsalı 7,8%, yumurta istehsalı 8,6% azalmış, süd istehsalı 83,7% artmış, yun istehsalı isə dəyişməz qalmışdır.

Araşdırmalarımız göstərir ki, kənd təsərrüfatı müəssisələrində bir neçə dəfə artım qeydə alınan bitkiçilik məhsullarına (taxıl, pambıq, şəkər çuğunduru, meyvə və giləmeyvə) son illər daha çox diqqət yetirilir. Demək olar ki, əvvəllər qeyd olunan müəssisələrdə bu məhsulların istehsalı sahəsində potensial imkanlardan tam istifadə olunmurdu. Pambığın əkin sahələrinin artımı, bu sahəyə dövlət səviyyəsində dəstək

göstərilməsi bütün təsərrüfat kateqoriyalarında bu məhsulun istehsal səviyyəsinə əhəmiyyətli təsir göstərmişdir.

Cədvəl 3

Kənd təsərrüfatı müəssisələrində əsas kənd təsərrüfatı məhsulları istehsalının dinamikası, (min ton)

| Məhsullar | İllər | | | | | 2014-cü ilə nisbətən 2018-ci ildə |
|---|---|---|---|---|---|---|
| | 2014 | 2015 | 2016 | 2017 | 2018 | |
| Taxıl | 209,6 | 272,8 | 288,0 | 263,7 | 447,3 | 2,1 dəfə |
| Pambıq | 4,9 | 8,1 | 14,8 | 12,6 | 28,4 | 5,8 dəfə |
| Tütün | 0,2 | 0,1 | - | 0,0 | 0,1 | 0,50 |
| Şəkər çuğunduru | 47,4 | 48,9 | 87,5 | 35,1 | 99,1 | 2 dəfə |
| Dən üçün günəbaxan | 0,7 | 1,4 | 0,3 | 1,2 | 1,3 | 185,7 |
| Kartof | 15,2 | 7,7 | 9,4 | 10,7 | 18,1 | 119,1 |
| Tərəvəz | 45,6 | 48,6 | 68,9 | 119,0 | 90,5 | 198,5 |
| Bostan məhsulları | 4,9 | 9,2 | 8,0 | 3,8 | 3,1 | 63,3 |
| Meyvə və giləmeyvə | 8,4 | 17,0 | 26,3 | 36,5 | 45,1 | 5,4 dəfə |
| Üzüm | 21,3 | 19,4 | 19,5 | 21,2 | 26,7 | 125,4 |
| Yaşıl çay yarpağı | 0,32 | 0,42 | 0,66 | 0,41 | 0,44 | 137,5 |
| Mal-qara və quş əti (kəsilmiş çəkidə) | 65,8 | 60,9 | 55,6 | 63,7 | 60,7 | 92,2 |
| Süd | 46,7 | 68,0 | 75,9 | 81,6 | 85,8 | 183,7 |
| Yumurta, milyon ədəd | 704,8 | 650,4 | 694,3 | 784,4 | 644,1 | 91,4 |
| Yun (fiziki çəkidə) | 0,3 | 0,3 | 0,3 | 0,3 | 0,3 | 100,0 |

Taxıl istehsalı da istər ərzaq təhlükəsizliyi, istərsə də heyvandalığın yem bazasının möhkəmləndirilməsi baxımından daim diqqət mərkəzində saxlanılan bitkiçilik məhsullarında biridir. Bu sahədə də kənd təsərrüfatı müəssisələrində uğurlu nəticələrə nail olunmuşdur. Lakin kənd təsərrüfatı məhsulları istehsalının təsərrüfat kateqoriyaları üzrə strukturu araşdırılarkən bir neçə məhsul (şəkər çuğunduru, yaşıl çay yarpağı, ət istehsalı, yumurta) istisna olmaqla kənd təsərrüfatı müəssisələri ümumi istehsalda xüsusi çəkisi 5-15% həddi keçə bilmir.

Cədvəl 4

Kənd təsərrüfatı məhsulları istehsalının təsərrüfat kateqoriyaları üzrə strukturu (bütün təsərrüfat kateqoriyalarına nisbətən, faizlə)

| Məhsullar | Kənd təsərrüfatı müəssisələri | | | Fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatları | | |
|---|---|---|---|---|---|---|
| | 2016 | 2017 | 2018 | 2016 | 2017 | 2018 |
| Taxıl | 9,4 | 9,0 | 13,5 | 90,6 | 91,0 | 86,5 |
| Pambıq | 16,6 | 6,1 | 12,2 | 83,4 | 93,9 | 87,8 |
| Tütün | - | 0,6 | 1,3 | 100,0 | 99,4 | 98,7 |
| Şəkər çuğunduru | 28,0 | 8,6 | 35,8 | 72,0 | 91,4 | 64,2 |
| Dən üçün günəbaxan | 1,8 | 4,0 | 5,4 | 98,2 | 96,0 | 94,6 |
| Kartof | 1,0 | 1,2 | 2,0 | 99,0 | 98,8 | 98,0 |
| Tərəvəz | 5,4 | 8,5 | 6,0 | 94,6 | 91,5 | 94,0 |
| Bostan məhsulları | 1,7 | 0,9 | 0,8 | 98,3 | 99,1 | 99,2 |
| Meyvə və giləmeyvə | 3,0 | 3,8 | 4,5 | 97,0 | 96,2 | 95,5 |
| Üzüm | 14,3 | 13,9 | 15,0 | 85,7 | 86,1 | 85,0 |
| Yaşıl çay yarpağı | 64,8 | 52,5 | 51,0 | 35,2 | 47,5 | 49,0 |
| Mal-qara və quş əti (kəsilmiş çəkidə) | 18,4 | 20,1 | 18,6 | 81,6 | 79,9 | 81,4 |
| Süd | 3,8 | 4,0 | 4,1 | 96,2 | 96,0 | 95,9 |
| Yumurta, milyon ədəd | 43,1 | 45,8 | 38,4 | 56,9 | 54,2 | 61,6 |
| Yun (fiziki çəkidə) | 1,3 | 1,8 | 1,8 | 98,3 | 98,2 | 98,2 |

2018-cu ildə ölkə üzrə cəmi taxıl istehsalının 86,5%-i, pambıq istehsalının 87,8%-i, tütünün 98,7%-i, şəkər çuğundurunun 64,2%-i, dən üçün günəbaxanın 94,6%-i, kartofun 98,0%-i, tərəvəzin 94,0%-i, bostan məhsullarının 99,2%-i, meyvə-giləmeyvənin 95,5%-i, üzümün 84,0%-i, yaşıl çay yarpağının 49,0 %-i, ətin 81,4%-i, südün 95,9%-i, yumurtanın 61,6%-i, yunun 98,2%-i fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatlarının payına düşmüşdür. Yumurta istehsalının 61,6%-nin özəl təsərrüfatların payına düşməsinin başlıca səbəbi quşçuluq komplekslərinin də respublikamızda əhəmiyyətli rola malik olması ilə bağlıdır .

Yuxarıda qeyd olunduğu kimi ölkəmizdə kənd təsərrüfatı istehsalı sahəsində özəl sektorun yaradılması və bazar münasibətlərinin formalaşmasını təmin edən aqrar islahatlar XX əsrin 90-cı illərindən etibarən aparılsa da, emal müəssisələrinin özəlləşdirilməsi prosesinə 2000-ci illərin əvvəllərindən başlandı. O dövrdə kənd təsərrüfatı məhsulları istehsalı özəl bölməyə məxsus olsa da, emal müəssisələri hələ də səmərəsiz fəaliyyət göstərən dövlət müəssisələri idi. Daha sonra ölkə-

mizin regionlarının inkişafı siyasəti çərçivəsində müasir texnologiyalar əsasında fəaliyyət göstərən emal sənayesi müəssisələrinin yeni şəbəkəsi formalaşmağa başladı. Lakin bu mərhələdə də iri istehsal həcminə və xammal tələbatına malik olan, institutlaşmış emal sənayesi müəssisələrinin bir çoxunun kiçik istehsal həcminə malik olan, pərakəndə fəaliyyət göstərən çoxlu sayda kənd təsərrüfatı məhsulları istehsalçıları ilə səmərəli əməkdaşlıq qurmaları problemi yarandı.

Hazırda ölkədə kənd təsərrüfatı istehsal vahidlərinin strukturunda xırda təsərrüfatlar dominantlıq edir. Bu isə qeyd olunan təsərrüfatların səmərəli fəaliyyətinə mane olan əsas problemlərdən biridir. Ölkədə emal sənayesi müəssisələri ilə kənd təsərrüfatı istehsalçıları arasında qarşılıqlı əlaqələrin qənaətbəxş səviyyədə qurulmaması, emal sənayesinin kənd təsərrüfatı istehsalı ilə inteqrasiyasında müəyyən problemlərin olması da bu sahənin inkişafına mane olur.

Bəzi iqtisadi ədəbiyyatlarda sənaye-kənd təsərrüfatı inteqrasiyası termini ilə bağlı müxtəlif nəzəri fikirlərə rast gəlmək olur. İnteqrasiya termini bir-birini tamamlayıcı istehsal vahidlərinin birləşərək bir tam halında fəaliyyət göstərməsidir. İstehsal inteqrasiyasının 3 forması - üfüqi, şaquli və dairəvi olmaqla qeyd olunur.[3] Eyni sahədə fəaliyyət göstərən biznes subyektlərinin iqtisadi və hüquqi baxımdan birləşmələri üfüqi inteqrasiya adlanır. Bu inteqrasiyada kiçik müəssisələr bir çox xərclərdən azad olmaq imkanı qazanırlar. Şaquli inteqrasiya isə bazar kanallarında bir-birini izləyən və tamamlayan sektorların birləşməsidir. Burada fərqli sahələrdə (məsələn, kənd təsərrüfatı və emal sənayesi) fəaliyyət göstərən təsərrüfat subyektləri birləşir. Birləşmədə əsas məqsəd istehsal və satış xərclərinin minimumlaşdırılmasıdır. Əvvəlki iki modelin sintezindən meydana gələn dairəvi inteqrasiya da mövcuddur. Bu zaman istehsalçılar ardıcıl olaraq daha iri birləşmələrdə inteqrasiya olunurlar. Dairəvi inteqrasiya zamanı kooperativlər kooperativçilik mədəniyyətinin yüksəldilməsi, şəriklərin və işçilərin təhsil səviyyəsinin artırılması, lazımi mövzularda tədqiqatların təşkili, eləcə də aşağı faizli kredit və maliyyə dəstəyinin əldə olunması, hərrac və tenderlərdə iştirakın asanlaşdırılması və s. nail olmaq məqsədilə sahələr üzrə kooperativlərin mərkəz birliklərini və sonda kooperativlərin milli birliyini formalaşdırırlar.

**Emal sənayesinin mövcud vəziyyətinin təhlili.** 2014-2018-ci illərdə emal sənayesinin əmtəəli məhsulunun dinamikası araşdırılarkən bəzi məhsullar üzrə artım, bəzilərində azalma müşahidə olunur. Müqayisə olunan dövrdə ən çox artım hazır pambıq parçalar və pambıq mahlıcında qeydə alınmışdır. Hazır pambıq parçalar 23 dəfə, pambıq mahlıcı 4,5 dəfə artmışdır. Ən çox azalma şampan şərabı məhsulunda, 66,3 % -dir. Ölkədə pambıq istehsalının bu dövrdə 5-6 dəfə artımını nəzərə alsaq, pambıq parçalar və pambıq mahlıcının bu səviyyədə artımı müsbət qiymətləndirilməlidir. Bu məhsullar üzrə emal sənayesinin bu cür davamlı artımı pambıq istehsalı üçün əlverişli təsir imkanlarından biri hesab olunur. Digər məhsullar üzrə məsələn, ət 12,1%, üzlü süd 8,4%, pendir və kəsmik 4,2%, kərə yağı 0,4%, marqarin 90,3%, çörək və çörək bulka məmulatları 4,4%, üzüm şərabı 49,6%, təbii çay 16,3% və fermentləşdirilmiş tütün 44,1% artmışdır.

Qeyd olunduğu kimi müqayisə olunan dövrdə bəzi əmtəəlik məhsullar azalmışdır. Belə ki, qənd və şəkər tozu 52,7%, makaron məmulatı 60,2%, bitki yağları 33,5%, səməni pivəsi 9,7% azalmışdır. Emal sənayesində məhsul istehsalı (faktiki qiymətlərlə) 32% artmışdır.

Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində qeyd olunduğu kimi, Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, Rusiya Azərbaycanın idxal etdiyi əsas 10 məhsul üzrə aparıcı ixracatçı olub,Azərbaycanda bu məhsullara tələbatın demək olar ki, 37 faizini ödəyir. Statistik məlumatlar göstərir ki, 2015-ci ildə Azərbaycana 287,2 milyon ABŞ dolları dəyərində siqaret idxal edilmişdir. Hazırda ölkədə tütünçülük lazımi səviyyədə inkişaf etməyib, fermentləşdirilmiş əmtəəlik tütün istehsalı da beş ildə cəmi 44% artmışdır. Lakin nəzərə alsaq ki, həm daxili bazarda, həm də regional bazarda tütün məhsullarının böyük həcmdə idxal dövriyyəsi (4,4 milyard ABŞ dolları) var və bu ənənəvi məhsulun istehsalının əhəmiyyətli səviyyədə artırılması üçün böyük bazar potensialı mövcuddur.

Azərbaycanda süd emalı müəssisələrinin sayının azlığı ilə yanaşı, sənaye tələbatı üçün təbii süd xammalı istehsalının həcmi də lazımi səviyyədə deyil. Bu baxımdan ölkəyə xaricdən xeyli miqdarda süd məhsulları idxal edilir. Hazırda mövcud emal müəssisələrinin əhatə dairəsini genişləndirilməli və fəaliyyəti gücləndirilməlidir. Eyni zamanda keyfiyyətli və bazarın tələblərinə uyğun təbii süd xammalı istehsalını artırmaq imkanları mövcuddur.

Azərbaycanda ət (mal, toyuq və qoyun əti) istehsalında qeyd olunan artım yerli bazarın tələbatını ödəmir və onun ixracı aşağı səviyyədədir. Ölkədən, əsasən, emal edilmiş və konservləşdirilmiş ət məhsulu ixrac edilir. Ölkədə fəaliyyət göstərən emal müəssisələrinin müasir texnologiyala-

ra və yüksək əmək məhsuldarlığına malik olduğunu nəzərə alsaq, onların əhatə dairəsini genişləndirməklə və fəaliyyətini gücləndirməklə, tələb olunan ət məhsullarının istehsalını əhəmiyyətli dərəcədə artırmaq olar. Araşdırmalarımız göstərir ki, ölkədə idxal olunan kənd təsərrüfatı məhsullarının strukturunda emal edilmiş məhsulların payı daha çoxdur. Kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin yaradılması bəzi məhsulların məsələn, tütün, süd və un məhsullarının idxalından asılılığı azalda və ticarət kəsirini nisbətən aradan qaldıra bilər.

## ƏDƏBİYYAT

1.Quliyev E.A. Aqrar iqtisadiyyat. Bakı: Kooperasiya nəş., 2015,320 s.
2. Abbasov V.H. Aqrar iqtisadiyyat. Bakı: Ecoprint nəş., 2017,468 s.
3. "Türkiye'de Tarım Sanayi Entegrasyonu, Sorunlar ve Çözüm Önerileri" (Türkiyədə aqrar-sənaye interqasiyası, problemlər və həlli yolları) Volkan Burucu, 2012
4. (Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi).
5. www. stat.gov.az
6. www. agro.gov.az

## Analysis the current levels of production of business structures in the agricultural sector

*Doctorant S.H.Huseynova*

**SUMMARY**

**Key words***: production, reform, enterprise, business, efficiency, entrepreneurship, business structures, privatization, multinational economy*

The agrarian sector is one of the areas of strategic importance in the national interest of the country, as well as the importance of these products in meeting the ever-growing demand of the population for food. The main goal of agrarian sector is to form a sustainable and efficient agricultural sector, reliably satisfy the country's population with food products and the raw material needs of a number of key industries. Agrarian reforms in our country during the past period have led to the substitution of state-owned agrarian business entities with multi-property forms of ownership. The article analyzes the current level of production in agrarian business structures. The analysis shows that reforms in the agrarian sector of the economy resulted in the formation of a multicultural economy in rural areas, and an army of real owners and entrepreneurs was established in the regions of the republic. Transformational changes in the agrarian sector have led to the increase in the production of most agricultural products across all categories of goods.

## Анализ текущего уровня производства в бизнес структурах аграрной сферы

*Докторант С.Г.Гусейнова*

**РЕЗЮМЕ**

**Ключевые слова:** *производство, реформа, предприятие, бизнес, эффективность, предпринимательство, бизнес-структуры, приватизация, многообразная экономика.*

Аграрный сектор является одной из областей, имеющих стратегическое значение для национальных интересов страны, а также важности этих продуктов для удовлетворения постоянно растущего спроса населения напродукты питания. Основная задача аграрного сектора - формирование устойчивого иэффективного сельскохозяйственного сектора, надежное обеспечение населения страны продовольственными товарами и сырьевыми потребностями ряда ключевых отраслей. Аграрные реформы в нашей стране за истекший период привели к замене государственных аграрных хозяйствующих субъектов формой собственности с множественной собственностью. В статье анализируется современный уровень производства в аграрных бизнес-структурах. Анализ показывает, что реформы в аграрном секторе экономики привели к формированию многокультурной экономики в сельскохозяйственном секторе, а в регионах республики была создана армия реальных собственников и предпринимателей. Трансформационные изменения в аграрном секторе привели к увеличению производства большинства сельскохозяйственных продуктов во всех экономических категориях.

*Redaksiyaya daxilolma: 23.01.2020*
*Çapa qəbul olunma: 30.01.2020*

UOT 336.01/02;339.7.01.

# MONETAR SİYASƏTİN BƏZİ NƏZƏRİ MƏSƏLƏLƏRİ

*P.G.Musayev*
*Mingəçevir Dövlət Universiteti*

**Açar sözlər:** *monetar, inflyasiya, istiqraz, ipoteka, likvid, kredit, depozit, valyuta kursu, devalvasiya, revalvasiya*

Monetar nəzəriyyə erkən merkantilizmin davamı olmaqla, sərvətin artırılmasını pul dövriyyəsinin sürətlənməsində görmüşdür. Monetarizm pul təklifi ilə qiymətlərin ümumi səviyyəsi arasındakı əlaqələri izah edən bir iqtisadi nəzəriyyə olmaqla əsasən, inflyasiyanı nəzəri və praktiki fəaliyyətlə birlikdə təhlil mövzusuna çevirmişdir. Monetaristlər inflyasiyanın başlıca səbəbi kimi pul təklifinin lazımsız və həddən artıq səviyyədə artırılmasını göstərirlər. Onlara görə, iqtisadiyyatdakı qeyri-sabitliyin bir çoxu gərəksiz pul siyasəti ilə əlaqədardır. Monetaristlər düşünürlər ki, inflyasiyanı nəzarətdə saxlamaq üçün ən optimal vasitə pul siyasətidir. Bu səbəbdən pul siyasəti iqtisadi problemlərə qarşı digər iqtisadi tənzimləmə vasitələrindən daha təsirlidir.

Monetarizmin başlıca prinsiplərini məhz nəzəriyyənin banisi olan Milton Fridmenin fikirləri ilə ifadə etmək daha məqsədə uyğun olar:

“Pul təklifindəki artım dərəcəsi ilə nominal gəlirin artım səviyyəsi arasında bir əlaqə mövcuddur. Bu əlaqə çox dərin deyil. Çünki pul təklifindəki artımların gəlirlərə təsir göstərməsi müəyyən zaman alar. Həmçinin, bu prosesin nə qədər davam edəcəyi müəyyən deyil. Ortalama pul təklifindəki artım, nominal gəlirlərə təxminən 6-9 aydan artıq bir müddət sonunda təsir göstərər. Nominal gəlirin böyümə dərəcəsində artım təsiri əvvəlcə istehsalda müşahidə olunar. Bu daha sonra qiymətlərdə özünü biruzə verər. Ortalama olaraq, qiymət artımı təxminən, 6 və 9 ay bir müddət içərisində meydana gələr. Pul təklifindəki artım ilə inflyasiya arasındakı toplam gecikmə ortalama 12-18 ay arasındadır. Qısamüddətli dövrdə (5 və ya 10 ay arası bir müddətdə) pul təklifindəki dəyişmələr əvvəlcə istehsala təsir edər. 10 ayı keçən bir dövrdə pul təklifinin artımı qiymətlərə təsir göstərər”. [2]

## 1. Monetar siyasətin alətləri

Yuxarıda qeyd olunanlara əsasən, iqtisad elmində monetarist nəzəriyyənin, monetar idarətmə mexanizmləri və pul siyasəti konsepsiyalarının təhlili, bu sahədə mövcud praktiki nəticə və təcrübələrin mənimsənilməsi xüsusi diqqət tələb edir. Həmçinin, qeyd edilənlərdən əlavə monetar idaretmə mexanizimlərinin bir sıra mühüm nəzəri-konseptual və təcrübi məsələləri dünyanın məşhur iqtisadçıları, beynəlxalq-maliyyə qurumlarının mütəxəsisləri, o cümlədən, mərkəzi bankların araşdırma mərkəzləri tərəfindən geniş tədqiq olunmuşdur. Qeyd olunanlardan əlavə, son zamanlar Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və s. kimi dünya miqyaslı nüfuzlu maliyyə təşkilatlarının ekspertləri tərəfindən dünyanın bəzi zəif inkişaf etmiş və inkişafda olan ölkələri, o cümlədən Şərqi Avropa, MDB, Mərkəzi Asiya, Yaxın Şərq, Afrika və Cənub-Şərqi Asiyada iqtisadi inkişafın monetar tənzimləmə aspektləri araşdırılır və təhlil edilir.

Ötən əsrin 70-ci illərindən etibarən monetar siyasət fiskal siyasətdən ayrı həyata keçirilir. Hətta bundan əvvəl “Bretton Woods” beynəlxalq maliyyə sistemi də bu iki siyasətin ayrılıqda formalaşmasını təklif etmişdir.Müasir dövrdə əksər ölkələrdə bu siyasətin icra edilməsi səlahiyyətləri müstəqil qurumların (ABŞ-da FES, Britaniya Mərkəzi Bankı,İsveçdə Riskbank, Yaponiya Bankı, Çin Xalq Bankı, Avropa Mərkəzi Bankı) öhdəliyinə həvalə edilmişdir. Adətən maliyyə əməliyyatlarının düzgün və operativ şəkildə yerinə yetirilməsi məsuliyyətinə bu qurumlar cavabdeh hesab olunurlar.Respublikamızda bu vəzifəni Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 11 fevral tarixli “Azərbaycan Respublikası Milli Bankının yaradılması haqqında” Fərmanı ilə yaradılanAzərbaycan Respublikası Mərkəzi Bankı yerinə yetirir. Hal-hazırda Mərkəzi Bank fəaliyyətini üçüncü nəsil bank qanunları əsasında icra edir (“Azərbaycan Respublikası Milli Bankı haqqında” Azərbaycan Respublikasının Qanunun ikinci redak-siyası 14.06.1996, üçüncü redaksiyası 10.12.2004-cü il tarixində qəbul edilmişdir). [6]

Məhz Mərkəzi Bank, məqsədindən asılı olaraq, monetar siyasəti aşağıdakı alətlər üzrə həyata keçirir:

**Açıq bazar əməliyyatları** – Monetar siyasətin əsas alətlərindən biri olan açıq bazar əməliyyatları tədavüldəki pulun həcmini tənzimləmək məqsədilə daxili bazarda qiymətli kağızların alqı-satqısı vasitəsilə maliyyə bazarlarına Mərkəzi Bankın müdaxiləsidir. Bu əməliyyat zamanı az və ya iri həcmli pul kütləsi ya dövriyyədən çıxır, ya da dövriyyəyə daxil olur. Mərkəzi Bankın bu mü-

daxiləsinin əsas məqsədi qısamüddətli dövlət istiqrazlarının dövriyyəyə buraxılışı və ya bazardan yığılmasının ilə qısamüddətli dövr faiz dərəcəsinə nail olmaqdır.

Respublikamızda aparılan pul siyasəti əməliyyatları üzrə təminat kimi qəbul edilən qiymətli kağızlar aşağıdakılardan ibarətdir:

-Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən manatla buraxılan dövlət istiqrazları;

-Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən buraxılan notlar;

-Dövlət zəmanətli manatla buraxılan istiqrazlar;

-"Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu" tərəfindən manatla buraxılan ipoteka istiqrazları;

"2011-2020-ci illərdə Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafı" Dövlət Proqramının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında qeyd edilmiş məlumata əsasən, son 5 il ərzində mütəşəkkil qiymətli kağızlar bazarında ticarət dövriyyəsi 4,3 dəfə, o cümlədən, dövlət istiqrazları ilə ticarətin həcmi 6,7 dəfə, korporativ istiqrazlar ilə əməliyyatların həcmi 54 dəfə artmışdır. Bütövlükdə, qiymətli kağızlar bazarı ümumi iqtisadi artımı üstələyən artım nümayiş etdirmiş və Bakı Fond Birjasının ticarət dövriyyəsinin qeyri-neft ümumi daxili məhsuluna nisbəti 41% artaraq 12,1%-ə yüksəlmişdir. [9]

**Uçot faiz dərəcəsi** – Mərkəzi Bank müəyyən hallarda əlavə vəsaitə ehtiyac duyan banklara qısamüddətli borc verir. Bəzən də onların əlində olan vəsaitləri cəlb edir. Bu siyasətin məqsədi bank sektorunda olan likvid vəsaitin həcmini tənzimləməkdir. Bununla da daxili bazarda mövcud pul kütləsi tənzimlənir. Uçot dərəcəsi sərhəd kimi də qəbul edilə bilər. Mərkəzi Bank banklara borc verdikdə müəyyən etdiyi uçot dərəcəsi faiz dərəcəsindən yüksək, onlardan vəsait cəlb edərkən təyin etdiyi faiz isə uçot dərəcəsindən aşağı olur. Bu zaman uçot dərəcəsi Mərkəzi Bank tərəfindən yuxarı və aşağı həddi müəyyən olmaqla təyin olunur. Sonuncu dəfə 25 oktyabr 2019-cu il tarixində Azərbaycanda uçot faiz dərəcəsi 7.75% səviyyəsində, faiz dəhlizinin yuxarı və aşağı hədləri uçot dərəcəsinə ± 1.75%-lik diapazonda müəyyən edilmişdir.

Qeyd edək ki, Azərbaycanda uçot dərəcəsinin ən yüksək həddi 15%-ə bərabər olmuş və bu barədə müvafiq qərarı Mərkəzi Bank 2008-ci ilin iyun ayında qəbul etmişdir. Uçot dərəcəsinin ən aşağı həddi isə 2009-cu ilin may ayında qəbul edilən qərarla 2%, ümumilikdə isə son 5 il ərzində Azərbaycanda uçot dərəcəsinin dinamikası aşağıdakı kimi olmuşdur. [6]




Şək. 1. Azərbaycanda uçot faiz dərəcəsinin dinamikası, faizlə

**Məcburi ehtiyat norması**-Məcburi ehtiyat norması ölkə daxilində pul kütləsi və bank sistemi likvidliyinin tənzimlənməsində istifadə olunan pul siyasəti alətlərindən biridir. Bu normalar kommersiya bankları tərəfindən cəlb olunan vəsaitlərin Mərkəzi Bankda məcburi qaydada saxlanılan bir hissəsidir. Mərkəzi Bank tərəfindən müəyyən edilmiş məcburi ehtiyat norması əsasında kommersiya banklarının saxlamalı olduqları məcburi ehtiyatların məbləği müəyyən edilir. Məcburi ehtiyatlar bankın hesablama bazasının (bankın milli və xarici valyutada, qiymətli metallarda cəlb etdiyi vəsaitlərdir) hesablama dövrü (hər ayın ilk təqvim günü başlayır və son təqvim günü bitir) üzrə orta günlük qalığı əsasında hesablanır. Hesablanmış məcburi ehtiyat saxlama müddətində (dövrü bitdikdən sonrakı ayın 15-ci təqvim günü başlayır və növbəti ayın 14-cü təqvim günün ədək davam edir) bankların Mərkəzi Bankda olan müxbir hesabında saxlanılır. Bu nor-

ma aşağı salındıqda bankların sərəncamında olan pulun miqdarı artır və daha çox kredit vermək üçün faiz dərəcəsi endirilir və yaxud da əksinə.

Respublikamızda məcburi ehtiyat normasının tənzimlənməsi Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyyətinin "Məcburi ehtiyatların norması, hesablanması və saxlanması Qayası" adlı 01.11.2012 tarixli qərarı əsasında yerinə yetirilir [8].

**Kredit təşkilatlarının yenidən maliyyələşdirilməsi** – Bu zaman müştəriyə başqa bir bankda daha əlverişli şəkildə kreditin verilməsi və rəsmiləşdirilməsi nəzərdə tutulur. Kreditləşmənin bu forması zamanı əsas mqsəd bankdan götürülən kreditlə daha əvvəl başqa bankdan götürülən kreditin ödənilməsidir.

Əksər maliyyə qurumları müştərilərə daha öncə verdikləri kreditlər üzrə yenidən maliyyələşdirmə proqramları təklif edir. Həmçinin, proqram digər bank və kredit təşkilatlarından əldə edilən borclara da şamil edilir. Məhz bu proqram vasitəsilə banklar yeni müştərilər tapmaq imkanı əldə edirlər.

**Depozit əməliyyatları** - Əmanət formasında vəsaitlərin cəlb olunması və yerləşdirilməsini yerinə yetirən bank əməliyyatlarından ibarətdir. Bu əməliyyat sayə-sində əldə edilmiş depozitlər vasitəsilə kreditləşmə prosesi həyata keçirilir.O cümlədən, beynəlxalq təcrübədə qəbul edilmiş pul siyasətinin digər alətlərini də qeyd edə bilərik.

**2. Monetar siyasətin həyata keçirilməsində valyuta kursu rejimləri**

Qeyd etdiklərimizdən əlavə, monetar siyatət həyata keçirilərkən valyuta məzənnə-sindən də geniş istifadə olunur. Ölkənin valyuta kursu rejimi monetar siyasəti yerinə yetirən orqan olan Mərkəzi Bank tərəfindən müəyyənləşdirilir. Valyuta kursu adətən, iki əsas rejim üzrə təsnifləşdirilir:

**Sabit valyuta rejimi** – Mərkəzi Bankın valyuta kursunu müəyyən edib sabit saxladığı bir sistemdir. Bu halda valyuta bazarlarına Mərkəzi Bankın müəyyənləşdirdiyi məzənnəyə uyğun olaraq valyuta alınıb-satıla bilər. Valyuta kursunun sabit saxlanması üçün Mərkəzi Bank lazım gəldikdə bazara milli və ya xarici valyuta satır. Sabit valyuta rejiminin müsbət və mənfi cəhətləri aşağıdakı cədvəldə verilmişdir.

Cədvəl 1.

Sabit valyuta rejiminin müsbət və mənfi cəhətləri

| Müsbət cəhətləri | Mənfi cəhətləri |
|---|---|
| Məzənnə riski azalır, xarici investisiya və beynəlxalq əməliyyatlar artır | Xarici şoklara qarşı dayanıqlıq zəifləyir |
| Faizlərdə azalmalar müşahidə olunur: qeyri-müəyyənliyin faiz dərəcələrində azalması və xarici borc verilərkən risk gəlirlərində azalmalar baş verir | Müstəqil monetar siyasət həyata keçirmək çətinləşir |
| Beynəlxalq maliyyə bazarlarına daxil olmaq imkanları artır | - |

Müsbət və mənfi cəhətləri nəzərə alınmaqla, sabit valyuta kursu rejimində məzənnəni dəyişmək üçün iki addım atılır:

1.Devalivasiya – milli valyutanın xarici valyutalar qarşısında məqsədli şəkildə ucuzlaşmasıdır. Misal olaraq, ölkəmizdə 2015-ci ildə milli valyutamızın 2 dəfə dollar qarşısında ucuzlaşmasını qeyd edə bilərik. Bu siyasətin əsas məqsədi, ixracı artırmaqla idxaldan asılılığın aradan qaldırılmasına nail olmaqdır. Lakin, dövlət qiymət artımlarını tənzimləmədikdə devalvasiya əks effektə gətirib çıxara bilər.

2.Revalvasiya – milli valyutanın xarici valyutalar qarşısında məqsədli şəkildə bahalaşdırılmasıdır. Devalvasiyanın əksi olan bu proses baş verdikdə, ixrac azalır və idxal artır. Lakin ölkə əhalisinin sahib olduğu sərvət getdikcə dəyər qazanır. Bu addıma misal olaraq, İsveçrə Mərkəzi Bankının 2015 – ci ildə 25 %-ə qədər revalvasiya etməsini göstərə bilərik [3].

Həmçinin, monetar siyasətin tənzimlənməsində **üzən valyuta rejimindən** də istifadə olunur ki, bu sistemdə məzənnə xarici valyutaya olan tələb və təklif əsasında formalaşır. Dalğalı, çevik və ya sərbəst məzənnə rejimi də adlandırılan bu sistem iki şəkildə həyata keçirilə bilir:

1. Tam üzən məzənnə rejimi. Bu zaman valyuta bazarına heç bir müdaxilə müşahidə olunmur.
2. Tənzimlənən üzən məzənnə rejimi. Bu sistemdə bəzi hallarda bazardakı valyuta şoklarını yumşaltmaq məqsədilə müdaxilə edilir.

25 oktyabr 2019-cu il tarixində uçot dərəcəsinin dəyişdirilməsi ilə əlaqədar Azərbaycan Respublikası Mərkəzi Bankın sədri Elman Rüstəmov üzən məzənnə ilə əla-qədar belə bir fikir səsləndirmişdir: "2020-ci ildə də tam üzən məzənnəyə

keçməyimiz mümkün deyil. Bunu o zaman edə bilərik ki, inflyasiyanın hədəflənməsi rejiminə keçək”. Baş bankir bu fikrini belə bir nitqlə əsaslandırıb: "Bu şərtlərdən biri dövlət qiymətli kağızlar bazarının genişlənməsidir. Bu, banklararası pul bazarının da əhəmiyyətli dərəcədə genişlənməsinə səbəb olacaq. Bu gün bəzi banklarda əhəmiyyətli likvidlik var, amma bəzilərində yoxdur. Bu gün biz banklarası aktiv bazar görmürük. Çünki onların girov bazası zəifdir. Banklar arasında qarşılıqlı etibar olmalıdır. Əgər likvidliyi yüksək olan bank aşağı likvidli banka inanmırsa, burada etibardan danışmaq olmaz. Biz çalışırıq ki, dövlət qiymətli kağızlarının bütün ticarəti "Bloomberg" platformasına keçirilsin" [10].

Cədvəl 2.

Üzən valyuta rejiminin müsbət və mənfi cəhətləri

| Müsbət cəhətləri | Mənfi cəhətləri |
|---|---|
| Xarici şoklara qarşı dayanıqlıq güclənir | İdxaldan qaynaqlanan inflyasiya riski artır |
| Xarici ticarətdə rəqabətlilik artır | Maliyyə və ticarət əməliyyatları məzənnə dəyişiklikləri riskindən qaynaqlanaraq azalır |
| Sərbəst monetar siyasət yeritmək asanlaşır | Məzənnə riski ilə əlaqədar sperkulyativ təsirlər baş verir |

26 Noyabr 2019-cu ildə Konqres Mərkəzində Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilmiş tədbirdə Prezident İlham Əliyev milli valyutamızın məzənnəsi ilə bağlı bu fikirləri bildirdi:“Manatın məzənnəsi artıq üç ildir ki, sabitdir. Əminəm ki, belə davam edəcək. Valyuta ehtiyatlarımız artır. Valyuta ehtiyatlarımız ümumi daxili məhsuldan artıq çoxdur. Xarici borcumuz azalır, yenə də azaldacağıq. Mən göstəriş vermişəm, təqribən 10 faizə qədər, indi ümumi daxili məhsulun 17 faizini təşkil edir, 10 faizinə qədər getməlidir” [11].

**Nəticə.** Aparılan araşdırma və tədqiqatdan sonra belə nəticəyə gəlmək olar ki, bazar iqtisadiyyatı yönümlü ölkələrdə, eləcə də Azərbaycanda iqtisadi və monetar siyasətin reallaşdırılması çox mürəkkəb bir proses olmaqla, bir sıra həyata keçirilməsi zəruri olan məsələləri həll etməlidir. Bu məsələlər səciyyəsinə, reallaşdırılma müddətinə, vasitələrinin miqyasına görə bir-birindən fərqlənirlər. Bəzən də onlardan hər hansı birinin uğurlu həlli digərinin həllində müəyyən çətinliklər yarada bilər. Bu baxımdan, monetar siyasət həyata keçirilərkən ilk növbədə milli iqtisadiyyatın strukturu, monetar nəzarətin səviyyəsi, mövcud resurslardan istifadənin dinamikası və səmərəli bölgüsü, stabil aşağı inflyasiya səviyyəsi, valyuta təklifi ilə valyuta tələbinin tarazlaşdırılması, manatın məzənnəsinin uzunmüddətli meyli, qiymətlərin sabitliyi, bank sektorunun sağlamlaşdırılması və ümumiyyətlə, iqtisadi artımın daha dayanıqlı templərlə baş verməsi kimi amillər və tədbirlər nəzərə alınmalıdır.

## ƏDƏBİYYAT


1. Menkyu Qreqori. Ekonomiksin Prinsipləri. “Bakı”: 2009, 697 s.
2. Fridmen M. «Has Government Any Role in Money?» 1986, Vaşinqton.
3. Haxverdiyev Ə. İqtisad. “Bakı”, 2019, 301. s.
4. Karl E. Keys. Makroiqtisadiyyatın əsasları. “Edinburgh”, 2017, 466 s.
5. Juravlyova Q. P. Makroiqtisadiyyat. “Moskva”, 2008, 871 s.
6. www.cbar.az
7. www.taxes.gov.az
8. www.e-qanun.az
9. http://www.e-qanun.az/framework/21672 (20.11.2019)
10. http://toplum.tv/az/elman-rustemov-tam-uzen-mezenne-rejimine-kecmeyimiz-mumkundeyil/?fbclid=IwAR3n3DTlG8GiEa4X6BRWxsDLLBgWbbeWsQe_KjBwuX5rSWFqXhB3gzkAK_U#.XbLGgNIzbIU (20.11.2019)
11. http://marja.az/news/50403 (27.11.2019)

### Some theoretical issues of monetary policy

***P.G.Musaev***

### SUMMARY

**Key words:** *monetary, inflation, bond, mortgage, liquidity, credit, deposit, exchange rate, devaluation, revaluation*

The article explores the theoretical and methodological basis of the state's monetary policy to develop and regulate the economy as one of the most actual problems of the time. The main objective of the study is to investigate the impact of factors such as monetary policy mechanisms implemented by the country's financial institutions, including the Central Bank, as well as open market transactions, discount rates, mandatory reserves to the economic processes.

### Некоторые теоретические вопросы денежно-кредитной политики

***П.Г.Мусаев***

### РЕЗЮМЕ

**Ключевые слова:** *денежное обращение, инфляция, облигация, ипотека, ликвидность, кредит, депозит, обменный курс, девальвация, ревальвация*

В статье рассматриваются теоретико-методологические основы монетарной политики, проводимой государством с целью совершенствования и регулирования национальной экономики, как одной из наиболее актуальных проблем современности. Основная цель исследования - объяснить механизмы реализации денежно-кредитной политики финансовыми институтами страны, в том числе Центральным банком, а также операции на открытом рынке, процентную ставку, коэффициент обязательных резервов и реальное влияние этих факторов на экономические процессы.

*Redaksiyaya daxilolma: 10.12.2019*
*Çapa qəbul olunma: 16.12.2019*

# SAHİBKARLIQ FƏALİYYƏTİ VƏ BU SAHƏDƏ RİSKLƏRİNİN AZALDILMASINA TƏSİR EDƏN AMİLLƏR

*K.K.Rəhimov*
*Gəncə Dövlət Universiteti*

**Açar sözlər**: *sahibkarlıq, iqtisadi fəaliyyət, mənfəət, sahibkarlıq riski*

İqtisadiyyatda önəmli mövqelərdən birini tutan, sahibkarlıq fəaliyyəti – fiziki və hüquqi şəxslərin, onların birliklərinin, qanunla qadağan edilməyən təsərrüfat fəaliyyətinin bütün növləri, həmçinin əmtəə istehsalı, satışı və xidmətlərin göstərilməsi formasında müstəqil surətdə həyata keçirdiyi təşəbbüskarlıq fəaliyyətidir.

Hər şeydən əvvəl iqtisadi fəaliyyət olan sahibkarlığı 2 tipə ayırmaq olar.

1. Yaşamaq zərurətinə görə fəaliyyət.

2. Rahatlıq, əlavə gəlir əldə etmək istəyinə görə fəaliyyət. Ümumiyyətlə sahibkarlığa meylin özünəməxsus səbəbləri var: pul qazanmaq, ictimai rifaha dəstək vermək, şəxsi fəaliyyət sahəsində irəliləmək, müstəqil fəaliyyət göstərmək, özünü təsdiq və s. Lakin, fəaliyyət növündən, formasından asılı olmayaraq hər şeyin irəlisində bir hədəf vardır o da gəlir, mənfəət əldə etmək arzusudur.

Hər bir iqtisadi fəaliyyətin formalaşmasında fəaliyyət formasına uyğun müəyyən mühit olduğu kimi, sahikarlıq fəaliyyətinin həyata keçirilməsi üçün də uyğun mühit olmalıdır. Bunlara təbii olaraq ilk növbədə iqtisadi, sosial, hüquqi və digər mühit amillərini misal çəkmək olar. Bu fəaliyyətin iqtisadi şərtləri əvvəla təklif olunan əmtəələr və həmin əmtəələrə olan tələb, əmtəələrin növləri, pul vəsaitlərin mövcudluğu, işçi qüvvəsinin və onların iş yerlərinin artıqlığı və çatışmazlığı, işçilərin əmək haqqının səviyyəsi və onlara təsir edən amillər və s. kimi nəzərdə tutulur. Təsadüfi deyil ki, bu fəaliyyətə maddi resursların həcmi, gəlirlərin səviyyəsi, investisiya üçün nəzərdə tutulmuş kapital ehtiyyatlarının həcmi, həmçinin işin təşkilinin maliyyə dayanıqlığını təmin etmək üçün borc vəsaitinin məbləği əhəmiyyətli dərəcədə təsir göstərir.

"Sahibkarlıq fəaliyyətində kommersiya əməliyyatlarını həyata keçirmək üçün zəruri olan iqtisadi şərtlərdən biri təşkilati strukturlardır. Bunlara misal olaraq: banklar – maliyyə xidməti göstərir; mal göndərənlər – xammal, materiallar, yarımfabrikatlar, yanacaq, enerji, maşın, avadanlıqlarla təczihatını; topdansatış və pərakəndə ticarət strukturları - əmtəənin istehlakçılara çatdırılmasını; ixtisaslaşdırılmış firmalar – hüquq, mühasibat, vasitəçilik xidmətlərini; işədüzəltmə agentlikləri işçi qüvvəsinə olan ehtiyacların təmin edilməsini; sair agentliklər – reklam, nəqliyyat, sığorta, informasiya və rabitə xidmətlərini həyata keçirirlər." [2, s.20].

Müəyyən fəaliyyətin təşkilində vacib amilləri sadaladıqda sosial amilləri nəzərə almamaq mümkün deyil. Sahibkarlığın formalaşmasının sosial şərtləri ilk olaraq istehlakçının əmtəəni alarkən onun diqqətini çəkən moda və zövq ilə izah olunur. Təbii olaraq bunlar dəyişə bilir. Əksər hallarda sosial-mədəni mühitin də təsiri ilə sahibkarlıq fəaliyyətində mənəvi və dini normalar da önəmli əhəmiyyət daşıyır. Bu normalar istehlakçıların şəxsi həyatına və əmtəələrə olan tələbə bilavasitə təsir edir. Sosial şərtlər eyni zamanda ayrı-ayrı fərdlərin fəaliyyətinə, bu isə öz növbəsində əmək haqqının həcminə və əmək şəraitinə təsir edir. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan sahibkar öz işçilərinin sosial məsələlərinin həllində iştirak etməli, sağlamlığın mühafizəsi və iş yerlərinin saxlanılmasını təmin etməlidir. Sahibkarlıq fəaliyyətinin həyata keçməsini şərtləndirən zəruri amillər göstərir ki, bu fəaliyyət ölkənin iqtisadi həyatına birbaşa təsir göstərir. Kiçik və orta sahibkarlığın ölkə üçün əhəmiyyəti əvəzedilməzdir. Kiçik sahibkarlıq, iş yerləri məhdud olan yerlərdə işsizliyi qismən aradan qaldırılar, istehlakçıları məhsulla təmin edirlər, vergi ödəməklə büdcənin gəlirini atırırlar, əhalinin müəyyən hissəsinin gəlirlə təmin edir, iri müəssisələrə nisbətən çevikdirlər - bir sözlə ümumi həyat səviyyəsinin yüksəlməsində kifayət qədər əhəmiyyətli rol oynayırlar.

Sahibkarlıq fəaliyyətinin bütün formaları uğur qazanmaq və ya səmərə əldə etmək üçün gözlənilən və ya gözlənilməyən risklərlə əhatəli olur, yəni sahibkarlıq fəaliyyəti müxtəlif fəaliyyət növünü yerinə yetirərkən müəyyən-gözlənilən və qeyri-müəyyən-gözlənilməyən risklərlə qarşılaşa bilər. Bu səbəbdən sahibkarlıq riski sığortalanan və sığortalanmayan risklərə bölünür. Adlandırılmasından görünür ki, bu risklər qabaqcadan gözlənilə bilən və proses zamanı yarana biləcək anlayışlardır. Məsələn yanğın, məhsulun daşınma vaxtı yararsız hala düşməsi, idarəçi heyətin və ya ixtisaslı kadrların ölümü və ya xəstələnməsi və s. kimi məsələlər – sığortalanan; istehlakçıların zövq dəyişiklikləri, rəqiblərin fəaliyyətindəki dəyişikliklər, fəaliyyət üçün lazım olan resursların səmərəsiz bölgüsü və qiymətlərin dəyişilməsi, siyasi vəziyyətin dəyişilməsi, çaxnaş-

malar, ekoloji və təbii fəlakətlər və s. kimi məsələlər – sığortlanmayan risklərə aiddir. Aydındır ki, ikincidən sığortlanamaq mümkünsüzdür. Təcrübə göstərir ki, biznes fəaliyyətinin həyata keçirilməsi zamanı risklərin təzahür etməsi gözləniləndir. Çünki bütün növ amillərin firmanın fəaliyyətinə təsirini əvvəlcədən müəyyənləşdirmək qeyri mümkündür və nəzərdə tutulmuş fəaliyyətin həyata keçirilməsi prosesində bir çox amillər gözlənilməz şəkildə dəyişə bilər. Buna görə də sahibkar firmanın həyat dövrünün (tsiklinin) bütün mərhələlərində itkiyə məruz qala bilər. İqtisadi nəzəriyyə klassiklərinin əsərlərində belə bir fikir xüsusilə vurğulanır ki, sahibkarlıq riskli fəaliyyətdir. A.Smit "Xalqların sərvətlərinin təbiəti və səbəbləri haqqında tədqiqat" adlı əsərində yazır ki, "hətta adi mənfəət normasına belə nail olmaq hər zaman az və ya çox dərəcədə risklə bağlıdır" [3, s.411].

Risklərlə bağlı olaraq sahibkarlıq ziyanının 3 fərqli halı mövcuddur: 1. Edilən risk nəticəsində mənfəət əldə etməmək, yəni alış qiymətinə də satış. 2. Təsadüfi hal olsa da, nəinki qazanc hətta çəkilən xərclər belə ödənmir, zərər də sahibkarın büdcəsiylə ödənir. 3. Həyata keçirilən iqtisadi fəaliyyət sahibkarı müflisləşdirir. Bu vəziyyətin baş vermə səbəbi sahibkarın ağıllı risk etmə bacarığının olmamasıdır.

Bazar iqtisadiyyatı şəraitində risk sahibkarlıq fəaliyyətinin ən əsas alətlərindən biri sayılır. Vaxtında risk edə bilən sahibkar , bu səriştəsinə görə əlavə gəlir qazanır. Risk deyildikdə əksər vaxt hüquqsuz fəaliyyətin yaradılması da anlaşılır. Bu məvhumun başqa özünəməxsus cəhətləri də mövcuddur. Risklərin qarışıqlıq, gözlənilməzlik, güvənsizlik və təxmini fərziyyələr xarakterik xüsusiyyətlərindəndir. Risklərin səbəb olduğu problemləri aradan götürmək təkcə ağıl və təcrübə deyil, eyni zamanda müəyyən qədər maliyyə ehtiyyatı tələb edir. Şirkətlər, podratçılar, mal verənlər risk konsepsiyası üçün müəyyən maliyyə ehtiyyatına malik olmalıdırlar. Bu səbəbdən sahibkarlıq fəaliyyətinin yüksək dərəcədə risklər daşıması, məcbur edir ki, bu risklərin minumum səviyyəyə salınması imkanları araşdırılsın.

Risklərin aşağı salınmasına aşağıdakı amillərin gözlənilməsinin böyük təsiri vardır:

1. Lahiyənin həyata keçirilməsi ərəfəsində işlərə və hazırlıq mərhələlərinə diqqətlə yanaşmaq.

2. Layihə iştirakçıları ilə onun icraçıları arasında risklərin bölüşdürülməsi.

3. Sığorta ilə əlaqədar işlərinin zamanında həyata keçirilməsi. Sığortalana bilməyən risklər üçün ehtiyyat vəsaitinin hazırlanması və s. Sahibkarlıq fəaliyyətində formalaşan risk növləri dedikdə istehsal, kommersiya, maliyyə (kredit), investisiya və bazar bu fəaliyyətdə baş verən risklər nəzərdə tutulur. Əmtəənin istehsalı və satışı, istehsal prosesinin hər hansı növünün həyata keçirilməsi ilə bağlı risklər istehsal risklərinə aiddir. İstehsal riskinə məhsul istehsalı və satışın ölçüsünün ixtisarı, iş planında nəzərə tutulmuş maddi və əmlak məsuliyyətinin artırılması, qiymətlərin aşağı düşməsi və s kimi bəzi məsələlər mühüm təsir göstərir.

Məhsul satışı və xidmətlərin həyata keçirilməsi prosesində yaranan risklər kommersiya risklərinə aid edilir. Və bu risklərə təsir göstərən amillərə aşağıdakıları göstərmək olar ki, bu amillərə kommersiya əməliyyatları həyata keçirilən zaman diqqət ayrılmalıdır: 1. İstifadə olunan istehsal avadanlıqlarının qiymətlərinin dəyişməsi, yəni artması. 2. Satın alınan məhsulun qiymətinin artması. 3. Alğı-satqı(tədavül) prosesində məhsul itkisi. 4. Tədavül xərclərinin artması.

Maliyyə riskləri maliyyə sahibkarlığı fəaliyyəti təşkil olunarkən və ya maliyyə əməliyyatları həyata keçirilərkən tərəf müqabillərindən hər hansınınsa ödəniş qabiliyyətinin olmaması valyuta əməliyyatlarının məhdudlaşması zamanı özünü biruzə verir. İnvsetisiya risklərinin ən önəmli xüsusiyyətlərindən biri cəlb olunmuş qiymətli kağızlardan ibarət investisiya – maliyyə portfelinin qiymətdən düşməsidir. Bazar daxilində faiz dərəcəsi, milli valyuta vahidinin və ya valyutanın xarici kurslarının tərəddüdləri bazar risklərini ehtiva edir. Təbii ki, bu proseslərin təsiri eyni zaman müddətində baş verə bilər. Əməliyyatların həyata keçirilməsi birbaşa olaraq sahibkarlıq risklərinin hər bir növünə əhəmiyyətli dərəcədə təsir edir. Bu səbəbdən müəyyən sahibkarlıq fəaliyyətində uğur qazanmaq üçün layihənin tam təşkili üçün keçirilən əməliyyatların üzərində dəqiq araşdırma aparılmalıdır.

Ölkəmizdə sahibkarlıq risklərinin sığortalanması zəif inkişaf etmişdir ki, bu da sığorta bazarının zəif inkişaf ilə əlaqədardır. Biznes risklərinin sığortalanmasında zəif inkişafın əsas səbəblərindən biri sahibkarların sığorta şirkətlərinə inamsızlığı və bu növ sığorta haqqında zəruri bilgilərin kifayət qədər olmamasıdır.

İqtisadi cəhətdən inkişaf etmiş dünya ölkələrində sığorta xidmətləri geniş yayılmışdır. İnkişaf etmiş qərb ölkələrinin təcrübəsi göstərir ki, iqtisadi və sosial həyatda təsərrüfat subyektlərinin, fərdi təsərrüfatların istənilən addımı məhz sığorta münasibətləri ilə müşayiət olunur. Belə ki, bu ölkələrin istər hüquqi, istərsə də fiziki şəxsləri sığortanın bir çox növləri üzrə öz əmlak və sağ-

lamlığını, bir sözlə, sahib olduqları nə varsa, hamısını bütün risklərdən sığorta etdiririrlər. Nəticədə hər bir şəxs əvvəlcədən cüzi bir məbləğ ödəməklə öz sağlamlığını və əmlakını qorumuş olur və hər hansı hadisə nəticəsində dəymiş ziyanı aradan qaldırmaq üçün heç bir əlavə məsrəf sərf etmədən sığorta şirkətlərinin ödədikləri vəsaitlər sayəsində tez bir zaman müddətində bərpa olunaraq hadisədən əvvəlki vəziyyətinə qaytarılır. Yəni həmin şəxs iqtisadi çətinliyə düşmür və öz fəaliyyətini əvvəlki kimi davam etdirir.

Bildiyimiz kimi hər bir hüquqi və fiziki şəxsin iqtisadi vəziyyəti onun təmsil olunduğu ölkənin iqtisadi vəziyyətinə birbaşa təsir edir. Bu səbəbdən sığorta xidmətlərindən geniş istifadə olunan ölkələr iqtisadi cəhətdən öz inkişaf tempini saxlayır və bu ölkələrdə əhalinin gəlir və yaşayış səviyyəsi yüksək olur. Bir sözlə, sığorta iqtisadi inkişafa təsir edən əsas amillərdən biridir.

Azərbaycanda sığorta sisteminin inkişafı və onun dünya sığorta sisteminə inteqrasiyasının təmin edilməsi üçün aşağıdakı tədbirlər həyata keçirilməlidir:

1. Ölkənin sığorta şirkətlərinin sığorta, maliyyə və investisiya fəaliyyətinin prioritet istiqamətləri müəyyən edilməli və milli sığortaçıların vergiyə cəlbetmə qaydalarının təkmilləşdirilməsi yolu ilə sığorta resurslarının hərəkətinin səmərəli dövlət tənzimlənməsi mexanizminin işlənib hazırlanması;

2. Beynəlxalq sığorta münasibətlərinin və dünya sığorta bazarının qloballaşması meyllərinin təhlili əsasında milli sığorta şirkətlərinin maliyyə sabitliyinin amili kimi təkrar sığorta institutunun inkişaf perspektivlərinin müəyyənləşdirilməsi;

3. Lisenziyalaşdırma və cari nəzarət funksiyalarının bir-birindən ayrılması, eləcə də sığorta, investisiya və təkrarsığorta fəaliyyətinə dövlət zəmanəti verilməsini nəzərdə tutan Milli Sığorta Ehtiyatlarını yaradılması;

4. Milli sığorta təşkilatlarının maliyyə strategiyası, planlaşdırılması və büdcələşdirilməsi sisteminin işlənib hazırlanması, uçot və hesabatın beynəlxalq standartlara uyğunlaşdırılması;

5. Beynəlxalq sığorta və sığorta nəzarəti təşkilatları ilə inteqrasiyanın dərinləşməsi üçün tədbirlərin görülməsi.

## ƏDƏBİYYAT

1. “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı: 2009
2. Niftullayev.V “Sahibkarlığın əsasları” Bakı: Zaman, 2002.
3. Biznesin təşkili və idarə edilməsi / Dərslik. Bakı: «İqtisad Universiteti» nəş., 2011.

## Factors influencing on business activity and reducing risks in this area

***K.K.Rahimov***
***Ganja State University***

## SUMMARY

**Key words:** *entrepreneurship, economic activity, profit, entrepreneurial risk*

Although the emergence of economic activity as a form of economic activity dates back to the Middle Ages, with the rise and development of capitalism, the rapid growth of wealth and profits gave importance the universal character of entrepreneurial activity. Naturally, these income-earning activities lead to economic unpredictability, that is, risks. For this reason, economic research is one of the key priorities to identify the factors that may contribute to the reduction of risks in the business process.

## Факторы, влияющие на деловую активность и снижающие риски в этой области

***Докторант К.К.Рагимов***
***Гянджинского государственного университета***

## РЕЗЮМЕ

**Ключевые слова:** *предпринимательство, хозяйственная деятель-ность, прибыль, предпринимательский риск*

Хотя возникновение экономической активности как формы экономической деятельности восходит к средневековью, быстрый рост богатства и прибыли с появлением и развитием капитализма сделал человеческую природу предпринимательской деятельности. Естественно, что эти приносящие доход действия приводят к экономической непред-сказуемости, то есть рискам. По этой причине экономические исследования являются одним из ключевых приоритетов для выявления факторов, которые могут способствовать снижению рисков в бизнес-процессе.

*Redaksiyaya daxilolma: 19.12.2019*
*Çapa qəbul olunma: 24.12.2019*

# AQRAR SAHƏDƏ MALİYYƏ MÜNASİBƏTLƏRİNİN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

***Dissertant A.M.Hüseynov***
***Azərbaycan Dövlət Aqrar Universiteti***

**Xülasə**

Qloballaşma və beynəlxalq inteqrasiya münasibətlərinin genişlənməsi maliyyə münasibətlərinin yeni tələblərə uyğun şəkildə qurulmasını tələb edir. Bu baxımdan aqrar sahədə maliyyə münasibətləri, təsərrüfatçılıq subyektlərinin fəaliyyətinin stimullaşdırılmasının ən vacib istiqamətlərindən hesab edilir. Aqrar sferanın sahəvi xüsusiyyətləri dövlətin maliyyə siyasətinə, kənd təsərrüfatında maliyyə münasibətlərinin təşkilinə və onların həyata keçirilməsi üçün müvafiq maliyyə mexanizminin istifadəsinə öz təsirini göstərir. Ona görə də maliyyə münasibətlərinin formalaşmasında təsərrüfatçılıq subyektlərinin maliyyə nəticələrinin və maliyyə resurslarına tələbatının nəzərə alınması xüsusilə vacibdir. Aqrar sahə məhsulları istehsalçılarının iqtisadi maraqlarının mərkəzində də məhz səmərəli maliyyə münasibətlərinin formalaşması dayanır.

**Açar sözlər:** *maliyyə siyasəti, maliyyə resursu, səmərə, kredit, risk, subsidiya*

Bazar münasibətlərinin inkişafı və beynəlxalq inteqrasiya münasibətlərinin genişlənməsi maliyyə siyasətinin yeni tələblərə uyğun şəkildə qurulması ilə müşayiət olunur. Bu baxımdan maliyyə münasibətləri və bu əlaqələrin formalaşdırılması alətləri fərqli mahiyyəti kəsb edir. Onların istifadəsinin xarakteri bazar iqtisadiyyatına xas olan yeni sosial-iqtisadi münasibətlər ilə müəyyənləşdirilməklə, hər bir sfernın xüsusiyyətlərinin nəzərə alınmasını tələb edir. Qeyd edilənlərdən aydın olur ki, aqrar sahədə kənd təsərrüfatı məhsulları istehsalçılarının iqtisadi maraqlarının mərkəzində maliyyə münasibətləri dayanır.

Aqrar sahədə maliyyə münasibətləri, konkret təsərrüfatçılıq subyektinin fəaliyyətinə təsir göstərməyin ən vacib istiqamətlərindən biri olan müvafiq maliyyə mexanizmindən istifadə edilməklə həyata keçirilir. Eyni zamanda, aqrar sferanın sahəvi xüsusiyyətləri dövlətin maliyyə siyasətinə, kənd təsərrüfatında maliyyə münasibətlərinin təşkilinə və onların həyata keçirilməsi üçün müvafiq maliyyə mexanizminin istifadəsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Maliyyə münasibətləri sistemi və onların həyata keçirilmə mexanizmi maliyyə potensialının formalaşması imkanlarını və ondan istifadə metodlarını şərtləndirir [3, s.27].

Qloballaşma şəraitində maliyyə münasibətlərinin mahiyyəti və məzmununu nəzəri şərhi müxtəlif konsepsiyalara əsaslanır və tətbiqetmə sahələri fərqli olduğundan bu yanaşmalar spesifikliyi ilə fərqlənir. Bu baxımdan kənd təsərrüfatında maliyyə münasibətlərinin özünəməxsusluğu əsasən iki sahəni əhatə edir: dövlətin büdcə sistemində və büdcədənkənar fondlarında mərkəzləşdirilmiş pul vəsaitlərinin formalaşması və istifadəsi ilə əlaqəli mövcud münasibətlər; müəssisələrin pul dövriyyəsinin əhatə etdiyi sahələr.

Aqrar sahədə müasir maliyyə münasibətlərinin əsasını müəssisələrin maliyyə münasibətləri təşkil edir. Dövlət və kənd təsərrüfatı arasında maliyyə münasibətləri vergilərin və büdcəyə digər məcburi ödənişlərin ödənilməsi, büdcədənkənar fondların formalaşması, vergi güzəştlərinin tətbiqi, cərimələrin tətbiqi, müxtəlif proqramların büdcədən maliyyələşdirilməsi, sığorta ödənişlərinin həyata keçirilməsi, kredit faizlərinin və geri qaytarılan büdcə kreditlərinin ödənilməsi, habelə müxtəlif subsidiyaların, qrantların və subsidiyaların verilməsi və s. şəklində formalaşır. Araşdırmalar göstərir ki, dövlətin kənd istehsalçıları ilə maliyyə münasibətləri yalnız büdcə xərclərində əks olunan və kənd təsərrüfatının milli iqtisadiyyat sistemində fəaliyyət şərtlərinin xüsusiyyətləri ilə əlaqədar deyil. Eyni zamanda, dövlət maliyyə mənbələrinin formalaşmasını tənzimləyən mikroiqtisadi metodlardan və kənd istehsalçılarının mənfəətinin formalaşmasına birbaşa təsir metodlarından istifadə edir.

Ümumiyyətlə, kənd təsərrüfatında maliyyə münasibətləri onun spesifikliyini nəzərə alaraq aşağıdakı konseptual müddəalara əsaslanır:

- kənd təsərrüfatı məhsulları iqtisadi əhəmiyyətə malik olmaqla sosial mahiyyət kəsb edir. Çünki kənd təsərrüfatı məhsulları gəlir səviyyəsindən asılı olmayaraq cəmiyyətin bütün üzvləri tərəfindən istehlak olunur. Alıcılılıq qabiliyyəti və istehlak zövqündən asılı olaraq fərqlər, yalnız istehlak olunan məhsulların quruluşunda, keyfiyyətində və həcmində mövcud olur;
- kənd təsərrüfatı məhsulları ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində əsaslı rol oynayır. İdxaldan asılılığınınaradan qaldırılmasını nəzərdə tutan ərzaq təhlükəsizliyi normalarının gözlənilməsi ölkənin siyasi müstəqilliyinə də əhəmiyyətli təsir göstərir;

- əhalinin və emal sənayesinin aşağı effektiv tələbi baş verdiyi hallarda, kənd təsərrüfatı məhsulları istehsalçılarının maraqları təmin edilmir. Belə vəziyyətdə təklif olunan məhsulların qiymətinin aşağı düşməsi müşahidə edilir;

- kənd təsərrüfatı məhsulları istehsalı artan risk və təbii-iqlim şəraitindən asılılıq şəraitində həyata keçirilir. Eyni zamanda, əsas və dövriyyə kapitalından istifadənin səmərəliliyi, əmtəə istehsalçılarına mənfi təsirlərin zərərsizləşdirilməsi tamamilə mümkün olmayan risk faktorlarını əvvəlcədən müəyyənləşdirməyə imkan verir;

- bazar münasibətləri yeni yaradılan əlavə dəyərin optimal bölgüsünü təmin edə bilmir, bu da bölgü proseslərinin dövlət tərəfindən tənzimlənməsinin zəruriliyini şərtləndirir;

- kənd təsərrüfatında maddi-texniki bazanın inkişafı və dövriyyə kapitalının formalaşması üçün bank kreditlərindən istifadə zərurət təşkil edir. Bu baxımdan kreditləşmə maliyyə münasibətlərində stimullaşdırıcı funksiyaların həyata keçirilməsinə yönəldilir və s.

Büdcə xərcləri sahəsində dövlət və kənd təsərrüfatı arasında maliyyə münasibətlərinin inkişaf səviyyəsinə nəzər saldıqda məlum olur ki, bu baxımdan əsas istiqamətlərdən biri əsas kapitala yönəldilmiş investisiya qoyuluşlarıdır. Son illər üzrə kənd təsərrüfatına yönəldilən ayrılan investisiya qoyuluşlarının dinamikası göstərir ki, 2015-2019-cu illərdə bu sahədə müəyyən irəliləyişlər baş vermişdir. Belə ki, investisiya qoyuluşlarında təhlilin aparıldığı illərdə ümumən artım baş vermişdir. Lakin iqtisadiyyatın sahələri üzrə investisiya qoyuluşlarının tərkibində kənd təsərrüfatının xüsusi çəkisi çox aşağıdır – müvafiq olaraq 2,2%, 2,1%, 3,5%, 4,4% və 4,2% [5]. Doğrudur, dövlət tərəfindən son vaxtlar qəbul edilən Dövlət Proqramlarında, Strateji Yol Xəritələrində kənd təsərrüfatının maliyyələşməsi məsələləri nəzərdə tutulur. Konkret olaraq “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”ndə maliyyəyə çıxışın asanlaşdırılması, “istehsalçıların maliyyə resursları ilə təminatının yaxşılaşdırılması, bu sahədə risklərin qiymətləndirilməsi, habelə bu risklərin azaldılması və ya təsirinin yumşaldılması üzrə mexanizmlərin təkmilləşdirilməsi”, ümumilikdə isə kənd təsərrüfatı sahəsi üzrə maliyyələşdirmə mexanizmlərinin təkmilləşdirilməsi öz əksini tapır [1]. Lakin göründüyü kimi, bu sahədə ümumi vəziyyəti tam olaraq qənaətbəxş hesab etmək olmaz.

Ümumiyyətlə, meliorasiya sistemlərinin inşası və bərpası da daxil olmaqla bir sıra suvarma sistemlərinə, mədəni-texniki, aqrokimyəvi tədbirlərin həyata keçirilməsinə əhəmiyyətli dövlət investisiyaları ayrılır. Eyni zamanda, torpağın münbitliyinin qorunması və mineral gübrələrin alınması xərclərinin bir hissəsi də büdcədən dotasiya olunur. Qeyd edilənlərlə yanaşı, büdcə xərcləri elit toxum istehsalına, elit toxumların alınmasına, çoxillik əkinlərin salınmasına və onlara qulluq göstərilməsinə, damazlıq heyvanların alınmasına və damazlıq təsərrüfatlarının maliyyələşdirilməsinə çəkilən xərclərin bir hissəsini ödəmək üçün subsidiyalar şəklində dəstəyi nəzərdə tutur. “Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası”na əsasən hər hektar buğdaya görə 200 manat, tütünə görə 280 manat, pambığa 220 manat, şəkər çuğunduruna 280 manat, kartof və tərəvəzə 240 manat, bostan bitkilərinə 220 manat və s. nəzərdə tutulub. Həmçinin heyvandarlığa, gübrə təminatına, texnika və texnologiyalara görə də müəyyən güzəştlər tətbiq olunur [6]. Kənd təsərrüfatının xüsusiyyətlərini nəzərə alaraq müəyyənləşdirilən belə maliyyə münasibətləri yalnız kənd təsərrüfatına xasdır və kənd əmtəə istehsalçılarının maliyyə ehtiyatlarını tənzimləmək, ondan daha səmərəli istifadə etmək üçün vacib bir vasitədir.

Qeyd etdiyimiz kimi, kənd təsərrüfatı, artan risk şəraitində məhsul istehsalı ilə məğul olan iqtisadiyyatın mühüm bir sahəsidir. Bu baxımdan, kənd təsərrüfatı məhsulları istehsalçılarının məhsullara görə sığorta haqlarını ödəmələri üçün xərclərinin müəyyən bir hissəsini dotasiya etmək büdcə sisyasətində əsas yerlərdən birini tutur.

Araşdırmalar göstərir ki, kənd təsərrüfatında maliyyə münasibətlərinin spesifik formaları əsasən maliyyə və kredit mexanizmində əks olunur. Təcrübədə dövriyyə kapitalının formalaşması, mövsümi xərclərin büdcədən geri ödənilməsi əsasında kreditləşmə yolu ilə həyata keçirilir. Kənd təsərrüfatının kreditlərdən istifadə etməklə maliyyələşməsində aşağıdakı tədbirlər xüsusi önəm kəsb edir: kredit təşkilatlarından alınan kreditlər və borclar üzrə faizlərin bir hissəsini ödəmək üçün kənd təsərrüfatı məhsulları istehsalçılarına subsidiyaların verilməsi; kənd təsərrüfatının texnoloji və texniki modernləşdirilməsi çərçivəsində əsas kapitalın formalaşdırılması üçün alınan investisiya kreditləri üzrə faiz dərəcələrinin subsidiyalaşdırılması [3, s.62]. Bundan əlavə, bəzi hallarda büdcədən nizamnamə kapitalına vəsait ayırması nəzərdə tutulur ki, bu da mahiyyət etibarilə uzunmüddətli borc olan intensiv texnologiyaların tətbiqi üçün yüksək texnoloji maşın və avadanlıq komplekslərinin

lizinqi əsasında kənd təsərrüfatına tədarükə imkan verir.

Kənd təsərrüfatı məhsulları istehsalçılarının dövriyyə kapitalı üçün xüsusi bir kredit forması əmtəə kreditidir. Bu kredit növü əmtəə formasında, daha çox yanacaq-sürtkü materialları və gübrələr şəklində bir ilə qədər müddətə verilir. Kənd təsərrüfatından başqa iqtisadiyyatın digər sahələri əmtəə şəklində maliyyə dəstəyi formasından istifadə etmir. Dövlətin büdcədənkənar fondlarına vergi və rüsumlar, sığorta haqları, hesablanmış cərimələrin məbləğləri daxildir. Bu, vergi güzəştinin spesifik bir formasıdır. Belə mexanizm tətbiq etməklə dövlət maliyyə mənbələrinin səmərəliliyini təmin edir, məhsul istehsalçılarının gəlirlərini artırır, tələb və təklifi, bazar şərtlərini sabitləşdirir. Kənd təsərrüfatında maliyyə münasibətlərinin xüsusiyyəti həm də onunla xarakterizə olunur ki, eyni istehsal xərcləri müqabilində fərqli miqdarda və keyfiyyətdə məhsul istehsal olunur, bu da fərqli xərclərə və müvafiq olaraq maliyyə nəticələrinə gətirib çıxarır.

Qeyd etmək lazımdır ki, istehsalın nəticəsinin müəyyən hissəsi pul şəklində olmur və təsərrüfat ehtiyacları üçün istifadə olunur. Həmçinin istehsal olunmuş məhsulların satışından əldə olunan gəlirlər arasındakı vaxt fərqi, il ərzində istehsalçının maliyyə resurslarının çatışmazlığını xarakterizə edən amillərdən birinə çevrilir. Bundan əlavə, kənd təsərrüfatı istehsalının mövsümi xarakteri zamanla maliyyələşmədə kəskin bərabərsizliyə səbəb olur. Bu, səmərəli kənd təsərrüfatı fəaliyyətinin təmin edilməsi üçün kreditin əhəmiyyətini daha da artırır.

Aqrar sahədə maliyyə münasibətlərinin formalaşmasında istehsal prosesinin yuxarıdakı xüsusiyyətlərinin nəzərə alınması son dərəcə zəruridir. Maliyyə mexanizmində bu cür müxtəlif vasitələrinin və stimullarının istifadəsi yalnız bu sferaya xas olan əmtəə istehsalının xüsusi şərtləri ilə əlaqədardır. Təbii ki, bu prosesdə kənd təsərrüfatı məhsulları istehsalçılarının maliyyə resurslarının formalaşmasına dövlətin təsiri də son dərəcə əhəmiyyətlidir. İqtisadiyyatın bu mühüm sferasına maliyyə dəstəyi, yüksək əmək motivasiyası və investisiya cəlbediciliyi ilə yüksək gəlirli kənd təsərrüfatı sistemi yaratmaq üçün kifayət qədər əhəmiyyətliliyi ilə özünü göstərir. Göstərilənləri ümumiləşdirərək, dövlətlə kənd təsərrüfatı arasında maliyyə münasibətlərinin yaxşılaşdırılması məqsədilə aşağıdakı tədbirlərin məqsədəuyğunluğunu qeyd etmək olar:

- kənd təsərrüfatında gözlənilən effekti əldə etmək üçün istehsalın maliyyə resursları ilə təminatına xüsusi diqqət yetirilməli, maliyyələşmədə fasiləsizlik təmin edilməlidir;
- maliyyə münasibətlərinin formalaşmasında fərqli təbii-iqlim şəraitində maliyyə resurslarına tələb nəzərə alınmalıdır. Bu baxımdan, təsərrüfat subyektlərinin maliyyə nəticələrini tarazlaşdırmaq üçün strateji cəhətdən əhəmiyyətli kənd təsərrüfatı məhsullarının subsidiyalaşdırılmasına xüsusi önəm vermək zəruridir;
- büdcə resurslarından istifadənin səmərəliliyinin monitorinqi əsasında kənd təsərrüfatının maliyyələşdirilməsini əhəmiyyətli dərəcədə artırmaq mümkündür. Bu baxımdan maliyyə və kredit mexanizmini aqrar sahənin müasir ehtiyaclarına uyğun şəkildə yenidən formalaşdırılmasına ehtiyac vardır. Bu həm də ona görə vacibdir ki, kənd təsərrüfatı, iqtisadiyyatın digər sferaları ilə müqayisədə daha yüksək risklərlə müşayət olunduğundan, onun tələb olunan maliyyə resursları ilə təminatı xüsusi əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT


1. "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi". 2016-cı il 6 dekabr.
2. "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası". 2019-cu il 27 iyun.
3. Sadıqov M.M. Maliyyə potensialı: formalaşma və aqrar sahənin prioritetliyi, Bakı, 2009, 294 s.
4. Староверова Г.С. Экономическая оценка инвестиций: учебное пособие. М.: КНОРУС, 2006. - 309 с.
5. www.stat.gov.az
6. akia.gov.az

## Особенности развития финансовых отношений в аграрном секторе

***Диссертант А.М.Гусейнов***
***Азербайджанский государственный аграрный университет***

**РЕЗЮМЕ**

**Ключевые слова:** *финансовая политика, финансовый ресурс, эффективность, кредит, риск, субсидия*

Глобализация и расширение международных интеграционных отношений требуют установления финансовых отношений в соответствии с новыми требованиями. С этой точки зрения финансовые отношения в аграрном секторе считаются одним из важнейших направлений стимулирования деятельности хозяйствующих субъектов. Отраслевые особенности аграрной сферы влияют на финансовую политику государства, организацию финансовых отношений в сельском хозяйстве и использование соответствующих финансовых механизмов для их реализации. Поэтому при построении финансовых отношений особенно важно учитывать финансовые результаты и потребности хозяйствующих субъектов в финансовых ресурсах. В основе экономических интересов сельхозпроизводителей также лежит формирование эффективных финансовых отношений.

## Features of the development of financial relations in the agricultural sector

***Dissertation A.M.Huseynov***
***Azerbaijan State Agrarian University***

**SUMMARY**

**Key words:** *financial policy, financial resource, efficiency, credit, risk, subsidy*

Globalization and the expansion of international integration relations require the establishment of financial relations in accordance with new requirements. From this point of view, financial relations in the agricultural sector are considered one of the most important areas for stimulating the activities of economic entities. The sectoral features of the agricultural sector affect the financial policy of the state, the organization of financial relations in agriculture and the use of appropriate financial mechanisms for their implementation. Therefore, when building financial relations, it is especially important to take into account the financial results and the needs of business entities for financial resources. Formation of effective financial relations also underlies the economic interests of agricultural producers.

*Redaksiyaya daxilolma: 29.11.2019*
*Çapa qəbul olunma: 05.12.2019*

UOT 33

# İNVESTİSİYA FƏALİYYƏTİ VƏ ONUN ÜSTÜNLÜKLƏRİ

*F.K.Babayeva*
*Azərbaycan Dövlət Aqrar Universiteti*

**Açar sözlər:** *aqrar sektor, investisiya, kredit, təşviq mexanizmləri, rəqabət*

İnvestisiya–gəlir (mənfəət) və ya sosial səmərə əldə etmək məqsədilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaitindən, habelə maddi və intelektual sərvətlərdən ibarətdir. İnvestisiya obyektlərinə qiymətli kağızlar (səhmlər, istiqrazlar və s.), iqtisadiyyatın bütün sahələrində yeni yaradılan və modernləşdirilən əsas fondlar və dövriyyə vəsaitləri, məqsədli pul əmanətləri, elmi-texniki məhsul və mülkiyyətin digər obyektləri, əmlak hüququ və intellektual mülkiyyət hüququ aid edilir. İnvestisiya fəaliyyəti subyektləri (investorlar) hasilat, tikinti, innovasiya və maliyyə kapitalı dövriyyəsi sferasına daha çox diqqət yetirirlər. İnvestisiyalaşmanın əsas istiqamətləri kimi aşağıdakıların fərqləndirilməsi məqsədəuyğundur. İstehsalın genişləndirilməsinə, istehsal infrastrukturunun inkişafına, modernləşdirməyə, material ehtiyatlarının artırılmasına, sosial infrastrukturunun inkişafına, elmə, kadr hazırlığına investisiyalar. [1] İnvestisiya proseslərin əsas kapitalın artırılması və yeniləşdirilməsi, innovasiyalı inkişafı, sturuktur təkmilləşmələrinin həyata keçirilməsinə və istehsalın səmərəliyini yüksəldən digər bu kimi vəzifələrin icrasına yönəldilir. Ümumiyyətlə, investisiya qoyuluşlarını gələcəkdə gəlir əldə etmək üçün bu gün pul vəsaitlərinin maddi aktivlər və ya qiymətli kağızlar əldə edilməsinə sərfi kimi xarakterizə etmək olar və xarakteristikadan bəllidir ki, investisiyalar real və maliyyə investisiyalarına bölünür.Maliyyə investisiyaları–səhm, istiqraz, opsion və s. qiymətli kağızlar alqısı ilə bağlıdır.Kapital qoyuluşu-əsas fondların bərpasına və inkişafına yönəldilən material, əmək və pul vəsaiti məsrəfidir.Təkrar istehsal üzrə kapital qoyuluşu istehsal və qeyri istehsal təyinatlı qoyuluşlara bölünür. İstehsal təyinatın qoyuluşlara istehsal qurğularının tikintisinə və avadanlıqlarına, su təsərrüfatı və meliorasiya qurğularına, kənd təsərrüfatı texnikasının və inventarların gətirilməsinə, çoxillik əkmələrin və bağların salınmasına və s. xərclər aid edilir. Mədəni-məişət təyinatlı obyektlərin tikintisinə, mənzil-kommunal təsərrüfatına məsrəflər qeyri-istehsal təyinatlı kapital qoyuluşuna aid edilir.Kapital qoyuluşunda əsas yeri 1-ci qrup təşkil edir. Ona görə ki, o istehsal prosesində həlledici rol oynayır. Digər tərəfdən kənd təsərrüfatı istehsalı imkanının yaxşılaşdırılması kəndin sosial problemlərinin həlli ilə bilavasitə əlaqədardır.

Azərbaycan Respublikasının investisiya fəaliyyəti haqqında qanun Azərbaycan Respublikasının ərazisində investisiya-fəaliyyətinin (sərmayədarlığın) ümumi sosial, iqtisadi və hüquq şərtlərini müəyyənləşdirir. Qanun investisiyanın Azərbaycan Respublikası iqtisadiyyatının intensiv cəlb olunmasına, ondan ölkənin sosial-iqtisadi bazasının, habelə beynəlxalq iqtisadi əməkdaşlığın və inteqrasiyanın inkişafı üçün səmərəli istifadə edilməsinə yönəldilmişdir və mülkiyyət formasından asılı olmayaraq bütün investorların hüquqlarının bərabər müdafiəsinə təminat verir.

Buna görə qeyri-istehsal təyinatlı kapital qoyuluşu hər il genişləndirilməlidir. Kapital qoyuluşu növlərinə görə tikinti-quraşdırma işlərinə məsrəflərə, quraşdırma tələb edən və etməyən maşın və avadanlıqların, inventar və alətlərin gətirilməsinə məsrəflərə;çoxillik əkmələrin salınmasına və becərilməsinə məsrəflərə; layihə-axtarış işlərinə;obyektlərin inventar dəyərinə aid edilən sair kapital qoyuluşuna məsrəflərə bölünür. Tikinti-quraşdırma işləri iki üsulla podrat və təsərrüfat üsulu ilə yerinə yetirilir. Podrat üsulla işləri lazımi texnika ilə təcriz edilmiş, yüksək ixtisaslı kadrlara malik ixtisaslaşmış tikinti təşkilatları yerinə yetirir. İnvestisiya fəaliyyəti haqqında (Azərbaycan Respublikası Qanunu) qanuna uyğun olaraq əsaslı tikintidə işləri yerinə yetirmək üçün dövlət investorlara (investisiya fəaliyyətini həyata keçirənlərə) sifariş verir. Sifariş veriləndə bir qayda olaraq, müəssisə və təşkilatlar üçün bu sifarişin iqtisadi səmərəliliyi nəzərə alınır. Sifariş müsabiqə (tender) yolu ilə verilir. Həmçinin tikinti işlərində investorlara dövlət sifarişi verilərkən, qanunvericiliklə müəyyən güzəştlər də nəzərdə tutula bilər. İşlər başa çatandan sonra Respublika dövlət sifarişi obyektləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyənləşdirdiyi qaydada istismara qəbul olunur. Tender hər hansı bir işin, xidmətin ən səmərəli üsul və aşağı xərclə yerinə yetirilməsi üçün iddiaçılar arasından birinin (bir neçəsinin) seçilərək, həmin işin (xidmətin) müqavilə əsasında ona (onlara) həvalə edilməsi məqsədilə keçirilən müsabiqədir. [2] İstehsal növünün təşkili üçün texniki, texnoloji, kommersiya və digər biliklərin məcmusu nou-hau

adlanır.Çoxillik əkmələrin salınması və becərilməsi üzrə məsrəflər iki mərhələdə həyata keçirilir. Birincidə-əkmələrin salınması üzrə , ikincidə-çoxillik əkmələrin məhsuldar dövrünə qədər becərilməsi üzrə məsrəflər.Layihə - axtarış işləri üzrə kapital qoyuluşuna, layihə-smeta sənədlərinin gətirilməsinə, layihə tapşırıqlarının, texniki layihənin,smeta-maliyyə hesablamalarının, işçi sxemlərin hazırlanmasına xərclər aid edilir. Sair kapital işlərinə və məsrəflərə tikintidə yerdəyişmə, torpaq sahələrinin yaxşılaşdırılması üzrə xərclər aid edilir. Kapital qoyuluşu planlaşdırılmasına və maliyyələşdirilməsi mənbəyinə görə dövlətin mərkəzləşdirilmiş; müəssisənin xüsusi vəsaiti və bank krediti hesabına yerinə yetirilir. Birinci halda kapital qoyuluşu büdcə təxsisatı, mərkəzləşdirilmiş fondlar və ehtiyatlar hesabına maliyyələşdirilir və sosial iqtisadi inkişaf proqramında nəzərdə tutulur; ikinci halda müəssisə və təşkilat sərbəst müəyyənləşdirir və təsdiq edir. Müasir şəraitdə təsərrüfat həyatının mühüm elementlərindən biri investisiya qoyuluşları hesab olunur. O, əsasənpulvəsaiti, məqsədlibanк əmanətləri, pay, qiymətliкağız, texnologiya, avadanlıq, lisenziya, ticarətnişanları, кreditlər, mülкiyyət hüquqları, intelleкtual sərvətlər və sahibkarlıq fəaliyyəti obyektlərinə yönəldilən digər qiymətlilər formasında təzahür edir. Müxtəlif subyeкtlər tərəfindən həyata кeçirilməsinə baxmayaraq, nəticədə investisiya qoyuluşları dövləti maraqların reallaşdırılmasına xidmə tedir. Ümumiyyətlə, investisiya yeni maddi, qeyri-maddi və maliyyə ehtiyatlarının əldə olunması üçün mövcud resursların istifadə olunmasını xaraкterizə edir. [3] Daha geniş mənada isə investisiyalar iqtisadi artımı, həmçinin ölкədə iqtisadi inкişafın əldə olunması məqsədi ilə zəruri maliyyə ehtiyatlarının formalaşması mexanizmini təmin edən iqtisadi təsir кimi də xaraкterizə oluna bilər.Investisiya mahiyyət etibarilə müxtəlif aspeкtlərdən xaraкterizə olunur. Belə кi, mühasibat nöqteyi nəzərindən investisiya təsərrüfat fəaliyyəti sferasındabütün növaкtivləri, o cümlədən maliyyə və real кapitalı əкs etdirir. Real кapita formasında çıxış edən investisiyalar кapital formalı və ya qeyri-maliyyə aкtivləri кimi səciyyələndirilir кi, onlar da əsasən əsas fondların təкrar istehsalına istiqamətləndirilir. Başqa sözlə desəк, realкapital formasında investisiya birbaşa təкrar istehsala, əsas fondların yaradılmasına və ya yenilənməsinə yönəldilir. Maliyyə кapitalı formasında çıxış edən investisiyalara gəldiкdə isə onlar qiymətli кağızlar və кreditlər formasında əzahür edən maliyyə vəsaitini xaraкterizə edir. Maliyyə кapitalı formasında investisiyaların reallaşdırılmasında onların bir hissəsi dərhal, digər bir hissəsi isə müəyyən müddətdən sonra real кapitala çevrilir. Laкin, təcrübədə maliyyə кapitalının realкapitala çevrilməməsinə də rast gəlinir. Alınmış və ya buraxılmış qiymətli кağızlar bu qəbildən olan investi-siyalardır. Başqa sözlə, maliyyə кapitalı formasında investisiya gələcəкdə ölкənin real кapital formasında investisiya qoyuluşlarının həyataкeçirilməsi vasitəsi rolunuoynayır. İnvestisiya həmçinin pul yatırmaqlaonun dəyərini saxlamaq, artırmaq və ya gəlirliliyinin təmin olunması üçün istifadə olunan alət кimi də dəyərləndirilir. Belə кi, sərbəst pul кütləsi investisiya hesab edilmir. Ona görə кi, inflyasiya nəticəsində nəqd pulкütləsi heçbir gəlir gətirməyi təmin edə bilmədən dəyərini itirə bilər. Əgər eyni məbləğdə pul sərbəst, deyil hansısa banкda yerləşdirilmiş olarsa, artıq o investisiya кimi dəyərləndirilir və müəyyən gəlir gətirməsini təmin edir. Qeyd etməк lazımdır кi, müasir şəraitdə inкişaf etmiş maliyyə institutlarının real investisiyaların artım tempinə yüкsəк təsir imкanları vardır. Laкin, bir qayda olaraq bu iкi formada təzahür edən investisiyalar bir birinin tamamlayıcısıdır. Məsələn, bir firma yeni istehsalob yeкtinin tiкilməsi məqsədilə müəyyən vəsaitə ehtiyac duyur. O, bu zaman real investisiyaların maliyyələşdirilməsini qiymətli кağız satışı hesabına həyata кeçirir. Buzaman qiymətli кağızların alınması alıcılar üçün maliyyə investisiyası rolunu oynayır. Onlar sahibolduqları qiymətli кağızları digərlərinə satmaqla müəyyən mənfəəti təmin edirlər. Nəticədə əldə olunan vəsait tiкilən istehsal obyeкtinin mülкiyyətçisinə birbaşa mənfəət gətirməsə də, real investisiyaların artımı üçün cəlb edici stimul yaratmış olur. Maкro səviyyədə iqtisadi inкişafın təmin olunması baxımından investisiya iкili rol oynayır. Belə кi, məcmu xərclərin mühüm кompanenti olan investisiyanın dinamiкası birbaşa məcmu tələbə böyüкtəsir göstərir. [4] Qeyd edəк кi, məcmu tələbin dəyişməsi isə son nəticədə məşğulluğun səviyyəsinə təsirdə öz əкsini tapır. Bununla yanaşı olaraq, investisiyalar кapital yığımına gətirib çıxarır. Yəni, əsas fondların artımı son nəticədə ölкənin uzunmüddətli iqtisadi inкişafını təmin edir. Başqa sözlə, investisiya qısa dövrdə məcmutələbə və кapitalın formalaşması ilə uzunmüddətli iqtisadi inкişafa təsir imкanına maliкolmuş olur. Investisiya qoyuluşlarının həyata кeçirilməsinin zəruriliyini müxtəlif amillər şərtləndirə bilər. Ümumiliкdə həmin amilləri aşağıdaкı üç əsas qrupa ayırmaq mümкündür: • mövcud maddi-texniкi bazanın yenilənməsi; • istehsal fəaliyyəti sferasının genişləndirilməsi; • yeni fəaliyyət növlərinin mənimsənilməsi. Qeyd etməк lazımdır кi, bu faкtorlar ayrı-ayrılıqda spesifiк xüsusiyyətlərə maliк-

olmalarına baxmayaraq, nəticə etibarilə onlar istehsal fəaliyyətinin cəmiyyətdə artan tələbatın ödənilməsi istiqamətində proporsionallığın təmin olunmasına imкan yaradır. Yuxarıda qeyd olunanlarla yanaşı olaraq investisiyanın mahiyyəti hər bir ölkənin müvafiq qanunvericilik aktları ilə də müəyyən edilir.

## ƏDƏBİYYAT

1.İnvestitisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev. Bak:13 yanvar 1995-ci il № 952
2.4dekabr 2009-cu il tarixli 925-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (Azərbaycan qəzeti, 27 dekabr 2009-cu il, 289)
3.5mart 2010-cu il tarixli 972-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (Azərbaycan qəzeti, 17 aprel 2010-cu il, 81, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 04, maddə 276)
4. www.stat.gov.az

## Investment activity and its advantages

***F.K.Babayeva***
***Azerbaijan State Agrarian University***

## SUMMARY

**Key words:** *agricultural, sector, investment, subsidy, credit, encouraging mechanisms, competition*

Investment is the financial and intellectual and financial resources invested in business and other activities for the purpose of earning income or social benefits. Investment properties include securities (stocks, bonds, etc.), newly established and modernized fixed assets and working capital in all sectors of the economy, targeted deposits, scientific and technical products and other property, property rights and intellectual property rights. Investment activities (investors) pay more attention to production, construction, innovation and financial capital. It is advisable to differentiate the following as the main areas of investment. Investments in production expansion, development of production infrastructure, modernization, increase of material resources, development of social infrastructure, science and human resources training. Investment processes are aimed at increasing and upgrading fixed assets, innovative development, implementation of structural improvements and other tasks that increase production efficiency.

**УДК 33**

## Инвестиционная деятельность и ее преимущества

***Ф.К.Бабаева***

## РЕЗЮМЕ

**Ключевые слова:** *сельскохозяйственный сектор, инвестиции, субсидии, кредит, стимулирующие механизмы, конкуренция*

Инвестиции - это финансовые и интеллектуальные и финансовые ресурсы, вложенные в деловую и другую деятельность с целью получения дохода или социальных пособий. К инвестиционной собственности относятся ценные бумаги (акции, облигации и т. Д.), Вновь созданные и модернизированные основные средства и оборотные средства во всех секторах экономики, целевые депозиты, научно-технические продукты и другая собственность, права собственности и права интеллектуальной собственности. Инвестиционная деятельность (инвесторы) уделяет больше внимания производственному, строительному, инновационному и финансовому капиталу. Целесообразно выделить следующие основные направления инвестиций. Инвестиции в расширение производства, развитие производственной инфраструктуры, модернизацию, увеличение материальных ресурсов, развитие социальной инфраструктуры, подготовку кадров и науки. Инвестиционные процессы направлены на увеличение и модернизацию основных фондов, инновационное развитие, реализацию структурных улучшений и другие задачи, повышающие эффективность производства.

*Redaksiyaya daxilolma: 26.11.2019*
*Çapa qəbul olunma: 01.12.2019*

UOT 348

# PAMBIQ İSTEHSALININ İXRACINDA MARKETİNQ XİDMƏTİNİN ROLU

***V.M.Ramazanov, Ə.N.Qəhrəmanov.***
***Azərbaycan Dövlət Aqrar Universiteti***

**Açar sözlər:** *mənfəət, iqtisadi faydalılıq, məhsuldarlıq, subtizya, ixrac, motivasiya, marketinq, marketinq xidməti və marketinq tədqiqatları.*

Son illər qeyri-neft sektorunun inkişafı, xüsusi ilə kənd təsərrüfatının inkişaf etdirilməsi və ərzaq təhlükəsizliyi məsələləri ilə bağlı Respublikanın çox böyük nailiyyətləri olmuşdur. Dünyada gedən qlobal probləmlərdən biridə ərzaq təhlükəsizliyi məsələsidir.

Postsovet dövründə Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalında daha böyük xüsusi çəkiyə malik olan pambıq, üzüm, meyvə-tərəvəz, məhsulları daha böyük əhəmiyyət kəsb etmişdir. Lakin yerdə qalan digər ərzaq məhsulları başqa respublikalardan gətirildi. Qeyd etməliyəm ki, ərzaq təhlükəsizliyi məsələləri ilə bağlı ölkəmiz kifayət qədər uğurlar əldə etmişdir. Ərzaq təhlükəsizliyinin inkişafı sözün əsil mənasında texniki bitkilərin istehsalını diqqətdən kənarda qoymuşdur. Təbii ki, onunda müəyyən səbəbləri vardır. Son illər qeyd etdiyimiz sahənin inkişafına dövlət dəstəyi göstərilmirdi. Yəni pambıqçılığın inkişafına lazımı qədər fikir verilmirdi. Statistik göstəricilərə nəzər yetirsək 2015-ci il pambıq istehsalında ən acınacaqlı il olaraq 18 min hektar pambıq əkilmiş həmin sahədən 35 min ton pambıq tədarük edilmişdir.

Qeyd etmək istərdik ki, cəmiyyət həyatının mürəkkəbləşdiyi dinamizminin artdığı müasir dövrdə marketinq xidmətləri təkcə bazarda iştirak edən subyektlərin səmərəli fəaliyyət göstərmələri üçün deyil, eyni zamanda ictimai münasibətlər sisteminin demokratik əsaslarla daha da inkişaf etdirilməsi və bu münasibətlərin uğurlu şəkildə tənzimlənməsi üçün zəruri vasitədir. Azərbaycan Respublikasında ixrac məhsullarının istehsalında marketinq xidmətinin aparılması vacib şərtlərdən biri kimi qeyd olunmalıdır. Bunun üçün ölkədə maarifləndirilmə və tədqiqat işi aparılmalı, müvafiq hüquqi normativ baza və fəaliyyat mexanizmi yaradılmalıdır. Hər bir ixrac məhsulunda marketinq konsepsiyasının ayrı-ayrı iqtisadi kateqoriyalarından istifadə ixrac olunan məhsulun istehlakçıya çatdırılmasında öz bariz nümunələrini verir.

Respublikamızın dünya ölkələri ilə iqtisadi əlaqələri get-gedə genişlənir və bu səbəbdən ixrac strukturunun rəqabətqabiliyyətli son məhsul hesabına yaxşılaşdırılması və istehsal olunan məhsulların çeşidlərinin artırılması ilə bağlıdır.

Son illər qeyri-neft sektorunda və xüsusilə də kənd təsərrüfatında yeni mərhələ başlanıb. Bu iqtisadi cəhətdən faydalı olan və ölkəyə valyuta gətirən bir sahədir.

İnsanların torpağa qayıdışı aqrar sahədəki canlanma dövlətin apardığı siyasətin bariz nümunəsidir. Bu gün ölkəyə valyuta gətirən mühüm sahələrdən biri pambıqçılığın inkişafı ilə bağlıdır. Ölkədə aparılan islahatlar, dövlət proqramı və sair məsələlərin qoyuluşu pambıqçılığın inkişafı üçün əlverişli şərait yaradır. Müstəqil Azərbaycan Respublikasında pambıq istehsalının inkişafı ilə bağlı olaraq köklü islahatlar əsas istiqamətlərindən biri də ölkədə zəruri bazar infrasturukturu, o cümlədən biznesə xidmət sahələrinin formalaşdırılması və inkişaf etdirilməsi məsələsidir. Bu baxımdan, ölkədə sivil bazar münasibətlərinin təşəkkülündə və biznesin səmərəli təşkilində xüsusi rolu olan marketinqin də inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, sivil bazar münasibətlərinin təşəkkülü və inkişafında marketinqin rolu iki istiqamətdədir. Marketinq fəaliyyəti, bir tərəfdən, intellektual xidmət sahəsi kimi, digər tərəfdən isə, bütün sahələrdə biznesin inkişaf etdirilməsində mühüm rolu olan bazar infrasturukturu sahəsi kimi çıxış edir.

İnkişaf etmiş bazar iqtisadiyyatı ölkələrin təcrübəsi göstərir ki, müasir dövrdə bazarın idarə edilməsinin elmi konsepsiyası hesab edilən marketinqdən istifadə edilməsi bazarda iştirak edən istehsalçıların, ümumiyyətlə, bütün təsərrüfat subyektlərinin səmərəli fəaliyyət göstərmələri üçün zəruri şərtə çevrilməklə yanaşı,geniş istehlakçılar kütləsinin mənafeyinə də xidmət edir. Belə ki, müasir dövrdə biznesin fəlsəfəsi adlandırılan marketinq hər cür sahibkarlıq fəaliyyətinin əsas məqsədi istehlakçı ehtiyaclarının ödənilməsidir baxışına istinad edir.

Funksional baxımdan işə marketinq müəyyən təşkilatı və kommersiya məsələlərinin həllinə yönəldilən idarəetmə fəaliyyətinin, başqa sözlə, menecmentin təşkilində müəyyənedici funksiyalarını yerinə yetirir. Belə ki, məhz marketinq idarəetmə fəaliyyətinin konkret şəraitə uyğun strukturunu və məzmununu müəyyən edir.

Bundan başqa, onu da qeyd etmək lazımdır ki, cəmiyyət həyatının mürəkkəbləşdiyi və dinamizminin artdığı müasir dövrdə marketinq xidmətləri təkcə bazarda iştirak edən subyektlərin səmərəli fəaliyyət göstərmələri üçün deyil, eyni zamanda, ictimai münasibətlər sisteminin demokratik əsaslarla daha da inkişaf etdirilməsi, münasibətlərin uğurlu şəkildə tənzimlənməsi üçün də zəruri vasitədir.

Lakin təssüflə qeyd etməliyik ki, Azərbaycan Respublikasında marketinq fəaliyyətinin inkişafı hələ də arzu olunan səviyyədə deyil. Belə ki, mülkiyyət mənsubiyyətindən və təşkilati-hüquqi formasından asılı olmayaraq müəssisə və təşkilatların çoxu marketinq xidmətindən lazimi səviyyədə istifadə etmirlər və ya marketinq fəaliyyətini düzgün qurmurlar. Eyni zamanda ölkədə yüksək səviyyədə marketinq xidmətləri göstərə bilən hüquqi və fiziki şəxslər xeyli azdır.

Pambıqçılıqda marketinq xidmətinin öyrənilməsi və müəssisələrin istehsal təsərrüfat fəaliyyətinin səmərəliliyinin təmin edilməsi ilə bağlı idarəetmə sistemi olub iqtisadi proseslərin təmin edilməsi, mikro və makro səviyyədə müəssisələrin bazar subyektləri ilə daha üstün qarşılıqlı mübadilə mexanizminin qurulması, istehlakçıların təlabatlarının müəyyənləşdirilməsi və ödənilməsi məsələlərini özündə birləşdirir.

Bazar münasibətləri şəraitində kənd təsərrüfatında “istehsal satış” fəaliyyətinin səmərəliliyi bu sahə məhsullarının bazarın, o cümlədən istehlakçıların təlabatına onların alıcılıq qabiliyyətinə uyğunlaşma səviyyəsindən asılıdır. Aqrar sahədə mülkiyyət münasibətləri iqtisadi proseslərin inkişafından asılı olaraq daimi təkminləşir. İstehsal prosesi şərtlərinin, həmdə alqı-satqı münasibətlərinin dərinləşməsi keyfiyyətcə yeni iqtisadi münasibətlər sisteminin və aqrar bazar munasibətlərini formalaşdırır. Kənd təsərrüfatı məhsullarının istehsal satış sferasında birləşən istehsal, maddi-texniki resurslar iş və xidmət amillərinin bazar subyektləri ilə formalaşdığı iqtisadi münasibətlər sistemidir. Deməli pambıqçılıqda marketinq sisteminin formalaşdırılması qarşıya çıxa biləcək və mövcud problemləri vaxtında müəyyənləşdirərək aradan qaldırılmasında mühüm əhəmiyyət kəsb etməklə məhsulun səmərəli dövriyyəsi istehsal və satiş prosesi, rəqabət mühitinin düzgün qiymətləndirilməsi və s. istiqamətində müəyyənləşdirilən tədbirlərin elmi cəhətdən əsaslandırırılmasına imkan verir.

Pambıqçılıq marketinqi tələbin və təklifin tədqiqinin, bazar seqmentinin öyrənilməsini qiymətqoyma mexanizminin və s. məsələlərin şərh olunması əsasında nəzəri cəhətdən aktualdır.

Tədqiqatlar göstərir ki, belə vəziyyətin yaranmasının aşağıdakı kimi obyektiv və subyektiv səbəbləri vardır:

- ölkədə marketinq fəaliyyətinin təşəkkülü və inkişafı prosesinin kortəbii şəkildə getməsi, başqa sözlə, bu sahənin inkişafı üzrə məqsədyönlü, ardıcıl və sistemli iş aparılması.
- bir çox təsərrüfat subyektlərində marketinqin mahiyyətinin düzgün başa düşülməməsi, onsuz da keçinməyin mümkün olduğu təsəvvürünün olması və təşkilati-idarəetmə strukturunun müasir marketinq sisteminə uyğun gəlməməsi.
- peşəkar mütəxəssislərin az olması və belə mütəxəssis hazırlığına lazımi diqqət yetirilməməsi.
- madii-texniki və tədqiqat texnologiyaları bazasının və informasiya təminatının zəifliyi, o cümlədən müasir ədəbiyyat qıtlığı.
- tarixi təcrübənin olmaması və maliyyə problemləri.
- sistemləşdirilmiş statistikanın olmaması.
- ölkədə rəqabət mühitinin və zəruri bazar infrastrukturu sahələrinin formalaşması və inkişafının ləngliyi və sairələr.

## ƏDƏBİYYAT


1.Azərbaycan Respublikası Prezidenti. İ.Əliyevin sədrliyi ilə Bərdə rayonunda pambıqçılığın inkişafı ilə bağlı zona müşavirəsi.

2.S.Axundov “Marketinqin Əsasları” Bakı:2011

3.Dövlət Statistika Komitəsinin “İcmal məlumatları”

## The role of marketing services in cotton production exports

***P.h.d. V.M. Ramazanov, A.N. Gahramanov***
***Azerbaijan State Agrarian University***

**Key words:** *profit, economic profitability, productivity, subtype, export, motivation, marketing, marketing services and marketing research*

In recent years, the Republic has had great successes in the development of the non-oil sector, particularly in agriculture and food security.

The economic relations of our republic with the countries of the world are constantly expanding, therefore, due to the improvement of the export structure at the expense of competitive end products and increasing the range of products.

In recent years, a new phase has begun in the non-oil sector and especially in agriculture. This is an area that is economically profitable and brings currency to the country.

Marketing management services in cotton production and management systems to ensure the efficiency of production activities of businesses, including economic processes, establishment of better exchange mechanisms at the micro and macro level with market entities, identifying and meeting consumer needs.

**УДК: 348**

## Роль маркетинговых услуг в экспорте хлопковой продукции

***доцент: В.М.Рамазанов, А.Н. Гахраманов***
***Азербайджанский государственный аграрный университет***

**Ключевые слова:** *прибыль, экономическая рентабельность, производительность, подтип, экспорт, мотивация, маркетинг, маркетинговые услуги и маркетинговые исследования*

В последние годы республика добилась больших успехов в развитии ненефтяного сектора, особенно в сельском хозяйстве и продовольственной безопасности.

Экономические связи нашей республики со странами мира постоянно расширяются, поэтому благодаря совершенствованию структуры экспорта за счет конкурентоспособной конечной продукции и расширения ассортимента продукции.

В последние годы новый этап начался в ненефтяном секторе и особенно в сельском хозяйстве. Это область, которая экономически выгодна и приносит валюту в страну.

Услуги по управлению маркетингом в системах производства и управления хлопком для обеспечения эффективности производственной деятельности предприятий, включая экономические процессы, создание более совершенных механизмов обмена на микро- и макроуровне с субъектами рынка, выявление и удовлетворение потребностей потребителей.

*Redaksiyaya daxilolma: 31.01.2020*
*Çapa qəbul olunma: 04.02.2020*

# MÜASİR DÖVRDƏ SOSİAL SIĞORTA SİSTEMİNİN İNKİŞAFININ İNSTİTUSİONAL ASPEKTLƏRİ

***N.H.Hüseynov***
***Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Xüsusi Şərtlərlə Təyinat İdarəsinin məsləhətçisi***

## XÜLASƏ

**Açar sözlər:** *sosial sığorta, sığortaçı, sığorta edən, sığorta olunan, sığorta ödəmələri, sosial sığorta institutu, sosial risk, sosial-əmək münasibətləri.*Müasir dövrdə əhalinin sosial müdafiəsi istənilən sivil dövlətin sosial siyasətinin vacib atributlarından birinə çevrilmişdir. Onun səmərəli təşkili milli gəlirin təkrar bölgüsü əsasında sosial həmrəylik prinsipi üzrə az təminatlı və əməkqabliyyəti olmayan vətəndaşların xeyrinə əhalinin müəyyən həyat səviyyəsi və keyfiyyəti standartlarının təmin edilməsinə imkan verir.

Sosial sığorta əhalinin sosial müdafiə sisteminin ayrılmaz tərkib hissəsidr. Sosial sığorta institutunun nadirliyi onun əhalinin balanslaşdırılmış sosial bazar menatalitetinin formalaşmasına müsbət təsir göstərməsi ilə bağlıdır. Sosial sığortanın təşkili hesabına cəmiyyət milli gəlirin bir hissəsini əhalinin ayrı-ayrı qrupları arasında təkrar bölmək yolu ilə sosial risklərin kompensasiyasının həyata keçirilməsi imkanlarını əldə edir. Sosial sığortanın təşkilinin əsasında duran mühüm sistem-yaradıcı prinsiplər onun nə qədər yüksək əhəmiyyətə və spesifik xüsusiyyətlərə malik bir sosial institutu olduğunu göstərir.

Ötən dövr ərzində ölkədə sosial siyasət sahəsində strateji vəzifələrdən biri kimi əhalinin sosial müdafiə sisteminin, o cümlədən sosial sığortanın modernləşdirilməsi və bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırılması məqsədilə onun iqtisadi, təşkilati və hüquqi mexanizmlərinin formalaşdırılmasına önəm verilmişdir.

Qeyd etmək lazımdır ki, yaxşı inkişaf etmiş və geniş şaxələnmiş sosial sığorta sistemi cəmiyyətin iqtisadi, sosial və siyasi sabitliyinin ən yaxşı göstəricisidir.

Bazar münasibətlərin adekvat sosial sığorta institutunun təşkili onun möhkəm iqtisadi bazaya əsaslanmasını, inkişaf etmiş sosial-əmək münasibətləri mövcudluğunu tələb edir. Məqalədə sosial sığrtanın təşkilinin instutisional və sinergetik aspektləri, ictimai hadisə kimi sosial riski müəyyənləşdirən amillər araşdırılır, həmçinin spesifik sosial institut kimi onun üstünlükləri və sosial sığortanın instutisional mühitinin coxvektorlu inkişaf məsələləri əsaslandırılır.

***Giriş.*** Sosial sığorta institutunun təşkili və inkişafı ölkədə sosial ədalətin və sabitliyin əsası-dır. Bu sosial institutun əhəmiyyətini nəzərə alaraq bütün sivil ölkələrdə, o cümlədən Azərbaycanda da əhalinin etibarlı sosial müdafiəsini təmin edən məcburi dövlət sosial sığorta sisteminin formalaşdırılması, onun təkmilləşdirilməsi və inkişafı prosesi gedir. Sosial sığorta probleminin həll edilməsi beynəlxalq təşkilatlar tərəfindən sosial siyasətin prioritet məqsədlərindən biri kimi qəbul edilmişdir. Müasir Azərbaycan dövlətinin inkişafının starteji vəzifələrində əhalinin rifahının yüksəldilməsi, iqtisadi artım və sosial inkişaf məsələlərinə xüsusi önəm verilir. Ölkədə həyata keçirilən mühüm sosial-iqtisadi dəyişikliklər dövlətin sosial siyasətinin prioritet vəzifələrinə hədəflənmişdir. Bu isə öz növbəsində səmərəli məcburi sosial sığorta sisteminin formalaşdırılmasını tələb edir.

Sosial sığorta əhalinin sosial müdafiə sisteminin ayrılmaz tərkib hissəsidr. Onun yaratmaqla hər bir ölkə arzuolunmaz sosial-iqtisadi hadisələrlə qarşlaşan vətəndaşlarına zəruri maddi dəstəyin göstərilməsini təmin edir [2. səh.4]. Müxtəlif sosial yardım tədbirlərinin ortaya çıxması və tədricən vahid dövlət tənzimləmə sistemində birləşməsinin əsas səbəbləri, həm ayrı-ayrı insanların, həm də bütövlükdə cəmiyyətin mövcudluğunun risklilik xarakterdə olmasıdır.

Sosial məkanın təşkili üzrə dövlət təcrübəsi anlamında sosial sığorta nəzəriyyəsi ilk növbədə müxtəlif həyat şəraitli sosial qrupların qarşılıqlı əlaqəsi nəticəsində yaranan problemlərə söyknir. Belə qarşılıqlı fəaliyyətdə həlledici amil həyat şəraitidir. Dövlətin sosial siyasətini iqtisadi vəziyyət, sosial qrupların fiziki və mənəvi güclərini, yəni istehsaledici qabliyyətlərini təkrar istehsal etmək imkanlarının olmaması müəyyən edir. Zəruri sıxıntılar sosial qrupları tələblər irəli sürməyə və onları dövlətin sosial siyasətində həyata keçirməklə müsbət nəticələrə nail olmağa məcbur edir. Onlar eyni zamanda sosial siyasətin vəziyyəti, onun ünvanlığı üzərində nəzarəti də həyata kecirirlər.

Qeyd etdiyimiz kimi, insan həyatının risklilik xarakteri risklərdən müdafiənin müxtəlif mexanizmlərinin ortaya çıxması üçün əsasdır. Risk zərərin baş verməsinin potensial imkanlarını xarakterizə edən anlayışdır. Əmtəə istehsalının yaranması və inkişafı, ictimai əmək bölgüsünün dərinləşməsi və bazar münasibətlərinin inkişafı işçi ilə onun gəlirləri arasındakı birbaşa əlaqəni pozaraq, cəmiyyətdə işə gütürən və işçi qrupları kimi təbəqələrin ayrılmasına gətirib çıxarmışdır. İctimai istehsalın təşkilində iştiraka görə işə götürən tərəfindən işçiyə ödənilən əmək haqqı bu gün əhalinin fəal hissəsinin (məşğul əhalinin) yaşayışının yeganə mənbəyidir.

Bazar iqtisadiyyatının fərqləndirici xüsusiyyəti hər bir insanın öz həyat şəraitinin formalaşdırılmasına yüksək səviyyədə məsuliyyətli olmasıdır. İqtisadi prosesdə hansı şəkildə iştirak etmək (muzdlu işçi olmaq, hüquqi şəxs yaratmadan müstəqil fəaliyyət və s.) haqqında özü qərar qəbul edir. İstehsal, ticarət yaxud digər fəaliyyət nəticəsində əldə edilən gəlirlər onun maddi və mənəvi tələbatlarını ödəyir, ailəsini saxlayır, əmək qabliyyətini bərpa edir və s., yəni işçi qüvvəsinin təkrar istehsal prosesini təmin edir. Lakin hər bir insanın həyatında yaşamasına təhlükə yaradan və onun öhdəsindən təkbaşına gələ bilməyən vəziyyətlər ola bilər.

***Ədəbiyyatların icmalı.*** İstehsalın əsas amillərindən olan işçü qüvvəsinin əmtəəyə çevrilməsi səbəbindən əhalinin əksər hissəsinin yaşamasının əsas mənbəyinin əmək haqqı olması sosial müdafiəsizliyin xüsusi növünü - qazancın yaxud onun əldə edilməsi imkanlarının itirilməsi nəticəsində nail olunmuş maddi rifah səviyyəsinin aşağı düşməsinin yüksək ehtimalını ortaya çıxarmışdır. Belə imkan hər bir insanın şəxsi xarakteristikası ilə bağlı deyildir və onun gücündən asılı deyildir. O, sosial səbəblərlə müəyyən olunur və ona görə də kütləvi, ictimai xarakter daşıyır. İnsan həyatındakı belə hadisələr sosial risk adlandırılır. Fikrimizcə, bu halda insanın sosial müdafiəsizliyinə insanın və insan kapitalının təkrar istehsalı prosesinin pozulması imkanı kimi baxmaq lazımdır. İnsanın təkrar istehsalı prosesinə məhdud deyil, geniş mənada yanaşmaq lazımdır. Birincisi, ev təsərrüfatı (ailə) səviyyəsində ictimai münasibətlərin subyekti kimi insanın doğumu, tərbiyəsi baş verir və həyat fəaliyyətinin ilkin şərtləri təmin edilir. İkincisi, makroiqtisadiyyat səviyyəsində inşanın təkrar istehsalı əhalinin sayı və tərkibinin qorunub saxlanması və tənzimlənməsi prosesi kimi çıxış edir. Belə yanaşma insanların ictimai təkrar istehsal prosesində sosial-iqtisadi funksiyalarını yerinə yetirməyə obyektiv olaraq mane olan yaxud pozan bütün hadisələrə sosial risklər kimi nəzərə almağa imkan verir.

Fikrimizcə, sosial risk iqtisadi prosesdə iştirak imkanlarının itirilməsi nəticəsində vətəndaşın maddi təminatsızlıq ehtimalıdır. Cəmiyyətin sosial-iqtisadi inkişafının əsas meyllərini və bütün müxtəlif mümkün riskləri nəzərə alaraq bütövlükdə üstünlük təşkil edən sosial riskə-əmək gəlirinin itirilməsinə diqqət yönəltmək zəruridir. Müasir şəraitdə insanların əksər hissəsinin öz həyat vasitələrini təmin etməsi üçün iki şərtin (əmək qabliyyətli olması və işlə təmin edilmə imkanları) olması tətləb olunur.

Sosial risk obyektiv, sosial əhəmiyyətli səbəblərdən əmək gəlirlərinin yaxud qazancın itirilməsi, həmçinin əlavə müalicə xərclərinin yaxud sosial xidmətlərin ödənilməsindən yaranan zərurət nəticəsində maddi təminatsızlığın baş veməsi ehtimalıdır [8.səh.20]

Ümumiyətlə, sosial risk kateqoriyasının sosial-iqtisadi məzmununa dair müaisr yanaşmaları aşağıdakı kimi sistemləşdirmək olar:

-sosial fəlsəfə baxımından sosial risk problemlərinin tədqiqi (E.M.Veber, E.Toffler, V.S.Barulin, V.Mantatov və s.). Onlar riskin çoxtərəfli sosial-fəlsəfi izahını verirdilər. Riskə qeyri-müəyyənlik şəraitində subyekt tərəfindən həyata keçirilən fəaliyyətin spesifik forması kimi baxılır. Məcmusu və qarşılıqlı fəaliyyəti riskin məzmununu təşkil edən, onun sosial funksiyalarını xarakterizə edən əsas ünsürləri və xüsusiyyətləri aşkar edilir, sosial risklərin mövcudluğunu şərtləndirən obyektiv və subyektiv səbəblər izah edilir.

- riskin idarəedilməsi nəzəriyyəsi (M.Markov, M.K.Bocarov, R.Kleyn, V.İ.Francuk və s.). Səmərəli yanaşma baxımından risk probleminin həll edilməsini, risklərin təhlili zəruriliyinə gətirib çıxaran ziddiyyətlərin aradan qaldırılmasını müəyyən edən sosial risklərin təbii xüsiyyətləri əsaslandırılır.

- riskin nəzəri və metodoloji məsələlərinin öyrənilməsi (V.A.Remizov, K.E.Klark, E.A.Bukin, A.A.Boqdanov, V.M.Buyanov və s.). Sosial risk dedikdə ictimai həyatın təkrar istehsalının müxtəlif tərəflərinə toxunan hadisələr başa düşülür. Riskin bütün tərəfləri tədqiq edilir, risklərin idarəedilməsi və subyektlərin aktivliyi məsələləri ayırd edilir, risk və vətəndaşın müdafiəsi problemi qoyulur, cəmiyyətin strukturunda risk təhlil edilir.

- sosioloji istiqamətdə risk probleminin tədqiqi (P.Larok, V.İ Zubkov, K.İsaev, N.A.Meşavkin və s.). Sosial risklərin ortaya cıxma şərtləri və səbəbləri aşkar edilir. Risk fenomeni, onun nəticələri (böhran, münaqişə, zərər, fəlakət) haqqında bilgilər əlavə edilmişdir. Idarəetmə fəaliyyəti prosesində risklərin yaranma qanunauyğunluqları, risklərin minimumlaşdırılması metodları aşkar edilir [11].

İqtisadi kateqoriya kimi sosial risk insanın fizoloji və sosial-iqtisadi həyat fəaliyyətinin normal təkrar istehsalına təhlükə yaradan və onun iradəsindən asılı olmayan yaxud təsadüfi hadisələrin baş vermə ehtimalıdır. Başqa sözlə desək sosial risk işçinin əmək prosesində iştirakının qeyri-mümkünlüyü ilə əlaqədar olaraq onun maddi təminatsızlığının baş vermə ehtimalıdır.

Sosial riskin əlamətlərinə aid edilir: ancaq obyektiv xarakterdə olmalı, insanın həyat fəaliyyətini məhudlaşdırmalı və onun sosial təminatsızlığını müəyyən etməli, milli qanunvericiliklə təsbit edilmiş vəziyyət olmalı və onun baş verməsi nəticəsində cəmiyyətin yaxud dövlətin yardımına güvənmək olar, onlardan bəziləri hər kəs üçün potensial qanunauyğunluqdur, yəni yüksək ehtimalılıq dərəcəsi ilə baş verə bilər (qocalıq, xəstəlik və s.).

Sosial riskin iqtisadi və sosial ünsürlərini aşkar etmək üçün o faktı nəzərə almaq lazımdır ki, sosial sığortanın inkişafı obyektiv şərtlənmişdir və sosial-əmək münasibətləri ilə sıx bağlıdır. İşə götürənlə işçi arasındakı sosial-əmək münasibətləri sosial sığorta institutlarının təşkilinin əsasında duran iqtisadi və hüquqi proqramdır (platformadır). Mahiyyət etibarilə sığorta münasibətləri sosial risklərdən sosial müdafiə sferasınıda işəgütürənlə işçi arasındakı sosial-əmək münasibətlərinin davamı və inkişafıdır. Bu münasibətlər qanunvericiliklə tənzimlənir və sosial risklərin nəticələrini qarşılamaq və minimumlaşdırmaq üçün nəzərdə tutulan sığorta resurslarının toplanması və bölgüsü kimi bir sıra qanuni funksiyaları üzərinə götürən xüsusi subyekt - sığorta orqanının köməyi ilə təşkil edilir.

Sosial sığorta institutlarının sığorta münasibətlərini və onların sosial-əmək münasibətləri ilə əlaqəsini sığorta fondu nəzəriyyəsi ortaya çıxarır. Belə fondun yaradılması sığorta müdafisəi məqsədləri üçün nəzərdə tutulan iri həcmli maliyyə resurslarının toplanmasını tələb edir. Sığorta müdafiəsinin iqtisadi mahiyyəti öz maddi təcəssümünü cəmiyyət üzvülərinin kollektiv və şəxsi maraqları reallaşan sığorta fondunda tapır və onların həyat fəaliyyətinin müxtəlif iqtisadi və sosial tərəfləri ilə müəyyən olunur [5.səh.137].

Sığorta və sosial-əmək münasibətlərinin digər tərəflərini riskin köçürülməsi və zərərin bölgüsü nəzəriyyəsi açıb göstərir.

Ümumiyyətlə, sosial sığortanın əsas xarakteristikalarına aşağıdakıları aid etmək olar:

-əmək fəaliyyəti növünü sərbəst seçmək və hər bir fərdin özünün həyat şəraitinin formalaşdırılması üzərində məsuliyyətinin onunla bağlı olması,

-xüsusi mülkiyyət münasibətlərinin, sosial subyektlər arasındakı iqtisadi əlaqələrin əmtəə formasında inkişafı, ictimai istehsalın bazar vasitələri ilə tənzimlənməsi nəticə etibarilə əmək haqqının muzdlu işçinin və onun ailəsinin yaşamasının yeganə mənbəyi olmasına gətirib çıxarmışdır.

***Sosial sığortanın institusional xüsusiyyətləri və üstünlükləri.***

Cəmiyyətdə sosial yönümlü iqtisadiyyat ideyası ortaya çıxdıqdan sonra əmək qabliyyətindən asılı olmayaraq şəxsi gəlirlərin cəmiyyətdə mövcud olan sosial standartların səviyyəsindən aşağı olmasına gətirib cıxaran risklər tanınmışdır. Birinci halda sosial risklər insanın obyektiv olaraq özünü və ailəsini müstəqil olaraq təmin edə bilməməsi səbəbindən irəli gəlir. İkinci halda sosial risklər subyektiv xarakter daşıyır və cəmiyyət (dövlət) tərəfindən müəyyən edilir.

Sosial yönümlü bazar iqtisadiyyatı şəraitində sosial risk həm qazancın, həm də cəmiyyətin təminatlı minimal həyat standartlarının itirilməsində təzahür edir. Bütün sosial riskləri üç qrupda-gəlirlərin, sosial statusun itirilməsi və əlavə xərclərin zəruriliyi riskləri birləşdirmək olar.

Sosial sığortanın digər sosial müdafiə institutlarından (dövlət sosial yardımı yaxud şəxsi sığorta) fəqləndirən instutisional xarakteristikaları aşağıdakılardır:

-sığorta olunan əmək haqqının itirilməsindən müdafiə olunur, sığorta ödəmələrinin həcmi və kompensasiya ödəmələri məhz əmək haqqı ilə əlaqələndirilir. Müqayisə üçün qeyd edək ki, sosial yardım və şəxsi sığortada belə asılılıq təmin edilmir.

- sığorta ödəmələrini yalnız sığorta olunan şəxs ala bilər. Bir qayda olaraq sığorta olunan sosial müdafiənin bu növündən yararlanma hüququnu əldə edir.

- ödəmələrin həcmində sığortaolunanın öhdəsində əmək qabliyyətli olmayanların mövcudluğu nəzərə alınır.

- pensiya və yardımın həcmi əmək haqqının məbləği, sığorta haqlarının ödənilməsi dövrü ilə ilə əlaqələndirilir. Pensiya və yardımın əldə edilməsi müddətində ehtiyac dərəsəci nəzərə alınmır.

- sosial sığortanın maliyyə bazası işəgötürənlərin və işçilərin sığorta ödəmələri əsasında formalaşan məqsədli maliyyə fondlarıdır. Fondun vəsaitləri sığorta hadisəsi baş verən sığorta olunan şəxslər arasında bölüşdürülür.Sığorta hadisəsi baş vermədiyi halda isə maliyyə resursları sığorta hadisəsi baş verən digər işçilərə sosial yardımları verilməsi üçün istifadə edilir ki, bu da sosial sığortanı digər sığorta institutları ilə müqayisədə daha ucuz və əlverişli edir.

Maliyyə vəsaitlərinin həcminə, kütləvi əhatəlilik, xidmətin müxtəlifliyi və keyfiyyətinə görə baza və həlledici məcburi sosial sığorta institutudur. Belə ki, inkişaf etmiş dünya ölkələrində sosial sığortanın bu növlərinin sosial müdafiə məqsədləri üçün yönəldilən xərclərin ümumi məbləğində xüsusi çəkisi bir qayda olaraq 60-70%, ÜDM - da payı isə 15-25% təşkil edir [1].

Sosial sığortanın sosial müdafiənin digər institutlarından fərqləndirən mühüm tərəfi ondan ibarətdir ki, sığorta hadisəsinin baş vermə faktı təsdiq olunandan sonra sığorta olunan şəxs sığorta ödəməsi əldə etmə hüququnu qazanır. Bir qayad olaraq digər şərtlər irəli sürülmür. Bu prinsipial çəhəti - ehtiyacın, yəni həmin şəxsin maddi vəziyyətinin yoxlanılmasının lazım olmadığının nəzərdə tutur. Bundan başqa sosial sığorta kompensasiaya ilə yanaşı digər funksiyalarda – mümkün olduğu halda sosial riski qiymətləndirmək, onun nəticələrinin qarşısını almaq- yerinə yetirir.

Sosial sığorta bir sıra əlamətləri ilə sosial müdafiənin digər institutlarından fərqlənir. Belə ki, onun əsasında gələcəkdə baş verə bilən (xəstəliklə, bədbəxt hadisələrlə, qocalıqla bağlı olaraq qazancın əvəz edilməsi) ehtiyac növlər və qrupları durur. Eyni zamanada sosial sığortanın mühüm əlamətlərindən biri də onun əmək münasibətləri ilə sıx əlaqədə olmasıdır. Sosial sığorta sistemi qanunvericiliklə müəyyən edilmiş təminat səviyyəsi vasitəsilə sığorta olunan şəxslərə sosial təminatının geniş dairəsini tətbiq etməklə müvafiq ödəmələri həyata keçirir və xidmətlər göstərir.

Sosial sığortanın fəaliyyətinin açıq-hüquqi və demokratik xarakteri maliyyə resurslarınını məqsədli istifadəsinə və maksimum şəffaflığa nail olunmasına, həmin institutun təşkilinin geniş məsələlər dairəsi üzrə sosial subyektlər arasında razılığa gəlməyə, sığortaçının, sığorta olunanların və sığorta edənlərin maraqlarının uzlaşdırılmasına imkan verir. Nəticə etibarilə bu sığorta olunan şəxslərin şəxsi məsuliyyətini, sığortaedənlərlə sığorta olunanların həmrəyliyini gücləndirilməsinə, cəmiyyətdə sosial razılığa nail olunmasına və münaqişəli vəziyyətlərin yumşaldılmasına, həmçinin onların aradan qaldırılmasına şərait yaradır.

Kollektiv sosial təminatın digər formaları ilə müqayisədə belə sosial müdafiə institutu bir sıra mühüm üstünlüklərə malikdir. Birincisi, ancaq qoruma tədbirləri, tibbi xidmət və və sığorta olunan şəxslər üçün maksimum əlverişli şəraitdə pul ödəmələri ilə məşğul olan ixtisaslaşmış (yüksək səmərəli) sığorta təsisatı yaradılır. Deməli, sosial sığorta yalnız sosial riskin nəticələrinin konpensasiyası deyil, həm də cox vaxt riskin aşkar edilməsi (qiymətləndirilməsi) və qoruma tədbirlərinin, məsələn, əhalinin kütləvi xəstəliklərdən vaksinlənməsi, işləyənləri təklükəsiz iş metodları ilə təlimatlandırılması, işsizlik riskləri zamanı təkrar təlimlərin keçirilməsi və s. koməyi ilə onun minimumlaşdırılması funksiyasın da yerinə yetirir.

İkincisi, sığorta haqlarını ödəyən vətəndaşların konstitusion hüququna təminat verilir ki, bu da onları sosial vəsaitlərin ödənilməsinə cavabdeh olan orqanın əsasız qərarlarından müdafiə edir. Üçüncüsü, işçi qüvvəsi xərclərinin bir hissəsinin müntəzəm ehtiyatda saxlanılması yolu ilə ödəmələrin kəmiyyətinə və sığorta hesablamalarına, həmçinin qanunvericiliyə uyğun olaraq uzunmüüdətli dövr üçün onların bölgüsünə təminat verilir.

Sosial sığorta sistemində demoqrafik və əmək bazarının vəziyyətinin etibarlı statistikası və proqnoz hesablamaları əsasında gəlir və xərclərin balanslığının orta və uzunmüddətli dövrə qiymətləndirilməsini aparmağa, sığorta tareiflərinin məbləği üzrə tövsiyyələrin verilməsinə, təminatlı ödəmələrin sə təqdim edilən xidmətlərin səviyyəsinin dəqiqləşdirilməsinə imkan verən aktuar hesablamalar tətbiq edilir.

***Nəticə və müzakirə.*** Müasir dövrdə sosial sığorta vətəndaş cəmiyyətinin instutisional ünsürü kimi əhalinin sosisl müdafiəsi sistemində mühüm rol oynayır.

İctimai hadisə kimi sosial risk cəmiyyət həyatının müxtəlif amillərinin (dövlətin sosial və iqtisadi siyasəti, vətəndaş cəmiyyətinin və qanunvericilik bazasının yetkinliyi, işə götürənlə muzdlu işçilər arasındakı əmək münasibətlərinin inkişafı və s.) qarşılıqlı fəaliyyəti və təsiri ilə müəyyən edilir. Bu zaman sosial riskin konkret amillərinin xarakteri, müvafiq olaraq müdafiə formaları cəmiyyətin və fərdin həyat fəaliyyətinə, dövlətin həyata keçirdiyi siyasətə, məhz, məşğulluğun şəraitinə, əmək bazarının inkişafına, demoqrafik vəziyyətə, əmək sferasının və ictimai həyatın təşkilinin iqtisadi

şəraitinə, əmək qabliyyətinin itirilməsinin kompensasiyasının və qorumasının təşkili şəraitinə və formalarına təsir göstərən kompleks amillərdən asılı olur.

Sosial sığortanın fəaliyyəti üçün optimal şərait bir sıra şərtlərin mövcudluğudur. Onlardan vacibi sosial risklərin nəticələrini qarşılamaq üçün tələb olunan zəruri maliyyə resursunun təmin edən sosial-əmək amilləridir.

Sosial sığortanın böyük maliyyə resursu sığorta olunan şəxslərin yüksək həyat standartlarını və onların gəlirlərinin sosial müdafiə səviyyəsini təmin etməyə imkan verir. Belə ki, araşdırmalar göstərir ki, iqtisadi baxımdan inkişaf etmiş ölkələrdə sosial yardım və pensiyaların həcmi sığorta ödəmələrini alan şəxslərin əksəriyyətinin əmək haqqında nəzərəcarpacaq paya malikdir. Onu da qeyd etmək lazımdır ki, müasir dövrdə dünyanın qabaqcıl ölkələrində pensiya və sosial sığortanın digər növləri inkişaf etmiş sosial, təşkilati, maliyyə və tibbi - reablitasiya sistemi kimi çıxış edir, iqtisadiyyat və əmək bazarı, dövlətin demoqrafik və qrentologiya siyasəti ilə ayrılmaz şəkildə bağlıdır.

Sosial sığortanın əsas institusional formalarının təhlili sosial sığorta sisteminin müəyyən prinsiplərə əsaslanan, dəqiq təşkilati strukturu olan, xüsusi sosial funksiyalar yerinə yetirən, dövlət qanunları əsasında fəaliyyət göstərən, cəmiyyət həyatının sosial sabitliyini təmin edən spesifik sosial institut kimi çıxış etdiyini deməyə əsas verir.

## ƏDƏBİYYAT


1.Абалтусова, А. А. Социальное страхование в системе социальной защиты населения / // Экономика и социум. – 2015. 1-10 с.

2.Агеева Е. В. Социальное страхование: / Иркутск: Изд-во БГУЭП, 2013. – 122 с.

3.Ермасов С. В., Ермасова Н. Б. Страхование. М., 2014. с. 6

4.Гареев И. А., Дорохин М. В. Социальное страхование в современной России, Электронное научное издание «Ученые заметки ТОГУ» 2017, Том 8, № 1, с. 310 – 313

5.Гвозденко А. А. Основы страхования. М., 2013 с. 137

6.Institutions, Policies and Enlargement of the European Union: Glossary.-Luxemburg: Office for Official Publications of the European Communities,2000.

7.Novruzov N., Hüseynov X. – Maliyyə, Bakı – 2007

8.Роик В. Д. Основы социального страхования: организация, экономика и право:. М. : Изд-во РАГС, 2016. с. 20

9.Семенов И.В. Социальное страхование: сущность, виды. // Социально-политические науки .- 2014 .- №1.- с. 53-58

10.Соловьев А.К. Экономика пенсионного страхования : М. ЮНИТИ-ДАНА, 2014. с. 109.

11.Степанова М.Н. Социальное страхование в схемах, таблицах, определениях / М.Н. Степанова. - Иркутск : Изд-во БГУЭП, 2015. – 130 с.

12. Янова С.Ю. Социальное страхование в системе социальной защиты населения: организация и финансовый механизм: дис. … д-ра экон. наук / С.Ю. Янова. – СПб., 2001. – 413 с.

13.http://www.sspf.gov.az


## РЕЗЮМЕ


**Ключевые слова:** *социальное страхование, страховщик, кто страхует, застрахованный, страховые выплаты, институт социального страхования, социальный риск, социально-трудовые отношения.*

В настоящее время социальная защита населения стала непременным атрибутом социальной политики любого цивилизованного государства. Ее эффективная организация имеет целью гарантировать обеспечение определенных стандартов уровня и качества жизни населения на основе перераспределения национального дохода в пользу нетрудоспособных и малоимущих граждан на принципах социальной солидарности.

Социальное страхование является неотъемлемой частью системы социальной защиты населения. Уникальность института социального страхования заключается в том, что он оказывает позитивном влиянии на формирование сбалансированного «социально-рыночного» менталитета населения. За счет организации социального страхования общество получило

возможность осуществлять компенсацию социальных рисков путем перераспределения части национального дохода между отдельными группами населения. Заложенный в основу социального страхования основных системообразующих принципов, которые определяют его специфику и высокую значимость показывают  насколько это важно и как социальный институт.

В течение прошедшего периода среди наиболее крупных вопросов государственной социальной политики, встала стратегическая задача  по модернизации  системы  социальной защиты, адаптации ее к требованиям функционирования рыночной экономики, формирования экономических, организационных и  правовых  механизмов  социального  страхования.

Следует отметить, что хорошо развитая и широкомасштабная система социального страхования является лучшим показателем экономической, социальной и политической стабильности общества.

Создание адекватного института социального страхования на требование рыночные экономике требует прочной экономических база и наличии развитих социальных и трудовых отношений. В статье рассматриваются институциональные и синергетические аспекты социальной страхование, факторы, определяющие социальный риск, а также его преимущества как особого социального института и многовекторные проблемы развития институциональной среды социального страхования.

## SUMMARY

**Key words:** *social insurance, insurer, who insures, insured, insurance payments, social insurance institute, social risk, social and labor relations.*

Currently, social protection of the population has become an indispensable attribute of the social policy of any civilized state. Its effective organization aims to ensure the provision of certain standards of the level and quality of life of the population based on the redistribution of national income in favor of disabled and poor citizens on the principles of social solidarity.

Social insurance is an integral part of the system of social protection of the population. The uniqueness of the institution of social insurance lies in the fact that it has a positive influence on the formation of a balanced "social market" mentality of the population. Due to the organization of social insurance, the company was able to compensate for social risks by redistributing part of the national income between separate groups of the population. The basic social security principles that form the basis of social insurance, which determine its specificity and high significance, show how important this is also as a social institution.

During the past period, among the major issues of state social policy, a strategic task arose to modernize the social protection system, adapt it to the requirements of the functioning of a market economy, form economic, organizational and legal mechanisms of social insurance.

It should be noted that a well-developed and large-scale social insurance system is the best indicator of economic, social and political stability of society.

The creation of an adequate social insurance institution for the demand of a market economy requires a solid economic base and the availability of developed social and labor relations. The article examines the institutional and synergistic aspects of social insurance, the factors determining social risk, as well as its advantages as a special social institution and the multi-vector problems of the development of the institutional environment of social insurance**.**

*Redaksiyaya daxilolma: 01.02.2020*
*Çapa qəbul olunma: 05.02.2020*

# AZƏRBAYCAN RESPUBLIKASINDA VERGI SISTEMINDƏ APARILAN ISLAHATLARIN ƏSAS ISTIQAMƏTLƏRI

*Kərimov Fazil Cəmil oğlu Dos. UTECA*
*Azər Məmmədli UTECA*
*Cəfərova Xalidə Rəşid qızı BDU*
*Məmmədova Roza Ramiz qızı GDU*

Mövcud hədəflərə çatmaq və müasir iqtisadi inkişaf modelinə keçidlə əlaqədar dövlət başçısı tərəfindən müəyyənləşdirililən konkret vəzifələrin icrasının təmini üçün vergi orqanları bütün səylərini səfərbər edirlər. Büdcəsinin gəlirlərini artırmaq üçün Vergilər Nazirliyi vergi qanunvericiliyini və inzibatçılığı təkmilləşdirilmək, vergi potensialının düzgün müəyyənləşdirilmək və yeni vergi mənbələrinin hesabına vergitutma bazasının genişləndirilmək, vergilərin tam və vaxtında ödənilməsinə prosesinə nəzarətin artırılması istiqamətində bir çox tədbirlər həyata keçirmişdir. Vergi risklərinin müəyyənləşdirilməsi və yayındırılan vergilərin aşkarlanması 55 səbəbi ilə "risklərin idarə edilməsi" innovativ alətlərinin uğurla tətbiqinə başlanılmışdır, iri ödəyicilərdə elektron auditin tətbiqi genişləndirilmişdir. Ölkədə sahibkarlığın və investisiyal təşviqinin, ixracın stimullaşdırılmasının, biznesin dəstəklənməsinin, iqtisadiyyatın rəqabətə davamlığının artırılmasının və qeyri-neft sektorunda inkişafın artırılması üçün 2016-cı ildə vergi qanunvericiliyinə bəzi dəyişikliklər edilmişdir. Bu siyasətin davamı olaraq həmin ilin avqustunda "2016- cı ildə vergi sahəsindəki islahatların istiqamətlərinin təsdiqi, inzibatçılığın təkmilləşdirilməsi haqqında" Sərəncam imzalanmışdır. Vergi inzibatçılığının təkmilləşdirilməsi üçün nazirliyin kollegiya qərarı ilə bəyannamələrin kameral yoxlamalarının, səyyar yoxlamalarının və elektron auditə keçirilməsi ilə bağlı qaydalar və sərəncamdan irəli gələn tələblər nəzərə alınaraq yenilənib və təsdiq edilibdir. Həmin qaydaların hazırlanmasında başlıca məqsəd yoxlamaların aparılması qaydalarını təkmilləşdirilmək, ödəyicilərin hüquqlarının qorunmasının daha şəffaf sistemin qurulması, informasiya texnologiyalarının tətbiqi ilə onun səmərəliliyinin artırılmasıdır.

Ölkəmizə turist axınının artımında önəmli rolu olan "Tax Free" sisteminin tətbiqinə keçilmişdir. Cari ilin sentyabrında Qlobal Forumun Qiymətləndirmə Qrupu Respublikamızın vergi sistemində məlumat mübadiləsi sisteminin beynəlxalq standartlar əsasında aparılması ilə bağlı ölkə hesabatımıza yüksək reytinq vermişdir. Ödəyicilərə göstərilən xidmətlərin səviyyəsini artırmaq üçün 2017-ci ilin yanvarında intizamlı ödəyicilərə xidmətin "Yaşıl dəhliz" prinsipinə keçirilməsi işləri başa çatdırılmışdır. Şəffaf vergi partnyorluğu ilə fəaliyyət göstərən ödəyicilər üçün fərdi, sürətli innovativ texnologiyalı xidmətlərin göstərilməsi vergi orqanları ilə sahibkarlar arasında münasibətlərin tam fərqli bir müstəviyə qaldırılması istiqamətində mühüm addımdır.

Dövlət başçısının sərəncamlarından irəli gələn məsələlərin həll edilməsi, vergi orqanları qarşısında qoyulan vəzifələrin səmərəli icrası, ödəyicilər ilə qarşılıqlı inama əsaslanan vergi partnyorluğu münasibətlərinin qurulması və geniş vergi xidmətləri göstərilmək məqsədilə nazirliyin struktur və menecmenti müasir idarəetmə tələbləri əsasında yenidən qurulmuşdur. Son aylarda qarşıda duran məsələlərdən biri "Vergi Məcəlləsində dəyişikliklərin edilməsi haqqında" Qanun layihəsin hazırlanmaq idi. Layihə Milli Məclis tərəfindən qəbul olundu və qanun dövlət başçısı tərəfindən imzalanmışdır.

Vergi orqanları dövlətin vergi siyasətinin həyata keçirilməsi qurumudur və, dövlət büdcəsinin gəlirlərinin formalaşmasında məsul orqan kimi vergi gəlirlərinin artırılmasında maraqlı olan tərəfdir. Lakin ölkəmizdə aparılan vergi siyasətinin vacib elementlərindən biri əlverişli biznes mühitinə nail olmaq, biznesin iqtisadi inkişaf yönümlü olması, sahibkarların maraqlarına cavab verilməsidir. Vergi Məcəlləsinə həcm və mahiyyət baxımından ciddi dəyişikliklər edilmişdir. Bu dəyişikliklərdə əsas məqsəd və hədəf biznesin inkişafı üçün əlverişli şəraitin yaradılması, sahibkarlıq subyektləri və vergi orqanları arasında qarşılıqlı etimadın yüksəldilməsi, nağd əməliyyatların həcminin azaladılması, pul dövriyyəsinin tənzimlənməsi, bank likvidliyinin artırılması və vergi mühitində cəlbediciliyinin artırılmaq yolu ilə iqtisadiyyatda investisiya qoyuluşunun təşviqi, ixracın əməliyyatlarının stimullaşdırılması, dürüst uçotun qurulmasıdır. Dəyişikliklərin zərfi beynəlxalq təşkilatlarla əməkdaşlıq şəraitində, qabaqcıl dünya təcrübəsinin yaxından öyrənilməsi, təşkilatların və sahibkarların ictimai birlikləri təklifinin müzakirəsi əsasında hazırlanmışdır.

Vergi Məcəlləsinə ümumilikdə 201 dəyişiklik olunub. 115 yeni maddə əlavə edilmiş, 83 maddəyə dəyişiklik, 3 maddə isə çıxarılmışdır. Dəyişiklikləri qruplaşdırsaq, vergi inzibatçılığına 123 maddə, vergi uçotunun şəffaflaşdırılması və təkmilləşdirilməsinə, ödəyicilərin hüquqlarının genişləndirilməsi 34 maddə, isə 57 vergi yükünün azaldılması yaxud vergi güzəştləri və azadolmalarla isə 8 maddə

bağlıdır. Respublika Prezidentinin fərmanı ilə yaradılan icbari tibbi sığorta həmçinin səhiyyə xidmətləri göstərən təşkilatlar mənfəət vergisindən müddətsiz, buğdan satışı və idxalı , un və çörək istehsalı, satışı, quş əti satışı i 3 il müddətlə ƏDV-dən azad edilmişdir.

Bankların restrukturizasiya tədbirləri çərçivəsində qeyri-işlək aktivlərin təqdim edilməsi 2017-ci il yanvarın ayınln 1-dən 3 il müddətlə ƏDV-dən azad edilmişdir. Banklar tərəfindən fiziki şəxslərə əmanətlərinə görə ödənilən illik faiz gəlirlərinin, emitent tərəfindən investisiya qiymətli kağızlarına ödənilən dividendin, faiz və diskont gəlirlərini gəlir vergisindən azad olunması 2023-cü ilin fevral ayına qədər uzadılmışdır. Sahibkarların vergi yükünün azaldılması, dövriyyə vəsaitlərinə qənaət edilməsi, ixracı stimullaşdırılması məqsədilə ixrac fəaliyyəti göstərən şəxslərin apardıqları əməliyyatlardan ƏDV üzrə artıq ödənilən vergilərin qaytarılması müddətləri də azaldılmışdır. Azadolmalar və dəyişikliklər ödəyicilərin vergi yükünün azaldılmasına, öz vəsaitlərindən səmərəli istifadələərinə şərait yaradacaq, biznesin inkişafına dəstək verəcək, nəticələr isə son istehlakçıya yönəldiyindən sosial əhəmiyyətli olacaqdır. Məcəlləyə edilən dəyişikliklərdən bir digəri kənd təsərrüfatı məhsullarının pərakəndə satışında ƏDV-nin ticarət əlavəsindən hesablanmağı ilə bağlı olmuşdur. Kənd təsərrüfatı məhsullarının istehsalçıları vergidən azad edilsə də, onlar məhsulları ticarət şəbəkələridə pərakəndə qaydada satarkən bu məhsulların tam dəyərdən ümumi qayda ilə ƏDV tutulur, bu isə pərakəndə satış qiymətində bahalaşmasına səbəb olurdu. Bütün bunları nəzərə alaraq, sahibkarlığı stimullaşdırmaq, pərakəndə ticarətin rəqabət mühitinin təmin olunması və vergi yükünün optimallaşdırılması məqsədilə pərakəndə ticarət ilə məşğul olan sahibkarlar ölkə ərazisində istehsal etdikləri kənd təsərrüfatı məhsullarını satan zaman ƏDV ticarət əlavəsindən hesablanacaqdır. Dəyişikliklərin bir hissəsi vergitutma bazasının genişləndirilməsinə bağlıdır. İqtisadiyyatın müxtəlif sahələrində vergidən yayınma hallarının rast gəlinməsi sahibkarların qeydiyyatdan keçməməsində, uçot bazasının düzgün aparılmaması, vergi öhdəliklərinin səhv göstərilməsində, ödəyicilərinin mənfəətini minimallaşdırılmaq məqsədilə müxtəlif yollara əl atmasında, vergi yükü az olan ofşor zonalarda qeydiyyatdan keçərək vergilərdən yayındırılmasında, büdcəyə vergilərin bütöv və vaxtında ödənilməməsində və digər formalarda göstərir. Bu islahatlara dair yeni istiqamətlər bu sahələrdə nəzarətin gücləndirilməsini, bəzi hallarda isə vergi nəzarətinin yenidən qurulması prosesini nəzərdə tutur. Rezident ödəyicilərin ölkə hüdudlarından kənarda, həmçinin vergi sığınacağı (ofşor) sayılan ərazilərdə təsis edilmiş ödəyicilər ilə apardıqları əməliyyatlara üzərində nəzarəti təmin etmək məqsədilə bu cür gəlirlərə transfer qiymətlərinin tətbiqi nəzərdə tutulmuşdur.

Ölkəmizdə xidmət, mal və iş üzrə əməliyyatların rəsmiləşdirilməsi sahəsində cari vəziyyətin təhlili göstərir ki, qaimələrin kağız formasında tətbiqi bir sıra problemlərə nəticə etibarilə vergidən yayınmaya şərait yaradır. Bunun qarşısının alınması məqsədilə Vergi Məcəlləsinə dəyişikliklər olunub və sahibkarlıq fəaliyyəti subyektləri aralarında xidmətlərin, malların və işlərin təqdim edilməsi zaman elektron qaimə-fakturanın göndərilməsi tələb edilir. ƏDV məqsədləri üçün qeydiyyata alınan və vergiyə cəlb olunan əməliyyatlarının ümumi dəyəri ardıcıl 12 ay ərzində 200.000 manatı keçən ictimai iaşə və ticarət ilə məşğul şəxslər sahibkarlıq fəaliyyəti ilə bağlı təqdim edilən mallara, görülən işlərə və göstərilən xidmətlərə görə 1 aprel 2017-ci il tarixdən, digər iödəyiciləri isə 2018-ci il yanvarın ayının 1-dən etibarən elektron qaimə-faktura sisteminə keçmişdir. Bu dəyişiklik sahibkarlar arasındakı əməliyyatların rəsmiləşməsi prosedurasının sadələşməsinə, operativliyin təmininə, inzibati xərclərinin azalmasına, xərcləri təsdiq edən sənədlərin mövcudluğu ilə gələcəkdə vergi orqanlar qarşısında fikir ayrılıqlarının yaranmasının qarşısının alınmasına eyni zamanda şəffaflığın təmin edilməsinə xidmət edir.

Uçotun şəffaflaşdırılması ilə bağlı digər dəyişiklik iqtisadi fəaliyyət sahələrində vergitutma məqsədləri üçün gəlir-xərcin uçotunun aparılması qaydalarının müəyyənləçdirilməsi olmuşdur. Bu, uçotun təkmilləşdirilməsi, malların alqı-satqısı zamanı sənədləşmənin aparılması və nəticədə vergidən yayınma hallarının qarşısının alınması istiqamətində əhəmiyyəli bir dəyişiklik hesab olunur. Vergi Məcəlləsində edilmiş digər bir dəyişiklik topdan və pərakəndə ticarət iştirakşlarının fərqləndirən meyarlarının müəyyən edilməsi olmuşdur.Bu isəsahibkarlar və vergi orqanları arasında yaranan ayrılıqlarının qarşısının alınmasına və ödəyicilərin maliyyə sanksiyalarına məruz qalmamalarına şərait yaratmışdır

Şəffaflığın təmin edilməsinə aid dəyişikliklərdə nəzərdən salınmamışdır. Rezident şəxslərin güzəştli vergi tutulan ölkələrdə yaxud ərazilərdə yaradıan müəssisələrlə əməliyyatlarına nəzarət mexanizmlərinin yaradılması mövcud sahədə şəffaflığın təmin edilməsi ilə bağlıdır. Bu məqsəd ilə Məcəllədə güzəştli vergi tutulan ölkələrdə təsis edilən subyektlərə rezident və qeyri-rezidentlərin Res-

publikamışzdakı daimi nümayəndəlikləri tərəfindən dolayı və ya birbaşa edilən ödənişlərin Azərbaycan mənbəyindən olan gəlirlərə aid edilməsini, həmin ödənişdən ödəmə mənbəyindən ə 10 faiz dərəcə ilə vergi tutulmasını nəzərdə tutan maddələr daxil edilmişdir.

Digər mühüm məsələ rəqəmsal iqtisadiyyatda aparılan əməliyyatların vergiyə cəlb edilməsinin işlək mexanizminin müəyyənləşdirilməsidir. Qanunvericiliyə edilən əlavə və dəyişikliklərə görə, elektron ticarətdə qeyrirezidentlərdən işlərin, xidmətlərin təqdim edilməsinə, elektron qaydada təşkil edilən lotereyaların, digər yarışlar və müsabiqələrin keçirilməsindən alınan ƏDV alıcının yerləşdiyi yerdə tətbiq ediləcəkdir. Burada söhbət qeyri-rezidentlərdən, internetdə xaricdən alınan mallardan deyil, iş yaxud xidmətlərdən gedir. Beıe 60 dəyişikliyin məqsədi rəqabət şərtlərini bərabərləşdirmək və uçot sistemi qurmaq olmuşdur.

Vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi məsələlərinədə baxılmışdır. Prezident İ.Əliyevin də öz çıxışlarında dəfələrlə qeyd etdiyi kimi, Azərbaycan vətəndaşı dövlətimizin həyata keçirdiyi siyasətin mərkəzində dayanır. Qanunvericiliyinə ediləş ən son dəyişikliklərdə ödəyicilərin hüquqlarının qorunması, genişləndirilməsi başlıca prinsiplərdən olmuşdur. Sahibkarlar tərəfindən öhdəliklərin düzgün müəyyən edilməməsi ödəyicilərin əlavə maliyyə sanksiyalarına məruz qalmasına səbəb olur. Bu məqsədlə vergi öhdəliklərin hüquqi nəticələrindənöncə vergi orqanı ilə razılaşdırılması qaydasının müəyyələşdirilməsi nəzərdə tutulur. Mövcud sistem İEÖ- in istər fərdi sahibkarlarının, istərsə də iri şirkətləri tərəfindən geniş istifadə olunan səmərəli vasitələrdəndir. Bu zaman ödəyicilərini müraciəti əsasında vergi orqanları qanunvericiliyə uyğun olaraq həmin sahibkarlıq subyektinin əməliyyatlarında yarana biləcək vergi öhdəliyi haqqında məlumat hazırlayır və ona təqdim edirlər. Bu da sahibkarın risklərini minimallaşdırır, onu maliyyə itkilərindən sığortalayır, dövriyyə vəsaitindən səmərəli istifadəsinə və öz biznesini planlaşdırmağa imkan yaradır.

Kameral vergi yoxlamalarına aid dəyişiklərdə vergi yoxlamalarının konkret olaraq verilən bəyannamələr əsasən 30 gün ərzində yoxlanılıb başa çatdırılması tapşırılıb eyni zamanda bu məqsədlə qanunvericiliyə edilən dəyişikliyə, kameral yoxlamanın vergi bəyannaməsinin verildiyi tarixdən 30 iş günü ərzində həyata keçirilməsi və həmin müddət başa çatdıqdan sonra bəyannamə üzrə yenidən vergi yoxlamasının keçirilməsi qadağan edilmişdir.

Ödəyici hüquqlarının qorunmasına xidmət göstərən yeniliklərdən biri "Könüllü vergi açıqlaması sisteminin tətbiq edilməsidir. Sahibkarlıq 61 subyektlərində səyyar vergi yoxlamalarının başa çatdırılmasından asılı olmayaraq, vergi orqanı tərəfindən əldə edilən mənbəyi məlum olan məlumatlar əsasında ödəyicinin gəlirlərinin və vergitutma obyektinin gizlədilməsinin əlamətləri müəyyən edildiyi halda vergi qanunvericiliyi ilə nəzərdə tutulan növbədənkənar vergi yoxlaması keçirilə bilər. Keçirilən vergi yoxlamasına əsasən büdcədən yayındırıla vergi məbləği dövlət büdcəsinə ödənilməklə, yayındırılan məbləğin 50%i miqdarında maliyyə sanksiyası tətbiq edilməli idi. Edilmiş son dəyişikliklərlə könüllü vergi açıqlamasına razılaşan ödəyicilər sanksiyalardan azad olacaqdır. Ödəyiciyə könüllü vergi açıqlaması barəsində səyyar vergi yoxlaması aparılan dövrlərdə bəyannamə təqdim etmək hüququ verildi. Bu bəyannamə əsasında könüllü açıqlanmış vergi məbləğlərinə görə ödəyicilərə faiz hesablanmır və heç bir maliyyə sanksiyasına cəlb edilmir.

Sabit vergi fərdi qaydada, muzdlu işçi cəlb edilmədən fəaliyyət fiziki şəxslərə tətbiq edilir. Bu verginin ödəyiciləri kiçik həcmdə gəlirləri olan, fərdi foto, televizor, soyuducu, saat və digər məişət əşyalarının təmirini həyata keçirən, audio-video xidmətləri göstərən, fərdi yaşayış evlərində sürücülük və qulluqçuluq və s. işlərlə məşğul olan fiziki şəxslərdir. Sabit vergi məbləğinin ödəyicisi olan şəxslər mövcud qanunvericiliyə görə uçotuna alınmalı, hesabat təqdim etməlidirlər. Bir sıra fəaliyyət növlərinin sadələşdirilmiş vergiyə cəlbi ilə bağlı Vergi Məcəlləsinə edilən dəyişikliklərin əsas məqsədi bu fəaliyyətlə məşğul olanların vergilərinin toplanmasından daha çox həmin sahədəki uçotun sadələşdirilməsi və onların inzibati yükününün minimuma endirilməsi məqsədini daşıyır. Həmin vergi mexanizmi, ilk olaraq, fəaliyyətin və fərdi qaydada xidmət göstərən şəxsin uçotunu dəqiq aparmağa imkan verəcəkdir. Bu isə müvafiq dövlət qurumlarının işsizlik səviyyəsini dəqiq müəyyən etməsinə yardım edəcəkdir. Bu verginin ödəyiciləri öz öhdəliklərini bəyannamə təqdim etmədən və kiçik sabit məbləğ 62 ödəyərək həyata keçirirlər. Məcəllədə həmin fəaliyyət növlərinin siyahısı eyni zamanda verginin dərəcələri göstərilmişdir.

Nağdsız hesablaşmaların genişləndirilməsi ilə də yeni qərarlar hazırlanmışdır. "Nağdsız hesablaşmalar haqqında" ölkə başçısının 4 avqust tarixli sərəncamına uyğun olaraq, Maliyyə Bazarlarına Nəzarət Palatası və Nazirlik birlikdə beynəlxalq təcrübəni nəzərə alaraq qanun layihəsini hazırlamış və nağdsız ödənişlərin genişlənməsinə şərait yaratmışdır. Bu sahədə ölkəmiz hələ də dünya ölkələrindən,

qonşu Türkiyədən və bəzi MDB ölkələrindən geri qalmaqdadır. Nağdsız ödənişlərin artırılması, pul dövriyyəsinin tənzimlənməsində müsbət təsiri ilə yanaşı, maliyyə sektorunda canlanma yaradacaq, vergidən yayınmanın azalmasına gətirəcək və vergi daxilolmalarının artmasında birbaşa rol oynayacaqdır.

Bu qanuna görə, ƏDV qeydiyyata alınmış və dövriyyəsi 200 min manatdan artıq ictimai iaşə və ticarət fəaliyyəti göstərən şəxslər tərəfindən nağd hesablaşmaların aparılması üçün aylıq limit 30 min manatadək, digər ödəyicilər üçün isə 15 min manatadək miqdarında olmuşdur. Ödəyicilər tərəfindən bəzi hallarda, kənd təsərrüfatı məhsullarının istehsalçılardan alınması və s. kimi hallarda qeydiyyatda olmayan olmayan fiziki şəxslərdən nağd qaydada satın alınmasına icazə verilir. Qanunaəsasən bəzi ödəmələrin və rüsumların, sosial ödəmələrin, publik hüquqi şəxslərə və büdcə təşkilatlarına ödənilən xidmət haqqının və digər ödəmələrin nağd qaydada həyata keçirilməsinə aid tələblər müəyyən edilmişdir. 200 min manatadək dövriyyəsi olan ictimai iaşə, ticarət və xidmət sahəsində fəaliyyəti olan şəxslər istisna, digər şəxslər tərəfindən ödənilməli olan əmək haqqlarının nağd qaydada ödənilməsinə yol verilir.

Nağd hesablaşma ilə bağlı məhdudiyyətlər də Vergi Məcəlləsinə edilən dəyişikliklərdə öz əksini tapmışdır. Banklardan nağd pul vəsaitinin çıxarılmasını məhdudlaşdırılmaq məqsədilə hüquqi şəxslər həmçinin fərdi sahibkarların vəsaitlərini nağd qaydada bank hesablarından çıxardığı zaman banklar tərəfindən 1% sadələşdirilmiş vergi tutulmaqdadır. Burada tutulan vergi vətəndaşlara deyil, təkcə sahibkarlıq fəaliyyəti göstərən ödəyicilərinə tətbiq olunur. Bütün bu dəyişikliklər bütünlükdə ölkə üzrə nağdsız əməliyyatların həcminin artmasına, maliyyə sektorunda likvidliyinin və büdcə vəsaitlərinin xərclənməsi zamanı şəffaflığın təmin edilməsində, əmək haqqının və digər ödənişlərin qanuni formaya düşməsinə şərait yaradacaq, həmçinin ölkəmizin beynəlxalq imicinə öz müsbət təsirini göstərəcəkdir.

2017-ci ildə bu vergi növünə edilən dəyişiklikləri bir neçə istiqaməətə olar. Aqrar sahənin inkişafına dəstək məqsədi ilə kənd təsərrüfatı mallarının istehsalı, sahibkarlığın stimullaşdırılması, pərakəndə ticarətdə rəqabətin təmin edilməsi və vergi yükünün azaldılması məqsədi ilə məcəllənin 13.2.60-64-cü, maddələrinə edilən dəyişikliklərdə “kənd təsərrufatı məhsullarının satışı”, “kənd təsərrufatı məhsullarının istehsalı”, “pərakəndə satış” və “ticarət əlavəsi” anlayışları verilməklə yanaşı həm də ƏDV-nin tərifində dəyişiklik edilərək, respublika ərazisində istehsalı aparılan kənd təsərrüfatı məhsulları üçün pərakəndə satışıdan vergitutma obyektinə ticarət əlavəsi, ƏDV-nin də bu məbləğdən hesablanmalı olduğu təsbit edilmişdir, burada satıcıların həmin malların uçotunun ayrıca aparılması şərti qoyulmuşdur. Tələb olunan uçotu aparmayan vergi odəyicilərinə ƏDV-si mallarının pərakəndə satışının ümumi dövriyyəsindən hesablanmalıdır.

ƏDV güzəştlərinin və sıfır (0) dərəcə ilə azadolmalar verilməsi. Vergi Məcəlləsinin 164.1.27-ci maddəsinə edilmiş dəyişikliklərə əsasən buğda idxalı və satışından, un və çörək istehsalı, satışı 2020-ci ilədək təkrar artırılaraq ƏDV-dən 64 azad olunmuşdur. Ödəyicilərə xidmət və vergi partnyorluğu departamenti tərəfindən hazırlanan məcəllənin 164.1.36-cı maddəsinə görə ödəmə qabiliyyətini itirən bankların sağlamlaşdırılması tədbirləri çərcivəsində Respublika Prezidentinin müəyyənləşdirdiyi qaydada qeyri-işlək aktivlərin təqdimatı 2017-ci ildən başlayaraq 2020-ci ilə kimi ƏDV-si ödəməkdən azad olunmuşdur. Bundan başqa ey müddət ərzində quş ətinin satışıda ƏDV-si ödəmək imtayazında çıxarılmışdır.Vergi Məcəlləsinin 165.4-cü maddəsi ilə fiziki şəxslərin ticarət festivalları ərəfəsində respublika ərazisində aldıqları qeyri-kommersiya və qeyriistehsal təyinatlı mallara üçün ödədikləri ƏDV-nin qanunvericiliklə müəyyənüdilmiş qaydada geri qaytarılması da nəzərdə tutulmuşdur.

Elektron ticarətdən vergi tutulması: Vergi Məcəlləsinin 168.1.5, 169.1 və 169.3-cü maddələrində edilən dəyişikliklərə əsasən virtual məkanda ƏDV-nin tətbiqi tənzimlənir. Ölkəmizin hüdudlarından kənarda aviabiletlərin sifarişi və otel xidmətləri istisna olmaqla, bu sahədə iş təqdim edildikdə yaxud lotereya və digər yarışlar keçirildikdə vergi tutulan əməliyyatların yeri kimi alıcının və müsabiqə iştirakşısının yerləşdiyi yer müəyyən edilir və həmin ölkədə ƏDV tətbiq olunur. və İştirakçı vergi odəyicisi olduğu təqdirdə ƏDV-ni həmin şəxsin özü hesablayır və büdcəyə ödədikdən dərhal sonra Vergi Məcəlləsinin tələblərinə uyğun ödənilmiş məbləği əvəzləşdirə bilir. İştirakçı vergi ödəyicisi olmadıqda ödəniş aparan bank ƏDV-ni alıcıdan hesablayaraq büdcəyə ödəyir, tutulan ƏDV isə əvəzləşdirilmir. Vergi tutulmuş əməliyyatların sənədləşdirilməsi. Məcəlləsinin 176.2-ci maddəsinə edilən dəyişikliklər və 176.2-1 maddəsi ilə “Taxfree” layihəsi çərcivəsində vətəndaşlığı olmayan şəxslərə və əcnəbilərə verilən elektron VHF-ın formasının fərqli olması və xüsusi formanın Nazirlər Kabinetinin təsdiq etdiyi ehtiva edilir. Məcəllənin 176.4-cü maddəsinə görə pərakəndə ticarət fəaliy-

yəti 65 göstərəm ƏDV odəyicilərinin nağd əməliyyatlarını rəsmiləşdirən sənədlərlə yanaşı qaimə-faktura yaxud elektron qaimə verə biləcəyini gostərir.

ƏDV üzrə vergi ödəyicilərin artıq ödəmələrinin tənzimlənməsi. Vergi Məcəlləsinin 179.1-179.2-ci maddələrində göstərilir ki hesabat dövrundə dovriyyəsinin azı 50 %-i sıfır (0) dərəcə öhdəliyinə cəlb olunan əməliyyatlari aparan ödəyici hesabat dövrundə artıq ödəməsinin vergi və gömrük orqanına ərizə verdiyi tarixdən, 20 gun müddətində qaytara bilər. Digər artıq ödəmələri növbəti 3 aya keçirilir və bu müddət başa matdıqda artıq ödəmənin qalığı ərizəyə əsasında 20 günə vergi odəyicisinə geri qaytarılır. Bu zaman vergi orqanı odəyicilərin artıq odəməsinin düzgünlüyünuü həmin 3 ay ərzində araşdırmaq hüququna malikdir. Butün bu dəyişikliklər vergi ödəyiciləri üzərinə düşən vergi yükünün azaldılmasına və dövriyyə vəsaitlərinin səmərəli istifadəsinə istiqamətləndirilmişdir.

**NƏTICƏ.** Araşdırmanın nəticəsindən gorunür ki, bütün ölkələrdə olduğu kimi Azərbaycanda da vergi sistemində aparılan islahatlarını həyata keçirən orqanlar beynəlxalq təcrübələrə uyğun olaraq aparılır. Müstəqillik qazandıqdan sonra ölkəmiz vergi nəzarəti strategiyasını həyata keçirir. Bu strategiyanın həyata keçirilməsində müvafiq qanunvericilik aktları, beynəlxalq təcrübələr, konustitusiya və bir sıra fərman və sərəncamlar əsas götürülür.

Onu da qeyd etmək lazımdır ki, vergi sistemində islahat həyata keçirən orqanalar öz idarəetmə subyektlərini, nəzarət olunan subyektləri və nəzarəti həyata keçirən subyektləri müəyyənləşdirir və buna uyğun olaraq nəzarəti yerinə yetirirlər.

## ƏDƏBIYYAT

1)Vergilər və vergitutma: Sxem və cədvəllərdə Y.A. Kəlbiyev.
2) Vergi planlaşdırması və Proqnozlaşdırılması Z.H.Rzayev.
3) Azərbaycan Respublikasının vergi xidməti islahatlar və nəticələr, A.F.Musayev
4) Vergi Ensiklopediyası, taxes.gov.az
5) Əlavə Dəyər Vergisinə edilən dəyişikliklər, taxes.gov.az

## SUMMARY

The main directions of reforms in the tax system in our country are characterized as follows.
• Recent developments in both the regions and the global economy,
• Decrease in oil revenues,
• Uncertainty in the world economy,

The complex external environment in our country has affected the macroeconomic and financial stability. However, as a result of resolutely pursuing a purposeful and far-sighted political course, as well as an action plan to accelerate institutional reforms in the country's structure, pursue an active fiscal policy, strengthen protection of social groups, increase the share of the non-oil sector in exports and develop industry, was able to reduce losses and ensure social protection of the population. The strategic roadmap for the national economy and leading sectors of the economy approved by the President's decree reflects the adaptation to the processes observed in the global economy and financial markets, new strategic goals and priorities aimed at supporting the post-oil economic development model.

*Redaksiyaya daxilolma: 01.02.2020*
*Çapa qəbul olunma: 05.02.2020*

# PANDEMIYANIN TƏSIRINƏ MƏRUZ QALAN SAHIBKARLARA EDILƏN VERGI GÜZƏŞTLƏRI VƏ SAHIBKARLAR ÜÇÜN VERGI UÇOTUNDA BAŞ VERƏN DƏYIŞIKLIKLƏR

*Dos. M.Urkayev*
*A.Məmmədli UTECA*
*Cəfərova X.R. BDU*
*Məmmədova R.R. GDU*

**Açar sözlər:** *vöen, ədv, elektron vergi hesab-fakturasi*

Vergilər məcəlləsində baş verən dəyişikliklər qanunla nəzərdə tutulmuş təsərrüfat əməliyyatlarının həyata keçirilməsi zamanı ziddiyyətlər yaradır. Məhz bu ziddiyyətlərin baş verməməsi üçün qanunlarda baş verən dəyişiklər təsərrüfat əməliyyatlarında öz əksini tapmalıdır. Təsərrüfat əməliyyatları isə şəxslər tərəfindən uçotun qurulması ilə baş verir. Uçot qurulan zaman vergilər məcəlləsində baş verən dəyişiklikləri uçotda tətbiq etməliyik. İlk öncə hansı vergi növü üzrə mükəlləfiyyətimiz varsa o, müəyyən edilməlidir. Fəaliyyət sahəsindən asılı olmayaraq vergi ödəyiciləri ƏDV, sadələşdirilmiş və gəlir vergisi ödəyiciləri olurlar. Mənsub olduqları vergi növünə əsasən uçotu qurullar, hesabatlar hazırlayırlar və büdcə ilə hesablaşmaları həyata keçirdirlər. Lakin dəyişikliklərin tətbiq edilməməsi zamanı müəyyən problemlər yaranır. Bu problemlərə sahibkarların məlumatsızlığı, uçotun tam qurulmaması, vergidən yayınma hallarının mövcudluğu və əməliyyatların rəsmiləşdirilməməsi kimi məsələlər daxildir. Vergilər məcəlləsində baş verən dəyişikliklərin tətbiqi isə artıq sahibkarların fəaliyyət göstərməsi üçün qanunvericiliyə əsaslanmalı olduqlarına sübutdur. Çünki qanunvericiliyə əsaslanmadan aparılan əməliyyatlar sahibkarları məsuliyyətdən azad etmir. Prezident İlham Əliyevin tapşırığı ilə ölkəmizdə koronavirus (COVİD -19) pandemiyasının mənfi təsirlərinin qiymətləndirilməsi və aradan qaldırılması məqsədilə 4 İşçi Qrup yaradılıb. Onların hər biri müvafiq iş planı əsasında xüsusi proqramlar hazırlayıblar. Görülən tədbirlər ictimaiyyətin də diqqət mərkəzindədir.

**Pandemiyadan zərər çəkən sahələr, o cümlədən mikro sahibkarliq subyektləri üçün vergi sahəsində əsas güzəştlər**

Qeyd edək ki, pandemiyadan zərər çəkən sahələr, o cümlədən mikro sahibkarlıq subyektləri üçün vergi sahəsində əsas güzəştlər paketinə həm birbaşa vergi ödəmələri, həm də bəyannamələrin təqdim edilməsi ilə bağlı inzibatçılıq məsələləri daxildir. Vergi güzəştləri fəaliyyət istiqamətləri üzrə fərqli formada müəyyən edilib. Məsələn, mikro sahibkarlıq subyektlərinə müvafiq müddətdə sadələşdirilmiş vergi üzrə güzəştin verilməsi, müvafiq müddətə əmlak və torpaq vergisindən, eləcə də vergi ödəyicilərinin mənfəət (gəlir) vergisinə müvafiq məbləğdə və müddətdə azadolmalar planlaşdırılıb. İctimai iaşə fəaliyyəti ilə məşğul olanlar üçün sadələşdirilmiş verginin azaldılması, mənfəət (gəlir) vergisi ödəyicilərinin isə mənfəət (gəlir) vergisindən, bəzi vergi ödəyicilərinin müvafiq bir müddətə ədv-dən azad edilməsi nəzərdə tutulub. Proqrama əsasən, əhalinin ərzaq və tibbi ehtiyacları üçün zəruri olan bəzi məhsulların ədv-dən müddətli, bəzi məhsulların idxalının və satışının ədv-dən azad olunması, eləcə də həmin məhsulların istehsalı ilə bağlı xammal və materialların ədv-dən azad olunması gözlənilir. Fiziki və hüquqi şəxslər tərəfindən koronavirusla mübarizəyə dəstək fonduna köçürülən ianələrin mənfəət (gəlir) vergisi məqsədləri üçün gəlirdən çıxılması, həmçinin epidemiyanın qarışının alınması ilə əlaqədar vergi ödəyicisi tərəfindən göstərilən əvəzsiz xidmətlərin göstərilməsinə görə ədv-nin sıfır (0) dərəcə ilə tutulması da goruləcək tədbirlər sırasında yer alıb.

Bəyannamələr üzrə güzəştlərdə isə 2019-cu ilin nəticələrinə görə mənfəət (gəlir) vergisinin verilməsi müddətinin uzadılması, vergi hesabatlarının verilməsi müddətinin, habelə vergilərin ödənilməsi müddətinin uzadılması kimi məsələlər əksini tapıb.

**Tədqiqat metodu**

Məlum olduğu kimi, 2018-cu il yanvarın 1-dən Vergi Məcəlləsində baş verən dəyişikliklər nəticəsində bütün vergi ödəyiciləri artıq yanvarın 1-i tarixindən malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim etməli oldular. Məlumat üçün qeyd edəkki, bu zamana qədər Nazirlər Kabinetinin 14 mart 2017-ci il tarixli 89 nömrəli qərarı ilə təsdiq edilmiş "Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadə Qaydaları"na əsasən yalnız ƏDV ( Əlavə Dəyər Vergisi) ödəyiciləri və ardıcıl 12 aylıq dövr üzrə vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər təqdim etdikləri mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə 2017-ci il 1 aprel tarixindən elektron qaimə-faktura təqdim etməyə

başlamışdılar. Bütün vergi ödəyicilərinin elektron qaimə-faktura təqdim etməsi sahibkarlar arasında aparılan əməliyyatların rəsmiləşdirilməsi prosedurunun sadələşməsinə, operativliyin təmin edilməsinə, inzibatçılıq xərclərinin azaldılmasına, sahibkarların xərclərini təsdiq edən sənədlərə malik olmaqla gələcəkdə vergi orqanları ilə yaranacaq fikir ayrılıqlarının qarşısının alınmasına və şəffaflığın təmin olunmasına xidmət edir. Sahibkarların bir-birlərinə təqdim etdikləri mallara görə qaimələrin elektron qaydada təqdim olunması vahid elektron baza formalaşdırır və bu, sahibkarlar arasındakı münasibətlərin hüquqi şəkildə tənzimlənməsinə kömək edir. Sahibkarların təqdim etdiyi və onlara təqdim edilən elektron qaimə-fakturalar alqı-satqı əməliyyatlarını rəsmi olaraq təsdiq etdiyi üçün müəssisədə aparılan uçotda, xüsusəndə, vergi uçotunda böyük əhəmiyyətə malik olurlar. Vergi uçotunda ki, əhəmiyyətini anlamaq üçün ilk öncə vergi ödəyicilərinin mükəlləfiyyətini müəyyən etmək lazımdır. Mükəlləfiyyətin təyin edilməsi dedikdə isə vergi ödəyicisinin vergi orqanından aldığı VÖEN (Vergi Ödəyicisinin Eyniləşdirmə Nömrəsi) əsasında hansı vergi növünün ödəyicisi olduğunun müəyyən edilməsi başa düşülür. Vergi ödəyiciləri sahibkarlıq fəaliyyəti ilə məşğul olurlarsa, ya ƏDV (Əlavə Dəyər Vergisi), ya da sadələşdirilmiş vergi ödəyiciləri olurlar.

ƏDV-nin ödəyicisi kimi qeydiyyatdan keçən və ya qeydiyyatdan keçməli olan şəxs ƏDV-nin ödəyicisi sayılırlar. Qeydiyyatdan keçən şəxs qeydiyyatın qüvvəyə mindiyi andan etibarən vergi ödəyicisi olur. Qeydiyyata dair ərizə verməli olan, lakin qeydiyyatdan keçməmiş şəxs qeydiyyata dair ərizə vermək öhdəliyinin yarandığı dövrdən sonrakı hesabat dövrünün başlanğıcından etibarən vergi ödəyicisi sayılır. Sahibkarlıq fəaliyyəti göstərən və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatdan artıq olan şəxslər, o cümlədən sadələşdirilmiş vergi ödəyicisi hüququndan istifadə etməyən ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər ƏDV-nin məqsədləri üçün qeydiyyata dair ərizə verməyə borcludur. Şəxs ƏDV-nin məqsədləri üçün qeydiyyatdan keçərkən, vergi orqanı həmin şəxsi ƏDV ödəyicilərinin dövlət reyestrində qeydə almağa və ərizə verildikdən sonra 5 iş günündən gec olmayaraq, ona müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi forma üzrə qeydiyyat bildirişi verməyə, həmin bildirişdə vergi ödəyicisinin adını və ona aid olan digər məlumatı, qeydiyyatın qüvvəyə mindiyi tarixi və VÖEN-i göstərməyə borcludur. ƏDV ödəyicisinin qeydiyyat bildirişi ƏDV ödəyicisinə bir dəfə verilir və onda saxlanılır. ƏDV ödəyicisinin qeydiyyat bildirişi itirildikdə və ya yararsız hala düşdükdə vergi ödəyicisinin müraciəti əsasında ona bildirişin surəti verilir. Artıq bildiriş sürətini alan sahibkar ƏDV ödəyicisi kimi fəaliyyətə başlamağı rəsmiləşir. Bu zaman topdan və pərakəndə satışla məşğul olan sahibkar satış əməliyyatını həyata keçirdən zaman malı qəbul edən tərəfə hansı vergi növü ödəyicisi olub olmamağından asılı olmayaraq, elektron qaimə-faktura göndərir. Elekron qaimə-fakturanın da müəyyən rekvizitlər olur. Bu rekvizitlərə malı qəbul edən tərəfin VÖEN-i, adı, obyekti, malı təqdim edən tərəflə bağladığı müqavilənin tarixi və nömrəsi daxildir. Rekvizitlər daxil edildikdən sonra isə malın adı, ölçü vahidi, miqdarı, vahidinin buraxılış qiyməti, mal aksizli vergiyə daxildirsə, aksiz vergisinin məbləği, malın dəyərinin ƏDV-yə cəlb edilən hissəsi, ƏDV-yə cəlb edilməyən hissəsi, ƏDV-yə 0 dərəcə ilə cəlb edilən hissəsi və yol vergisi daxil edilir. Göndərilən elektron qaimə-faktura malı qəbul edən tərəfin elektron qaimə qutusuna düşür və təsdiq gözləyir. Əgər göndərilən qaimə-faktura düzgün tərtib edilibsə, malı qəbul edən tərəfindən imzalanaraq təsdiqlənir. Göndərilən elektron qaimə-faktura 5 gün daxilində malı qəbul edən tərəfindən imzalanmadıqda, sistem tərəfindən avtomatlaşdırılmış qaydada təsdiqlənir. Təsdiqləndikdən sonra isə ƏDV ödəyicisi malları, işləri və ya xidmətləri qəbul edən şəxsə elektron vergi hesab-fakturasını verməyə borcludur. Elektron vergi hesab-fakturası malı qəbul edən tərəfə malın ƏDV məbləğini əvəzləşdirmək hüququ verir. Əgər malı qəbul edən tərəf ƏDV ödəyicisidirsə. ƏDV-nin ödəyiciləri olmayan alıcılara pərakəndə mal göndərildikdə və ya xidmət göstərildikdə, elektron vergi hesab-fakturası əvəzinə elektron qaimə-faktura və ya qəbz və ya çek verilə bilər. Bununla yanaşı nağd aparılan əməliyyatların rəsmiləşdirildiyi sənədlər verginin əvəzləşdirilməsinə əsas vermir.

Sadələşdirilmiş vergi ödəyiciləri ƏDV məqsədləri üçün qeydiyyata alınmamış və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatların həcmi 200.000 manat və ondan az olan şəxslər sayılırlar. Əgər sadələşdirilmiş vergi ödəyiciləri hüquqi şəxsdirsə, ƏDV-ni və mənfəət vergisini, fiziki şəxsdir isə gəlir vergisi və ƏDV-nin ödəyicisi ola bilməzlər. Sadələşdirilmiş verginin tətbiqini stimullaşdırmaq və təkmilləşdirmək üçün 2019-cu il yanvarın 1-dən Vergilər Məcəlləsində bu vergi növü ilə bağlı bır sıra dəyişikliklər baş vermişdir. Bu dəyişikliklərə biz Bakı üzrə sadələşdirilmiş vergi dərəcəsinin 4%-dən 2%-ə endirilməsini, Pərakəndə satış qaydasında malların satışının həyata keçirilməsi üzrə ticarət fəaliyyəti və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan sadələşdirilmiş vergi

ödəyiciləri tərəfindən büdcəyə ödənilməli olan vergi məbləğinin 3 il müddətinə "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş POS-terminal vasitəsilə nağdsız qaydada aparılan ödənişlərin ümumi hasilatdakı xüsusi çəkisinə uyğun müəyyən edilən verginin 25 faizi həcmində azaldılması , Qanunla müəyyən edilmiş hallarda dövlət büdcəsinə olan vergi borclarının silinməsindən əldə olunan gəlirin sadələşdirilmiş vergidən azad olması halı, sabit sadələşdirilmiş vergi ödəyiciləri siyahısına bərbər və dərzilərin əlavə edilməsi, topdansatış ticarət qaydasında malların təqdim edilməsini həyata keçirən şəxslərin sadələşdirilmiş vergi ödəyicisi olma halının məhdudlaşdırılması kimi dəyişiklikləri daxil edə bilərik. Sadələşdirilmiş vergi ödəyiciləri də ,malların təqdim edilməsi zamanı elektron qaimə-faktura göndərərək satış əməliyyatını rəsmiləşdirillər. Bu zaman ƏDV ödəyicilərindən fərqli olaraq, sadələşdirilmiş vergi ödəyiciləri tərtib etdikləri elektron qaimə-fakturada ƏDV məbləği göstərilmir. Biz yalnız həmin ƏDV məbləğini təqdim edilən malın dəyərinin tərkibində görə bilərik. Bu zaman ƏDV-nin əvəzləşdirilməsinədə yol verilmir.

Rezident və qeyri-rezident fiziki şəxslər gəlir vergisinin ödəyiciləridirlər. Rezident vergi ödəyicisinin gəliri onun Azərbaycan Respublikasında və Azərbaycan Respublikasının hüdudlarından kənarda əldə etdiyi gəlirdən, qeyri-rezident vergi ödəyicisinin gəliri isə onun Azərbaycan Respublikası mənbələrindən əldə etdiyi gəlirlərdən ibarətdir. Lakin yeni baş verən dəyişikliklər artıq əldə edilən gəlirdən tutulan gəlir vergisinin dərəcələrinin dəyişməsinə səbəb olmuşdur. 2019-cu il yanvarın 1-dən 7 il müddətinə neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergi ödəyicilərində işləyən fiziki şəxslərin muzdlu işdən aylıq gəlirlərindən vergi 8000 manatadək 0 % ilə, 8000 manatdan artıq olan hissəsi isə 14 % -lə vergiyə cəlb edilir. Əldə edilən aylıq gəlirdən vergi ilə yanaşı DSMF ödənişləridə tutulur. Fiziki şəxslərin muzdlu işdən aylıq gəlirlərindən 200 manatadək 3 % həcmində, 200 manatdan artıq olan məbləğin isə 10 %-i həcmində DSMF-yə ödəniş edilir. Müəssisə tərəfindən isə DSMF-yə fiziki şəxslərin muzdlu işdən aylıq gəlirlərinin 15 % həcmində ödənişlər edilir. Qeyri-sahibkarlıq fəaliyyətilə məşğul olan şəxslərin illik gəlirlərindən 14 % dərəcə ilə vergi tutulur.

**NƏTİCƏ.** Nəticə olaraq isə onu qeyd edə bilərik ki, pandemiyadan daha çox zərər çəkmiş sahələr ilk növbədə dəstəklənəcək. Bunlardan ictimai iaşə, turizm sektoru və digərlərinə dəstək 100 faizlik bir meyar üzərində olacaq. Bu meyar onların vergilərdən azad edilməsi və işçilərinin əmək-haqlarının qarşılanması ilə bağlı tədbirlərə də tətbiq ediləcək. Daha əhəmiyyətli təsirə məruz qalan sahələrə 70 faizlik, az zərər çəkən sahələrə isə 50 faizlik meyarla dəstək göstərilməsi nəzərdə tutulub və vergilər məcəlləsində baş verən dəyişikliklərin tətbiq edilməsi sahibkarlıq subyektlərinin fəaliyyətinə təsir göstərir. Sahibkarlıq subyektləri mənsub olduğu vergi növünə əsasən həyata keçirdikləri təsərrüfat əməliyyatlarının uçotunu təşkil edib, baş verən dəyişikliklərində uçotda tətbiq etməlidirlər. Xüsusəndə, malların təqdim edilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi zamanı tətbiq edilən elektron qaimə-fakturadan istifadə üzrə baş verən dəyişikliklər bütün vergi ödəyicilərinin alqı-satqı əməliyyatlarının rəsmiləşdirilməsi üçün digər vergi ödəyicilərinə elektron qaimə-faktura göndərməsi elektron xidmətlərin inkişafına, hesablaşmaların nağdsızlaşmasına, sahibkarların gələcəkdə vergi orqanları ilə yaranacaq fikir ayrılıqlarının qarşısının alınmasına və şəffaflığın təmin olunmasına xidmət edir. Bununla birlikdə gəlir vergisinin tətbiqindədə köklü dəyişikliklərin baş verməsi sahibkarların vergi yükünün aşağı düşməsi və DSMF (Dövlət Sosial Müdafiə Fondu) ödənişlərinin azalması ilə nəticələnmişdir.

## ƏDƏBIYYAT


1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi.
2. Q.Ə.Abbasov. “Mühasibat uçotu” Dərslik və metodiki vəsait. “Təknur” nəşriyyatı . Bakı/ Azərbaycan. 2017:1-528
3. Z.Məmmədli, Sahibkarlar üçün vergi əməliyyatları dəyişir, http://reyting.az/layihe/7007-sahibkarlar-uchun-vergi-emeliyyatlari-deyishir.html
4. Seyfullayev İlqar Zülfüqar oğlu i.f.d., dos. İqtisadiyyatın innovasiyalı inkişafının vergi tənzimlənməsi məsələləri, Vergi Jurnalı , 2016 №1
5. Vüqar Bayramov, Yeni vergi dəyişikliyi nəyi dəyişəcək? http://cesd.az/new/?p=10423&lang=az


## SUMMARY

The main purpose of our study is related to the impact of changes in the tax code on entrepreneurial activity. Research shows that taxpayers are liable to the state according to the type of tax. Due to their obligations, they set up their accounts accordingly and make settlements with the state budget. Accordingly, in our study, we divided taxpayers into 3 groups: value added tax, simplified tax and income tax payer. Based on the division, we analyzed the changes in tax legislation and assessed the impact on taxpayers. According to our analysis, we can say that the simplification of application, registration and use of e-services by entrepreneurs, regardless of the type of taxpayer, is the basis of the changes. At the same time, the fact that individuals are payers of any type of tax creates the basis for the establishment of records by areas of activity. All transactions are recorded with the establishment of the account. Documentation of transactions is also the basis for gaining legal force. As a result, we noted that changes in tax legislation allow taxpayers to use electronic invoices for goods, works and services, registration, control of transactions, non-cashing and documentation of payments, and even the development of tax accounting.

*Redaksiyaya daxilolma: 06.04.2020*
*Çapa qəbul olunma: 13.04.2020*

**UOT 333.013**

# MADDI-TEXNIKI RESUSRLAR BAZARINDA ISTEHSAL RESURSLARI POTENSIALINDAN ISTIFADƏNIN IQTISADI MEXANIZMININ TƏKMILLƏŞDIRILMƏSININ BƏZI MƏSƏLƏLƏRI.

***Kərimova M.H.***
***Azərbaycan Texnologiya Universiteti***

Maddi-texniki resurslar bazarı iqtisadiyyatın inkişafında istehsalın texniki vəsaitlərin davamlı olaraq təminatında əsaslı keyfiyyət dəyişikliklərinə xidmət edən zəruri bazar infrastrukturudur. Maddi-texniki resurslar bazarı digər bazar növləri kimi istehsalın inkişafını stimullaşdıran qurumdur. İqtisadiyyatın bütün sahələrində islahatların aparılması yeni təsərrüfat qurumlarının yaradılması istehsal, satış sferasında olduğu kimi maddi-texniki resurslarla təchizat sferasında da sahibkarlıq fəaliyyətinin inkişafı etdirilməsini obyektiv zərurətə çevirmişdir.

Maddi-texniki resurslar bazarı – mülkiyyət mənsubiyyətindən asılı olmayaraq iqtisadiyyatın bütün sahələrində fəaliyyət göstərən müəssisə və təşkilatlar arasında istehsal və dövriyyə vəsaitləri əldə etmək məqsədilə əmtəə-pul münasibətlərinə və azad rəaqəbətə əsaslanaraq fəaliyyət göstərən iqtisadi qurumdur. Maddi-texniki resurslar bazarı azad bazarın mühüm tərkib hissəsi olduğundan tələb və təklif əsasında fəaliyyət göstərir. Adı çəkilən bazarda iqtisadi əlaqələr tərəflər arasında razılaşmalara və müqavilə münasibətlərinə əsaslanır.

Maddi-texniki resurslar bazarı iqtisadiyyatın bütün sahələrində geniş təkrar istehsalı həyata keçirmək və inkişafın dayanıqlığını təmin etmək baxımından mühüm əhəmiyyət kəsb edir. Bazarda alıcı qismində iştirak edən tərəf ehtiyacı olduğu texniki resursu əldə etmək məqsədilə müəyyən məbləğdə kapitala malik olmalı, satıcı qismində iştirak edən tərəf isə təsərrüfat subyektləri üçün zəruri olan resursları bazarda təklif etməlidir. Maddi-texniki resurslar bazarında iqqtisadi münasibətlər tələb və təklif əsasında formalaşdığından onu klassik bazarın bilavasitə analoqu hesab etmək olar.

Maddi-texniki resurslar bazarı aqrar sahənin inkişafı baxımından daha əhəmiyyətlidir. Aqrar sahənin resurslarla fasiləsiz təmin edilməsi kənd təsərrüfatı məhsulları istehsalının artımına əlverişli şərait yaradır. Sosilaist istehsal münasibətləri şəraitində kənd təsərrüfatı müəssisələrinin texniki təminatı mərkəzləşdirilmiş qaydada dövlət tərəfindən hayata keçirilirdi. Məlum olduğu kimi, 90-cı illərin əvvəllərindən etibarın iqtisadiyyatda baş verən mərkəzdənqaçma meyilləri aqrar sahənin texniki resurslarla təminatında destruktiv tendensiyaların yaranmasına gətirib çıxarmışdır. Bütün bunlar son nəticədə yeni yaranan kənd təsərrüfatı əmtəə istehsalçılarının istehsal imkanlarının məhdudlaşmasının şərtləndirmişdir. Maddi-texniki resurslar bazarı çevik iqtisaid mexanizm formalaşdırılmadan fəaliyyət göstərə bilməz.

Məlum olduğu kimi, bazar münasibətləri şəraitində aqrar sahənin inkişaf etdirilməsində başlıca rol oynayan iqtisadi mexanizm xalq təsərrüfatının başqa sahələrindən fərqli olaraq kənd təsərrüfatı istehsalının özünə məxsus spesifik cüsusiyyətlərilə sıx bağlıdır. Bu xüsusiyyətlər hər şeydən əvvəl, kənd təsərrüfatının istehsalının torpaq iqlim şəraitindən asılılığından irəli gəlir. Digər tərəfdən aqrar sahənin inkişafı bioloji amillərlə də bağlıdır. Bütövlükdə mülkiyyət və istehsal münasibətlərindən irəli gələn xüsusiyyətlər də nəzərə alınarsa, aqrar sahə iqtisadiyyatın digər sahələrindən fərqli olaraq kifayət qədər mürəkkəb və riskli təsərrüfatçılıq sahəsi kimi xarakterizə olunur. Kənd təsərrüfatında maddi resurslar əsas fondlar ilə material vəsaitlərindən ibarət olub, torpaq və su ehtiyatları ilə birlikdə kənd təsərrüfatının istehsal vasitələri kimi məhsuldar qüvvələrin vacib tərkib hissəsini təşkil edir.

Kənd təsərrüfatı istehsalına təsir edən əsas amillərə təbii, texnoloji, maliyyə, kredit, qiymət, vergi, gömrük, sığorta, istehslaın stimullaşdırılması, qarşılıqlı iqtisadi münasibətlərinin prinsipləri əsasında qurulması üzrə kompleks məsələlərin həlli və s. digər vacib məsələlər daxildir. Bu baxımdan aqrar sahənin bazar münasibətlərinin prinsiplərinə uyğun inkişaf etdirilməsi və bu sahənin səmərəli fəaliyyətinin təmin olunması üçün qeyd edilən iqtisadi amillərdən kompleks halda və məqsədyönlü istifadə olunması başlıca şərtlərdəndir. Belə ki, aqrar sahənin özünə məxsus spesifik xüsusiyyətləri – xüsusilə aqro-texniki, təşkilati-texnoloji, iqtisadi, maddi-texniki vəsaitlərdən komplesk halda istifadə nəzərə alınmadıqda istənilən nəticələrə nail olunması mümkün deyildir. Digər tərəfdən maddi-texniki vasitələrin qiymətləri ilə müəssisələrin alcılıq qabiliyyəti arasında böyük fərqlər fərqlərin yaranması, istehsal resurslarının keyfiyyətcə yaxşılaşdırılması və istifadə olunmasından yaranan maliyyə çətinlikləri, əmtəə istehsalçılarının xarici bazarın əlvrişsiz təsirlərindən qorunması ilə bağlı məsələlərin həlli aqrar sahənin dövlət tərəfindən mütəmadi olaraq dstəklənməsini şərtlədirir. Belə ki, dövlət vergi, kredit, bank. İnvestisiya, qiymət siyasətində kənd təsərüfatı əmtəə istehsalçılarına müəyyən güzəştlərin və dotasiyaların tətbiq edilməsi aqrar sahənin maddi-texniki və istərsə də, daxili ticarət sahəsində, gömrük sistemində dövlət köməyinə böyük ehtiyac olduğuna görə davamlı dövlət tənzimlənməsi siyasəti həyata keçirilməlidir.

Kənd təsərrüfatı bitkilərinin becərilməsi və onlardan yüksək məhsuldarlıq əldə edilməsi torpaqların münbitliyindən, suvarma üsulu ilə təmin edilmə səviyyəsindən kənd təsərrüfatı əmtəə istehsalçılarının elit toxumlarla təmuin edilməsindən, aqro texniki qaydalara əməl olunmasından asılıdır.

Digər tərəfdən hər hansı bir bitkinin yetişdirilməsi və məqsədyönlü məhsuldarlıq əldə olunmasına nail olmaq üçün xüsusi mülayim hava və münbit hava şəraiti tələb olunur. Belə ki, pambıq bitkisi uzun müddətli istilik, suvarma suyu, münbit torpaq sahələri, çay bitkisinin inkişafı üçün bütün il boyu mülayim və nəm hava şəraiti xüsusi tərkibə malik olan münbit torpaq sahəsinin olması olduqca vacib şərtlərdəndir. Belə xüsusiyyətlər, eyni zamanda digər bitki növlərinə də aiddir. Eyd etmək lazımdır ki, respublikada mövcud olan torpaq sahələri öz təbii münbitliyinə görə bir-birindən əsaslı şəkildə fərqlidir ki, bu eyni məhsul istehsalına müxtəlif səviyyədə xərc tələb edir. Bunun üçün torpaqların münbitliyinin artırılması və eyni səviyyədə məhsuldarlıq əldə edilməsi üçüm torpaqların əsas vədövriyyə vəsaitləri ilə müxtəlif səviyyədə təmin olunmasını tələb edir. Təbiidir ki, bütün bunlar istehsal və dövriyyə (binalar və tikililərdən, maşın və avadanlıqlradan, məhsuldar maq-qaradan, kübrələrdən, toxumlardan, yemlərdən və s.) vəsaitlərdən səmərəli istifadə olunma səviyyəsindən də bilavasitə asılıdır. Kənd təsərrüfatında bəzi sahələrin inkişafı, eyni zamanda lokal xarakter daşıyır. Lakin, əksər bitkilər və bütünlükdə bütün heyvan növlərinin ərazi üzrə yerləşdirilməsi geniş aeal təşkil edir. Bölgələr üzrə istehsalın səmərəli inkişafı fərqli cəhətlərə malikdir. Ona görə ayrı-ayrı kənd təsərrüfatı məhsulları istehsalının inkişaf etdrilməsi üçün başlıca əhəmiyyət kəsb edən problemlərdən biri kənd təsərrüfatı istehsalını səmərəli yerləşdirilməsi və buna uğyun olaraq kənd təsərrüfatı xammal ilə emal sənayesi sahələrinni proporsional olaraq düzgün yerləşdirilməsi bazar iqtisadiyyatının səmərəli fəaliyyəti üçün mühüm əhəmiyyə kəsb edir. Bu problemin düzgün olaraq həll edilməsində mühüm əhəmiyyət kəsb edən faktorlardan biri aqrar sahənin sahələrarası optimal strukturların yaradılmasıdır. Digər tərəfdən kənd təsərrüfatı xammal istehsalı ilə emal və yeyinti sənaye müssisələri arasnda dəqiq proporsiyaların olmaması istehsal gücündən səmərəli istifadə olunmamasına mənfi təsir göstərir. Bu da satış sahələrinin, xidmət sahələrinin fəaliyyətini zəiflədir və çox hallarda xammal itkilərinin yaranması ilə nəticələnir.

Başqa sahələrdən fərqli olaraq kənd təsərrüfatı istehsalının inkişaf etdirilməsi üçün çoxsaylı canlı əmək sərfi tələb olunur. Digər tərəfdən isə kənd təsərrefatı istehsalı mövsümi xarakter daşıyır ki, bu zaman isə işçi qüvvəsindən istifadə səviyyəsi mövcud olan əmək ehtiyatının 50 %-dən aşağı olur.

Kənd təsərrüfatı istehsalı mövsümi olub ilin yarısında başa çatması istehsal resurslarından bütün il boyu bərabər səviyyədə istifadə olunmasına mənfi təsir göstərir. Ona görə də kənd təsərrüfatının əsas sahələri ilə yanaşı, köməkçi sahələrinin də inkişaf etdirilməsi başlıca şərtlərdəndir.

Kənd təsərrüfatı eyni vaxtda ev təsərrüfatıdır. Belə ki, kənd təsərrüfatı məhsul istehsalı ilə yanaşı ev təsərrüfatına məxsus olan müxtəlif iqtisadi funksiyaları, təsərrüfat, məişət xidməti, ailənin istehlakının təmini, qocalara və əmək qabiliyyəti olmayan ailə üzvlərinin sosial tələbatlarının ödənilməsi, ev təsərrüfatlarının aparılması, gənc nəslin tərbiyəsi, onlara əmək vərdişlərinin aşılanması, peşəyönlü məsələlərin həlli, xalaq təsərrüfatının sahələri üçün əmək ehtiyatlarının təşkili və s. həyata keçirir.

Kənd təsərrüfatı həmişə risk səviyyəsi ilə fərqlənir. Hər şeydən əvvəl gözlənilməyən hava şəraiti, mümkün olan təbii fəlakətlər, istehsalın təşkili və texnologiyanın tez-tez dəyişməsi və yenisi ilə əvəz olunması, qiymətlərin dəyişkən olması, mineral gübrənin, zəhərləyici maddənin, herbisidlərin kütləvi tətbiqi ilə ətraf mühitin çirklənməsini şərtləndirir. Kənd təsərrüfatının sabit və təminatlı bazarı olmur və tez-tez dəyişir.

Kənd təsərrüfatı əmtəə istehsalçıları maddi-texniki vasitələrin əldə edilməsinə təmir, tikinti, nəqliyyat və digər növ xidmətlərdən istifadə olunmasında, məhsullara qiymətlərin müəyyən olunmasında, alıcıları müəyyənləşdirməkdə müstəsna səlahiyyətlərə malik olmalıdır.

Kənd təsərrüfatı istehsalının özünə məxsus spesifik xüsusiyyətləri ilə əlaqədar olaraq elmi-texniki tərəqqinin nailiyyətləri xüsusilə yeni texnika və texnoloji vasitələrdən geniş istifadə edilməsini tələb edir. Bu isə öz növbəsində elmi-texniki tərəqqinin birinci növbədə məhsuldar qüvvələrin inkişafına yönəlməsini və kənddə yeni istehsal münasibətlərinin yaranmasını tələb edir. Aqrar sahədə elmi-texniki tərəqqi, son nəticədə bir tərəfdən məhsuldar qüvvələrdən intensiv istifadə olunmasına, digər tərəfdən istehsal münasibətlərinin təkimilləşdirilməsi ilə meüşiyət olunur ki, bu da istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsində həlledici amil hesab olunur.

Kənd təsərrüfatının istehsalının əsasını təşkil edən torpaq sahələrinin yüksək dağlıq, dağətəyi və düzən ərazilərdə yerləşməsi bir-birindən fərqli olan texniki vasitələrdən istifadə olunmasını tələb edir.

Yeni təsərrüfatçılıq şəraitinə keçilməsi, sahibkarlığın inkişaf etdirilməsi, bütün relyeflərdə işlədilə bilən universal traktorlar, kənd təsərrüfatı maşınları, kombaynlar istehsal olunaraq geniş tətbiq edilməsi aqrar sahənin səmərəli fəaliyyət göstərməsi üçün başlıca şərtlərdən biridir.

Yeni təsərrüfatçılıq şəraitində torpaq-iqlim şəraiti respublikanın coğrafi quruluşu əsas götürülməklə, yeni məhsuldar və universal kənd təsərrüfatı texnikasının istehsalı arşıda duran mühüm problemlərdən biridir. Bu isə iqtisadi mexanizmin təkmilləşdirilərək texniki vasitələrin inkişafına xidmət etməsini tələb edərək bu sahədə iqtisadi mexanizmin təsir dairəsinin genişləndirilməsini ön plana çəkməlidir.

Yeni təsərrüfatçılıq şəraitində aqrar sahənin inkişaf etdirilməsinə təsir edən mühüm amillərdən biri də maddi-texniki resurslar bazrıdır. Burada başlıca faktor əstehsalın tələb və təklif əsasında qurularaq fəaliyyət göstərməsi, kənd təsərrüfatı əmtəə istehsalçıları ilə resurs bazarının digər istehlakçıları arasında yaranan qarşılıqlı münasibətlər eləcə də qiymət mexanizmi faktorudur. Bu faktoru başqa faktorlardan fərqləndirici cəhəti kənd təsərrüfatı istehsalçılarının maddi-texniki resurslara olan tələbatının təmin olunması ilə bağlıdır. Bunun üçün isə istehsalçı ilə istehlakçı arasında qarçılıqlı əlaqələrin inkişaf etdirilməsi olduqca vacib məsələlərdəndir. Maddi-texniki resursların təklifi ilə təlabat arasında düzgün proporsiyanın yaradılması aqrar sahənin səmərəli fəaliyyət göstərməsinə olduqca müsbət təsir göstərir. Maddi-texniki olan tələb təklifdən sürətlə artarsa və ya istehsalçıların onu əldə etmək imkanları məhdudlaşarsa onda bu tendensiya istehsalın səmərəliliyinin azalmasına səbəb olmaqla daxili bazarın itirilməsinə, xarici bazarların isə fəaliyyət dairəsinin genişləndirilməsinə şərait yaradaraq daxili bazara təsir edir. Son illərdə respublikanın aqrar sahəsində yaranmış böhranlar məhsul istehsalının bier qədər azalmış və istehsal olunan məhsulların maya dəyərini yüksəldərək qiymətlərin yüksək olmasına bu sahədə maddi maraq prinsipinə mənfi təsir etməsinə, məhsul istehsalının artım sürətinin azalmasına mənfi təsir etmişdir.

Aqrar sahənin bazar iqtisadiyyatı şəraitində səmərəli fəaliyyətinn təmin olunmasına təsir edən başlıca faktorlardan biri də texnoloji amildir. Texnoloji amillərə başlıca olaraq bitkiçilik, heyvandarlıq məhsulları istehsalında, kənd təsərrfatı istehsalı xammalının emal olunaraq qablaşdırılması, əmtəə məhsullarının saxlanması, satış üçün hazırlanaraq istehsalçılara çatdırılması texnologiyası və s, aiddir. Aqrar sahəyə təsir göstərən texnoloji amillər regional xüsusiyyətlərindən, torpaq və iqlim şəraitindən, elmi-texniki tərəqqinin inkişaf xüsusiyyətindən, tələb faktorlarından asılı olaraq dəyişə bilər.

Bazar iqtisadiyyatı özəl qurumların inkişafına əsaslandığından onun aparıcı qüvvəsi kimi, şəxsi marağın stimullaşdırılması çıxış edir. Hər bir kəndli təsərrüfatı özünə sərfəli olan məhsulları istehsal etməyə cəhd götərərək mənfəəti maksimallaşdırmaq və ya zərərin minimuma endirmək məqsədini qarşıya qoyur. Material resursların sahibləri maşın və avadanlıqları icarəyə verərkən və ya satrkən bacardıqca yüksək məbləğdə mənfəət götürməyə cəhd edirlər. Kəndli təsərrüfatları çox vaxt satışdan daxil olan vəsaitlə məhsul istehsalına çəkilən xərcləri ödəyə bilməyərək zərərlə işləyirlər.

Beləliklə kənd təsərrüfatı istehsalı təbii-iqlim şəraitindən asılı olduöundan əmtəə istehsalçıları bazara çıxarılacaq məhsulların miqdarını, keyfiyyətini, tam nəzarətdə saxlayıb idarə edə bilmirlər. Bu da tələb və təklif tarazlaşdırılması üzrə proqnozların hazırlanmasını çətinləşdirir. Əlverişli olmayan qeyri-normal torpaq-iqlim şəraitində istehsal olunan məhsulların miqdarı və keyfiyyəti aşağı səviyyədə olur. Təbiidir ki, bu da həmin məhsulların rəqabət qabiliyyətini azaldır.

Mülkiyyət formasından asılı olmayaraqkənd təsərrüfatı əmtəə istehsalçılarının maddi-texniki resurslara olan tələbatını ödəmək məqsədilə son dövrlərdə dövlət tərəfindən zəruri tədbirlər həyata keçirilməkdədir. Azərbaycan Respublikası Prezidentinin 22 oktyabr 2004-cü il tarixli “Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında” sərəncamı da bu qəbildəndir. Ölkə prezidentinin adı çəkilən sərəncamı maddi-texniki resurslar bazarının iqtisadi mexanizminin yeni istehsal münasibətlərinin tələblərinə uyğunlaşdırılması baxımından mühüm sənəd hesab olunmalıdır.

Aqrolizinq fəaliyyətinin genişləndirilməsi kənd təsərrüfatı əmtəə istehsalçılarının maddi-texniki resurslar bazarında güzəştlərlə, icarə əsasında istifadə olunmasına əlverişli şərait yaradır. Fikrimizcə bu sərəncamın həyata keçirilməsi aqrar sahənin texniki resurslarla davamlı olaraq təminatında əhəmiyyətli rol oynayacaqdır.

## ƏDƏBIYYAT


1. İbrahimov İ.H. Kənd təsərrüfatının inkişafı və sahibkarlığın formalaşması problemləri Bakı - 2005.
2. 2016-cı il 6 dekabr tarixli. 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Strateji Yol Xəritəsi"
3. "Aqrar bölmədə lzinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Resublikası Prezindentinin 22 oktyabr 2004-cü il tarixli sərəncamı
4. Məmmədov CC " Aqrar bölmədə maddi-texniki təminat və xidmət işinin təşkili" (Dərs vəsaiti)


**Некоторые проблемы усовершенствование экономического механизма на рынке материально технических ресурсов**

## РЕЗЮМЕ


В условиях нового хозяайствоведеия одним из главных факторов, влияющих на развите аграрногоотрасля, является также рынок материально-технических ресурсов. Главным фактором здесь является показание деятельности производства на основе требований и предложоний. Отличающейся строной этого фактора от другихм факторов является обеспечение материально-техническими ресурсами товаропроизводителей сельсого хозяйства.



*Redaksiyaya daxilolma: 06.04.2020*
*Çapa qəbul olunma: 13.04.2020*

# MALİYYƏ HESABATLARININ BEYNƏLXALQ STANDARTLARINA UYĞUN MALİYYƏ HESABATLARININ HAZIRLANMASI

***Dos. Kərimov Fazil Cəmil oğlu***
***Magistr Mehdiyev Sabir Mikayıl oğlu***
***Magistr Cəfərova Xalidə Rəşid qızı***
***Azərbaycan Texnologiya Universiteti***

## XÜLASƏ

**Açar sözlər:** Pul vəsaitləri, bank, maliyyə, metod

Pul vəsaitlərinin hərəkəti haqqında hesabat( PVHH) müəyyən bir dövr ərzində müəssisənin pul vəsaitlərinin hərəkətini *(pul girişi və çıxışları )* özündə əks etdirir. Mənfəət və zərər haqında hesabatdan tək fərqi odur ki, mənfəət və zərər haqqında hesabatda *"hesablanmış və mədaxil olmamış gəlirlər"* gəlir, *"hesablanmış və ödənilməmiş xərclər"* isə xərc olaraq tanınır, lakin, pul vəsaitlərinin hərəkəti haqqında hesabatda(PVHH) yalnız pul vəsaitləri müəssisəyə mədaxil və ya müəssisədən məxaric olduğu zaman qeyd edilir.Bu hesabatın (pul vəsaitlərinin hərəkəti haqqında hesabatın) hazırlanmasında əsas məqsəd – istifadəçiləri (daxili və xarici) hesabat dövrü ərzində firmanın pul vəsaitlərinin hərəkəti barədə məlumatla təmin etməkdir.

**Pul vəsaitləri** nağd pul vəsaitləri, bank hesablarında saxlanılan və tələblər üzrə verilən pul vəsaitləridir.

**Pul vəsaitlərinin ekvivalentləri** dedikdə qısa ödəniş müddətinə, yəni əldə edildiyi tarixdən **3(üç) təqvim ayı və daha az ödəniş müddətinə** malik olan, pul vəsaitlərinin öncədən məlum olan dəyərinə asanlıqla çevrilə bilən, bu aktivlər üzrə dəyərin dəyişməsi riskinə cüzi miqdarda məruz qalan yüksək likvidliyə malik qoyuluşlardır. BMHS(maliyyə hesabatlarının beynəlxalq satndartları) bank overdraftlarını pul vəsaitləri kimi qəbul edir, bu isə o deməkdir ki, hesabatda nağd pul qalıqları mənfi ola bilər.

"Pul vəsaitlərinin hərəkəti haqqında hesabat"-da pul vəsaitlərinin hərəkəti **3 fəaliyyət növü** üzrə təsnifləşdirilir:

- **Əməliyyat fəaliyyəti** (Operating cash flows) - müəssisənin əsas gəlir gətirən, habelə, investisiya fəaliyyətindən və maliyyələşdirmə üzrə fəaliyyətdən başqa digər fəaliyyətidir.
- **İnvestisiya fəaliyyəti** (İnvestment activity) – uzunmüddətli aktivlərin və pul vəsaitlərinin ekvivalentlərinə aid olmayan investisiyaların əldə edilməsi və xaricolmasıdır.
- **Maliyyələşdirmə üzrə fəaliyyət** (Financing cash flows) - müəssisənin mülkiyyətçilərinin qoyuluşları və mülkiyyətçilər arasında kapitalın bölüşdürmələri, habelə üçüncü tərəfdən borcların alınması və onların geri ödənilməsidir. Səhmlərin satılmasından daxil olan pul axınları, səhmdarlara dividendlərin verilməsi zamanı çıxan pul axınını və s. özündə əks etdirir.

Pul vəsaitlərinin hərəkəti haqqında hesabatın hazırlanmasında 2 metoddan istifadə edilir:

- **Birbaşa metod (Direct method)**
- **Dolaylı metod (İndirect method)**

Hər iki metoda GAAP(ABŞ metodu) və İFRS(Avropa metodu) tərəfindən icazə verilir. İnvestisiya və maliyyə fəaliyyətindən yaranan pul axınlarının hesablanmasında bu metodların hər ikisi də eynidir. Bu iki metod arasındakı əsas fərq əməliyyat fəaliyyətlərindən yaranan pul axınlarının hesablanmasında özünü göstərir. Hesablamanın fərqli olmasına baxmayaraq, hər iki metodla alınan yekun nağd vəsait eyni olur. Hər iki metoda misallar üzərindən baxaq:

**Misal.**

**Birbaşa metod**

| Pul vəsaitlərinin hərəkəti | Hesabat dövrü üzrə | Əvvəlki dövr üzrə |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Malların satışından və xidmətlərin göstərilməsindən daxilolmalar | 25 000 | 20 000 |
| Mallar və xidmətlərə görə xaricolmalar | - 15 000 | - 10 000 |
| İşçilərin mükafatlandırılması ilə əlaqədar ödənişlər | - 5 500 | - 4 000 |
| Mənfəət vergisi ödənişi üzrə xaricolmalar | - 1 300 | - 1 000 |
| Əməliyyat fəaliyyətindən yaranan faiz ödənişləri üzrə xaricolmalar | - 1 250 | - 950 |
| Digər ödənişlərə görə xaricolmalar | - 250 | - 150 |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **1 700** | **3 900** |

**Misal.**
**Dolayı metod**

| Pul vəsaitlərinin hərəkəti | Hesabat dövrü üzrə | Əvvəlki dövr üzrə |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Hesabat dövründə xalis mənfəət və ya zərər | 4 000 | 2 950 |
| Amortizasiya xərcləri | - 1 200 | - 950 |
| Ehtiyatların azalması (artması) | - 1 500 | - 1 000 |
| Əməliyyat debitor borclarının azalması (artması) | 1 300 | 2 500 |
| Əməliyyat kreditor borclarının artması (azalması) | - 1 250 | 650 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklərin artması (azalması) | 350 | - 250 |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **1 700** | **3 900** |

"Pul vəsaitlərinin hərəkəti haqqında hesabat"-ın izahlı qeydlərində aşağıdakı məlumatlar açıqlanır:

- pul vəsaitləri və pul vəsaitləri ekvivalentlərinin tərkibi;
- pul vəsaitləri və pul vəsaitləri ekvivalentlərinin əhəmiyyətli qalıqları, o cümlədən, müəssisə və ya qrup tərəfindən istifadəsi mümkün olmayan (istifadənin mümkün olmaması səbəbini göstərərək);
- əməliyyat məhsuldarlığının saxlanılması üçün zəruri olan pul vəsaitlərinin hərəkətindən ayrıca olaraq əməliyyat məhsuldarlığının artmasını göstərən pul vəsaitlərinin hərəkətinin ümumi məbləği;
- hesabatda təqdim olunan hər bir təsərrüfat və coğrafi seqmentlər üzrə əməliyyat fəaliyyəti, investisiya fəaliyyəti və maliyyələşdirmə üzrə fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkətinin məbləğləri;
- sair münasib məlumat.

**Qeyd1:** aktivlərin artımı nağd vəsaitin istifadəsi hesabına baş verir. Məhz ona görə aktivlərdə artim hər zaman pul vəsaitlərinin hərəkəti hesabatında mənfi, azalma isə müsbət işarə ilə göstərilir.

**Qeyd2:** öhdəliklər hər zaman nağd vəsaitlərin əsas mənbəyidir. Buna görə də, öhdəliklərdə baş verən artım pul vəsaitlərinin hərəkəti hesabatında müsbət, azalma isə mənfi işarə ilə göstərilir.

**Qeyd3:** nağdsız xərclər (misal: amortizasiya) müsbət işarə ilə göstərilir.

## ƏDƏBIYYAT

1. Q. Ə.Abbasov: "Mühasibat uçotu" Dərslik, Bakı "İqtisad Universiteti" nəşriyyatı 2015

2."Maliyyə uçotu" Bakı - 2013 Azərbaycan Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə elm- tədris Mərkəzi Peşəkar Mühasiblərin Sertifikatlaşdırma Proqramı çərçivəsində hazırlanan dərslik

3.A. Kərimov "Mühasibat uçotu, vergilər" (nəzəri-praktik vəsait) Bakı "Ozan" 2013

4. Ə.A.Sadıqov, T.Ə.Sadıqov, S.Ə.Cəfərova, C.Ə.Sadıqov "Mühasibat uçotu" Dərslik, Bakı 2012, 688 səh

5. Q. Rzayev " Mühasibat uçotu və audit " ( Dərslik ) Bakı, 2008

## РЕЗЮМЕ

**Ключевые слова:** *наличные, банковское дело, финансы, метод*

Отчет о движении денежных средств (CFR) отражает денежные потоки (притоки и оттоки денежных средств) предприятия за определенный период времени. Единственное отличие от отчета о прибылях и убытках состоит в том, что в отчете о прибылях и убытках «начисленные и не начисленные доходы» признаются, а «начисленные и неоплаченные расходы» отражаются как расходы, но в отчете о движении денежных средств (PVHH) предприятие получает только денежные средства. Основная цель подготовки этого отчета (отчета о движении денежных средств) заключается в предоставлении пользователям (внутренним и внешним) информации о денежных потоках фирмы в течение отчетного периода.

**SUMMARY**

**Keywords:** *Cash, banking, finance, method*

The statement of cash flows (CFR) reflects the cash flows (cash inflows and outflows) of an entity over a period of time. The only difference from the profit and loss statement is that in the profit and loss statement, 'accrued and non-accrued income' is recognized and 'accrued and unpaid expenses' are recognized as an expense, but in the statement of cash flows (PVHH) only cash is received by the enterprise. The main purpose of preparing this report (cash flow statement) is to provide users (internal and external) with information about the firm's cash flows during the reporting period.

*Redaksiyaya daxilolma: 06.04.2020*
*Çapa qəbul olunma: 13.04.2020*

## HUMANİTAR

# SOVET HAKİMİYYƏTİ İLLƏRİNDƏ KOOPERASİYALAŞMANIN HÜQUQİ TƏNZİMLƏMƏ XÜSUSİYYƏTLƏRİ

*Hüquq üzrə fəlsəfə doktoru Ə.Ə.Kazımov*
*M.A.Məmmədov, E.İ.Əhmədova*

**Açar sözlər:** *istehlak kooperasiyasi haqında dekret, kənd təsərrüfatı kooperasiyası, torpaqdan kollektiv istifadə, istehsalat kooperasiyası, hərbi kommunizm siyasəti, yeni iqtisadi siyasət*

Sosialist dövlət quruculugunun ilk illərində kooperasiyalaşmaya böyük diqqət ayrılıbdı. Kooperasiyalaşma kənd təsərrüfatı istehsalatı təşkilinin yeganə üsulu kimi nəzərdən keçirilirdi, mübahisələr yalnız onun növünün seçilməsi barədə aparılırdı.

Kooperasiyalaşma yolu ilə kənd təsərrüfatının üsullarının seçimi XX əsrin əvvələrində hüquqşünasların və iqtisadçıların elmi əsərlərində tamamilə əsaslandırılmışdır. Kənddə kooperativ hərakatının əsas nəzəriyyəçilərindən biri V.İ.-Lenin olmuşdur. Onun kəndin islahatı haqqında "Lenin kooperativ planı" adını almışdır. V.İ.Lenin kənddə iri təsərrüfatların yaradılması zərurətini belə əsaslandırırdı: "Təkmilləşdirilmiş alətlər tətbiq etmək imkanı xirda istehsalçı torpağa qulluqda geri qalmalı olur, amma köhnə alətləri saxlamaqla, çalışqanlığı artırmaqla və iş vaxtını uzatmaqla iri sahibkara çatmağa yüzdən, mindən yalnız biri onu bacarır. Kapitalizm əkinçilik texnikasını yüksəldir və onu irəli aparır, ancaq o bunu xirda istehsalçıları müflisləşdirmədən, alçatmadan və əzmədən edə bilməz. Buna əsaslanaraq deyə bilərik ki, yalnız öz aralarında birləşərək vahid kooperativ (istehsal, kənd təsərrüfatı, istehlak) yaratmaqla xırda istehsalçılar iri təsərrüfatlarla uğurla rəqabət apara bilərlər. Bu cür birlik könüllü və qarşılıqlı faydalı olmalıdır"[1].

Kooperativ təşkilatların könüllülük və sərbəstlik prinsipləri əsasında inkişaf nəzərdə tutulurdu. Əvvəlcə V.İ.Lenin kooperasiyanı iqtisadi, maliyyə və bank güzəştləri verilməsi yolu ilə kooperativə daxil olmağa vadar edən məcburi metodlar tətbiq etməkdən inkişafını təklif edirdi.

Ancaq intervensiya 1918-1920-ci illərin vətəndaş müharibəsi ilə bağlı obyektiv səbəblərlə bağlı kənd təsərrüfatının kooperasiyalaşmasının inkişafı planı təcrübədə ilkin olaraq düşünüldüyü kimi gerçəkləşdirə bilmədi. Müharibə dövrünün sərt şəraiti kənddə kooperasiyalaşmanın təşəkkülü və inkişafı prosesinə düzəlişlər edilməsinin zəruriliyini diktə edirdi. Beləki 1920-ci illərin əvvəllərində kooperasiyalaşma müstəqil təsərrüfat - idarəetmə aparatı kimi deyil, dövlətin təsərrüfat funksiyası kimi nəzərdən keçirilməyə başlandı.

14 fevral 1919-cu i tarixində qəbul olunmuş "Sosialist yerqruluşu haqqında və sosialist əkinçiliyə keçid tədbirləri haqqında"[2] əsasnamə kağız üzərində kəndli kooperativ təşkilatlarının müstəqilliyini təsbit edirdi, ancaq 1919-cu ilin sonu 1920-ci ilin əvvəlində kooperativ təşkilatlarının tədricən dövlət orqanlarına tabe etdirilməsi meylləri aşkarlandı.

İlk növbədə kənd təsərrüfatı kooperativlərinin milliləşdirilməsi istehlak kooperativlərinin tədarük funksiyalarının tədricən dövlətin əlinə keçməsi yolu ilə baş verirdi. Kənd təsərrüfatı kooperativlərinin müstəqil struktur kimi mövcudluğuna xitam verilməsinin hüquqi təsdiqi RSFSR Sovnarkomunun 27 yanvar 1920-ci il tarixli "Kooperativ təşkilatlarının bütün növlərinin birləşdirilməsi haqqında" [3] Dekretlə həyata keçirildi.

Bu aktla Ümumrusiya kənd təsərrüfatı, sənaye və digər kooperativlər mərkəzinin ayrı – ayrı ödəmələr kimi Mərkəzi istehlakçılar cəmiyyətləri ittifaqına birləşdirildi.

Əvvəllər, 1919-cu ilin martında RSFSR Xalq Komissarları Sovetinin "İstehlak kommunaları haqqında" 16 mart 1919-cu il tarixli Dekretinin qəbul edilməsi ilə istehlak cəmiyyətləri dövlət ərzaq orqanlarının tabeçiliyinə verildi, kooperativlərin, onların ittifaqlarının və istehlak kommunalarının bütün vəzifəli şəxsləri və qulluqçuları ərzaq təşkilatlarının dövlət qulluqçularına bərabər tutulurdu.

Kooperativlərin dövlətə tabe edilməsi 1920-ci ildə RSFSR XKS-nın "Kənd təsərrüfatı və sənaye kooperativ təşkilatları haqqında" [4] 19 aprel 1920-ci il tarixli Dekretinin qəbul olunması ilə qəti rəsmiləşdirildi.

Baxmayaraq ki, kollektiv təsərrüfatlarının təşkili baxımından bu Dekret dəyərli sənəd idi, ancaq kooperativ hərəkatının inkişafında gözlənilən nəticəni vermədi, çünki kəndlinin öz əməyinin nəticələrində iqtisadi maraqlılığını təsbit etmirdi. Kənd təsərrüfatı kooperativində istehsal olunan bütün məhsullar dərhal dövlət mülkiyyətinə çevrilirdi, onların istehsalçılarına demək olar ki, heç nə qalmırdı. Bununla əlaqədar kənd təsər-

rüfatları kooperativlərinin "Hərbi kommunizm" dövründə yaranmış kənd təsərrüfatı kooperativ təşkilatlarının dövlət idarəetmə metodlarından imtinada ifadə olunan əsaslı islahatı zərurəti meydana gəlir.

1921-ci ildə intervensiya və vətəndaş müharibəsi illərində dövlətin tətbiq etdiyi ərzaq şapalağı ərzaq vergisi ilə əvəz olundu.

Bu addım qanunvericiliyinin sonrakı dəyişikliyini şərtləndirirdi. Belə ki, 20 may 1924-cü il tarixində RSFSR Xalq Komissarları Soveti istehlak kooperasiyası haqqında Dekret qəbul etdi [5].

Dekret əvvəl qüvvədə olmuş qanunvericilikdən fərqli olaraq kooperativlərin təsərrüfat müstəqilliyinin, yeni üzvlərin qəbulunun könüllülüyü, dövlətdən asılı olmamasını, satınalmaların və istehsal edilmiş məhsulların satışını sərbəst həyata keçirilməsi sahəsində səlahiyyətlərini genişləndirildi.

RSFSR XKS-nın 1921-ci ildə qəbul etdiyi "Kənd təsərrüfatı kooperasiyası haqqında" Dekreti kənd təsərrüfatı kooperativ təşkilatlarının dövlət hakimiyyəti orqanlarından asılı olmamasını, müstəqilliyini təsbit edirdi. Bu özünü xüsusilə də kooperativ təşkilatlarının və onların ittifaqlarının təsərrüfat fəalliyətini həyata keçirilməsinin sərbəstliyi prinsipi, sənəddə göstərildiyi kimi "öz hesabına, öz məsuliyyəti və riski hesabına həyata keçirilməsini təsbit edir" (Dekretin 6-ci bəndinin "3" yarimbəndi).

Kooperativləşmə yenidən müstəqil təsərrüfat orqanizmi xüsusiyyətlərini əldə etdi. Kooperativ fəaliyyətinin inzibati hüquqi tənzimlənməsi metodundan iqtisadi üsullarla tənzimləmə metodlarına keçid meydana gəldi. Bu özünü ilk növbədə kooperativlərə və onların üzvlərinə müxtəlif güzəştlərin verilməsində, kredit və istehlak kooperativlərinin inkişaf etdirilməsində özünü büruzə verirdi.

Hokümətin həyata keçirdiyi tədbirlər kəndlilər arasında kənd təsərrüfatı kooperativlərinin xeyli yayılmasına gətirib çıxardı. Belə ki, 1922–ci ildə kənd təsərüfatı kooperativlərin sayı 22021; 1923-cü ildə - 31187; 1924-cü ildə - 37872, 1925-ci ildə isə 54813 təşkil edirdi. Onların sayı ilə yanaşı məhsuldarlığı da artırdı. Kooperativ hərakatının kütləvi inkişafı nəticəsində ölkə zəruri miqdarda kənd təsərrüfatı məhsulları əldə etdi, əhalinin həyat səviyyəsi yüksəldi, aclıq və işsizlik aradan qaldırıldı, istehsalçı kooperativ öz gücünə inandi və əməyinin nəticələrindən bəhrələnə bildi.

Ancaq kənd təsərrüfat kooperativləri bu şəkildə mövcud oldular.1920-ci illərin sonunda dövlətin kooperativləşməyə olan münasibəti dəyişdi. Kooperativ hərakatının idarə olunmasının iqtisadi üsulundan inzibati – amiranə üsuluna keçid meydana çıxdı. Dövlət orqanları kənd əhalisini kənd təsərrüfatı təşkilatlarında iştiraka məcbur edir, bu siyasətlə razı olmayanları isə repressiyalara məruz qoyur, xalq düşmənləri kimi Sibirə, ölkənin Şimalına sürgün edirdilər, bununla da onları ağır, mahiyyətcə katorqa işlərinə və ölümə məhkum edirdilər.

Beləliklə də təşəbbüskar, əməksevər və imkanlı kəndli tamamilə məhv edildi. Göstərilən sərt inzibati – amiranə yolla kooperativləşmədən kənd təsərrüfatının kollektivləşdirilməsinə keçid həyata keçirildi. Belə ki, Yeni İqtisadi Siyasət dövründə kənd təsərrüfatı kooperativlərinin idarəetmə orqanlarının kifayət qədər səmərəli sistemi formalaşmışdı ki, həmin təcrübə müasir şəraitdə istifadə edilə bilər.

1921-1928-ci illəri əhatə edən dövr kooperasiyalaşmanın ikinci mərhələsi sayılır və kooperativlərin inkişafında mürəkkəb və ziddiyətli mərhələ olmuşdur. Baxmayaraq ki, tarix elmində bu dövrü kooperativ hərəkatının nəinki intibahı, hətta çiçəklənməsi dövrü sayılır. Ancaq unutmaq olmaz ki, bu inkişaf Sovet Hakimiyyəti orqanlarının birbaşa rəhbərliyi altında baş verirdi. Yeni iqtisadi siyasət illərində kooperativlər həqiqətən də geniş təşəbbüskarlığa və sərbəstliyə malik idilər, bazar iqtisadiyyatı bazasında inkişaf edir, istehsalatda və ticarət fəaliyyətində maddi həvəsləndirmə prinsipindən istifadə edirdilər. Qeyd etmək lazımdır ki, əgər vətəndaş müharibəsi və Sovet Hokümətinin həyata keçirdiyi "Hərbi kommunizm" dövründə kooperativlərin bir sistem kimi ləğv olunması təhlükəsi yaranmışdısa, yeni iqtisadi siyasətə keçidlə onlar ictimai və istehsalat təsərrüfat faəlliyətində sanki "ikinci nəfəs" əldə etdilər.

Həmin illərdə kooperativlərin rəhbərliyində olanlar demək olar ki, kooperativlərin onlara xas olan funksiyalarının yenidən bərpa etməli və onun formalarını yenidən qurmalı oldular.

1925-1929-cu illərdə başlanılan ciddi sosial – iqtisadi dəyişikliklər beş il 1928-ci ilin payızından 1933-cü ilin payızına kimi davam edən çətinliklər və təzadların yeni mərhələsini müəyyənləşdirdi.

Bu mərhələ nəinki ölkənin sənayeləşməsi ilə kənd təsərrüfatının kollektivləşdirilməsinin sürətləndirilməsi ilə, eyni zamanda kooperasiyanın bütöv sisteminin yenidən qurulması ilə bağlıdır. 1928-ci ilin payizinda taxıl tədarükündə yaranmış çətinliklərlə və ərzaq çatışmazlıqlarının dərinləşməsi ilə əlaqədar ölkədə kooperasiyalaşmada da mürəkkəb vəziyyət yarandı.

İlk növbədə kooperativ daxili quruculugunun demokratik prinsipləri, istehsalat təsərrüfat müstəqilliyi deformasiyaya uğradi, bütövlükdə koo-

perativ sisteminin dövlətdən asılılığı gücləndi; kooperativ müəssisələrinin məhsuluna dövlət qiymətləri sistemi tətbiq edilməyə başlandı, onların SSRİ Dövlət Bankından və Dövlət Təchizatı Komitəsindən asılılığı artdı. Beləliklə də istehsalat – təsərrüfat sistemi olaraq kooperasiya çox mürəkkəb vəziyyətə düşdü: bir tərəfdən özünün inkişafının obyektiv qanunauyğunluqlarına görə o bazar iqtisadiyyatı elementi idi və onun inkişaf qanunları ilə tənzimlənibdi, digər tərəfdən isə maliyyələşdirmə və xammalla təminat sistemi vasitəsilə sərt dövlət tənzimlənməsinə məruz qaldığına görə xarici iqtisadi fəaliyyətdə müstəqillikdən məhrum oldu və artıq özü öz məhsulu barədə sərəncam verə bilmirdi. Bütün bunlar kooperasiyasının milliləşdirilməsinə, onun istehsalat – təsərrüfat fəaliyyəti zonasının kəskin daralmasına gətirib çıxardı.

30-cu illərin əvvəlində baş vermiş sosializmin SSRİ-də tam qələbəsi kimi qiymətləndirilən və 5 dekabr 1936-cı ildə qəbul edilmiş SSRİ Konstitusiyasında təsbit olunmuş sosial- iqtisadi çevriliş kooperasiya sistemini ölkənin sosial – təsərrüfat kompleksinin hissələrindən birinə çevrildi və tamamilə SSRİ Xalq Təsərrüfatı Ali sovetinə və Dövlət Plan Komitəsinə tabe etdirildi.

1930-1956-ci illər ərzində kooperasiyalaşma dövlətin bir çox sosial əhəmiyyətli vacib məsələlərini həll etdi; ticarət və tədarük məsələlərini, vətəndaşların ilk zərurət əşyaları ilə təmin olunmasını, çox işlənən malların istehsalının və əhaliyə məişət xidmətinin genişləndirilməsini "Kooperativlərin sosialist bazarında" iştirakı geniş çeşidli istehlak mallarına olan tələbatı 40 %-dək 70 %-dək aradan qaldırıldı.

Eyni zamanda nəzərə almaq lazimdir ki, kooperasiyaların sosial – siyasi statusu hakim sosial – siyasi sisteminin təsiri altında əhəmiyyətli dərəcədə aşağı düşmüş kooperasiyasının demokratik ənənələri zəifləmişdi.

80-ci illərin ortalarında başlamış sosial- iqtisadi statusu hakim siyasi dəyişikliklər kooperasiyasının inkişafının geniş imkanlarını təmin etdi, onun nəinki tarixinə həm də əsas prinsiplərinə, formalarına və fəaliyyət metodlarına marağın dərinləşməsinə imkan yaratdı. Bundan başqa qeyd etmək lazımdır ki, postsovet bazar iqtisadiyyatına keçid prosesində kooperativləşməyə özünü təşkil edən və özünü tənzimləyən hadisə kimi tələbatı və bu da həmin problemin xüsusi aktuallığını və elmi əhəmiyyətini artırdı.

Müasir Azərbaycan mürəkkəb sosial – iqtisadi problemlərinin sənaye istehsalının azalması şəraitində bazarın yüksək keyfiyyətli yerli istehlak malları ilə, ərzaqla təmin olunması Sovet hakimiyyəti illərində kooperasiyalaşmanın zəngin tarixi təcrübəsinin öyrənilməsini və tətbiqini şərtləndirir.

## ƏDƏBIYYAT


1. Ленин В.И. Капиталистический строй современного земледелия. Ленин В.И. Полное собрание сочинений М. Издательство политической литературы. 1968, т. 19, с.319...344.
2. «О социалистическом землеустройстве и о мерах перехода к социалистическому земледелию» Постановление ВЦИК и СНГ РСФСР от 14 февраля 1920.
3. «Об объединении всех видов кооперативных организаций». Декрет СНГ РСФСР от 27 января 1920.
4. «О сельскохозяйственных и промысловых кооперативных организациях». Декрет СНГ РСФСР от 19 апреля 1920.
5. «О потребительской кооперации». Декрет ЦИК и СНГ РСФСР от 20 мая 1924г.
6. Воронин А.В. Советская власть и кооперация. Петрозаводск. Издательство петрозаводского университета, 1997 г.
7. Есиков С.А. «В очередной раз о переходе к НЭП-у» Тамбов. Грамота, 2009.
8. Кочкарова З.Р. «Особенности развития сельскохозяйственной кооперации в 20-30 годы». Владикавказ. 2000 г.

**Teatures leqal requlation of domestio cooperation durinq the years of sovet power**


**SUMMARY**

**Key words**: *"Decret on Consumer Cooperation", aqricultural cooperation, collective land use, cooperation, ooperation, policy of war communism, New Economic Policy.*

The autots presents the analysis of the normative-leqal requlations of cooperation at the initial staqe of the Soviet state development, qives V.I.Lenins point of view on cooperative movement, emphasizes the positive aspects of the leqal requlation of cooperation durinq the NEP period based on voluntariness and independence, wich led to the siqnificant increase in aqricultural production and peasant farms productivity, shows requlation of cooperation related to nationalization and collectivization and presents the modern approach to the leqal requlation of cooperation in the county.


**Резюме к статье "Особенности правового регулирования кооперации в годы Советской власти"**


**РЕЗЮМЕ**

**Ключевые слова:** *"Декрет о потребительской кооперации", сельскохозяйственная кооперация, коллективное землепользование, потребительская кооперация, производственная кооперация, политика военного коммунизма, Новая экономическая политика*

В статье представлен анализ нормативно-правового регулирования кооперации на первоначальном этапе развития Советского государства. Авторы приводят точку зрения В.И.Ленина на кооперативное движение, обозначают положительные стороны правового регулирования кооперации в период НЭП-а, основанные на добровольности и независимости приведение к существенному увеличению производства сельскохозяйственной продукции и производительности крестьянских хозяйств. Указан отрицательный опыт правового регулирования кооперации, связанный с огосударствлением и коллективизацией.



*Redaksiyaya daxilolma: 09.12.2020*
*Çapa qəbul olunma: 15.01.2020*

# О НЕКОТОРЫХ ВОПРОСАХ ИННОВАЦИОННЫХ ПРОЦЕССОВ В СОВРЕМЕННОМ ВЫСШЕМ ГУМАНИТАРНОМ ОБРАЗОВАНИИ

***М. Г. Худавердийева, Т.Ю.Ализаде, Р.Н.Сулейманова***
***Азербайджанский государственный аграрный университет***

**Ключевые слова:** *образование, ценности, глобализация, инновации, культурное образование*

Проблемы современного образования в контексте инновационного развития состоят, прежде всего, в изучении феномена культура как основы совершенствования гуманитарных дисциплин. Безусловно, что понимание ценностей азербайджанской духовности как снова преподавания гуманитарных дисциплин актуализированы и в азербайджанской музыкальной педагогике. В данной статье мы предлагаем некоторые актуальные аспекты изучения гуманитарной педагогика: остановимся прежде всего на культурологи.

Культурология как образовательная дисциплина занимает одно из ведущих мест в системе гуманитарного высшего образования. В контексте музыкальной педагогика культурологические знания должны быть скорректированы с базовыми знаниями. Речь идет не только об использовании наиболее значимых культурологических идей [1,2].

Как известно, культурология аккумулирует а себе многие науки – культурную антропологи, социологию культуры, этнологию, семантику и семиотику, философию и искусствознание. [4]

Вместе с тем культурология как гуманитарная область знаний представляет собой определенную целостную систему знаний. Интеграция разныхнаук постулирует представления о содержании, сущности, функциях, структуре культуры, в том числе художественной культуре и искусстве. Одним из значимых аспектов культурологического знания является культурный контекст, то есть среда функционирования, в данном случае, художественной культуры. Значение культурологии в современном азербайджанском музыкальном образовании, велико именно поэтому культурологическое знание должно получить свою методологическую основу в музыкальной педагогике через внедрения культурологических доминант в сферу музыкального образования.

Музыкальная педагогика является частью культуры. А культура, как известно, имеет способность к самообновлению, порождению новых форм инновациям. Постоянная корректировка с современными условиями ее существования–непременная доминанты развития.Селективный поход здесь однозначен. Ценностные установки музыкальной педагогики «классичны» и ни в коей мере не вызывают сомнений [1].

Инновации тесно связаны с универсализацией знаний. В этом смысле культурологи – это науки универсально синтетическая. Ибо при разнообразии разных форм художественной деятельности, есть потребность и необходимость в поиске единства различных проявлений творческой человеческой деятельности. Здесь заключен мировоззренческий потенциал культурологического знания [3].

Культурология является практическим основанием для междисциплинарного синтеза наук.Размежевание предметных областей, дисциплинарные демаркации ни в коей мере не снимают междисциплинарного вопроса. Ибо междисциплинарные исследования, как известно, имеют единую проблематику. Эффективность междисциплинарной стратегии выявляет себя, прежде всего, на уровне углубления педагогического процесса. Инновационная сущность этой стратегии безусловна.

Глобализация–это, прежде всего осознание нас самих как части мира. Здесь подчеркнем актуализацию значимости как универсализирую их параметров, так и локальных. Ибо разного рода этнологические проблемы имеют сегодня точно такой же вес, как и проблема глобализирующего характера. [1]

Введение в современные курсы по азербайджанской музыке сравнительных методов позволяет рассматривать глобализационные процессы в наиболее оптимальном варианте. Именно поэтому сравнительный анализ является инновационным в современной азербайджанской педагогике. Достаточно сказать, что многие сферы деятельности музыкантов реализуют себя за пределами нашей страны. Здесь необходимо знание культуры, истории, психологии иных народов. Постижение культурного многообразия первостепенно. Помимо учета глобализующих процессов и аксиологический аспект нашего исследования актуализирован на уровне этнических ценностей.

На наш взгляд, одной из актуальных задач современной музыкальной педагогики является изучение в высшем звене совокупности культурных традиций этноса, определяющих его историческое и куьтурное своеобразие. Опора на национальные ценности приобретает здесь особое значение так, основанием формирования этнических ценностей является художественный опыт этническое коллектива.Функционально целесообразные модели, аккумулирующие ценности принципиального характера отражаются в этнотипологиях. Последние исторически селектированы.Особую значимость имеют те этнотипологии, которые «маркируют» национально-культурную самобытность.[3]

Национальный тип мышления–это, безусловно,специфический тип мышления. Любое образование,на наш взгляд, нацинается с познания национальной картины мира. Именно в эту картину мира вписывается и художественное творчество, и, в том числе, музыкальное искусство. Инновации в азербайджанской музыкальной педагогике должны исходить из особенностей азербайджанской музыкальной культуры. Важно предпринять своего рода кодификацию существенных детерминантов музыкальной культуры Азербайджана.

Инновационные процессы в современной музыкальной педагогике, рассматриваются нами на общегуманитарном креативном уровне. Базовыми являются безусловно педагогические инновации, которые проходят несколько этапов освоения:

1.Глобализационный контекст в современном мировом пространстве;

2. особенности модификации культуры в данном контексте;

3. интеграция и синтез общезначимых и специфических моделей этнокультуры, социума, менталитета. [2]

Музыкальное образование как инновационное образование дифференцировано следующим образом:

1. Базовые предметы по элементарной теории;

2. Основы исполнительского профессионализма;

3. Корректировка и дополнение предметов по истории музыки;

4. Введение новых курсов направленных на инновационный уровень:

Универсализация культуры;

Глобализационные процессы;

Музыкальный менеджмент;

Этнологические курсы.

Другая проблема тесно связана с «практичностью» музыкальной педагогики. Речь идет о формировании такого «алгоритма действия»в музыкальнойпедагогике, которой позволил бы транслировать азербайджанскую культуру. Так, если ряд предметов, на которых базируется музыкальная педагогика, связана с фокусировкой внимания на сугубо национальных особенностях музыкальной культуры Азербайджана, то логично ввести ряд предметов, которые были бы связаны с универсализацией музыкальной культуры, ее трансляцией, наконец, поликультурным образованием. Учитывая при этом безусловность, специализированного образования, которое является фундаментом музыкальной педагогики. Оно дает профессиональную основу и перспективы дальнейшего развития.

Как хорошо известно, смысловые доминанты музыкальной педагогикизиждятсяна двух моделях образования:

1. Информация о музыкальной культуре;

2. Обладениемузыкальным профессионализмом. Вместе с тем история музыкальной культуры, независимо от того, историяли это азербайджанской музыки, или европейской музыки, как правило, представляет собой набор исторической информации. И эту информацию музыкант, как человек интеллектуально состоятельный, должен знать.

В базовых лекционных курсах однозначно не присутствует методологическая составная. Как известно, подобные курсы представляют собой лишь «информационный» набор, не поддержанный какими-либо контекстными, сравнительными, междисциплинарными аспектами изучения предмета. [4]

Кратко коснемся следующих вопросов.

1. Культура постмодерна никак не отражалась азербайджанской музыкальной педагогике. Между тем, необходимы знания о современном складе ума азербайджанцев, общая духовная настроенность в современной общественной среде. Ведь именно целостная совокупность традиций способно вести общество к прогрессу и процветанию.

2. В развитии современной музыкальной педагогике мы должны учитывать и адаптационные процессы, проходящие в обществе:

Инкультурация; адаптирование; этика общения; ценностный выбор; самоидентификация.

3. Роль коммуникативной функции музыкального искусства - важное слагаемое в

образовательном процессе. Необходимы навыки межкультурной коммуникации.

4. Изучение форм взаимосвязей в выявлении единого художественного содержания.

Здесь детерминантами инновационного подхода являются следующие параметры:

- генетическое порождение азербайджанской музыкальной культуры;
- история становления жанров и форм;
- микродинамика–макродинамика профессиональной музыки;
- синхрония и диахрония музыкальной культуры;
- трансляция музыкальной информации;
- структурно – функциональное содержание музыкальной культуры. [2]

И, наконец, подчеркнем, что только обращение к инновационным процессам в определенном ракурсе позволит избежать таких процессов в музыкальной культуре Азербайджана.

## ƏDƏBİYYAT


1. "Azərbaycan müəllimi" qəzeti 5-ci nömrə; s. 2-5;
2. "Azərbaycan məktəbi" jurnalı 2-ci nömrə; s 21...34. Bakı: 2017
3. Z. Kərimli "Yeni innovasiyalar". Bakı: 2015, s. 50...62;
4. F. Rüstəmov "Azərbaycanda Pedaqoji Elm", Bakı: 1998.


## On innovative processes in contemporary higher humanitarian education

***Head teacher: M.G.Khudaverdiyeva***
***Teacher: T.Y. Alizade,R.N. Suleymanova***
***Azerbaijan State Agrarian University***

## SUMMARY

**Key words:** *education, valuables, globalization, innovation, culturological education*

The article deals with some innovative processes in contemporary higher education. It emphasizes as well that culturerology as an educational discipline tares up a highly important place in humanitarian higher education. The significance of culturerology in contemporary Azerbaijan musical education attains its methodological foundation through adoption of culturerological knowledge in the sphere of musical education.

The problems of modern education in the context of innovation development consist primarily in the study of the phenomenon of culture as the basis for improving humanities. Certainly, the understanding of the values of Azerbaijani spirituality as again the teaching of humanities is also actualized in Azerbaijani musical pedagogy. In this article, we offer some topical aspects of the study of humanitarian pedagogy: we will focus primarily on cultural studies.

## Müasir Ali təhsildə yenilikçi proseslər

***Baş müəllim: M.G.Xudaverdiyeva***
***Müəllim: T.Y.Əlizadə,R.N.Süleymanova***
***Azərbaycan Dövlət Aqrar Universiteti***

## XÜLASƏ

**Açar sözlər:** *təhsil, dəyərlər, qloballaşma, innovasiya, kulturoloji təhsil*

İnnovasiya inkişafı kontekstində müasir təhsilin problemləri ilk növbədə mədəniyyət fenomeni tədqiqatında, bəşəriyyətin inkişafı üçün əsas kimidir. Burada müasir təhsilin axioloji aspektləri vacibdir. Əlbəttə ki, Azərbaycan mənəviyyatının dəyərlərini bir daha bəşəriyyətin tədrisi kimi başa düşmək də Azərbaycan musiqi pedaqogikasında aktuallaşır. Bu yazıda humanitar pedaqoji tədqiqatın bəzi aktual aspektlərini təklif edirik: biz əsasən mədəni tədqiqatlara yönəldəcəyik

Məqalə müasir ali təhsildə bəzi yenilikçi proseslərlə məşğul olur. Həm də təhsil fakültəsi kimi mədəniyyətşünaslıq humanitar ali təhsildə mühüm yer tutur. Müasir Azərbaycan musiqili təhsilində mədəniyyətşünaslığın əhəmiyyəti musiqi təhsili sahəsində mədəni biliklərin qəbul edilməsi yolu ilə metodoloji əsasını təşkil edir.

*Redaksiyaya daxilolma: 26.12.2019*
*Çapa qəbul olunma: 30.12.2019*

UOT 9(4794)

# ŞƏRQİ AVROPA ÖLKƏLƏRİNDƏ KƏND TƏSƏRRÜFATININ İNKİŞAFINDA KOOPERATİVLƏRİN ROLU

***A.M.Bayramov, E.M.Aslanov, X.İ.Əsədova***
***Azərbaycan Dövlət Aqrar Universiteti***

**Açar sözlər:** *inkişaf, gəlir, torpaq, kənd təsərrüfatı, kapital*

Kooperativlər son 2 əsr ərzində əhəmiyyətli dərəcədə inkişaf etmiş və dünya səviyyəsində sosial-iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq iqtisadiyyata və cəmiyyətə böyük səmərə vermişlər.

Bəzən kooperasiya və kooperativ anlayışlarını eyniləşdirirlər. Bu iki anlayış arasındakı fərq, kooperasiyanın kollektiv təsərrüfat fəaliyyəti, kooperativin isə təsərrüfat subyekti olmasıdır.

Kənd təsərrüfatı kooperativinin ümumi yığıncağı ümumi gəliri, mənfəəti bölüşdürür, həmçinin pul fondunun miqdarını, onun formalaşması üsullarını və xərclənmə qaydalarını müəyyən edir. Fonda ayırmalardan sonra, mənfəətin qalığı kooperativ üzvlərinin dividentlərinə istiqamətləndirilir. Kooperativin əsas fondu isə, pul kapitalının 20%-dən az olmayan ehtiyat fondudur. Müasir dövrdə Şərqi Avropa ölkələrində korporativ münasibətlərin inkişaf etməsi daha çox bazar mexanizminin inkişafı və əhalinin tələbatının ödənilməsi ilə bağlı olan ölkə iqtisadiyyatında ərazi və sahə xüsusiyyətlərini daşıması ilə əlaqədar olmuşdur. Bu ölkələrdə sənaye sahələri ilə müqayisədə kənd təsərrüfatı sahəsi bazar münasibətlərinin tələbatına daha çox uyğunlaşdırılmışdı və buna müvafiq olaraq da burada şəhər iqtisadiyyatında dövlət müəssisələri hakim mövqe tutmuşdur.Onların iqtisadiyyatında tarixən kooperativ münasibətlərə əsaslanan qarışıq iqtisadiyyat formalaşmışdır. Bu, iqtisadiyyatın fəaliyyəti isə daha çox aqrar və ərzaq sferasında özünü göstərmişdir. Bu sfera isə nəticə etibarilə daha çox daxili bazarın tələbatının ödənilməsi istiqamətində fəaliyyəti özündə əks etdirir. Bu nöqteyi nəzərdən regionda kənd təsərrüfatının və ərzaq təhlükəsizliyi üstünlük təşkil etməsinə görə yaradılan kooperativ birliklər də məhz bu missiya üzrə fəaliyyət göstərmişdir. Bu baxımdan isə məhz kooperativ cəmiyyətləri daha çox daxili bazarın tələbatının ödənilməsinə istiqamətlənmişdir. Şərqi Avropa ölkələrində də kooperativ tipli təsərrüfatlar üstünlük təşkil edir. Bu ölkələrdə aqrar islahatların aparılması qarışıq təşkilati və hüquqi formalardan ibarət iqtisadiyyatın formalaşmasına gətirib çıxarır. Şərqi Avropa ölkələrində həyata keçirilən aqrar islahatların əsasını – əslində dövlət nəzarətində olan kooperativ qurumlarının təsərrüfat yoldaşlıqları və ilkin mülkiyyətçilərin kooperativləri, həmçinin pay mülkiyyətinə əsaslanmış kooperativlərlə əvəz edilməsi, kənd yerlərində müasir bazar infrastrukturunun təşkili kimi və s. məsələlər təşkil etmişdir.

Macarıstanda 1992-ci ildə “Kooperativlər və keçid dövründə kooperativlərin yenidən təşkili” Qanunu yuxarıda göstərilən məsələlərin həyata keçirilməsini nəzərdə tutur. Bu qanun kənddə təsərrüfatçılıq formasının sərbəst seçimini təsbit edir. Bu qanuna görə, kooperativin seçilmiş modeli özünüidarəetmə prinsiplərinə əsaslanır. Belə ki, kooperativ üzvləri qurumun təsərrüfatdaxili idarəçiliyinin təşkilini müstəqil şəkildə qəbul edir.

Macarıstanın aqrar qanunvericiliyi, birmənalı şəkildə dövlətin inzibati və məhkəmə qaydasında kənd təsərrüfatı kooperativlərinin müdaxiləsinə son qoyur. Daha doğrusu, bu təsərrüfat qurumunun muxtariyyəti və özünü idarəetmə sərbəstliyi qorunub saxlanılır.

Müşahidələr göstərir ki, Macarıstanın aqrar qanunvericiliyi amerikan tipli iri müəssisələrin inkişafına daha çox üstünlük verir. Bütün bunlar isə, koopervsiyaya əsaslanan yeni tip üfüqi və şaquli istehsal-iqtisadi əlaqələrin formalaşmasına, heyvandarlıq, bitkiçilik və infrastruktur istiqamətli holdinq strukturların yaranmasına, müqavilə əsasında onlarla əməkdaşlıq edən, darixtisaslı kooperativlərin birləşməsinə gətirib çıxarır. Yaranan holdinq qurumları keçmiş kollektiv mülkiyyətdən səmərəli istifadə etməyi öz üzərinə götürür. Eyni zamanda keçmiş kooperasiya qurumlarının əmlakını satın almaq istəyən fermerlərə güzəştli imkanlar yaradılır.

Bolqarıstanda da 1992-ci ildə “Kooperasiya haqqında” Qanun qəbul edilmişdir. Bu qanunda kooperativ mülkiyyət mənsublu kəndli təsərrüfatlarının sürətlənməsinə yönəlmiş əlavə və dəyişikliklərin edilməsi, aqrar sahədə kooperativ qurumların inkişafına təkan verdi.

Yenilikçi aqrar iqtisadiyyatın formalaşdırılması prosesində böyük təşkilatlarda kənd təsərrüfatı məhsullarının konsentrasiyası və sayı azalır. Məsələn, son illərdə Rusiyada kənd təsərrüfatı təşkilatlarının sayı 28,6 mindən 20,3 minə, faizlə desək 29% azalıb(Cədvəl 1). Nəzərdən keçirilən

dövrdə kənd təsərrüfatı istehsal kooperativləri üçün ən az azalma nisbəti müşahidə edildi. Onların sayı 9 921 ədəd azalıb.

**Cədvəl . Kənd təsərrüfatı müəssisələrinin təşkilatların təşkilati-hüquqi formalarının strukturu**

| Təşkilatın növü | İllər | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2003 | | 2005 | | 2015 | |
| | Sayı ədədlə | %-lə | Sayı , ədədlə | %-lə | Sayı , ədədlə | %-lə |
| Açıq səhmdar cəmiyyəti | 1572 | 5.5 | 1621 | 6.1 | 858 | 4.2 |
| Qapalı səhmdar cəmiyyəti | 2945 | 10.3 | 2392 | 9.0 | 1022 | 5.0 |
| Məhdud məsuliyyətli cəmiyyət | 4346 | 15.2 | 6565 | 24.7 | 11273 | 55.7 |
| Kənd təsərrüfatı kooperativi | 14409 | 50.4 | 12040 | 45.3 | 4488 | 22.2 |
| Dövlət müəssisələri | 1944 | 6.8 | 1356 | 5.1 | 399 | 2.0 |
| Digər | 3374 | 11.8 | 2605 | 9.8 | 2214 | 10.9 |
| Cəmi | 28590 | 100 | 26579 | 100 | 20254 | 100 |

Hazırda Rusiyanın aqrar sənaye kompleksində 4 888 istehsal kooperativi fəaliyyət göstərir ki, bu da bütün təşkilati-hüquqi formaların ümumi kənd təsərrüfatı müəssisələrinin 22,2% -ni təşkil edir. Kənd təsərrüfatı torpaqlarının təxminən 18% -i və kənd təsərüfatında çalışanların 750 mini kənd təsərrüfatı kooperativlərin payına düşür.

Rusiya kənd təsərrüfatında,1985-ci ilə qədər kollektiv təsərrüfatlar və təsərrüfatlararası müəssisələr şəklində istehsal kooperativləri üstünlük təşkil etmişdir. Onların istifadəsində 53 milyon hektar əkin sahəsi olmuşdur. Bu təsərrüfatlarda mal-qaranın 14 milyon başı (ümumi heyvandarlığın 40% -i), donuzun 22,5 milyonu (35%-i), qoyun və keçinin 35%-i yetişdirilmiş, taxılın 49%-i, şəkər çuğundurunun 83%-i, günəbaxan toxumunun 71%-i, süd və yunun 35%-i, ətin 32%-i istehsal edilmişdir. Bazar münasibətlərinə keçid ilə əvvəlcədən müəyyən edilmiş bu əməkdaşlıq formaları məhv edildi.

Kənd təsərrüfatı istehsal kooperativləri əsasən kənd təsərrüfatı müəssisələrinin keçmiş kollektiv və dövlət təsərrüfatları əsasında təşkil edilmiş müxtəlif idarəetmə formalarının yenidən qurulması yolu ilə yaradılmışdır. Bu halda, yenidən təşkil edilmiş müəssisənin hər bir iştirakçısı kooperativə qoşulma və onunla əlaqədar torpaq və əmlak payını kooperativ səhm fonduna pay verilməsi barədə hüquq əldə etmişdir. Müəssisənin yenidən qurulması nəticəsində bir və ya bir neçə kooperativ yaradılmışdır.

Kooperativlərdə kənd təsərrüfatının iqtisadi səmərəliliyi əsasən kənd təsərrüfatı məhsulları istehsalının intensivliyi səviyyəsindən asılıdır. Hazırkı şəraitdə istehsalın intensivləşməsinin ən vacib sahələri-intensiv resursların qənaət texnologiyaları, elmi əsaslı məhsul rotasiyalarının inkişafı, toxum istehsalı və heyvandarlıqda heyvandarlıq işinin yaxşılaşdırılması, yüksək səmərəli, daha məhsuldar bitki növlərinin və yüksək məhsuldar heyvandarlıq və quşçuluq texnologiyalarından istifadə, mineral və üzvi gübrələrin optimal dozalarının tətbiqi, bitki mühafizəsinin bioloji və kimyəvi üsullarından istifadə edilməsi, ərzaq təchizatı, məhsulun texniki modernləşdirilməsi, vahid istehsal zəncirinin yaradılması,məhsuldarlığın artırılması onların emalı, saxlanması, çeşidlənməsi, qablaşdırması və marketinq kooperativlərinin səmərəliliyinin artırılması və s.istifadə olunur.

İstehsalın rentabelliyi əsasən məhsulların uğurlu satışından, yəni istehsalçıların marketinq fəaliyyətindən asılıdır. Buna görə, məhsulların böyük bir hissəsini inzibati rayon və bölgə xaricində satan fermer təsərrüfatlarında, eləcə də geniş çeşiddə məhsul istehsal edən ən böyük kooperativlərdə öz marketinq xidmətlərini yaratmaq lazımdır. Kiçik bir istehsal həcmi olan kooperativlərdə, ixtisaslaşmış xidmətlərdən istifadə etmək məsləhətdir. Bütün bunlar müəssisələrin menecerləri və mütəxəssislərinə məhsullara olan tələbat və tələbatın mövcudluğu, onların harada və hansı qiymətə satılmasının daha səmərəli olacağı barədə məlumat verəcək və onlara optimal marketinq strategiyasını şüurlu şəkildə inkişaf etdirməyə kömək edəcəkdir.

## The role of cooperatives in development of agricultural in Eastern Europe

***A.M.Bayramov, E.M.Aslanov,K.I.Asadova***

**SUMMARY**

**Key words:** *development, income, land, agriculture, capital*

In this paper we discuss the conditions under which cooperatives develop and sustain and also the role of local and central actors using a case study approach. Since cooperatives in the socialist system provided numerous social services and contributed to rural development, another research question concerns the survival of this tradition. Through twin case studies in Hungary, Bulgaria and Russia we present the conditions and strategies for achieving sustainability of co-operatives. The results reveal important requirements for cooperatives to be sustainable: overcoming the communist legacy of mistrust against cooperative organizations, convincing members by building trust, coping with fundamental collective action problems, constructive communication that takes the problems and ideas of members seriously, finding cooperative leaders able to cope with members' opportunism and a facilitating state encouraging the development of cooperatives.

## Роль кооперативов в развитии сельского хозяйства в Восточной Европе

***А. М.Байрамов,Э.М.Асланов, Х.И.Асадова***
***Азербайджанский государственный аграрный университет***

**Ключевые слова:** *развитие, доход, земля, сельское хозяйство, капитал*

В этой статье мы обсуждаем условия, при которых кооперативы развиваются и поддерживаются, а также роль местных и центральных игроков, использующих подход тематического исследования. Поскольку кооперативы в социалистической системе оказывали многочисленные социальные услуги и способствовали развитию сельских районов, другой вопрос исследования касается выживания этой традиции. Посредством тематических исследований в Венгрии, Болгарии и России мы представляем условия и стратегии для достижения устойчивости кооперативов. Результаты показывают важные требования, чтобы кооперативы были устойчивыми: преодоление коммунистического наследия недоверия к кооперативным организациям, убеждение членов путем укрепления доверия, преодоление фундаментальных проблем коллективных действий, конструктивное общение, которое серьезно относится к проблемам и идеям членов, поиск лидеров кооперативов, способных справиться с оппортунизмом членов и государством, способствующим развитию кооперативов.

*Redaksiyaya daxilolma: 03.02.2020*
*Çapa qəbul olunma: 10.02.2020*

UOT 9(4794)

# KOOPERASİYALAŞMA SİYASƏTİNDƏ QƏRBİ AVROPA ÖLKƏLƏRİNİN TƏCRÜBƏSİNDƏN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİ.

***Ş.X.Musayeva***
***Azərbaycan Dövlət Aqrar Universiteti***

**Açar sözlər;** *aqrar, ərzaq, iqtisadiyyat, fermer, resurs, ehtiyat, subsidiya, kredit*

Müasir təsərrüfatçılıq istehsalçılar arasında inteqrasiyanın və kooperasiyanın inkişaf etdirilməsini tələb edir. Kooperativlər kənd təsərrüfatı istehsalında texnoloji yeniləşmənin aparıcı qüvvəsinə çevrilə bilər. Kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalçıdan istehlakçıya çatdırılmasında, başqa sözlə, fermerlərin bazarla əlaqəsinin təmin edilməsində kooperativlərin rolu əhəmiyyətli dərəcədə artacaqdır.

Aqrar sahə milli iqtisadiyyatın mühüm tərkib hissələrindən biri kimi istər ölkənin ərzaq təminatı və təhlükəsizliyinin ödənilməsində, istərsə də regionların sosial-iqtisadi inkişafında olduqca böyük əhəmiyyətə malikdir. Bu baxımdan da, aqrar sahədə mövcud potensial imkanlardan səmərəli şəkildə istifadə olunması, aqrar təyinatlı təbii-iqtisadi resurs ehtiyatlarının tam və səmərəli şəkildə təsərrüfat dövriyyəsinə cəlb olunması xüsusi aktuallıq kəsb edir. İqtisadiyyatın müxtəlif sahələrində olduğu kimi, aqrar sahədə də birgə məqsədlərin həyata keçirilməsi, daha uğurlu nəticələrin əldə olunması ən mükəmməl səviyyədə öz həllini iştirakçıların səmərəli əməkdaşlığına və ayrı-ayrı təsərrüfat subyektlərinin resurslarının könüllü birləşdirilməsinə əsaslanan kooperasiya əlaqələrinin qurulması ilə tapır. Ona görə ki, kooperasiyaya əsaslanan iqtisadi inteqrasiya və əlaqələr aqrar sahədə məhsul istehsalı, tədarükü, emalı, saxlanması və istehlakçılara çatdırılması istiqamətində iqtisadi fəaliyyətin, sahədaxili bölmələrin bir-birinə yaxınlaşması, uzlaşdırılması, həmçinin bir-birinə istehsal və iqtisadi cəhətdən uyğunlaşması prosesidir [1].

İnkişaf etmiş ölkələrdə fermerlərin kooperativləşməsi kənd təsərrüfatının inkişafında ən güclü amil hesab olunur.Təsadüfi deyil ki, ABŞ-da, Kanadada, Yaponiyada və Avropa İttifaqı ölkələrində dövlət kooperativlərin inkişafına köməklik edir. Kooperativlərə güzəştli kreditlər verilir, mütəhərrik vergilər tətbiq edilir və dövlət hesabına kooperativlərin təkmilləşdirilməsinə aid müxtəlif proqramlar maliyyələşdirilir.

Nəticədə, fermerlərə məxsus emal və ticarət müəssisələrinin geniş şəbəkəsi yaradılır. Eyni zamanda, bu ölkələrdə torpaq bankları, kredit və sığorta kooperativləri də fəaliyyət göstərir. Banklar fermerlərin tələbatına uyğun olaraq, illik 8-10 faiz dərəcəsi ilə kredit verir. Hazırda bəzi ölkələrdə kənd təsərrüfatı maşınları, yem, gübrə, dərman preparatları istehsal etmək üçün müxtəlif kooperativlərin assosiasiyası, hətta elmi-tədqiqat kooperativləri yaradılır [2].

İnkişaf etmiş ölkələrdə kənd təsərrüfatı kooperativlərinin iqtisadi mövqeyi çox yüksəkdir. Şimali Avropa ölkələrində kooperativlər heyvandarlıq məhsullarının satışı üzrə üstünlüyə malikdir. Bu ölkələrdə ət məhsullarının və diri heyvanların 80 faizi, yumurta məhsulunun 65-70 faizi, İsveç və Finlandiyada taxılın 65-79 faizi, Danimarkada 50 faizi kooperativlər tərəfindən satılır. Norveçdə və Finlandiyada süd məhsullarının hamısı və qida sənayesinin 55 faizi kooperativlərin nəzarəti altındadır. Şimali Avropa ölkələrində əmtəəlik məhsulların 75-80 faizi xarici bazarlarda satılır. Həmin məhsullar yüksək rəqabət qabiliyyətinə malikdir. Çünki kooperativlərin emal sənayesi tullantısız texnologiya üzrə ən müasir avadanlıqlarla təchiz edilmişdir [2].

İsveçdə ixrac olunan süd və süd məhsulları 100 faiz, yumurta məhsulu isə 75 faiz kooperativlər tərəfindən göndərilir. Fransada da ölkə iqtisadiyyatında kooperativlərin rolu böyükdür. Onlar əmtəə istehsalçılarının 80 faizini əhatə edirlər. Ümumiyyətlə, inkişaf etmiş ölkələrdə fermerlərin kooperativ təşkilatı böyük qüvvədir, ilk növbədə vasitəçilər sıradan çıxarılıb məhsulların satılmasından və emalından əldə olunan gəlir kooperativlərdə qalır.

Fermer kooperativləri ölkənin siyasi həyatına da ciddi təsir göstərir. Aqrar siyasətin hazırlanmasında və qiymətlərin müəyyən edilməsində kooperativlərin rəyi nəzərə alınır. İstehsalçıların subsidiyalaşdırılması, kreditləşdirilməsi, xırda təsərrüfatlara köməklik, ixracın subsidiyalaşdırılması və digər məsələlər birlikdə həll olunur. Kənd təsərrüfatının subsidiyalaşdırılması kənd təsərrüfatı kooperativləri vasitəsilə həyata keçirilir.[3]

İnkişaf etmiş Avropa ölkələrində kənd təsərrüfatı kooperativləri kapitalist müəssisələrinə rəqib olaraq yaradılmışdır. Bu zaman əsas məqsəd çox gəlir qazanmaq yox, öz üzvlərinə və cəmiyyətə müəyyən xidmətlər göstərmək olmuşdur. Yəni kooperativlərin məqsədi cəmiyyətin maraq-

ları ilə əlaqədardır. Hamılıqla qəbul edilən fakt budur ki, kənd təsərrüfatı kooperativləri doğrudan da çox mürəkkəb sosial-iqtisadi mexanizmdir. Kooperativlərin fəaliyyəti bu gün təkcə kənd təsərrüfatı istehsalını yox, həm də məhsulların emalını, saxlanmasını, satışını, kənd təsərrüfatı üçün istehsal vasitələrinin istehsalını əhatə edir.

Xarici ölkələrdə fermer kooperativləri əmtəə istehsalçılarının inteqrasiya əlaqələri üzrə geniş yayılmış formasıdır. Bu əlaqələr bəzən hətta tərkibində sənaye və ticarət müəssisəsi olan bir neçə iri kooperativləri də birləşdirir. Mərkəzləşmə prosesi kooperativlər üzrə çoxpilləli təşkilat quruluşunun formalaşmasına səbəb olmuşdur. Məsələn,ABŞ-da yerli kooperativlər, regional kooperativlər və sahələr üzrə ixtisaslaşdırılmış kooperativlər fəaliyyət göstərir. Şimali Avropa ölkələrində kooperativlər sisteminə Aqrar Kooperativlər İttifaqı başçılıq edir. Kooperativlər İttifaqı onların əhatə etdiyi alt kooperativlərin və birliklərin maraqlarına uyğun olaraq, strateji vəzifələri həll edir.[4]

Ümumiyyətlə,ABŞ-da və digər ölkələrdə kənd təsərrüfatına aid dövlət siyasəti (qanunlar, direktiv sənədlər) fəaliyyət istiqamətini və əsas prinsipləri müəyyən edir. Hökumət qiymətlərin və gəlirlərin sabitliyini təmin edir, müvafiq məhsulların aşağı qiymətlərlə təchiz olunmasına, məhsulların keyfiyyətinə və təhlükəsizliyinə, aqrobiznesin inkişafında düzlüyə və ədalətliliyə zəmanət verir, kənd təsərrüfatı məhsullarının artırılmasına və ixrac olunmasına köməklik göstərir.

Qərbi Avropa ölkələrində də kənd təsərrüfatı gəlirlə işləyən sahədir. Burada da dövlət siyasəti fermerlərin səmərəli fəaliyyət göstərməsinə və məhsullar üzrə ifrat istehsalın azaldılmasına xidmət edir. Yaponiyada fermerlərin 97 faizi, İtaliyada 76 faizi, Belçikada 33 faizi və Hollandiyada 28 faizi 5 hektardan az torpaq sahəsində təsərrüfatçılıq edir. Fransada 5 ha-dan az torpaq sahəsi olan fermer yoxdur. Burada torpaq sahəsi 10 hadan çox olan fermerlərin xüsusi çəkisi 80 faiz, İsveçdə 69 faiz, Hollandiyada 58 faiz, Belçikada 52 faiz, Danimarkada 84 faiz, Yeni Zelandiyada 79 faiz və İtaliyada cəmi 12 faiz təşkil edir.

Kənd təsərrüfatında özünəməxsus xüsusiyyətlərə malik olan ölkələrdən biri də Yaponiyadır. Burada 20-ci əsrin 40-cı illərindən başlayaraq aparılan islahatlar nəticəsində torpaqlar kəndlilərə verilmiş və bununla aqrar sahədə bazar münasibətlərinin inkişafına yol açılmışdır. Lakin iri kənd təsərrüfatı müəssisələrinin yaradılması üçün göstərilən təşəbbüslər isə nəticəsiz qalmışdır. Yaponiyada bütün fermer təsərrüfatları üzrə torpaq sahəsi orta hesabla 1,2 hektardır və o da bir neçə yerdə olan daha xırda sahələrdən ibarətdir.

Ölkə iqtisadiyyatında kənd təsərrüfatının xüsusi çəkisi çox deyil. Bununla belə dövlət güzəştli vergilərlə və nizamlanan qiymətlərlə kənd təsərrüfatına böyük köməklik göstərir. Qərbi Avropa ölkələrində fermer təsərrüfatlarının inkişafında bir-birinə oxşar cəhətlər çoxdur. Məsələn, bütün ölkələrdə təsərrüfatların sayı getdikcə azalır və ümumi istehsalda iri təsərrüfatların xüsusi çəkisi artır, kənd təsərrüfatı yüksək gəlirliliyi ilə fərqlənir, ifrat istehsalda isə problemlər var, ixrac potensialı çox yüksəkdir və dövlət istehsala köməkliklər göstərir. Əkin sahələrinin hər hektarına görə bu köməkliklər Avropa İttifaqı ölkələrində 300 dollar, Yaponiyada 473 dollar, ABŞ-da 324 dollar və Kanadada 188 dollar təşkil edir.[5]

Fermer təsərrüfatlarının inkişafında milli xüsusiyyətlər mövcuddur. Dövlətlər bir-birindən subsidiyalaşdırmanın səviyyəsinə görə də fərqlənirlər. Ən yüksək səviyyə İsveçrə və Norveçdə təmin edilir. Məsələn, İsveçrədə əmtəəlik məhsulun dəyərinin 76 faizini dövlət tərəfindən göstərilən əvəzsiz köməkliklər təşkil edir. Burada bütün fermerlərin 90 faizi, ABŞ-da isə 50 faizi fermer kooperativlərinin üzvüdür. Bu ölkələrdə demək olar ki, fermerlərin hamısı təhsillidir, Hollandiyada isə məsələ daha ciddidir. Burada xüsusi kənd təsərrüfatı təhsili olmayan şəxs fermer ola bilməz.

Son zamanlar inkişaf etmiş ölkələrdə üzvi əkinçilik də inkişaf etdirilir. Çünki ekoloji təmiz məhsullara tələbat getdikcə artır, belə məhsullar yüksək qiymətləndirilir və baha satılır. Fakt budur ki, Avropa İttifaqı ölkələrində 2010-cu ilə qədər əkinçiliyin 10 faizini ekoloji əkinçiliklə əvəz etmək planlaşdırılmışdır. Hesab edilir ki, kənd təsərrüfatı istehsalını intensivləşdirməklə ətraf mühitə əvəzolunmaz zərbələr vurulur. Lakin üzvi əkinçilik təsərrüfatlarda əmək məhsuldarlığını, məhsul istehsalını və məhsuldarlığı aşağı salır. Ona görə də üzvi əkinçiliyin miqyası dövlət siyasətindən asılıdır.

Son illərdə Böyük Britaniyada üzvi əkinçiliklə məşğul olan fermerlərə verilən ödənişlər iki dəfə artırılıb. Başqa ölkələrdə isə mineral gübrələrdən və pestisidlərdən yüksək dozada istifadə edənlərə qarşı xüsusi vergi qaydaları tətbiq olunur. Qəbul edilir ki, kənd təsərrüfatının sənayeləşdirilməsi və böyük aqrofabriklərin yaradılması nəticəsində ekoloji tarazlığın pozulması halları getdikcə artır.Ona görə də ailə təsərrüfatlarının saxlanılmasına və inkişaf etdirilməsinə səy göstərilir. Ekoloji məhsul istehsalı və kənd yerlərinin inkişafı ailə təsərrüfatlarının inkişafı ilə əlaqədardır.

Dünyəvi vəzifələr də kənd yerlərinin ənənəvi sərvətlərinin (həyat tərzi, su, hava, torpaq, landşaft, fauna, flora və s.) qorunması və gələcək nəsillər üçün saxlanmasını tələb edir. Əlbəttə, inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı istehsalının əsas özəyi ailə-fermer təsərrüfatlarından ibarətdir. Burada fermer təsərrüfatlarının fəaliyyətindəki təşkilati-iqtisadi mexanizmin pozitiv məqamlarından Azərbaycanda da istifadə etmək olar. Çünki təsərrüfatlararası kooperasiyanı inkişaf etdirmək, inteqrasiya əlaqələrini genişləndirmək, dövlət tənzimlənməsini təkmilləşdirmək və dövlət yardımını gücləndirmək fermer təsərrüfatlarının iqtisadi səmərəliliyini artırmaqla məşğulluq probleminin həllini və kənd adamlarının rifahını təmin edir.[6]

Kooperasiya üzrə 150 illik dünya təcrübəsi ilə sübut olunmuşdur ki, müəyyən vəzifələri yerinə yetirmək üçün birləşmək fermerlərin fəaliyyətini əsaslı surətdə asanlaşdırır. Fermerləri kooperativlərdə iştirak etməyə vadar edən başlıca səbəb gəlirlərini artırmaq istəyidir. Lakin ölkələrin kooperasiya təcrübələri bir-birindən fərqlənir. Məsələn, ABŞ-da bütün təsərrüfatların 50 faizi, İsveçdə isə 90 faizi müxtəlif kooperativlərin üzvüdür. İsveçdə istehsal kooperativləri geniş yayılıb. ABŞ-da isə kənd təsərrüfatı kooperativlərinin çoxu səhmdarlar kimi formalaşıb. Lakin kooperativ səhmləri alver obyekti deyil və fond birjalarında satılmır.

Avropa İttifaqı ölkələrində isə son illər müxtəlif xidmətlər göstərmək üçün ixtisaslaşdırılmış kooperativlər geniş yayılıb. Almaniyada kooperativlər kənd təsərrüfatını istehsal vasitələri ilə təmin etməkdə mühüm rol oynayır. Burada bütün istehsalçılar kooperativlərlə əhatə olunub, fermerlər kənd təsərrüfatı texnikasından birlikdə istifadə etmək üçün də kooperativlərdə birləşirlər. Böyük Britaniyada tədarük və təchizat kooperativləri fermerləri istehsal vasitələri, yem, gübrə və digər zəruri istehsal vasitələri ilə təmin edir. Burada maşın və texniki vasitələri almaq və birlikdə istifadə etmək üçün 2-20 nəfəri birləşdirən sindikatlar da fəaliyyət göstərir. Onlar 4 il müddətində geri qaytarmaq şərti ilə maşının dəyərinin 80 faizi qədər kredit almaq hüququna malikdirlər.[7]

Texnikanın alınmasına qoyulan vəsait kooperativ üzvləri arasında becərilən torpaq sahəsinə və fermanın ölçüsünə mütənasib olaraq bölüşdürülür. Texnikanın saxlanması, təmiri və sığortalanmasına çəkilən xərclər də analoji qaydada bölüşdürülür. İsveçdə fermer kooperativlərinə məxsus olan dövriyyənin 30-35 faizi satış və təchizat fəaliyyətinə sərf olunur. İstehsal üçün zəruri vasitələrin 60 faizini kooperativlər təmin edir. Əmtəəlik südün 98 faizini, taxılın 80 faizini, mal-qaranın və quşların 75 faizini kooperativlər satır. Ölkədə süd sənayesinin hamısına, ət sənayesinin 80 faizinə və un sənayesinin 54 faizinə kooperativlər nəzarət edirlər.[8]

Tədarük və təchizat kooperativlərinin fəaliyyəti kompleks xarakter daşıyır. Ölkənin hər yerində anbarlara, elevatorlara və təmir emalatxanalarına malik olan kooperativlər fermerləri istehsal vasitələri ilə, habelə xidmətlərlə təmin edir. İsveçrədə satış kooperativləri həm də təchizat fəaliyyəti ilə məşğul olur.[9] Məsələn, südçülük kooperativləri üzv təsərrüfatları sağım qurğuları ilə, seperator və soyuducu avadanlıqlarla təmin edir. İsveçrədə kooperativlər haqqında qanun 1988-ci ildə qəbul edilib. Gəlir qanunla müəyyən edilən maliyyə ehtiyatını formalaşdırmaq üçün lazım olan vəsaitdən artıq olduqda ondan 52 faiz vergi tutulur.

Danimarkada ölkə üzrə istehsal və emal edilən südün 91 faizi, mal ətinin 65 faizi, donuz ətinin 93 faizi, quşçuluq məhsullarının 51 faizi, meyvə-tərəvəz məhsullarının 60 faizi, qarışıq yemin 48 faizi və gübrələrin 47 faizi kooperativlərin əlindədir. Burada kooperativlər konkret sahələr üzrə ixtisaslaşdırılmışdır. Altı ay ərzində kooperativlərin xidmətindən istifadə etməyən fermer direktorlar şurasının qərarı ilə üzvlükdən azad olunur. Kooperativlər vergi güzəştlərindən istifadə edir və adi təsərrüfatlarda tətbiq edilən 52 faiz gəlir vergisi onlar üçün cəmi 20 faizdir.

Bir sözlə, təcrübə ən yaxşı məktəbdir. Avropa İttifaqında, ABŞ-da və Yaponiyada mövcud olan kooperasiya təcrübələrindən dinamik inkişaf yolunda olan Azərbaycanda da istifadə edilməsi zamanın tələbidir.

## ƏDƏBİYYAT


1. А.П.Макаренко. Теория и история кооперативного движения. М.:2002, с. 55
2. А.И.Крашенинников. Кооперация в современном мире. М.:2004, с. 97
3. Вахитов К.И. Кооперация. Теория, история, практика. Избранные изречения, факты, материалы, комментарии. М.: 2006, с. 45
4. Ə.Bayramov. Regional iqtisadi inteqrasiya: nəzəriyyə və praktika. Bakı:1997, s. 18
5. Əhmədov. Qloballaşma və milli iqtisadiyyatın inkişaf problemləri. Bakı: 2002, s. 63

6. H.A.İsrafilov. "Qloballaşma şəraitində istehlak kooperasiyasının təkmilləşdirilməsi istiqamətləri" Bakı:2010, s. 88
7. İsrafilov.H.A (2016). "Qloballaşma şəraitində kooperasiyanın inkişafi kənd təsərrüfatının uğurlu iqtisadi yüksəliş strategiyasının əsasıdır". Bakı: Azərbaycan qəzeti, 4...5;11 oktyabr.
8. "Kənd təsərrüfatı kooperasiyası haqqında" Azərbaycan Respublikasının Qanunu.
9. Z.Səmədzadə. (2012). Böyük İqtisadi Ensiklopediya, III cild, Bakı: Şərq-Qərb, 608 s.

**SUMMARY**

**Key words:** *agricultural, food, economy, farmer, resources, subsidies, loans*

Cooperation is a process by which the components of a system work together to achieve the global properties. In other words, individual components that appear to be "selfish" and independent work together to create a highly complex, greater-than-the-sum-of-its-parts system. The phenomenon is generally known as 'emergence' and is considered an outcome of self-organization. Examples:The components in a cell work together to keep it living.Neurons create thought and consciousness, other cells work together and communicate to produce multicellular organisms.Organisms form food chains and ecosystems.People form families, tribes, cities and nations.Atoms cooperate in a simple way, by combining to make up molecules.Understanding the mechanisms that create cooperating agents in a system is one of the most important and least well understood phenomena in nature, though there has not been a lack of effort.Individual action on behalf of a larger system may be coerced (forced), voluntary (freely chosen), or even unintentional, and consequently individuals and groups might act in concert even though they have almost nothing in common as regards interests or goals. Examples of that can be found in market trade, military wars, families, workplaces, schools and prisons, and more generally any institution or organization of which individuals are part (out of own choice, by law, or forced).

**РЕЗЮМЕ**

**Ключевые слова:** *аграрный, продовольствие, экономика, фермер, ресурсы, субсидии, кредиты*

Кооперация – это объединение предприятий и взаимодействие двух или более особей ради выполнения той или иной задачи. Кооперативы, в отличие от акционерных обществ, объединяющих капиталы, являются объединениями предприятий лиц, пользующихся их услугами или принимающих участие в хозяйственной и общественной деятельности. Кооперативам присущ более демократический характер управления и хозяйствования: вне зависимости от количества паев действует принцип «один член — один голос». Во многих странах государство оказывает помощь отдельным видам кооперации (главным образом сельскохозяйственным кооперативам) путём предоставления им кредитов.Современное кооперативное движение началось в Европе. Это произошло не потому, что европейцам присуща способность к объединению, но потому, что европейцы были первыми, кто ощутил влияние промышленной революции. Если существует сходство между экономическим ростом в Европе в 19 веке и положением развивающихся стран в 20 веке, в таком случае опыт развития европейского кооперативного движения, место кооперативных магазинов в национальных экономиках европейских стран позволит дать уроки другим движениям для того чтобы помочь им избежать ошибок в своем развитии.

*Redaksiyaya daxilolma: 31.01.2020*
*Çapa qəbul olunma: 08.02.2020*

UOT 9(4794)

# İSTEHLAK BAZARININ GENİŞLƏNMƏSİNƏ KOOPERASİYANIN TƏSİR EFFEKTİ

***D.X.Həsənova***
***Azərbaycan Dövlət Aqrar Universitetinin***

**Açar sözlər:** *kooperasiya, istehlak, iqtisadi bazar, sahibkarlıq, ölkə*

Real bazar ölkələrinin təcrübəsi göstərir ki, yüksək çeviklik nümunəsi olan kooperasiya yeni inkişaf mərhələsinə keçməkdədir.Kooperasiya haqqındakı reallıqlar belədir ki, oinsanı istehsal, xidmət, ticarət, ictimai iaşə və digər bu kimi sahələrin gerçək sahibkarı etməklə, onun yaradıcılıq imkanlarını aşkara çıxarır. Təsadüfi deyildir ki, məhz kooperasiya əsaslı dərəcədə ölkədə sosial-iqtisadi inkişafa təkan verərək bir sıra neqativ halların qarşısını almağa şərait yaradır, əhalinin ərzağa, xalq istehlakı mallarına, müxtəlif xidmətlərə olan tələbatının ödənilməsinin ən vacib amilinə çevrilir. Kooperasiya özünün fəaliyyət mexanizmi olan kooperativ hərəkatı vasitəsi ilə ölkənin iqtisadiyyatının müxtəlif sferalarını bir-biri ilə əlaqələndirir. Bazar iqtisadiyyatına uyğun gələn yeni iqtisadi təfəkkürün formalaşmasında da mühüm mənbələrindən birni məhz təsərrüfatçılığın kooperativ forması təmin edir. Kooperasiyanın təşkilində əsas məqsəd bilavasitə əhaliyə xidmət göstərmək, istehlak malları bazarının mal təchizatını stabilləşdirmək, məhsuldar və yaradıcı marağı artırmaq, iqtisadiyyata daha çox sosial istiqamət vermək, tələblə təklif arasında tarazlığı təmin etmək vəzifələrindən irəli gəlir.Lakin bununla belə, ötən dövrlərdə olduğu kimi, hazırda da kooperasiyanın əsl mahiyyətinə, onun inkişaf perspektivliyinə mübahisəli yanaşmalar qalmaqdadır. Kooperasiyanıcəmiyyətin iqtisadi həyatında «ikinci növ» hesab edənlər yenə də onu ölkənin iqtisadi inkişafında arxa plana çəkməyə səy göstərirlər. Əslində isə, kooperasiya öz mühüm əhəmiyyəti ilə istehlak bazarının genişlənməsinə effektli təsir gösterir və məhsul bolluğunu daha da artırır. Yeni iqtisadi sistemdə ilk müvəffəqiyyətli addımlarını atmış Azərbaycanda da kooperasiyanın inkişaf etdirilməsi üçün lazımi iqtisadi və kadr potensialı mövcuddur. Heç də elə hesab etmək olmaz ki, kooperasiya yalnız aqrar sektorda və müəyyən qədər xırda xalq istehlakı malları sferasında, qismən də məişət xidməti sahələrində nisbi çeviklik göstərə bilər. Dərinləşən liberal iqtisadi reallıqlar müasir dövrdə kooperasiyanın elm, təhsil, mədəniyyət, informasiya vasitələri və hətta üstün texnologiyalar istehsalı sferalarına çıxışını da təmin etmişdir. Artıq bir sıra inkişaf etmiş ölkələrdə kooperasiya məhsulunun ÜDM-də xüsüsi çəkisi rəqabətqabiliyyətli güc nümayiş etdirməkdədir.[3] Bu baxımdan da respublikamızda da kooperasiyanın diversifikasiyası istiqamətində lazımi imkanlar və real tələblər mövcuddur. Bunun üçün isə kooperasiyanın hərtərəfli inkişafını təmin etmək, bu sektorda fəaliyyət göstərən insanlara dövlət qayğısını artırmaq çox vacibdir. Burada təkmilləşmə istiqamətində başlıca prioritetlər kimi mövcud normativ-hüquqi bazanın genişləndirilməsi, müvaiq sferanın davamlı inkişafı üçün uzunmüddətli dövlət proqramlarının işlənib hazırlanması zəruridir. Bununla belə, təkmilləşmənin təmin edilməsində kooperasiyanın inkişafına mane olan determinantların təhlili araşdırmalar əsasında aşkara çıxarılması, bu istiqamətdə formalaşacaq yeni strategiyanın elmi əsaslarının işlənməsi, istehlak bazarında mövcud konyunkturanın və perspektivlərin təhlil olunması da vacib şərtllərdəndir. Bazar münasibətlərinə keçid, istehlak kooperasiyasında həm müsbət və həm də mənfi meyillər yaratmışdır. Kooperativlər sistemində bazarın tələblərinin tam ödənilməsinə yönələn strategiya reallaşdırılan məhsulların çeşidinin məhdudlaşdırılmasına gətirmiş və hətta bir sıra istiqamətlərdə istehsal həcminin məhdudlaşması ilə nəticələnmişdir. Müəyyən kooperativlərə subsidiyaların verilməsi, kreditlərin ayrılması praktikasının məhdudlaşması da bu prosesdə mənfi rolunu oynamışdır. Əlbəttə, bu fəaliyyətdə yeni sistemə keçidin formalaşması prosesində təcrübənin azlığı və transformasiyaya hazırlıq imkanlarının məhdudluğu da təsirli olmuşdur. Lakin mənfi cəhətlərlə yanaşı, müsbət meyillər də qeyd edilməlidir. Onlar ilk anlarda çox geniş olmasa da, ayrı-ayrı kooperativ fəallarının timsalında yetərli uğurlulüğü ilə fərqlənmişlər. Bununla belə, ictimai quruluş transformasiyası kooperasiyanın inkişafı üçün yeni imkanlar da açmışdır. Bunlar isə başlıca olaraq bazar iqtisadiyyatının liberal məzmunundan irəligələrək, fəaliyyət genişliyinə verdiyi çoximkanlılıqla bağlıdır. Bu çox imkanlılıqdan isə tam səmərəli şəkildə istifadə olunmalıdır. Bu gün respublikamızda kooperasiyanın inkişafını məhdudlaşdıran şərtlər sırasında onun istehlak bazarının formalaşmasına təsir dairəsinin zəifliyi daha çox nəzərə çarpır. Belə ki, hazırda respublikada kənd əhalisinin təxminən yarısı yenə də bir sıra ərzaq məhsullarını iri şəhərlərin ticarət şəbəkəsindən əldə edirlər. Digər tərəfdən isə, müəyyən xüsusi çəkiyə malik olan əmtəə istehsalçıları, yəni kənd əməkçiləri də öz məhsullarını

bazara çıxarmada əlverişli şəraitə malik olmurlar. Burada tədarük, nəqliyyat, qiymət problemi və müəyyən qədər də subyektiv amillər, korrupsiya meyilləri, məmur özbaşnalıqları və s. də mühüm rol oynayırlar. Bu isə o deməkdir ki, kooperatorlar həm iqtisadi və həm də hüquqi cəhətdən hələ də dolğun mühafizə olunmamışlar. Mühafizə prosesinin möhkəmləndirilməsi isə, burada mühüm həyati əhəmiyyət kəsb edir. [2] Elə bu səbəbdəndir ki, ümumi dövriyyədə kooperativlərin xüsusi məhsulu 10-15%-dən yüksək olmur. Halbuki inkişaf etmiş dünya ölkələrinin əksəriyyətində bu rəqəm təsisatlandırmalar, stimullaşdrmalar və dövləti dəstəyin gücü müqabilində daha yüksəkdir.

Respublikada bu sahədə olan geriliyin aradan qaldırılması isə təkmil normativ-hüquuqi bazada və hərtərəfli dövləti dəstəkdə kooperasiya «inkubasiyası»nın daha da artırılmasından keçir. Kooperativlərin istehlak bazarına olan təsir gücünün daha da dolğun artırılması bu istiqamətdə mövcud xarici təcrübənin təhlili şərhinin verilməsi məqsədəuyğun hesab edilir. Belə ki, ABŞ-da satış kooperasiyası vasitəsi ilə kənd təsərrüfatı məhsullarının 30%-i, o cümlədən südün 77%, taxıl və paxlalı bitkilərin 38%-i reallaşdırılır. Təchizat kooperasiyası kanalları vasitəsilə isə fermer təsərrüfatı mallarının 20%-i, o cümlədən istehsal vasitələrinin 27%-i realizə edilir. Fransada isə. Taxıl məhsullarının emalında kooperativlərin payı 70%, südməhsulları istehsalında 47%, şərab istehsalında 50%, yem istehsalında 35%, tərəvəz konservləri istehsalında 30% təşkil edir. Yaponiyada müvafiq göstəricilər daha yüksəkdir. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, bu ölkədə bütün kənd təsərrüfatı məhsullarının 55%-i istehlak malları bazarına kooperativlər vasitəsilə, o cümlədən düyünün 64%-i, tərəvəzin isə 90%-i daxil olur [5]. Respublikanın mövcud iqtisadi potensiali rezurs bazası və xususi ilə də intellektual hazırlıq səviyyəsi qlobal dünyanın bu nəhəng dövlətlərində kooperasiya statistikasını yaxın zamanlarda üstələməyə imkan verir. Əlbəttə, burada tez bir zamanda ənənəviləşmədən söhbət getmir. Lakin bu prosesin sürətləndirilməsi nəinki imkanlı və hətta zəruri şərtlidir. Bunun üçün isə ən başlıca şərt sahəyə dövlət qayğısının hərtərəfili artırılması və ondan irəli gələn inkişafı sürətləndirən bütün vasitələrin aktivləşdirilməsi ilə əlaqələndirilir. Kooperativ hərəkatı yalnız o zaman yeni səviyyəyə yüksələ bilər ki, onlar həqiqi mənada demokratik özünüidarə orqanına çevrilə bilsinlər. Onların fəaliyyətinin əsas məqsədi və mənası kooperativ demokratiyasının inkişaf etdirilməsində və bu əsasda istehsalın artım gücünün təmin olunması, elmi-texniki tərəqqinin nailiyyətlərinin səmərəli reallaşdırılması, kooperatorların hüquqlarının müdafiəsinin dolğun təmin edilməsindədir. Kooperasiyanı yeni iqtisadi effektli təzahürdə inkişaf etdirmək üçün dövlət strategiyasında əsas prinsiplər kimi, kooperasiya ideologiyasının təşviqat gücünün də artırılması zəruri hesab olunur. Kooperasiya fəaliyyətinə ilk qoşulanlara hüquqi yardım göstərilməsi üçün bu istiqamətdə mövcud bürokratik maneələr dəf edilməli, onlara diam stimullaşdırıcı dəstək verilməlidir. Digər tərəfdən, bu sferada kövrək addımlayanlara da qayğının artırılması çox vacibdir. Bunun üçün isə bütün müasir sivilizasiyalı ölkələrdə ilkin iqtisadi dəstək kimi vergi konsensusuna nail olunmalıdır. Kooperativlərin normal fəaliyyəti dövlətin düzgün iqtisadi siyasət yeritməsindən çox asılıdır. Belə ki, əhalinin müxtəlif təbəqələrinin əmək, haqları arasında kəskin fərqlərin mövcud olduğu ölkələrdə kooperativlər heç vaxt normal fəaliyyət göstərə bilməzlər.[4] Bu isə onu subut edir ki, respublikamızda da əməyin dəyərləndirilməsi mexanizmini normallaşdırmaq lazımdır. Burada itirilmiş proporsionallığı bərpa etmək və əmək haqlarını minimum istehlak səbətinə uyğun surətdə nizamlamaq lazımdır. Kooperasiyanın geniş inkişaf etməsində qiymətlər səviyyəsi də mühüm rol oynayır. Burada qiymətlər kooperativlərlə istehlakçıların və onların məhsullarının istehlak bazarında qarşılıqlı əlaqələrindən daha çox asılı olur. Belə ki, kooperativlər uzun müddət ziyanla işləyə bilməzlər. Təbii ki, istehlakçılar da öz növbəsində gəlirlərinə uyğun gəlməyən, keyfiyyəti aşağı, qiyməti isə yüksək olan malları ala bilməzlər. Məhz buna görə də istehlak bazarı üçün işləyən kooperativlərə qiymətqoyma problemləri düzgün həll edilməli və bu sahədə onlara geniş hüquqlar və müstəqillik verilməlidir. Kooperasiya və istehlak bazarı problemlərinin həllində ən çətin məsələlərdən biri də, kooperativlərin maddi-texniki təminatıdır. Əlbəttə, kooperativlərə öz ehtiyaclarını ödəmək üçün təkrar resursları mənimsəmək də vacibdir. Digər tərəfdən isə, dövlət resurslarına ehtiyacı artırmaq üçün kooperativlər özləri cəsarətlə məmulatı kompleksləşdirən xammal istehsalını inkişaf etdirməlidir ki, dövlət resurslarına ehtiyacı azalsın. Kooperasiyanın düzgün təşkili istehlak bazarının sağlamlaşdırılması ilə birbaşa əlaqədardır. İstehlak bazarının sağlamlaşdırılmasında Azərbaycan İstehlak Kooperasiyasının da üzərinə məsul vəzifələr düşür. Aparılan tədqiqatlar göstərir ki, bu sahədə Azərbaycan İstehlak Kooperasiyasının da fəaliyyətində ciddi əlaqələrin pozulması, istehsal üçün xammal qıtlığı yaratmış müəssisələrin özəlləşdirilməsindəki problemlər

daha da mürəkkəbləşmişdir.[1] Əvvəllər kolxoz və sovxozlarlayanaşı sənaye və ticarət təşkilatlarının yardımçı təsərrüfatları mühüm resurslar mənbəyi idi. Təəssüf ki, bu gün respublikamızda nə dövlət, nə də istehlak kooperasiyasının köməkçi təsərrüfatları demək olar ki, fəaliyyət göstərmir. Halbuki kooperativlər əsas diqqəti əhalinin tələbində baş verən dəyişikliklərə yönəltməlidirlər. Apardığımız tədqiqatlar göstərir ki, istehlak malları bazarında kooperasiyanın fəaliyyəti bu gün heç də tam qənaətbəxş hesab edilə bilməz. Bu baxımdan da respublikamızda kooperasiyanın istehlak bazarının stabilləşdirilməsində rolunu artırmaq üçün aşağıdakı tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab edirik:

✓ kooperasiya ilə bağlı normativ-hüquqi bazanın təkmilləşdirilməsi, daha da genişləndirilməsi və onun fəaliyyət səmərəliliyini stimullaşdıran əlverişli iqtisadi mühitin formalaşdırılması;

✓ respublikada kooperativ hərəkatını akitivləşdirən uzunmüddətli dövlət proqramının işlənib hazırlanması və reallaşdırılması;

✓ kooperasiyanın diversifikasiyası prosesinin reallaşması üçün yeni fəaliyyət istiqamətlərinin (elm və təhsil, informasiya texnologiyaları, konsaltinq xidməti və s) və məhsul çeşidinin artırılması prosesinin stimullaşdırması;

✓ kooperasiyanın fəaliyyətində dövlət müəssisələrini imitasiya etmək meyillərinin məhdudlaşdırılması, onun başlıca təsərrüfat mexanizminin yeni tələbata uyğun xalq istehlakı mallarının istehsalına yönəldilməsi;

✓ kooperasiya prinsiplərinin möhkəmləndirilməsi, müvafiq sahədə təbliğat-təşviqati işlərin gücləndirilməsi, onların yeni təsərrüfatçılıq metodları ilə zənginləşdirilməsi.

Kooperasiyanın inkişaf tələblərinə uyğun gələn bu reallıqları kooperativ fəaliyyətinin planlaşdırılması və reallaşdırılmasında nəzərə almaq lazımdır. Nəzərə alsaq kı kooperativ hərəkətının əsas məzmununu demokratizm, bərabərlik, həmrəylik, əməkdaşlıq təşkil edir və bu prinsiplər nəhəng kapital axınını qaynaqlandırır, onda koopersiyanın transmili gücü aydınlıqla sezilir. Bu mənada da, qlobal dünyada gedən proseslərdən bəhrələnərək, respublikada yeniləşmədə və dərinləşmədə olan istehlak bazarına uyğun olaraq, kooperasiyanı daha da inkişaf etdirmək mümkündür. Belə səmərəliliyə nail olmaq üçün isə fəaliyyət göstərən kooperativlərin inteqrasiyasının gücləndirilməsi üçün də stimullaşdırıcı tədbirlər görülməlidir.

## ƏDƏBİYYAT

1. Balayev R.Ə. Urbanizasiya: şəhər iqtisadiyyatı və ərzaq problemi. Bakı: Elm, 2007. 295 s. Birgəborclular qrupunun yaradılması. Kənd təsərrüfatında özəl bölmənin inkişafına yardım Agentliyi. Bakı: 2002, 20 s.
2. Əhmədov I.V. Kənd təsərrüfatının idarə edilməsi. Bakı: Ozan, 2006, 880 s.
3. Əhmədov M.Ə. Qloballaşma və milli iqtisadiyyatın formalaşması. Bakı: 2003, 523 s.
4. Əhmədov N.H. Regional ərzaq bazarı və onun formalaşması istiqamətləri. Bakı: ADPİ, 2005, 160 s.
5. Ələsgərov F.N. İstehlak malları bazarı: idarəetmə formaları və metodları. Bakı: Azərnəşr, 1993, 311 s.

## SUMMARY

**Key words:** *cooperation, consumption, economic market, entrepreneurship, country*

Thus, cooperative values and principles change the methods and techniques of professional management in consumer cooperatives and lead them to a new development. It should be noted here that the role and importance of transnational cooperation in the economic life of developed countries is growing. This is due to the fact that the financial basis of these cooperative bodies is equity. This capital also includes numerous large shareholders.

## РЕЗЮМЕ

**Ключевые слова:** *кооперация, потребление, экономический рынок, предпринимательство, страна*

Таким образом, кооперативные ценности и принципы меняют методы и приемы профессионального управления в потребительских кооперативах и ведут их к новому развитию. Здесь следует отметить, что роль и значение транснационального сотрудничества в экономической жизни развитых стран возрастают. Это связано с тем, что финансовой основой этих кооперативных органов является акционерный капитал. В этот капитал также входят многочисленные крупные акционеры.

*Redaksiyaya daxilolma: 03.02.2020*
*Çapa qəbul olunma: 10.02.2020*

UOT 9(4794)

# MÜASİR DÖVRDƏ AZƏRBAYCANDA İSTEHLAK KOOPERASİYASININ İNKİŞAFININ PRİORİTETLƏRİ

*G.Q.Quliyeva*
*Azərbaycan Dövlət Aqrar Universitetinin*

**Açar sözlər:** *Azərbaycan, müasir, kooperasiya, cəmiyyət, iqtisadiyyat*

Dünya təcrübəsi göstərir ki, müasir dövrdə beynəlxalq iqtisadi inteqrasiyanın qloballaşdığı bir şəraitdə milli iqtisadiyyatın təşəkkülü və inkişafı prosesində qarşıya çıxan problemlərin həlli, o cümlədən normal istehlak bazarının formalaşması və onun dinamik tarazlı inkişafının təmin olunması yalnız daxili imkanlar hesabına deyil, daxili və xarici amillərin dialektik vəhdəti bazasında mümkündür. Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan qısa zaman ərzində xarici ölkələr, nüfuzlu beynəlxalq və maliyyə təşkilatları ilə əməkdaşlıq əlaqələrini qurmuş, Avropa və Avroatlantik məkanına inteqrasiya proqramlarına müvəffəqiyyətlə qoşulmuşdur. İqtisadi sferada radikal islahatlar yolu ilə planlı dövlət iqtisadiyyatından bazar iqtisadiyyatına keçid, dayanıqlı milli iqtisadiyyatın qurulmasında uğurlar əldə edilmiş, dinamik inkişaf meyilləri yaranmışdır.Artıq Azərbaycan Respublikasının müstəqilliyi dönməz bir prosesə çevrilmiş, respublikamız dünya birliyi ölkələri arasında suveren, demokratik, dünyəvi və mütərəqqi bir ölkə kimi öz layiqli yerini tutmuşdur. Lakin qeyd etmək lazımdır ki, dövlətçiliyimizin bərpası, iqtisadi inkişaf yolunda əldə olunmuş nailiyyətlər asanlıqla qazanılmamışdır. Belə ki, Azərbaycanın müstəqilliyinin ilk illərində üzləşdiyi siyasi və iqtisadi problemlər, qonşu ölkə tərəfindən məruz qaldığı hərbi təcavüz onun müstəqil dövlət kimi inkişafı yolunda ciddi çətinliklər yaratmışdır. Digər tərəfdən, keçmiş Sovet İttifaqının iqtisadiyyatının bir parçası kimi formalaşmış ölkə iqtisadiyyatının qısa bir zamanda mövcud şəraitə uyğun olaraq yenidən qurulmaması, ənənəvi tərəfdaşlarla mövcud olmuş iqtisadi kooperasiya əlaqələrinin qırılması ölkənin istehsal sahələrini iflic vəziyyətinə salmışdı. Belə ki, istehsal olunmuş məhsullar alıcısını tapa bilmirdi, digər tərəfdən istehsal üçün zəruri olan xammal və komponentlərin artıq başqa ölkələrdən gətirilməsi olduqca çətinləşmişdi və çox hallarda qeyri-mümkün etmişdi. Bütün bu amillər son nəticədə istehsal sahələrinin əksəriyyətinin fəaliyyətinin dayanmasına səbəb olmuşdu. İstehsalın həcminin kəskin şəkildə aşağı düşməsi yüzlərlə müəssisə və təşkilatın fəaliyyətinin dayanmasına, əhalinin həyat səviyyəsinin kəskin pisləşməsinə gətirib çıxarmışdı. İqtisadiyyatda dövlət inhisarçılığı olduğu bir şəraitdə dövlət müəssisələrinin fəaliyyətinin dayanması yüz minlərlə işsiz ordusunun yaranmasına səbəb olmuşdu. Belə bir ağır şəraitdə 1993-cü ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Azərbaycana qayıdışı ölkənin siyasi və iqtisadi inkişafında dönüş nöqtəsi oldu.[1] Ölkədə siyasi sabitlik bərqərar oldu, qısa bir zamanda siyasi və iqtisadi islahat proqramları hazırlanaraq həyata keçirilməyə başlanıldı, milli maraqlara uyğun olaraq ölkənin siyasi və iqtisadi inkişaf istiqamətləri müəyyənləşdirildi. Azərbaycan Respublikası siyasi inkişaf modeli olaraq demokratik, çoxpartiyalı, dünyəvi, qanunun aliliyinin təmin olunduğu, söz və din azadlığı, insan haqlarının qorunduğu inkişaf yolunu seçdi. İqtisadi inkişaf prioriteti olaraq bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan, sahibkarlığın, özəl mülkiyyətin, sağlam rəqabət əsasında fəaliyyət göstərən özəl təşəbbüsün əsas rol oynadığı, dövlətin yalnız tənzimləyici və strateji inkişaf funksiyalarını həyata keçirdiyi iqtisadi münasibətlərin formalaşdırılması üçün zəruri addımların atılmasına başlanıldı.

Məhz ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ildə imzalanmış «Əsrin müqaviləsi» neft kontraktı və daha sonra imzalanmış digər neft kontraktları gələcəkdə ölkənin maliyyə imkanlarının yaxşılaşması üçün zəmin yaratdı.[3] Lakin yalnız neft sektorunu inkişaf etdirmək və ölkənin maliyyə vəziyyətini neft sektorundan asılı vəziyyətə salmaq düzgün olmazdı. Belə bir asılılığın yaranmasına yol verməmək üçün neft sektoru ilə yanaşı iqtisadiyyatın digər sahələrini də tez bir zamanda inkişaf etdirmək zərurəti qarşıya çıxırdı. Davamlı iqtisadi inkişafı təmin etmək üçün ciddi struktur islahatlarının aparılmasına ehtiyac vardı.1995-ci ilin sonuna doğru hiperinflyasiyanı aradan qaldırmaq və ölkədə iqtisadi vəziyyəti sabitləşdirmək üçün bir sıra addımlar atıldı və beləliklə, iqtisadi islahatlar dövrü başlandı.Bu dövrdə Beynəlxalq Valyuta Fondunun tövsiyələri nəzərə alınaraq ölkə iqtisadiyyatında sərt pul-kredit siyasəti tətbiq olundu və valyuta bazarı liberallaşdırıldı.

İqtisadi sferada əsas vəzifələrdən biri inzibati plan sistemindən imtina edib bazar iqtisadiyyatı münasibətlərini inkişaf etdirmək idi.

İqtisadiyyatda, demək olar ki, dövlət sektorunun inhisarçı olduğu bir şəraitdə, təbii ki bu mümkün deyildi və ona görə də özəl mülkiyyətin, sahibkarlığın inkişafı üçün şərait yaradılması tələb olunurdu. Bu məqsədlə Azərbaycanda sərbəst bazar iqtisadiyyatının inkişafına yol açan normativ-hüquqi baza yaradılmağa başlandı, ölkə Konstitusiyasına xüsusi (özəl) mülkiyyətə dair yeni müddəalar daxil edildi.[5]

Lakin ölkənin istehsal və xidmət sahələrini, demək olar ki, hamısının cəmləşdiyi dövlət sektorundakı müəssisələrin fəaliyyətini bərpa etmədən iqtisadi inkişafdan söhbət gedə bilməzdi. Dövlətin bu müəssisələrin işini canlandırmaq üçün investisiya imkanlarının olmadığı bir şəraitdə, yeni texnologiyalar gətirilmədən və mütərəqqi idarəetmə metodları tətbiq etmədən bu vəzifələri həyata keçirmək faktiki olaraq mümkün deyildi. Bundan əlavə, ənənəvi satış bazarlarının itirilməsi, xammal və resurs imkanlarının məhdudlaşması bir çox hallarda nəinki bu müəssisələrdə istehsalın bərpa olunmasını, hətta bir çox hallarda bazar iqtisadiyyatı amilləri nəzərə alınmaqla profilinin dəyişdirilməsini tələb edirdi. Bütün bu amillər səmərəsiz idarə olunan, aşağı məhsuldarlıqlı, zərərlə işləyən və ya işləməyən dövlət müəssisələrinin özəlləşdirilməsi zərurətini yaratmışdı.[2] Dövlətin iqtisadi siyasətinin əsas məqsədlərinə uyğun olaraq, özəlləşdirmənin qarşısında iqtisadiyyatın yenidən qurulması, xüsusi mülkiyyət münasibətlərinin və sahibkarlığın sürətli inkişafı, iqtisadiyyata xarici investisiyaları cəlb etməklə onun səmərəliliyinin artırılması, iş yerlərinin bərpası, yeni iş yerlərinin açılması və digər bu kimi məqsədlər durur. Bütün bu tədbirlərin başlıca məqsədi vətəndaşların sosial-iqtisadi durumunun yaxşılaşdırılmasıvə dövlətimizin güclü iqtisadi dayaqlarının yaradılmasıdır. Bu mənada ölkəmizdə aparılan özəlləşdirmə özlüyündə məqsəd deyil, qeyd olunan məsələlərə nail olmaq üçün bir vasitə hesab edilir. Ona görə də, ölkə rəhbərliyi tərəfindən özəlləşdirməni həyata keçirən qurumlar qarşısında özəlləşdirmənin iqtisadi səmərə və sosial ədalət prinsipləri əsasında aparılması vəzifəsi qoyulmuşdur.

Qloballaşma şəraitində istehlak kooperasiyasının inkişafı ölkənin davamlı inkişafının təmin edilməsində mühüm əhəmiyyət kəsb edən məqamlardandır. Nəzərə almaq lazımdır ki, istehlak kooperasiyası əhalinin ərzaq məhsullarına olan ehtiyaclarının ödənilməsi ilə yanaşı, həm də iqtisadiyyatın müxtəlif sahələrində mövcud olan istehlak və satış problemlərinin həllində də əhəmiyyətli rol oynayır.

Azərbaycannın Ümumdünya Ticarət Təşkilatina (ÜTT) üzvluk məsələsi qloballaşma şəraitində kooperasiyanın inkişafını daha da səmərəli edəcəkdir. Belə ki, tədqiqatlar göstərir ki, Azərbaycanın ÜTT-yə üzvlük məsələsində mühüm təminatları istehlak kooperasiyasının geniş imkanlara malik oldugu aqrar sektorda əldə ediləcəkdir. Bu onunla əlaqələndirilir ki, Azərbaycan Respublikasında əhalinin yarısı kənd yerlərində yaşayır və ənənəvi olaraq da kənd təsərrüfatı milli iqtisadiyyatın mühüm sahəsi kimi ölkənin ərzaq təhlükəsizliyinin əsasını təşkil edir. Dövlət müstəqilliyinin bərpası və möhkəmləndirilməsi şəraitində isə ölkənin kənd təsərrüfatının yenidən qurulması çox vacib bir məsələ kimi ortaya çıxır.[4] Regional iqtisadiyyatın inkişafında, məşğulluğun təminatında,sosial rifahın yaxşılaşdırılmasında aqrar sektorun imkanları daim genişlənir və bu mənada da dövlət onu hərtərəfli müdafiə edir. Bununla belə, vurğulanmalıdır ki, respublikanın aqrar sektorunda hələ də çoxsaylı problemlər, köklü düzəlişini gözləyən və həllini tapmamış problemlər qalmaqdadır. Problemlər isə, ilk növbədə, təkamil menecment aspektində, kooperasiyanın inkişafı, struktur və texnoloji sferasında, başlıca olaraq isə keyfiyyət və məhsuldarlıq sahəsində özünü göstərir. Bu baxımdan ÜTT-yə üzvlük məsələsi Azərbaycanda aqrar sektorun yenidən qurulması, qabaqcıl dünya təcrübəsinə əsaslanan məzmun və formada modernizasiyasını sürətləndirə və tam bərqərar edə bilər. Buna görə də, Azərbaycanın ÜTT-yə üzvlük məsələsi daha sürətli aparılmalı və bu istiqamətdə aqrar sektor üçün də mühüm olan prioritetləri müəyyənləşdirilməlidir. Bu prioritetlər sırasına isə fikrimizcə, aşağıdakıları daxil etmək olar:

kənd təsərrüfatı məhsulları üzrə idxal rüsumlarının saxlanılması və daxili bazarın konyunkturuna uyğun tənzimlənməsi;

- milli məhsulların rəqabətqabiliyyətlinın artırılması və təsbit edilən müddətlər ərzində subsidiyalaşdırılması;
- inkişaf etməkdə olan ölkələr üçün tətbiq edilən yeddi illik güzəştli dövrün qazanılması; kooperasiyanın davamlı stimullaşdırılmasının təmin edilməsi;
- ailə (fermer) təsərrüfatları, müvafiq xidmət sahələri və ümumilikdə aqrar infrastrukturun inkişafının dövlət proqramları çərçivəsində reallaşdırılması.

Bütün bunlar öz növbəsində respublikanın ÜTT-yə qoşulmaq ərəfəsində aqrar sektorda idarəetmə sisteminin müxtəlif səviyyələrində iqtisadi mexanizminin təkmilləşməsi istiqamətində kompleks tədqiqatların aparılmasını, burada dayanıqlı

inkişaf problemlərinın əhatəli və hərtərəfli tədqiqi zərurətlərini şərtləndirir. ÜTT-yə qoşulmaqla ölkədə bazar təsisatlarının daha da dərinləşməsi, kənd təsərrüfatı məhsulu istehsalının yaxşılaşmasında mövcud sistem və modelin köklü dəyişilməsinə nail olma isə bütövlükdə aqrar sahənin inkişaf konsepsiyasının hazırlanmasını tələb edir.

Bu gün dərinləşən qloballaşma şəraitində müasir tələblərə cavab verən bazarın təşəkkülü və bazar mexanizmlərinin səmərəli fəaliyyəti bazar münasibətlərinin subyekti olan, öz mülkiyyətinə görə müstəqil məsuliyyət daşıyan, təsərrüfatçılıq fəaliyyətində təşəbbüskarlıq bazarlığına malik sahibkarların olmasını zəruri edir. Buna görə də, istehlak kooperasiyası sistemində dövlətsizləşdirmə prosesinin başa çatması həmin sistemə daxil olan müəssisə və təşkilatlara müvafiq qanunlar və mövcud nizamnamə çərçivəsində onlara real müstəqilliyin və ya sərbəstliyin verilməsi deməkdir. Əlbəttə, istehlak kooperasiyası sistemində dövlətsizləşdirmə və özəlləşdirmə prosesini fərqləndirmək lazımdır. Dövlətsizləşdirmə istehlak kooperasiyasının tamamilə dövlət idarəetmə nəzarətindən çıxılması deməkdirsə, artıq özəlləşdirmə kooperativ mülkiyyət formasının dəyişdirilməsi və ya ləğv olunması deməkdir. Buna görə də ticarət, ictimai iaşə müəssisələrinin və digər sahələrin özəlləşdirmə prinsiplərini mexaniki olaraq istehlak kooperasiyası sisteminə tətbiq etmək olmaz.

Aktiv ticarət-tədarük fəaliyyəti, boş bina və sahələrin icarəyə verilməsi, bəzi zəruri tələbat mallarının sənaye istehsalının həyata keçirilməsi istehsal kooperasiyası sisteminin hələlik mövcudluğuna, yaşama qabiliyyətini saxlamağa imkan verir. Gələcəkdə kooperasiya sistemində ticarət-tədarük fəaliyyətinin daha da genişləndirilməsi, malgöndərənlərlə birbaşa, daima əlaqələrin qurulması tədavül xərclərini azalmağa, xüsusən kənd yerlərindəki mağazaların zərərlə işləməsinin qarşısını almağa, tam gücü ilə işləməyən və ya tam istifadə edilməyən ticarət obyektləri və anbar sahələrindən daha səmərəli istifadə etməyə imkan verəcəkdir.

## ƏDƏBİYYAT


1. R. Mehdiyev, “Azərbaycan: qloballaşmanın tələbləri”, Bakı: 2005, s. 43
2. Qloballaşma mühitində milli iqtisadi inkişaf modelinin formalaşması və inkişafı problemləri. Kollektiv monoqrafiya. Bakı: 2010, s. 32
3. İrşad Kərimli Abdul oğlu, Beynəlxalq İqtisadi Münasibətlərin Müasir Problemləri, Bakı: 2006, s. 19
4. A.Ş.Şəkərəliyev Dünya iqtisadiyyatı və BİM. Bakı:1999, s. 75
5. Kərimov C. Orucov A., İsrafilov H. Dünya iqtisadiyyatı, 2006, s. 44


## SUMMARY


**Key words:** *Azerbaijan, modern, cooperation, society, economy*

The system of consumer cooperation in the republic is multifaceted and operates both in commodity circulation and in the manufacturing sector. Consumer goods trade, public catering, agricultural products supply, production of basic necessities at their industrial enterprises, auxiliary agriculture and other activities are the main lines of activity of Azerbaijan’s consumer cooperation system.


## РЕЗЮМЕ


**Ключевые слова:** *Азербайджан, современный, кооперация, общество, экономика*

Система потребительской кооперации республики многогранна и действует как в товарообороте, так и в производственном секторе. Торговля потребительскими товарами, общественное питание, поставка сельскохозяйственной продукции, производство товаров первой необходимости на своих промышленных предприятиях, вспомогательное сельское хозяйство и другие виды деятельности являются основными направлениями деятельности системы потребительской кооперации Азербайджана.



*Redaksiyaya daxilolma: 03.02.2020*
*Çapa qəbul olunma: 10.02.2020*

UOT 9(4794)

# İSTEHLAK KOOPERASİYASININ İNKİŞAFINDA DÖVLƏTİN TƏNZİMLƏYİCİ ROLUNUN YÜKSƏLDİLMƏSİ

***T.B.Əsədova***
***Azərbaycan Dövlət Aqrar Universitetinin***

**Açar sözlər:** *istehlak, kooperasiya, iqtisadi bazar, sahibkarlıq, ölkə*

İqtisadiyyatda istehlak kooperasiyasının dinamik və səmərəli inkişafına yönəldilmiş tədbirlər nəticə etibarilə əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində və satış, təchizat problemlərinin həllində önəmli rol oynayır. Bu sırada istehlak kooperasiyasının inkişafı, o cümlədən istehlak birliklərinin inkişafına yardım göstərilməsi ilə bağlı dövlət dəstəyinin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Aparılan araşdırmalardan məlum olur ki, istehlak bazarının formalaşdırılması sahəsində respublikada çox ciddi işlər görülür. Ölkədə aparılan iqtisadi islahatlar, sahibkarlığın inkişafı və bütün bunlar ərzaq və qeyri-ərzaq malları istehsalının getdikcə artmasına səbəb olur. İqtisadi islahatların mühüm şərtlərindən biri də əhalinin ərzaqla təmin edilməsidir. Müstəqil dövlətçiliyimizi qoruyub saxlamaq, onun müdafiə qüdrətini gücləndirmək, elm və mədəniyyətimizi inkişaf etdirmək, dünya dövlətləri səviyyəsinə çatdırmaq üçün xalqımızın maddi rifahını yaxşılaşdırmaq məqsədilə əhalinin ərzaq məhsullarına olan tələbatını ödəmək əsas şərtlərdən biridir. Ölkə əhalisinin ərzaq məhsullarına olan tələbatını ödəmək üçün daxili istehsalı inkişaf etdirmək zəruri şərt kimi həmişə ön plana çəkilməlidir. Problemin uğurlu həlli üçün əhalinin bütün ərzaq, o cümlədən taxıl məhsullarına tələbatını təmin etmək və adambaşına taxıl istehsalını fizioloji normaya çatdırmaq lazımdır. Geniş ərzaq potensialına malik olan respublikamız hələlik ərzaq məhsullarına, o cümlədən çörəyə olan tələbatını daxili istehsal hesabına ödəyə bilmir. Ölkəmizdə ət və ət məhsulları, süd və süd məhsullarına olan tələbatın 60%-i idxal hesabına ödənilir. Odur ki, ölkəmizin idxaldan asılılığını azaltmaq və əhalinin ərzaq məhsullarına olan tələbatının təmin edilməsi üçün elmi cəhətdən əsaslandırılmış proqramların işlənib hazırlanması lazımdır[1]. Əhalinin həyat səviyyəsinin yüksəldilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi, yoxsulluğun aradan qaldırılması torpaqlardan səmərəli istifadə edilməsini, kənd təsərrüfatının intensiv inkişaf etdirilməsini tələb edir. Bazar münasibətləri şəraitində əhalinin sosial müdafiəsinin etibarlı təminat mexanizminin formalaşdırılması istehlak bazarının tənzimlənməsini obyektiv zərurətə çevirmişdir. İstehlak bazarında bolluq və sabitlik yaratmadan əhalinin etibarlı sosial müdafiəsini təmin etmək mümkün deyildir. Dünya təcrübəsinə əsaslanaraq deyə bilərik ki, dövlətlərin istehlak bazarını tənzimləmə imkanları və üsulları ölkənin iqtisadi inkişaf səviyyəsindən, təbii-iqtisadi xüsusiyyətlərindən və s. amillərdən asılı olaraq müxtəlifdir. Materialların təhlilindən irəli gələrək belə bir fikir söyləmək mümkündür ki, istehlak bazarının tənzimlənməsi aşağıdakı tələblərlə bağlıdır: ϖ ölkənin özünü zəruri istehlak malları, əsasən də ərzaqla təminetmə səviyyəsinin yüksəldilməsi (ərzaq təhlükəsizliyinin təmin olunması və s.);

- ✓ qiymətlərin kəskin dəyişməsinin qarşısının alınması;
- ✓ istehsal sahələri arasında əlaqələrin optimallaşdırılması;
- ✓ kənd təsərrüfatı istehsalı ilə məşğul olan işçilərin gəlirləri ilə digər sahələrdə çalışan işçilərin gəlirləri arasında uyğunsuzluqların aradan qaldırılması;
- ✓ yerli istehsalçıların xarici rəqabətin mənfi təsirlərindən qorunması;
- ✓ tələbə təsir göstərmək məqsədilə qiymətlərin tənzimlənməsi;
- ✓ vergi, kredit və subsidiya kimi vasitələrlə istehsalın tənzimlənməsi;
- ✓ istehsalın səviyyəsindən asılı olmayaraq əmtəə istehlakçılarına (aztəminatlı əhali təbəqələrinə) dövlət yardımı;
- ✓ xarici ticarət-iqtisadi əlaqələrin tənzimlənməsi və s.

Məlum olduğu kimi, bazar münasibətləri şəraitində istehlak bazarında təklif daxili istehsal və idxal mənbələri hesabına, tədiyə qabiliyyətli tələb istehlakçıların gəlir mənbələri hesabına, qiymət isə tələb-təklif əsasında daxili və dünya bazar qiymətlərinin qarşılıqlı təsiri altında formalaşır. Deməli, ölkədə bazar iqtisadiyyatının təşəkkülü və inkişafı şəraitində normal istehlak bazarının formalaşması istehsal, xarici ticarət-iqtisadi əlaqələr və gəlirlər arasında dinamik tarazlığın təmin olunmasını nəzərdə tutur. Bu reallıq qloballaşma tələblərindən də irəli gəlir. Hər bir dövlət öz iqtisadi siyasətini ölkənin strateji maraqları nəzərə alınmaqla milli iqtisadi təhlükəsizliyin təmin edilməsi baxımından qarşıda duran vəzifələrə müvafiq surətdə həyata keçirir. İqtisadiyyatda istehlak kooperasiyası sahəsində münasibətlər əsasən hüquqi və iqtisadi metodlarla tənzimlənir.

Hökumətlərin istehlak kooperasiyasına, o cümlədən istehlak kredit birliklərinin yaradılmasına artan diqqəti, hazırda Avstraliya, ABŞ, İrlandiya, Kanada, Koreya, Tayvan və bir sıra digər ölkələrdə bu hərəkatın genişlənməsinin həlledici amillərindəndir. Bəzi keçid ölkələrində də kənd istehlak-kredit birliklərinin formalaşmasında dövlətin müvafiq qurumlarının fəal mövqeyi müşahidə edilir. Xeyli dərəcədə bunun nəticəsidir ki, Rusiya Federasiyasında,Ukraynada, Belarusda, Latviyada və digər postsovet məkanı dövlətlərində kənd istehlak kooperasiyasının təşəkülündə inamlı artım müşahidə olunur [3]. Əlbəttə, istehlak kooperasiyasının dəstəklənməsində dövlətin təsirinin əsas istiqaməti tənzimləmədir. İstehlak 396 kooperasiyasında müvafiq tənzimləyici funksiyaları icra edən bu və ya digər qurumun fəaliyyəti üçün hüquqi zəmin yaradılması, təşkilati-hüquqi əsasların formalaşması və istehlak kooperativlərinə münasibətdə dövlət siyasətinin prioritetlərinin əsaslandırılması aid edilməlidir. İstehlak kooperativlərinin mövcud olması və normal fəaliyyəti üçün hüquqi zəmin yaradılması məqsədi ilə dövlət kooperativlərin fəaliyyətini tənzimləyən normativ-hüquqi aktlar işləyib hazırlayır və qəbul edir, kooperativlərin payçılarının hüquq və vəzifələrini müəyyənləşdirir.Təşkilatihüquqi əsasların formalaşması müstəvisində dövlət istehlak kooperativlərinin inkişaf proqramlarını işləyib hazırlayır və qəbul edir, büdcə xərclərini müəyyən edir, kreditlər və subsidiyalar verir, iqtisadiyyatın bu sahəsinə investisiyaların artımına şərait yaradır [2]. İstehlak kooperativlərinə münasibətdə dövlət siyasətinin həyata keçirilməsi istiqamətlərinin işlənib hazırlanması əhəmiyyətli vəsait və vaxt sərfi tələb edir. Belə ki, dövlət büdcə-vergi və pul-kredit siyasəti vasitələrindən istifadə etməklə, istehlak kooperativlərinə vergi, kredit və sığorta güzəştləri təqdim edir. Dövlət müstəqilliyinin bərpasının ilk illərində Azərbaycanda həyata keçirilən iqtisadi siyasəti səmərəli adlandırmaq mümkün deyil. Ölkənin inzibati-amirlik sistemindən bazar iqtisadiyyatı münasibətlərinə keçid dövründə başlanmış iqtisadi islahatlar kənd təsərrüfatına və xüsusilə aqrar sənaye kompleksinə təsir göstərirdi. Bu, çox ağrılı bir proses oldu. Bazar münasibətlərinə keçid zamanı tələskənlik, qərarlaşmış infrastrukturun elmi cəhətdən lazımınca əsaslandırılmadan yenidən qurulması ciddi neqativ nəticələrə gətirib çıxarmışdı. Bu vəziyyətin səbəblərindən biri ondan ibarət idi ki, aqrar sahədə dəyişikliklər dəqiq ifadə edilmiş konsepsiya olmadığı halda başlanmışdı. Həmin dövrdə zəruri qanunverici bazanın olmaması da belə vəziyyətin daha bir səbəbi hesab edilə bilər. Ötən əsrin 90-cı illərinin əvvəlində başlanmış iqtisadi islahat ölkənin aqrar sektorunda konstruktiv dəyişikliklər aparılmasını nəzərdə tuturdu. Bu proses aqrar islahat aparılmasını, aqrar sahədə dominant forma almış ictimai təsərrüfatların yenidən təşkil edilməsini, özəl bölmənin inkişafını əhatə edirdi. Ümumi göstəricilərə görə mühakimə yürütsək, nəzərdə tutulan dəyişikliklərin müəyyən qədər öz məqsədinə çatmasını söyləmək olar: torpaq üzərində mülkiyyətin dövlət formasının inhisarı, kolxozlar və sovxozlar ləğv edilmiş, mülkiyyətin müxtəlif formaları yaranmışdır. Transformasiya mərhələsinin ilk illərində kənd əhalisinin həyat səviyyəsi pisləşmiş, bir sıra sosial problemlər yaranmışdı. Kənd təsərrüfatı məhsullarının idxalının artması və bu məhsulların dempinq qiymətləri üzrə satılması nəticəsində kənd təsərrüfatı qurumlarının iqtisadi vəziyyəti mürəkkəbləşmişdir. Həmin illərdə sənaye və kənd təsərrüfatı məhsullarının qiymət dispariteti və kənd əhalisinin tədiyə qabiliyyətinin aşağı olması da mənfi rol oynamış, heyvanların və quşların baş sayı kəskin şəkildə azalmış, istehsal və sosial infrastruktur, kənd təsərrüfatının maddi-texniki bazası xeyli zəifləmişdir.Görülmüş sistemli tədbirlər nəticəsində son onillikdə xırda əmtəəlik kənd təsərrüfatı məhsulları istehsalçıları təbəqəsi formalaşmışdır. Rəsmi statistik məlumata görə Azərbaycan Respublikasında son illər aqrar sahibkarların sayı artmağa meyilli olmuşdur [5]. Kooperasiyanın inkişafı kənd təsərrüfatının inkişafının institusional formasına çevrilməkdədir. Bütün dünyada fermerlər çətin vəziyyətlərdən çıxmaq və səmərəli işləmək üçün müxtəlif kooperativlərdə birləşirlər. Qabaqcıl ölkələrin əksəriyyətində istehlak kooperasiyası kooperativ təşkilatının mühüm elementinə, onun inkişafının sürətləndiricisinə çevrilmişdir. Son illərdə respublikada aqrar istehsalçılar arasında da birləşmə meyli qismən müşahidə olunur. Kooperatorların fəallığı bir sıra problemlərlə üzləşir. Bu problemlər qanunvericilik, normativ və metodik bazanın zəif olması, nümunəvi nizamnamələrin, birmənalı qeydiyyat prosedurlarının olmaması və başqa amillərlə bağlıdır. Təsərrüfat kateqoriyalarından asılı olmayaraq, əmtəə istehsalçılarının, xüsusilə bu sahədə işləyən fərdi sahibkarların kooperasiyasının lazımi səviyyədə dəstəklənməsi indiki mərhələdə iqtisadiyyatın inkişafına təkan verə bilər. Mərkəzləşdirilmiş iqtisadiyyat şəraitində istehlak kooperasiyasının inkişafında, eləcə də onun maliyyələşməsi və kreditləşməsi mexanizmində inzibati elementlər üstünlük təşkil edirdi. Həmin dövrdə qısamüddətli kreditlər aşağı faiz dərəcəsi ilə verilsə də, təsərrüfatlar, adətən kreditləri qaytarmır, həmin kreditlərin

daim hesabdan silinməsi isə kreditin mahiyyətinə xələl vururdu. İstehlak kooperasiyasının ötən əsrin 90-cı illərinin ortalarından etibarən iqtisadi cəhətdən böhrana məruz qalması nəticə etibarilə bir sıra təsərrüfatların, anbarların, istehsal və tədarük müəssisələrinin itirilməsinə gətirib çıxarmışdır. Bu isə onunla bağlı olmuşdur ki, istehlak kooperasiyaları bazar şəraitində təsərrüfat hesabı və öz xərcini ödəmə prinsipi əsasında işləmək iqtidarında olmamışdır. Bundan əlavə, uzun illər formalaşmış iqtisadi əlaqələrin kəsilməsi, eləcə də daxili istehlak bazarının çevik şəkildə qorunmaması nəticə etibarilə istehlak kooperasiyasında fəaliyyət göstərən strukturların maliyyə maraqlarını tam mənası ilə zərbə altında qoymuşdur [4].

Kənd təsərrüfatı istehsalında riskin yüksək dərəcəsi, başqa sahələrlə müqayisədə bu fəaliyyət növünün rentabellik göstəricisinin aşağı olması, borclanın kifayət qədər girov təminatının olmaması, kreditin məbləği kiçik olduqda bank tərəfindən kreditin rəsmiləşdirilməsi ilə bağlı baha başa gələn prosedurlar üçün səmərəsiz xərclər belə vəziyyəti şərtləndirən amillərdir. Bu təsərrüfatlarda maliyyə hesabatının sadələşdirilmiş formasının onların rentabellik səviyyəsi və kredit qabiliyyəti barədə dəqiq təsəvvür yaratmaması amili də bu baxımdan az rol oynamır. Tədqiqatlar və xarici təcrübə göstərir ki, fiziki və hüquqi şəxslərin üzvlük əsasında, yaşayış yerlərinin, əmək fəaliyyətinin, peşə mənsubluğunun ümumi olması və ya qarşılıqlı kreditvermə yolu ilə xüsusi pul vəsaitlərinin yığılması üçün şərait yaradan hər hansı başqa ümumilik prinsipi üzrə könüllü şəkildə birləşməsindən ibarət olan kooperativ kredit institutları mühüm rol oynaya bilər. Kənd istehlak kooperativlərinin inkişafının təhlili göstərir ki, kooperasiya hərəkatını fəal dəstəkləməyə ehtiyac vardır. Bu vasitə ilə kənddə sosial problemləri həll etmək üçün çox böyük imkanlar vardır. O cümlədən, regionlarda istehlak kooperasiyası aqrar sahibkarlığın inkişafına, kənd əhalisinin sosial-mədəni şəraitinin yaxşılaşdırılmasına, məşğulluğun təmin edilməsinə və kənd əhalisinin maddi rifah səviyyəsinin artırılmasına yönəldilmiş imkanlar böyükdür. Kənd təsərrüfatı kooperasiyasının inkişafında dövlətin fəal mövqeyi aqrar sahənin inkişafına müsbət təsir göstərir.

## ƏDƏBIYYAT


1. Abbasov A.F. Sosial bazar iqtisadiyyatı. Bakı: «Elm və həyat», 1998, 320 s.
2. Axundov M.Ə. Müəsissənin iqtisadiyyatı. Bakı: Azərnəşr, 2002, 460 s.
3. Allahverdiyev H., Qafarov K., Əhmədov Ə. İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı: 2002, 279 s.
4. Alıyev I.H. Məmmədov Ş.Ə. Aqrar sahənin inkişafının əsas maliyyə mənbələri. Bakı: Elm, 2007, 227 s.
5. Ataşov B.X. Ərzaq təhlükəsizliyinin aktual problemləri. Bakı: 2005, 336 s.


## SUMMARY


**Key words:** *consumption, cooperation, economic market, entrepreneurship, country*

Our study shows that since the middle 1990 of the 20th century, the role of concessional lending in consumer cooperatives has significantly decreased. This was due to an increase in the refinancing rate of the Central Bank. At the same time, interest rates on loans were increased without compensation, and this rate began to be determined on the basis of market conditions.

Consumer cooperatives are often not as attractive to banks as they work in rural areas.


## РЕЗЮМЕ


**Ключевые слова:** *потребление, кооперация, экономический рынок, предпринимательство, страна*

Наше исследование показывает, что с середины 1990-х годов XX века роль льготного кредитования в потребительских кооперативах значительно снизилась. Это было связано с повышением ставки рефинансирования Центробанка. В то же время процентные ставки по кредитам были увеличены без компенсации, и эта ставка стала определяться на основе рыночных условий. Потребительские кооперативы часто не так привлекательны для банков, как они работают в сельской местности.


*Redaksiyaya daxilolma: 03.02.2020*
*Çapa qəbul olunma: 10.02.2020*

UOT9(4794)

# AVROPA ÖLKƏLƏRİNİN KOOPERASİYAŞALMA SİSTEMİNİN TARİXİNƏ DAİR

***S.F.Abdullayeva***
***Azərbaycan Dövlət Aqrar Universiteti***

**Açar sözlər:***ölkə, dövlət, təcrübə, beynəlxalq, avropa*

Aqrar sahədə kooperasiya əlaqələrinin qurulması istiqamətində xarici təcrübənin öyrənilməsi, həmçinin vergi sisteminin bu proseslərə təsirinin araşdırılması mühüm rola malikdir. Araşdırmalar göstərir ki, XIX əsrin əvvəllərində müxtəlif Avropa ölkələrində həyata keçirilən torpaq islahatının nəticəsində kəndlilər torpaq əldə etsələr də, istehsalı təşkil edərkən istehsal vasitələrinin və dövriyyə vəsaitlərinin qıtlığından əziyyət çəkirdilər. Qeyd olunan amillər aqrar kooperativlərin yaradılmasını şərtləndirdi və 1849-cu ildə Böyük Britaniyada dünyanın ilk kənd təsərrüfatı kooperativi yaradıldı. Sonrakı illərdə dünyanın bir çox ölkələrində müxtəlif təmayüllü kooperativlər yaradılması prosesi sürətlə genişlənərək kooperativ hərəkatı beynəlxalq xarakter aldı. Nəhayət, 1895-ci ildə Londonda dünya kooperativlərini özündə birləşdirən Beynəlxalq Kooperativ Alyansı yaradıldı. Mərkəzi qərargahı Cenevrə şəhərində yerləşən və BMT-nin ixtisaslaşmış qurumu olan bu Alyansının məlumatlarına görə, dünya üzrə kooperativ təşkilatları özündə 800 mln. üzvü birləşdirir.

Ümumilikdə dünya təcrübəsinə baxdıqda tədqiqatlar göstərir ki, müasir dövrdə inkişaf etmiş ölkələrin bir çoxunda kənd təsərrüfatı məhsullarının əksəriyyəti fərdi sahibkarlar-fermerlər tərəfindən deyil, aqrar kooperasiya qurumları tərəfindən istehsal olunur[2,4-5.]. Bu isə o deməkdir ki, müasir dövrdə aqrar sahədə məhsul istehsalının artan tələbləri ödəməsi kooperasiya qurumlarının iştirakı olmadan mümkün deyildir. Həmçinin, beynəlxalq təcrübədə aqrar sektora tətbiq edilən vergi güzəştlərinə baxdıqda aydın olur ki, əksər inkişaf etmiş avropa ölkələrində aqrar sektorda tətbiq edilən vergi güzəştləri kütləvi xarakter daşımır. Bu güzəştlərin verilməsində əsasən aqrar kooperativlərin fəaliyyəti dəstəklənir[5,150].

Aqrar kooperativlərin inkişafında,xüsusi ilə bu sahənin maliyyə təminatında hər-bir ölkənin vergi siyasəti və vergi sistemi mühüm əhəmiyyət kəsb edir. İnkişaf etmiş ölkələrin praktikasında aqrar kooperativlərin inkişafına böyük önəm verilməklə bu qurumlar güzəştli vergi sistemləri ilə dəstəklənir. Məsələn, Fransa qanunvericiliyində təyinatından asılı olmayaraq bütün kənd təsərrüfatı kooperativləri kommersiya təşkilatları hesab edilsələr də, onlar mənfəət vergisindən tam azad olunurlar. Niderlandda kooperativ sektora münasibətdə minimum dövlət dəstəyindən istifadə olunur. Burada kooperativlərin fəaliyyətinin dövlət tənzimlənməsinin əsas alətləti vergi güzəştləri hesab edilir.

Aqrar kooperativlərin vergiyə cəlb edilməsi təcrübəsini bir neçə Avropa ölkəsinin timsalında konkret misallarla göstərmək olar.

**Danimarka** həm əhalisinin sayına, həm də kənd təsərrüfatına yararlı torpaqların sahəsinə görə Azərbaycandan 2 dəfə, kənd təsərrüfatında çalışanların sayına görə isə 13 dəfə geridə qalır. Amma bu ölkənin kənd təsərrüfatı məhsullarına olan tələbatı 100 faiz daxili istehsal hesabına ödənilir və Azərbaycandan 2 dəfə böyük olan ölkənin kənd təsərrüfatı məhsulları ilə təminatını 100 faiz ödəməyə çatır[3,728.]. Avropada ət emalı üzrə ilk istehsal kooperativləri 1887-ci ildə Danimarkada yaradılıb[6]. Danimarka məhz son yüz ildə aqrar sektorda tam kooperativləşmə sayəsində əksər kənd təsərrüfatı məhsulları ilə nəinki özünün daxili tələbatını ödəyir, hətta əsas ixracatçı ölkələrdən birinə çevrilmişdir və aqrar məhsulların ixrac həcminə görə dünyanın 15 ölkəsi sırasına daxildir (ixracın həcmi ildə təxminən 10 mld dollardan artıqdır). Bu ölkədə kənd təsərrüfatı sahəsində istehsal edilən məhsulların 80%-ə qədəri ixraca yönəlir. Şübhəsiz ki, yuxarıda sadalanan inkişafın əsas səbəblərindən biri son yüzildə ölkənin aqrar sektorunun tam şəkildə kooperasiya münasibətlərinə keçididir. Ölkədə fəaliyyət göstərən 40 mindən artıq fermer təsərrüfatının hamısı kooperativlərdə birləşmişdir.

Ölkədə kooperativ müəssisələrə xüsusi vergi güzəştləri tətbiq olunur. Məsələn, özəl sektorun vergi dərəcələri kooperativ sektordan orta hesabla 2,5 dəfə yüksəkdir. Belə ki, adi təsərrüfatlarda tətbiq edilən 52 faiz gəlir vergisi kooperativlər üçün cəmi 20 faizdir. Gəlir vergisi ödəyən kooperativlər özlərinin maliyyə ehtiyaclarını ödəmək qabiliyyətinə sahibdir, kooperativlər il sonunda əldə etdikləri mənfəətlərinin bir qismini fondlarına yönəldirlər. Danimarkada kənd təsərrüfatı sektorunun ortaya çıxan problemlər hökümət və fermer təşkilatları arasında ortaq şəkildə həll olunur. Elm tədqiqat və inkişaf proqramlarının maliyyə-

ləşdirməsində dövlətin aktiv iştirakçılığı təmin edilib.

Danimarkada ölkəyə idxal olunan kənd təsərrüfatı məhsullarına münasibətdə sərt proteksionist siyasət həyata keçirilməkdədir. Belə ki, ölkədə gömrük vergiləri əsasən idxal olunan məhsullar üçün müəyyənləşdirilib, ixrac vergidən azaddır. Gömrük vergilərinin 2 növü mövcuddur: advalor və advalordan kənar. Advalor vergi malların gömrük dəyərinə görə faizlə hesablanan vergi növüdür. Gömrük vergilərinin 89.9%-ni advalor vergilər təşkil edir ki, bunun da tamamı kənd təsərrüfatı məhsullarına tətbiq olunur. Ümimilikdə isə gömrük vergilərinin dərəcəsi 5-17% arasında dəyişməkdədir.

**İtaliya** aqrar sahədə, xüsusilə aqrar sənaye sahəsində kooperasiya münasibətlərinin inkişafı baxımından diqqəti cəlb edən təcrübəyə malik ölkələrdən hesab edilir.Belə ki, bu ölkədə kənd təsərrüfatı məhsulları istehsalı və aqroemalı fəaliyyətini üzvi vəhdətdə həyata keçirən kooperativlər ixrac potensialını artırmaqla olduqca zəngin təcrübə toplamışlar. İtaliya təcrübəsi göstərir ki, kənd təsərrüfatı kooperativlərinin fərdi təsərrüfatlara nisbətən məsrəfləri xeyli azdır. Bu isə kooperativlərin aqrar məhsullar bazarında mövqeyini möhkəmlədir,onları rəqabət üstünlüklü edir. Xərclərin az olmasının əsas səbəblərindən biri vergi güzəştləridir. Belə ki, İtaliyada yarandığı ilk 10 il ərzində kənd təsərrüfatı kooperativləri vergi ödəməkdən azad edilirlər. Sonrakı illərdə isə kooperativin daxilində reallaşdırılan əmtəə və xidmətlər ƏDV-dən azad olunur. Yalnız bu kooperativlərin xalis mənfəətindən bələdiyyə və mərkəzi büdcəyə vergi tutulur. Mənfəət vergisinin vergitutma bazası kooperativin bölünməz və ehtiyat fonduna ayırmalar edildikdən sonra yerdə qalan məbləğ hesab edilir.

İtaliyada kooperativ sektorun uğurlu inkişafının digər bir əsası isə hələ ötən əsrin 70-ci illərində İtaliyada yeni kooperativlərin yaranması ilə bağlı tələb olunan bütün xərclərin azı 85%-nin hökumət tərəfindən qarşılanmasına dair genişmiqyaslı dövlət proqramı reallaşdırılmışdır. [1,412]. Bundan əlavə ölkədə kooperatilərin mənafeyi ən yüksək qaunvericilik sənədi ilə qorunur. Məsələn, İtaliya konstitusiyasının 45 və 129-cü maddələrində qeyd edilir ki, Respublika qarşılıqlı yardıma əsaslanan kooperativlərin sosial funksiyalarını dəstəkləyir, dövlət və hakimiyyət orqanları vətəndaşların kooperativlərdə iştirakını stimullaşdırır, kooperativlərin fəaliyyətinə yardım edir, əməkçilərin istehsal vasitələrinə çıxışını təmin edir.

Fikrimizcə, kooperativlərin vergiyə cəlb edilməsi və yeni yaradılan kooperativlərə dövlət dəstəyi ilə bağlı İtaliya təcrübəsinin Azərbaycanda aqrar kooperativlərin fəaliyyətinin təkmilləşdirilməsi baxımından gözdən keçirilməsi məqsədəuyğun olardı[4,42].

Kooperasiya əlaqələri aqrar sektorun inkişafındakı rolunun araşdırılması, bu əlaqələrin formalaşmasında büdcə-vergi siyasətinin rolunun təhlili, beynəlxalq təcrübədə aqrar kooperativlərin vergiyə cəlb edilməsinin əsas xüsusiyyətlərinin araşdırılması və ümumilikdə vergi azadolmalarının aqrar sahədə kooperasiya əlaqələrinin formalaşmasına və inkişafına təsirinin təkmilləşdirilməsi istiqamətlərində aparılan tədqiqat bu əlaqələrin Azərbaycanın kənd təsərrüfatı üçün əhəmiyyətini bir daha sübut edir. Belə ki, aqrar sektorun istehsal və digər subyektləri arasında səmərəli kooperasiya və inteqrasiya əlaqələrinin qurulması ölkənin ərzaq təhlükəsizliyi, məşğulluq, qeyri-neft ixracı kimi istiqamətlərdə mövcud problemlərinin həllində ciddi rol oynayır.

## ƏDƏBIYYAT

1.Z.Səmədzadə.Böyük İqtisadi Ensiklopediya, III cild, Bakı: Şərq-Qərb,2012, 606 s.

2.İsrafilov.H.A "Qloballaşma şəraitində kooperasiyanın inkişafi kənd təsərrüfatının uğurlu iqtisadi yüksəliş strategiyasının əsasıdır". Bakı: Azərbaycan qəzeti, 4-5;11 oktyabr,2016

3.Səfərov.Ş.O "Ərzaq təhlükəsizliyinin təminatında kooperasiyanın rolu". Regional iqtisadi siyasət və kooperasiya münasibətlərinin inkişafı. Konfransın məqalələr toplusu, Bakı: 2014,733 s.

4.Kənd təsərrüfatı kooperativləri: dünya təcrübəsi və Azərbaycan üçün təklif olunan model. "Oxfam" Böyük Britaniyanın Azərbaycan Proqramı. İqtisadi Təşəbbüslərə Yardım İctimai Birliyi, Bakı: 2011,150 s.

5.Əhmədov. R.K "Aqrar sektorun maliyyə təminatinin yüksəldilməsində vergi güzəştlərinin rolu". Azərbaycanın Vergi Jurnalı, 2015, №5, 189s.

6.https://www.slideshare.net/.../danimarka-ulke-raporu 2013–Türkiyə Respublikasının İqtisadiyyat Nazirliyinin saytı

**On the history of cooperation of European countries**

***S.F. Abdullayeva***
***Azerbaijan State Agrarian University***

**SUMMARY**

**Key words:** *country, state, practice, international, European*

An important role is played by the study of foreign experience in establishing cooperative ties in the agrarian sector, as well as examining the impact of the tax system on these processes. Studies show that in the early nineteenth century, land reformers in various European countries had suffered from a deficit of production facilities and working capital while organizing the production. The aforementioned factors contributed to the establishment of agrarian cooperatives, and in 1849 the world's first agricultural cooperative was established in the UK. In the following years, the process of creating different-purpose cooperatives in many countries of the world rapidly expanded and the cooperative movement became international. Finally, in 1895, the International Cooperative Alliance was established in London, which incorporated world cooperatives. According to the Alliance, whose headquarters is in Geneva and is a specialized UN agency, cooperative organizations around the world have $ 800 million. joins a member.

**УДК9(4794)**

**Краткая информация об истории сотрудничества европейских стран**

***С.Ф. Абдуллаева***
***Азербайджанский государственный аграрный университет***

**РЕЗЮМЕ**

**Ключевые слова:** *страна, государство, практика, международный, европейский*

Важную роль играет изучение зарубежного опыта по установлению кооперативных связей в аграрном секторе, а также изучение влияния налоговой системы на эти процессы. Исследования показывают, что в начале девятнадцатого века земельные реформаторы в различных европейских странах страдали от дефицита производственных мощностей и оборотных средств при организации производства. Вышеупомянутые факторы способствовали созданию аграрных кооперативов, и в 1849 году в Великобритании был создан первый в мире сельскохозяйственный кооператив. В последующие годы процесс создания многоцелевых кооперативов во многих странах мира быстро расширился, и кооперативное движение стало международным. Наконец, в 1895 году в Лондоне был создан Международный кооперативный альянс, в который вошли мировые кооперативы. По данным Альянса, штаб-квартира которого находится в Женеве и является специализированным учреждением ООН, кооперативные организации по всему миру присоединяется в себе 800 миллионов членов.

*Redaksiyaya daxilolma: 03.02.2020*
*Çapa qəbul olunma: 10.02.2020*

UOT 9 (4794)

# İNKİŞAF ETMİŞ ÖLKƏLƏRDƏ KOOPERASİYALAŞMA SİYASƏTİNİN TARİXİ NƏTİCƏLƏRİ

*S.Ə.Qasımova*
*Azərbaycan Dövlət Aqrar Universiteti*

Hər hansı iqtisadi fəaliyyət sahəsində insanların könüllü əsasda baş verən əməkdaşlığı iqtisadi ədəbiyyatda kooperasiya anlayışı ilə ifadə olunur. Latın mənşəli kooperasiya sözü birgə fəaliyyət, birgə təsərrüfat təşəbbüslərinin reallaşdırılması, konkret olaraq təsərrüfat fəaliyyətinin həyata keçirilməsinin üsul və formaları kimi xarakterizə edilir. Odur ki, kooperasiya – "fiziki şəxslərin kollektiv sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq məqsədilə könüllü üzvlük əsasında birləşməsi, birliyi" kimi təqdim edilir. Bütövlükdə götürüldükdə, kooperasiya münasibətləri bu və ya digər fəaliyyətin həyata keçirilməsində ayrı-ayrı şəxslərin maraqlı olması və onların birgə iştirakı başa düşülür. İqtisadi ədəbiyyatlarda kooperasiya termini bir qayda olaraq iqtisadi münasibətlərin müxtəlif tiplərinin xarakteristikası məqsədilə də geniş miqyasda istifadə edilir [1,15].

Kənd təsərrüfatı kooperativləri hazırda bütün dünyada uğurla fəaliyyət göstərirlər və aqrar istehsalatda iqtisadi münasibətlərin ən əsas təşkilati-hüquqi formalarından biri sayılır.

Kooperasiya insanı istehsal, xidmət, ticarət və digər bu kimi sahələrin sahibkarı etməklə, onun yaradıcılıq imkanlarını aşkara çıxarır. Təsadüfi deyildir ki, məhz kooperasiya ölkələrdə əsaslı dərəcədə sosial-iqtisadi inkişafa təkan verərək, bir sıra neqativ halların qarşısını almağa şərait yaradır, əhalinin ərzağa, xalq istehlakı mallarına, müxtəlif xidmətlərə olan tələbatının ödənilməsinin ən vacib amilinə çevrilir. Kooperasiya özünün fəaliyyət mexanizmi olan kooperativ hərəkatı vasitəsi ilə ölkənin iqtisadiyyatının müxtəlif sferalarını əlaqələndirir, təsərrüfatçılığın mühüm sahələrindən biri kimi, bazar iqtisadiyyatına uyğun gələn yeni iqtisadi təfəkkürün formalaşmasına zəmin olur.

Aqrar sahə milli iqtisadiyyatın mühüm tərkib hissələrindən biri kimi istər ölkənin ərzaq təminatı və təhlükəsizliyinin ödənilməsində, istərsə də regionların sosial-iqtisadi inkişafında olduqca böyük əhəmiyyətə malikdir. İqtisadiyyatın müxtəlif sahələrində olduğu kimi, aqrar sahədə də birgə məqsədlərin həyata keçirilməsi, daha uğurlu nəticələrin əldə olunması ən mükəmməl səviyyədə öz həllini iştirakçıların səmərəli əməkdaşlığına və ayrı-ayrı təsərrüfat subyektlərinin resurslarının könüllü birləşdirilməsinə əsaslanan kooperasiya əlaqələrinin qurulması ilə tapır [8, 201]. Ona görə ki, kooperasiyaya əsaslanan iqtisadi inteqrasiya və əlaqələr aqrar sahədə məhsul istehsalı, tədarükü, emalı, saxlanması və istehlakçılara çatdırılması istiqamətində iqtisadi fəaliyyətin, sahədaxili bölmələrin bir-birinə yaxınlaşması, uzlaşdırılması, həmçinin bir-birinə istehsal və iqtisadi cəhətdən uyğunlaşması prosesidir. Müvafiq araşdırmalar və beynəlxalq təcrübə göstərir ki, aqrar sahədə kooperativlər və kooperasiya münasibətləri digər ictimai və xüsusi mülkiyyətə malik olan strukturlarla müqayisə olunduqda bir sıra üstün cəhətlərə malikdir. Bu yalnız onunla əlaqədar deyildir ki, kollektiv sərvətdən fərdi yararlanmaq imkanları kollektiv təsərrüfatlarda daha yüksəkdir.

Aqrar sahədə kooperasiya əlaqələrinin qurulması istiqamətində xarici təcrübənin öyrənilməsi, həmçinin vergi sisteminin bu proseslərə təsirinin araşdırılması mühüm rola malikdir. Araşdırmalar göstərir ki, XIX əsrin əvvəllərində müxtəlif Avropa ölkələrində həyata keçirilən torpaq islahatının nəticəsində kəndlilər torpaq əldə etsələr də, istehsalı təşkil edərkən istehsal vasitələrinin və dövriyyə vəsaitlərinin qıtlığından əziyyət çəkirdilər. Qeyd olunan amillər aqrar kooperativlərin yaradılmasını şərtləndirdi və 1849-cu ildə Böyük Britaniyada dünyanın ilk kənd təsərrüfatı kooperativi yaradıldı. Sonrakı illərdə dünyanın bir çox ölkələrində müxtəlif təmayüllü kooperativlər yaradılması prosesi sürətlə genişlənərək kooperativ hərəkatı beynəlxalq xarakter aldı. Nəhayət, 1895-ci ildə Londonda dünya kooperativlərini özündə birləşdirən Beynəlxalq Kooperativ Alyansı yaradıldı. Mərkəzi qərargahı Cenevrə şəhərində yerləşən və BMT-nin ixtisaslaşmış qurumu olan bu Alyansının məlumatlarına görə, dünya üzrə kooperativ təşkilatları özündə 800 mln. üzvü birləşdirir [9, 86].

XIX əsrin ortalarında Avropa ilə yanaşı digər ölkələrdə də kooperativ hərəkatı vüsətlənmişdir. ABŞ-da ilk istehlak cəmiyyətləri XIX əsrin 40-cı illərinin sonlarında meydana gəlmişdi. Bu zaman kooperativlər əsas etibarilə tədarükçü klublar adı altında formalaşmağa başlamışlar. Həmin dövrdə ABŞ-da ölkə kooperasiyasının inkişafının başlıca mərkəzi kimi kooperativ liqası fəaliyyət göstərirdi [2,109].

Kooperativlər Çində də özünəməxsus xüsusiyyətlərə malik olmaqla inkişaf etmişlər. Belə ki, Çinin əksər şəhərlərində və kəndlərində kənd

təsərrüfatı və sənaye müəssisələrinin bilavasitə əmtəə iqtisadiyyatının inkişaf qanunauyğunluqlarına tabe etdirilməsi baş vermişdir. Başqa sözlə, Çinin şəhər və kəndlərində daha çox əmtəə iqtisadiyyatının nəticələri özünü kəskin şəkildə göstərmişdir. Bu isə onunla bağlı olmuşdur ki, Çin iqtisadiyyatında bazarın tələblərinə uyğun məhsul istehsalı daha çox geniş yayılmışdır. Nəticə etibarilə belə hal nəinki daxili bazara, eləcə də xarici bazarın tələbatının ödənilməsinə xidmət etmişdir.

Kooperativ təsisatlandırmaların təşəkkülü və inkişafı sferasında Rusiyanın da məxsusi yeri vardır. Vurğulandığı kimi, bu ölkə həm də kooperasiya sistemində nəzəri və elmi ümümiləşdirmələrin önundə addımlamış və indi də özünün bu sahədəki elmi-empirik bazası ilə irəliləməkdədir. Tarixi məlumatlar göstərir ki, burada XIX əsrdə öncə əmək artelləri kimi yaranan istehsal kooperativləri Çar Rusiyasının iqtisadi həyatında əhəmiyyətli rol oynamışdır. Sonradan bu sferada mühüm inkişaf meyilləri yaranmış və bolşevik inqilabları epoxasında kooperasiya daha çevik bir iqtisadi mexanizmə çevrilmişdir [4, 68].

Müasir mərhələdə kooperativ hərəkat daha təkmil məzmun daşıyaraq yeni forma və sistemdə inkişaf tapır. İndi dünyada kooperativlərin özünəməxsus növ müxtəlifliklərindən biri kimi icarə kooperativləri təşəkkül taparaq inkişaf edir. Hal-hazırda icarə kooperativləri daha çox İtaliyada və Rumıniyada geniş yayılmışdır. Onların inkişaf etdirilməsi mahiyyət etibarilə kəndlilərin təşəbbüskarlıq fəaliyyətlərinin aktivləşdirilməsini və eyni zamanda onların səylərinin birləşdirilməsi hesabına məhsul istehsalının artırılmasını özündə əks etdirir. Böyük Britaniyada isə ölkənin ərzaq bazarında önəmli rol oynayan kəndli kooperativləri daha sürətlə inkişaf edir. Kooperativ sektor İspaniyada, Braziliyada və Çində daha geniş şəkildə inkişaf etməkdədir. O müasir məqamda Qərbi Avropa ölkələrində üstünlük qazanmasa da, özünün ənənəvi ampluasını təkmilləşdirir, təsir imkanlarını genişləndirir [2,58]. Elmi-texniki tərəqqini, innovasiyaları əks etdirən kooperasiya təsisatları və eyniliklə biznes inkubatorları formalı kooperativlər də bu sferada yeni inkişaf mərhələsini formalaşdırırlar. Hazırda İspaniyada Mandraqon Qrupu adı altında 172 istehlak, istehsal və digər təyinatlı kooperativi birləşdirən «Mandraqon qrupu» fəaliyyət göstərir ki, həmin kooperativin də ümumi fəaliyyət dövriyyəsi 2 mln. ABŞ dollarına yaxındır. "Mandraqon qrupu" əsas etibarilə daxili bazara məişət texnikası, kompüterlər, sənaye avadanlıqları və digər məmulatlar çıxarır ki, bu da nəticə etibarilə İspaniyanın iqtisadiyyatında önəmli rol oynayır [3, 187].

Ümumilikdə dünya təcrübəsinə baxdıqda tədqiqatlar göstərir ki, müasir dövrdə inkişaf etmiş ölkələrin bir çoxunda kənd təsərrüfatı məhsullarının əksəriyyəti fərdi sahibkarlar - fermerlər tərəfindən deyil, aqrar kooperasiya qurumları tərəfindən istehsal olunur. Bu isə o deməkdir ki, müasir dövrdə aqrar sahədə məhsul istehsalının artan tələbləri ödəməsi kooperasiya qurumlarının iştirakı olmadan mümkün deyildir [6,57]. Həmçinin, beynəlxalq təcrübədə aqrar sektora tətbiq edilən vergi güzəştlərinə baxdıqda aydın olur ki, əksər inkişaf etmiş avropa ölkələrində aqrar sektorda tətbiq edilən vergi güzəştləri kütləvi xarakter daşımır. Bu güzəştlərin verilməsində əsasən aqrar kooperativlərin fəaliyyəti dəstəklənir. ABŞ-da kənd təsərrüfatı istehlak kooperativləri daha yüksək templə inkişaf edir. Qarşılıqlı kömək forması kimi yaranmış kooperativlər ümumi rifah üçün istifadə edilən əməkdaşlıq forması kimi fəaliyyət göstərir [6,198].

İnkişaf etmiş ölkələrin praktikasında aqrar kooperativlərin inkişafına böyük önəm verilməklə bu qurumlar güzəştli vergi sistemləri ilə dəstəklənir. Məsələn, Fransada təyinatından asılı olmayaraq bütün kənd təsərrüfatı kooperativləri kommersiya təşkilatları hesab edilsələr də, onlar mənfəət vergisindən tam azad olunurlar. İtaliyada isə yarandığı ilk 10 il ərzində kənd təsərrufatı kooperativləri vergidən azad olunur. Bu ölkədə kooperativin daxilində reallaşdırılan əmtəə və xidmətlər ƏDV-yə cəlb olunmur. Yalnız bu müəssisələrin xalis mənfəətindən bələdiyyə və mərkəzi büdcəyə vergi ödənilir. Danimarkada özəl sektorun vergi dərəcələri kooperativ sektordan orta hesabla 2 dəfə, İspaniyada isə 3 dəfə yuksəkdir. Türkiyədə kooperasiya ilə bağlı bir sıra dövlət təşviq mexanizmləri var ki, onların da əsasında vergilərlə bağlı təşviqlər dayanır. Ölkədə kooperativlər kirayə verilmədiyi müddət ərzində sahib olduqları daşınmaz əmlak üzərindən alınacaq gəlir və ortaqların təqdim edəcəkləri daşınmaz əmlaklar hər növ vergi və rüsumlardan azaddır [6, 75].

Beləliklə, aqrar sahədə kooperasiya əlaqələrinin inkişafına dair beynəlxalq təcrübədən aydın olur ki, hazırda aqrar sahənin geniş potensiala malik olduğu inkişaf etmiş ölkələrin hamısında aqrar sahə yüksək kooperasiyalaşma səviyyəsinə malikdir. Kooperasiya münasibətlərinə əsaslanan aqrar sahədə isə inkişaf daha sürətli və məhsuldardır. Hansı ölkədə ki, kooperasiya münasibətləri inkişaf etdirilir, aqrar sahədə kopperativ mülkiyyətə üstünlük verilir, o ölkədə aqrar inkişaf dayanıqlı və intensivdir [7, 123]. Eyni zamanda, bu ölkələrin əksəriyyəti, məhz kooperasiya münasibətlərini inkişaf etdirdikləri üçün kənd təsərrü-

fatı məhsulları ilə, nəinki özlərini təmin edir, həm də əksər məhsullar üzrə ixracatçı bir ölkəyə çevrilmişlər. Nəzərdən keçirilən, ölkələrin təcrübəsi də sübut edir ki, aqrar sahədə kooperasiya əlaqələrinin inkişaf etdirilməsi müasir dövrdə mühüm əhəmiyyət kəsb edir və zəruridir.

Kooperativ müəssisələrinin əsas vəzifəsi, yəni iqtisadi imkanların artırılmasından başqa çox mühüm sosial funksiyanın - əhalinin yüksək keyfiyyətli ekoloji təmiz məhsulla təminatın yerinə yetirir. Məsələn ABŞ-da sağlamlıq kooperativlərinin bütöv sistemi fəaliyyət göstərir ki, onlar yalnız yüksək ekoloji göstəricilərə malik məhsul istehsal edir. Aqrar kooperativlərin inkişafında, xüsusi ilə bu sahənin maliyyə təminatında hər-bir ölkənin vergi siyasəti və vergi sistemi mühüm əhəmiyyət kəsb edir. İnkişaf etmiş ölkələrin praktikasında aqrar kooperativlərin inkişafına böyük önəm verilməklə bu qurumlar güzəştli vergi sistemləri ilə dəstəklənir. Məsələn, Fransa qanunvericiliyində təyinatından asılı olmayaraq bütün kənd təsərrüfatı kooperativləri kommersiya təşkilatları hesab edilsələr də, onlar mənfəət vergisindən tam azad olunurlar. Niderlandda kooperativ sektora münasibətdə minimum dövlət dəstəyindən istifadə olunur. Burada kooperativlərin fəaliyyətinin dövlət tənzimlənməsinin əsas alətləti vergi güzəştləri hesab edilir [5, 108].

İnkişaf etmiş ölkələrdə, ümumilikdə beynəlxalq təcrübədə kooperasiya əlaqələrinin aqrar sektorun inkişafındakı rolunun, həmçinin bu əlaqələrin formalaşmasında büdcə-vergi siyasətinin rolunun təhlili, aqrar kooperativlərin vergiyə cəlb edilməsinin əsas xüsusiyyətlərinin araşdırılması və vergi azadolmalarının aqrar sahədə kooperasiya əlaqələrinin inkişafına təsirinin təkmilləşdirilməsi bu əlaqələrin Azərbaycanın kənd təsərrüfatı üçün əhəmiyyətini bir daha sübut edir.

## ƏDƏBİYYAT


1. İsrafilov H.A. "Qloballaşma şəraitində istehlak kooperasiyasının təkmilləşdirilməsi istiqamətləri" Bakı: 2010
2. Səmədzadə Z.Ə. Dünya iqtisadiyyatı: Çin "iqtisadi möcüzəsi". Bakı: Gənclik, 2001, 323 s.
3. Крашенинников А.И. Международный кооперативный альянс. М.: Экономика, 1980, 224 с.
4. Səfərov S.İ. İqtisadi siyasət strategiyasının konseptual əsasları. Bakı: 2000, 342 s.
5. Ə.Bayramov. Regional iqtisadi inteqrasiya: nəzəriyyə və praktika. Bakı: 1997, 258 s.
6. M.Əhmədov. Qloballaşma və milli iqtisadiyyatın inkişaf problemləri. Bakı: 2002, 276 s.
7. Hüseynov M.C. Aqrar sahənin dayanıqlı inkişaf problemləri. Bakı: Nurlar, 2006, 304 s.
8. Allahverdiyev H., Qafarov K., Əhmədov Ə. İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı: 2002, 279 s.
9. Alıyev I.H. Məmmədov Ş.Ə. Aqrar sahənin inkişafının əsas maliyyə mənbələri. Bakı: Elm, 2007, 227 s.


## Historical implications of cooperative policy in developed countries


***S.A.Qasimova***

***Azerbaijan State Agrarian University***


## SUMMARY


**Key words:** *agriculture, cooperation, agrarian sphere, economy, social and economic development, international experience*



In the article discusses about the historical implications of cooperative in developed countries. Voluntary cooperation of people in any economic activity is expressed in the economic literature with the notion of cooperation. It should be noted that agricultural cooperatives are successfully operating all over the world and one of the main organizational and legal forms of economic relations in agrarian production It is clear from international experience that in the development of cooperation relations in the agricultural sector, agrarian sector has a high level of cooperation in all developed countries where the agrarian sector has great potential.



*Redaksiyaya daxilolma: 03.02.2020*
*Çapa qəbul olunma: 10.02.2020*

UOT 9(4794)

# İNKİŞAF ETMİŞ ÖLKƏLƏRİN KOOPERASİYA SİSTEMİNDƏ MÜHÜM FAKTORLAR

**T.Y.Əhmədova**
**Azərbaycan Dövlət Aqrar Universiteti**

**Açar sözlər:** *kooperasiya, qloballaşma, istehsal, fiziki şəxs, kooperativ hərəkatı, iqtisadi göstəricilər*

XIX əsrin ortalarında təşəkkül tapan kooperativ hərəkatı tezliklə dünyanın aparıcı ölkələrini əhatə edərək bir sistem kimi inkişaf etməyə başlamışdır. Fəaliyyətini ilbəil genişləndirməklə, kooperasiya tezliklə kənd rayonlarının inkişafına təkan verən, əhalinin məşğulluğunun təmin olunmasında və onların sosial məsələlərinin həllində əhəmiyyətli rolu olan bir quruma çevrilmişdir.

Kooperasiya sahəsində beynəlxalq təcrübəyə görə, kooperativlərin fəaliyyəti o zaman daha səmərəli olur ki, insanlar ayrı-ayrılıqda (təklikdə) həll edə bilmədikləri və onlar üçün çətin olan bir sıra problemləri, birlikdə çox asanlıqla həll edə bilirlər. Belə kooperativlərin inkişafı, həqiqətən də, cəmiyyətdə iqtisadi və sosial əməkdaşlığa münbit şərait yaradır. Onların yaradılması və inkişafının mühüm amillərindən digəri isə ölkə əhalisinin müxtəlif təbəqələrinin əməkhaqları səviyyələri arasındakı fərqlərin minimuma endirilməsidir. Belə ki, ölkədə kooperativlərin aqrar və qeyri-aqrar növləri və təşkilati-hüquqi formaları eyni zamanda, bir-birləri ilə əlaqəli şəkildə, həm də paralel olaraq inkişaf etdirilməidir. Təcrübə göstərir ki, dövlətin kooperativləri özünə tabe etdirdiyi ölkələrdə kooperativ hərəkat normal inkişaf edə bilmir.

Yer kürəsinin hansı tərəfində yerləşməsindən və inkişaf səviyyəsindən asılı olmadan bütün dövlətləri özləriin daxili sosial–iqtisadi inkişafı ilə bağlı məslələrlə yanaşı dünyanın qlobal adlandırılan məsələləri də bu və ya başqa səviyyədə maraqlandırır.Qlobal problemlərə maraqların artmasının obyektiv əsası vardır. İlk növbədə, bu, “qlobal” sininfinə aid edilən problemlərin ümmubəşəriliyi ilə izah edilə bilər.

İnkişaf etmiş ölkələr son iqtisadi göstəricilərinə görə dünyanın digər ölkələrindən xeyli üstündürlər. Məsələn, İƏİT-i qrupuna daxil edilən ölklərdə yaşayanların adambaşına düşən UDM həcmi dünya üzrə adambaşına düşən ÜDM-in orta qiymətindən beş dəfə çoxdur. 1990-cı illərdə inkişaf etmiş ölkələrin dünya iqtisadiyyatındakı mövqeyi daha da yaxşılaşdı. Bu iki amilin – birincisi, məhsuldar qüvvələrin struktıırunda bas vermis mütərəqqi dəyişikliklərin təsiri altında, ikincisi – Şərqi Avropa ölkələrinin dünya təsərrüfat sistemindəki xüsusi çəkisinin azalması nəticəsində baş verdi.

Beynəlxalq kooperasiya sahəsində tarixi və nəzəri ədəbiyyatlarla tanışlıqdan məlum olur ki, ümumiyyətlə kooperasiya ideyası birgə fəaliyyət əsasında həyata keçirilən təsərrüfat proseslərinin məcmusu kimi xarakterizə olunur. Tədqiqatlar göstərir ki, kooperasiya nəzəriyyəsi ilə bağlı problemin işlənməsi Qərbi Avropa ilə müqayisədə Rusiyada daha geniş köklərə malik olmuşdur. Kooperasiya hətta bazar iqtisadiyyatının kəskin şəkildə məhdudlaşdırıldığı keçmiş Sovetlər İttifaqında belə özünü bir təsərrüfat forması kimi qəbul etdirmişdir. Ümumiyyətlə götürdükdə halhazırda iqtisadiyyatda kooperasiyanın demək olar ki, klassik məktəbi formalaşmışdır. Həmin məktəbdə kooperasiya münasibətlərinin ümumi nəzəriyyəsi işlənib hazırlanmış, kooperasiya münasibətləri sosial-iqtisadi mahiyyət etibarilə artıq sosial-iqtisadi proseslərin təşkilində və idarə olunmasında əhəmiyyətli rol oynamağa başlamışdır. XX əsrin sonu XXI əsrin əvvəllərindən etibarən iqtisadiyyatda baş verən qloballaşma proseslərinə adekvat olaraq kooperasiya münasibətləri müstəqil və suveren şəkildə sosial-iqtisadi təzahür kimi özünü göstərməyə başlamışdır. Beynəlxalq kooperasiya münasibətləri ictimaisiyasi struktur kimi fəaliyyət göstərmiş və təsərrüfat fəaliyyətinin təşkilinin digər formalarından nəzərə çarpacaq dərəcədə fərqlənmişdir.

Kooperasiya haqqındakı daha dolğun gerçəkliklər belədir ki, o insanı istehsal, xidmət, ticarət və digər bu kimi sahələrin sahibkarı etməklə, onun yaradıcılıq imkanlarını aşkara çıxarır. Təsadüfı deyildir ki, məhz kooperasiya ölkələrdə əsaslı dərəcədə sosial-iqtisadi inkişafa təkan verərək, bir sıra neqativ halların qarşısını almağa şərait yaradır, əhalinin ərzaqa, xalq istehlakı mallarına, müxtəlif xidmətlərə olan tələbatının ödənilməsinin ən vacib amilinə çevrilir.

Fransada ilk Kooperativ Cəmiyyəti fəhlə birlikləri adı altında formalaşmışdır. XIX əsrdə yaradılan bu Kooperativ Cəmiyyəti istehlak kooperativi formasında fəaliyyət göstərir. Fransada müxtəlif dövrlər ərzində yaradılan kooperativ cəmiyyətləri və istehlakçı kooperativ hərəkatı koo-

perasiya haqqında qanunun qəbul edilməsi ilə daha da təkmil formada fəaliyyət göstərməyə başladı və ölkədə Kooperativ ittifaqları yarandı. Fransada yaradılan bu kooperativ ittifaqları əsasən topdansatış tədarükçülərinin cəmiyyəti şəklində fəaliyyət göstərirdi. Fransada baş verən proseslərə nəzər salsaq görərik ki, İngiltərədən sonra Fransada istehlak kooperativlərin formalaşması və inkişafına görə, bu ölkə də kooperativlərin vətən hesab edilir.

XIX əsrdə Almaniyada kooperativlərin yaradılmasını ilk dəfə zəruri olan, onun kartof və bir sıra ərzaq məhsullarının əldə edilməsi və buna uyğun həyata keçirilən tədbirlərlə reallaşmışdır. Almaniyadan yaradılan ilk kooperativlər istehlak cəmiyyətləri formasında fəaliyyət göstərərək, mədən sənayeçiləri tərəfindən təsis edilmişdir [1; s48].

Çində kooperativ münasibətlərin formalaşmasının özünəməxsus xüsusiyyətləri vardır. Çin iqtisadiyyatının daha çox bazar tələbinə uyğun məhsul istehsal etdiyini nəzərə alaraq, burada kooperativ münasibətlərdə bu formada şərh edə bilərik ki, bu ölkədə kooperasiya münasibətləri daha çox kənd təsərrüfatı və sənaye müəssisələrinin, həm də iqtisadiyyatın inkişafının qanunauyğunluqlarına tabe etdirilməsi vasitəsi ilə reallaşmışdır. Çində bu cəhətdən də korporativ münasibətlərin inkişaf etməsi daha çox bazar mexanizminin inkişafı və əhalinin tələbatının ödənilməsi ilə bağlı olan ölkə iqtisadiyyatında ərazi və sahə xüsusiyyətlərini özünəməxsus səciyyə daşıması ilə əlaqədar olmuşdur. Çində sənaye sahələri ilə müqayisədə kənd təsərrüfatı sahəsi bazar münasibətlərinin tələbini daha çox uyğunlaşdırılmışdı və buna müvafiq olaraq da burada şəhər iqtisadiyyatında dövlət müəssisələri hakim mövqe tutmuşdur.

Tarixi dövr ərzində kooperasiya münasibətləri inkişaf etdikcə, onun daha da təkmilləşdirilməsi, hər bir dövlətlərdə əmtəə pul münasibətləri və dövlətlərdə baş verən iqtisadi dəyişikliklərə paralel şəkildə baş vermişdir. Beləliklə də hər bir ölkədə hansı iqtisadi dəyişikliklərin olması və iqtisadi proseslər nəticəsində ölkədə əmtəə pul münasibətlərinin təkmilləşməsi, kooperasiya əlaqələrinin də güclənməsinə səbəb olmuşdur. Bu proses hər şeydən əvvəl, istehsalın özünəməxsusluğu ilə əlaqələndirə bilər. Hər bir dövlətdə baş verən istehsal prosesləri, kooperasiya münasibətlərinin nəzəri müddəaları ilə uyğunluq təşkil edir. Kooperasiya hər şeydən əvvəl istehsal vahidlərinin əməkdaşlığa və insanların birgə fəaliyyətini əks etdirdiyi üçün müvafiq olaraq istehsal prosesi zamanı kooperativlər tərəfindən yaradılan məhsulun bazara çıxarılması və eləcə də, sahələrarası və regionlararası əməkdaşlığın zəruri hala çevrilmişdir.

Müasir dövrdə beynəlxalq kooperativ hərəkatının genişlənməsi, və müxtəlif sahələrdə kooperativ münasibətlərin inkişaf etməsi, ümumilikdə xidmətlər çeşidinin və keyfiyyətinin artırılmasına və hər bir ölkədə gedən iqtisadi proseslərə təsir göstərir.

Dünya iqtisadiyyatının qloballaşdığı bir dövrdə qloballaşma meyllərinin artması kooperasiya münasibətlərinə də müvafiq olaraq öz təsirini göstərmiş və birgə fəaliyyət zamanı da bu kooperasiya tərəfdarlarının üstünlüklərinin geniş şəkildə təzahür etməsinə səbəb olmuşdur. Kooperativ formasında inkişaf etməsi üçün obyektiv əsaslar, xüsusilə də keçid iqtisadiyyatlı ölkələrdə daha çox büruzə vermişdir.Dünyanın industrial və postindustrial texnologiyalarına malik olan ölkələrində maddi texniki resurslarla tam təmin olunan kooperativlərin iqtisadi böhran şəraitində digər kooperativlərə və təsərrüfat strukturlarına nisbətən daha kəskin rəqabət apara bilmək imkanlarına malik olmuşlar. Buna müvafiq olaraq qeyd etməliyik ki, digər xüsusi mülkiyyətə malik strukturlarla müqayisədə kooperativlərin üstün cəhətləri mövcuddur. Bunun səbəbi sadəcə olaraq birgə fəaliyyət və kollektiv şəkildə fəaliyyət göstərməkdən ibarət deyildir. Belə ki, kooperativlərin digər müəssisələrdən kollektiv müəssisələrdən fərqli olaraq daha çox xüsusi xarakter kəsb edir. [2;s - 147]

Bu gün müasir dövrdə beynəlxalq kooperasiya hərəkatında dünyanın demək olar bütün ölkələri və ölkə vətəndaşları iştirak edir. Belə ki, verilən məlumatlara əsasən dünya iqtisadiyyatının qloballaşdığı bir dövrdə fiziki şəxslərin yaratdığı kooperativlərin sayı 8 milyona yaxındır. Bu kooperativlər birgə fəaliyyət göstərərək səmərəlilik prinsiplərinə əsaslanır. Xüsusilə də Skandinaviya ölkələrində və Avropa İttifaqı ölkələrində bu sektor üzrə əmək qabiliyyətli əhalinin müvafiq olaraq 50% və 46%-ni özündə birləşdirir.

Hal hazırdan kooperativ münasibətləri və beynəlxalq kooperativ hərəkatı sosial hərəkat kimi xarakterizə olunur. Bu sektorda istehsal münasibətləri, eləcə də mülkiyyətin reallaşdırılması özünün bütün xüsusiyyətləri ilə əks olunur. Məhz mülkiyyətin reallaşdırılması da istehsal münasibətlərinin tərkibində sosial iqtisadi və istehsal münasibətlərinin məcmusu kimi çıxış edir. İstehsal münasibətlərinin məcmusu isə ümumilikdə özündə məhsulun bölüşdürülməsi, mübadiləsi istehlakı kimi prosesləri əks etdirir. Kooperasiya münasibətlərini istehsal münasibətləri ilə bu for-

madan qarşılıqlı əlaqədə olmasından, digər bir aspektdən yanaşa bilərik ki, kooperativ münasibətlər əslində xırda istehsalçıların maraqlarının və tələbatlarının özündə birləşdirir.Ümumilikdə, kooperasiya münasibətlərinin özünəməxsus üstünlükləri onları daima digər kommersiya strukturlarından fərqləndirmişdir. Kooperativlər arasında sıx və qarşılıqlı əməkdaşlığın olması, məhsul satışı maddi texniki təchizat kimi məsələləri bu münasibətlərində olduqca mühüm əhamiyyət kəsb edir. Kooperasiya münasibətlərinə dair müxtəlif tədqiqatçıların, elm əsərlərində fərqli fikirlər səsləndirmişdi. Xeysn fikrinə görə kooperativin təsis edilərkən istifadə edilən prinsipə görə payçılar kooperativi istehlakçıda istehsalçı kimi yaradır. Başqa söz onun fikrinə görə, kooperativlərin aşağıdakı formada qruplaşdırılması, onların mahiyyətini daha yaxşı əks etdirir. [3; səh-106]

Kooperasiya münasibətləri və kooperasiya fəaliyyətinin nəzəriyyəsinin diqqət yetirsək, görərik ki, bir sıra iqtisadçılara əsərlərində kooperasiya münasibətləri ilə əlaqədar xeyli sayda tədqiqat işləri mövcuddur. Hər şeydən əvvəl, kooperasiya münasibətləri iştirakçıların birgə fəaliyyətini əks etdirdiyi üçün bu proses zamanı baş verən hər hansı bir böhranlı situasiyada problemin həllində da iştirakçıları birgə səyi nəticəsində bu problemlərin aradan qaldırılmasına daha məqsədəuyğun hesab edilir.

Beynəlxalq kooperasiya münasibətlərinin dəyişən şəraitə uyğunlaşdırılması istiqamətində iqtisadçılar tərəfindən aparılan tədqiqatlar kifayət qədər təkmil hesab edilmir.Bu tədqiqatların təkmil formada aparılmaması isə nəticə etibarilə həm beynəlxalq kooperasiya münasibətlərinin tam məzmunu, onun kifayət qədər əks olunmamasından kooperativ hərəkatına bağlı dünyada ümumi təcrübədən istifadə olunmamasına gətirib çıxarmışdı. Bu istiqamətdə xarici praktikanın da beynəlxalq kooperasiya münasibətlərindən kifayət qədər tətbiq edilməməsi, həmçinin, keçid iqtisadiyyatlı ölkələrdə bu sektorun nəzəriyyə və praktik məsələlərinin araşdırılmaması kooperasiya münasibətlərinin inkişafına uzunmüddətli fasilənin yaranmasına səbəb olmuşdur.

İnkişaf etməkdə olan ölkələrə inkişaf etmiş ölkələrin dərinləşən problemlərin həllini və ziddiyyəti ötürmək tendensiyası parlaq şəkildə müşahidə olunur.Əsasən xammal sahəsində, enrgetika, ətraf mühitin qorunması, məşğulluq, valyuta münasibətləri sahələrində daha çox müşahidə olunur. Sənaye istehsalı qeyri barabər inkişaf edir. Hasilat sənayesində artım tempi daha sabitdir.Bu sahələr sənaye istehsalının ümumi həcmində böyük yer tutur və inkişaf əsasən eksporta orentasiya edir. Emal sənayesi ayrı-ayrı qabaqcıl ölkələrdə daha uğurla inkişaf edir (Əlcəzair, Misir, Mərakeş və başqaları). Digər ölkəlrdə isə bu proses ləng gedir. Afrika və Asiya ölkələrinin sənayesinin inkişafını xarakterizə edəndə onu da qeyd etmək lazımdır ki, ölkədə hər şeyə daxili bazarın məhdudluğu (və yaxud darlığı) və sənaye strategiyası üzrə ölkələr arası kordinasiyanın yoxluğu təsir göstərir.

İqtisadiyyatın struktur nöqteyi-nəzərincə əksər ölkələr üçün hasilat sənayesinin kend təsərrüfatının əhəmiyyətli rolu xarakterikdir.Bəziləri təbii coğrafi resursların yoxluğu üzündən inkişafın monokultur (dar ixtisaslaşma) xarakterinə malikdirlər.

## ƏDƏBİYYAT

1.R. Mehdiyev, "Azərbaycan: qloballaşmanın tələbləri", Bakı: 2005

2. Qloballaşma mühitində milli iqtisadi inkişaf modelinin formalaşması və inkişafı problemləri. Kollektiv monoqrafiya. Bakı: 2010.

3.İrşad Kərimli Abdul oğlu, Beynəlxalq İqtisadi Münasibətlərin Müasir Problemləri, Bakı: 2006

4. A.Ş.Şəkərəliyev Dünya iqtisadiyyatı və BİM. Bakı:1999

5.Kərimov C. Orucov A., İsrafilov H. Dünya iqtisadiyyatı, 2006

6.Abbas Çingiz Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya yolları, Bakı: 2005

7.Rza İbadov. Avropa İttifaqının əsasları. Bakı: 2004

8. A.Ə.Əliyev. Xarici ticarət iqtisadi əlaqələrə gömrük nəzarəti. Azərbaycan iqtisadiyyatı: problemlər, perspektivlər. Bakı:2002

## РЕЗЮМЕ

Развитые страны намного превосходят другие страны по своим экономическим показателям. Кооперативные отношения в настоящее время характеризуются как социальные движения. Производственные отношения в этом секторе, а также со всеми особенностями имущества отражается в его реализации. Реализация собственности также играет важную роль в социально-экономических отношениях в производственных отношениях. В целом,

уникальные преимущества кооперативных отношений всегда отличали их от других коммерческих структур.


**SUMMARY**

Developed countries are far superior to other countries for their economic performance. Cooperative relationships are currently characterized as social movements. The relations of production in this sector as well, with all the features of the property is reflected in its implementation. Realization of property also plays an integral part of social and economic relations in production relations. In general, the unique advantages of cooperative relationships have always distinguished them from other commercial structures.



*Redaksiyaya daxilolma: 03.02.2020*
*Çapa qəbul olunma: 10.02.2020*

UOT 9(4794)

# MÜASİR AZƏRBAYCANDA KOOPERASİYALAŞMA SİYASƏTİNƏ FƏLSƏFİ BAXIŞ

*A.M.Bayramov, A.M.Əlizadə*
*Azərbaycan Dövlət Aqrar Universitetinin*

**Açar sözlər:** *İstehsal kooperativləri, istehlak kooperativləri, kooperasiyalaşma siyasəti, kənd təsərrüfatı, subsidiya , kooperativ birlikləri*

1995-1996-cı illərdə qəbul edilmiş "Aqrar islahatın əsasları haqqında", "Sovxoz və kalxozların islahatı haqqında" və "Torpaq islahatı haqqında" qanunlar torpaq üzərində dövlət, bələdiyyə və xüsusi mülkiyyət formalarını təsbit etmiş, müasir aqrobiznesin formalaşmasına, təsərrüfat fəaliyyətinin nəticələrinə marağın və məsuliyyətin artmasına, habelə kooperasiyanın perspektiv dövrdə inkişafına şərait yaratmışdır. Əvvəllər formal "kooperativ" modelinə əsaslanan, reallıqda isə dövlət təsisatları kimi fəaliyyət göstərmiş kalxozların, habelə sovxozların mülkiyyətində olan torpaqların və əmlakın xüsusi mülkiyyətə verilməsi ilə tarixi ədalət bərpa olunmuş, fermerlərin könüllü surətdə kooperativlərdə birləşmələri üçün institusional zəmin yaradılmışdır.

Müasir Azərbaycanda kooperasiyanın qanunverici normativ-hüquqi bazası ümumi qanunvericiliklə və xüsusi aktlarla tənzimlənir. Azərbaycan Respublikasının Mülki Məcəlləsində də kooperativlərin fəalliyyətini tənzimləyən müddəalar öz əksini tapmışdır. Müvafiq normativ hüquqi aktlarda kooperasiya ilə bağlı məsələlərin geniş yer alması bir tərəfdən, kooperativlərin ilkin hüquqi bazaya malik olduğunu, digər tərəfdən də dövlətin birgə təsərrüfatçılıq üsullarına önəm verdiyini göstərir. Kənd təsərrüfatı kooperasiyası formalaşması və inkişafına əlverişli şərait yaradılması məqsədilə son illərdə dövlət müvafiq tədbirlər həyata keçirmişdir. Belə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Kənd təsərrüfatı kooperasiyası haqqında"Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 270-VQ nömrəli Qanunu qəbul edilmiş və həmin qanunun tətbiqi barədə 2016-cı il 18 iyul tarixli 996 nömrəli Fərmanının icrası ilə əlaqədar "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2020-ci illər üçün Dövlət Proqramı" hazırlanmışdır. Bunun davamı olaraq Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli Fərmanı ilə "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşması Qaydası" təsdiq edilmişdir və 2020-ci ilin yanvar ayının 1-dən subsidiyalar fermerlərə vahid mexanizm vasitəsilə çatdırılır.

2008-ci ilin əvvəllərində qüvvəyə minmiş Azərbaycan Respublikasının Mülki Məcəlləsinin birinci hissəsində istehsal və istehlak kooperativləri ayırd edilir, müvafiq olaraq onlar kommersiya və qeyri-kommersiya təşkilatları kimi xarakterizə olunurlar. Hazırki vaxtda fəaliyyətinin əsas məqsədi gəlir götürməkdən ibarət olan təşkilatlar–kommersiya, gəlir götürməyən və əldə edilən gəliri isə üzvləri arasında bölüşdürən təşkilatlar isə qeyri-kommersiya təşkilatları sayılır.Yeni qanun kənd təsərrüfatı kooperasiyasının formalaşmasına və inkişafına təkan verməklə yanaşı, kooperasiya iştirakçılarının iqtisadi, sosial və hüquqi maraqlarının qorunmasında mühim rol oynamışdır.

Kənd Təsərrüfatı Nazirliyinin 2015-ci il üzrə subsidiya alan təsərrüfatlarla bağlı malumatını təhlil edəndə aydın olur ki, respublika üzrə təsərrüfatların 50,08 faizini əkin yeri 2 hektardan aşağıdır. Respublika üzrə əkin yeri 5 hektardan az olan təsərrüfatlar isə bütün təsərrüfatların 88,09 faizini təşkil edir. Respublika üzrə 50 hektardan çox torpaq sahəsi olan təsərrüfatlar cəmi təsərrüfatların 0,4 faizini təşkil edir və əkin yerlərinin isə 17,6 faizi iri təsərrüfatların payına düşür. 2016-cı ilin başlanğıcında Azərbaycanda 1003-dən artıq ailə fərdi kəndli və fermer təsərüfatının və 1534 fərdi sahibkarın olmasına baxmayaraq, həmin ildə cəmi 58 kənd təsərrüfatı kooperativi fəaliyyət göstərirdi. Hazırda kiçik təsərrüfatların təşkilatma səviyyələrinin çox aşağı olması onların istər resurslara olan tələbatların ödənilməsində, istərsə də, bazara çıxış məsələsində də ciddi çətinliklər yaradır (2;95).

Hazırda Müasir Azərbaycan Respublikasında qəbul edilmiş "Kənd təsərrüfatı kooperasiyası haqqında" çərçivəli qanun ölkə kooperasiyasının yeni hüquqi ideologiyası kimi, kooperativlər üçün bir çox imkanlar açmağa imkan verir:

- Kooperasiya haqqında bütün sahəvi qanunlar üçün ümumi olan anlayışların unifikasiyasına;
- Kooperasiya haqqında yaradılan sahə qanunlarının demokratik olmayan normalardan azad etməyə;
- Bu günə qədər tənzimlənən qanunvericilikdən kənarda qalan mənzil-tikinti, siğorta və di-

gər kooperativlər üçün xüsusi qanunların işlənib hazırlanması üçün şərait yaratmağa;

- Azərbaycan kooperativ sisteminə, bütün kooperasiya növlərinə, ölkə iqtisadiyyatının müstəqil sektoru kimiayırmağa və inkişaf etdirməyə;
- Kooperativlərin kommersiya və kommersiya olmayan strukturlara aidiyyat məsələsini aradan götürməyə.

V.İ.Lenin 4 yanvar 1923-cü il yazısında da kooperasiyanın böyük əhəmiyyəti belə vurğulanır:“Bu kooperasiyanın əvvələn prinsipial cəhətdən, ikincisi də mümkün qədər daha sadə və asan bir yolla, kəndliyə müyəssər yolla yeni qaydalara keçmək cəhətindən nə qədər böyük əhəmiyyəti olduğunu başa düşmürlər”(5;5). Buna görə demək olar ki, həm tarixi təcrübə mövqeyindən, həm də kooperasiya nəzəriyyəsi baxımından kooperativlərin təşkili yalnız aqrar sektorda toplanmış özünəməxsus xüsusiyyətləri nəzərə alınmaqla, onların təşkilati quruluşu müasir bazar şəraitinə uyğun gəldikdə müsbət nəticə verə bilər. Öz prinsiplərinə söykənən, yerli səviyyədə muxtariyyəti, beynəlxalq aləmdə inteqrallaşmanı uyğunlaşdıran kooperativ hərəkatı sosial istiqamətli iqtisadiyyatın, daha doğrusu insan üçün iqtisadiyyatın yaradılması amillərindən biridir. Kooperasiya insanların təsərrüfat və sosial fəaliyyətdə birləşməsi, onların öz fəaliyyətini inkişaf etdirməsi, mütərəqqi istehsal və sosial formalarda istifadə imkanlarının yaradılması əsasında cəmiyyətin sivilləşməsinin artım üsuluna xidmət edir. Müasir Azərbaycanın kooperasiyalaşma siyasətinin də bu istiqamətdə getməsi onun inkişafına daha da təkan vermişdir (2;11).

Müasir Azərbaycanda kooperasiya sisteminin təşkilatlarının: -istehsal kooperativləri; -istehlak kooperativləri; - regional kooperativlər birliyi; - mərkəzi ixtisaslaşdırılmış kooperativ ittifaqlarının ən etibarlı hüquqi bazası nizamnamə və fəaliyyətinə dair bağlanmış kontrakt ilə səciyyələndirilir.Nizamnamə iqtisadi qanunvericiliyin tələblərinə uyğun şəkildə hazırlanır.Koorperativin yaradılma təcrübəsi dedikdə koorperativ beşdən az olmayan fiziki və (və ya) hüquqi şəxslər tərəfindən yaradıldığını vurğulamaq lazımdır. Koorperativ yaratmaq məqsədilə fiziki və hüquqi şəxslər təşəbbüs qrupu yaradırlar.Azərbaycanda kooperativləşmənin əməyin inteqrasiyası əsasında həyata keçirilməsi səmərəli nəticələr üçün əlverişli şərait yarada bilər. Odur ki, iki qrup kooperativlərin yaradılmasına üstünlük verilir: kənd təsərrüfatı istehsal kooperativləri və aqrar-sənaye kompleksi üzrə istehlak kooperativləri. İstehsal kooperativləri fiziki şəxslərdən, istehlak kooperativləri isə həm hüquqi, həm də fiziki şəxslərin könüllü birliyi və vahid bir məqsəd uğrunda əl-ələ verib, köməkləşib fəaliyyət göstərən kollektiv təsərrüfatçılıq formasıdır.Onun üzvləri iki qrupa bölünür: əsas üzvlər və assoiasasiya olunmuş üzvlər (3;708)

Azərbaycanda keçmişdə kooperasiyanın taleyi kooperasiyadan asılı olmayan bazarın əlində olduğu halda, bugün dövlət kooperasiyasının dövlət idarə edilməsi funksiyalarını üzərindən götürdüyündən, kooperasiyanın taleyi adət edilməyən sərbəstlik şəraitində fəaliyyət göstərən payçılardan və peşəkar kooperativ işçilərdən asılı olmağa başlayır. Buna baxmayaraq, dövlət onun fəaliyyətinin qanunverici bazasını təmin etməyə, vətəndaşların iqtisadi və sosial təşəbbüskarlığı üçün əhəmiyyətli meydan açmağa borcludur. Bu ondan irəli gəlir ki, kooperativ təşkilatlarda on minlərlə insan çalışır, yüz minlərlə insan isə kooperativ müəssisələrin xidmətlərindən istifadə edirlər.

Müasir Azərbaycanda kooperasiyalaşma siyasəti nə kimi üstünlüklər verir:

- Mahiyyət etibarilə gəlir gətirən biznesdir – kənd təsərüfatı fermerlərinin sərvət və mülkiyyətini genişləndirir;
- Kollektiv idarəçilik–siyasi bərabərlik və demokratik institutların yaradılması üçün təcrübə əldə etmək baxımından mühim bir məqamdır;
- KTK-ları işçilərinin öz işindən həzz almasına səbəb olur;
- Əmək təhlükəsizliyi (mənfəət azalsa belə, iş saatlarının azaldılması ilə işçilərin işdə saxlanması baxımından);
- Sosial ədalət,qarşılıqlı inam və anlayış bu qurumu daha cəlbedici edir;
- Vəsaitlərin səmərəli xərclənməsi və maliyyə şəffaflığını təmin edir;
- Yoxsulluğun və işsizliyin aradan qaldırılması;
- Mülkiyyət və demokratik idarəetmə, gəlirlərin artması;
- Öz üzvlərinin ehtiyaclarının qarşılanması baxımından səmərəli xidmətin göstərilməsi (daha şaxəli fəaliyyət – daha çox gəlir);
- Keyfiyyətli məhsulların artması;
- Rəqabətliliyin və bazarların artması;
- Məhsulun maya dəyərin aşağı düşməsi;
- Kənd təsərüfatının inkişafının inkişafının icmaların həyat tərzinin artmasına dəstəyi;
- Dövlətin təmannasız ayırdığı subsidiyaların büdcədə qalması və digər əhəmiyyətli sahələrə yönəldilməsi.

Müasir Azərbaycanda kooperasiyalaşma siyasətinin çətinlikləri aşağıdakılardır:

- Yerli kənd əhalisi arasında bilik və bacarıqların olmaması;

- Müasir mühitə uyğun olaraq aqrar sahə üzrə mütəxəsislərin yetişdirilməməsi;

- Yerli əhalinin bugünki bazar qiymətlərindən məlumatsız olması (bazara birbaşa çıxışının olmaması);

- Tədarükçülərlə əlaqələrinin müasir səviyyədə olmaması;

- Idarəetmə bacarıqlarının zəif olması;

- Kənd Təsərrüfatı texnikalarının yararsızlığı.

Xarici təcrübə göstərir ki, əsası hələ XVII-XVIII əsrlərdə qoyulmuş Avropa kooperativ hərəkatı böyük inkişaf yolu keçmişdir. İngiltərədə, İtaliyada, Fransada, Almaniyada və digər Avropa dövlətlərində kooperasiya sisteminin qanunvericilik bazası artıq XIX əsrin ikinci yarısında qoyulmuşdur.Bugün Rusiyada, ABŞ-da, əksər Avropa və Asiya ölkələrində aqrar sektorun kooperasiya, maliyyə-kredit və sığorta məsələlərini tənzimləyən və stimullaşdıran çox sayda qanunverici aktlar qəbul edilmişdir (2;94). Azərbaycanda kooperasiya 1888-ci ildə Şamaxıda (Çuxuryurdda) və Xankəndində ilk kooperativlər yarandıqdan sonra təşəkkül tapmış, sonradan bütün regionları əhatə etmişdir. Kooperativlərin fəaliyyətlərini mərkəzləşmiş qaydada idarə etmək üçün 1915-ci ildə "Xəzər Topdansatış Əməliyyat Cəmiyyəti" adlı ittifaq təsis etmişlər.1920-ci ildə bu ittifaqın bazasında Azərbaycan İstehlak Cəmiyyətləri İttifaqı– "Azərittifaq" təsis olunmuşdur.1997-ci ildə adı dəyişdirilərək Azərbaycan Mərkəzi Kooperativlər İttifaqı adı qəbul edilmişdir. Hal-hazırda 300.000 nəfərdən çox üzvü var.

Kooperasiya münasibətləri geniş potensial imkanlara malikdir və həmin potensial imkanlardan iqtisadi böhranın aradan qaldırılması, iqtisadiyyatın sabitləşdirilməsi, xüsusilə ölkənin ərzaq təminatının yaxşılaşdırılması baxımından səmərəli şəkildə istifadə edilməsi daha məqsədəuyğundur. Təcrübə göstərir ki, ekoloji cəhətdən qeyri-əlverişli olan rayonlarda kənd təsərrüfatının inkişaf etdirilməsi baxımından kooperasiyanın potensialının reallaşdırılması imkanları kifayət qədər böyükdür (1;21).

Dünya təcrübəsi göstərir ki, müasir dövrdə beynəlxalq iqtisadi inteqrasiyanın qloballaşdığı bir şəraitdə milli iqtisadiyyatın təşəkkülü və inkişafı prosesində qarşıya çıxan problemlərin həlli, o cümlədən normal istehlak (və istehsal) bazarının formalaşması və onun dinamik tarazlı inkişafının təmin olunması yalnız daxili imkanlar hesabına deyil, daxili və xarici amillərin dialektik vəhdəti bazasında mümkündür (4;331).Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvülüyü məsələsi qloballaşma şəraitində kooperasiyanın inkişafını daha da səmərəli etmişdir.

Müasir Azərbaycanda kənd təsərrüfatı kooperativlərinin inkişafını stimullaşdırmaq məqsədilə potensial kooperatorların (yardımçı ailə, şəxsi yardımçı təsərrüfatların və digərləri) hüquqi statusun möhkəmləndirilməsi və təsərrüfat fəaliyyətinin möhkəmləndirilməsi və təsərrüfat fəaliyyətinin tənzimlənməsinin təkmilləşdirilməsi üçün tədbirlər görülməli, kooperativlərin özlərinin formalaşmasının və fəaliyyətin hüquqi bazası yaxşılaşdırılmalıdır. Kənd təsərrüfatı istehlak kooperativlərini kənd təsərrüfatı istehsalçılarına yaxınlaşdırmaq məqsədilə Azərbaycan Respublikasının Vergilər Məcəlləsinə dəyişikliklər daxil edilməlidir, yəni ki əlavə dəyər vergisindən yayındırmamaqüçün kənd təsərrüfatı istehlak kooperativləri tam formalaşana qədər, yəni 10-15 il ərzində əlavə dəyər vergisindən azad edilməlidir. Eyni zamanda istehlak kooperativlərində ziyanların bölüşdürülməsi və onların ləğv edilməsi qaydaları kooperativlərin öz üzvləri arasında müqavilə münasibətləri əsasında qurulmalıdır. İcra hakimiyyəti orqanları tövsiyyəvi xarakter daşıyan bir sıra sənədlərin, o cümlədən kənd təsərrüfatı istehlak kooperativləri və onların üzvləri arasında müqavilələrin bağlanması və icrası, kooperativlərin uçot və hesabatının aparılması qaydaları barədə metodiki tövsiyyələrin, nizamnamə layihələrinin hazırlanmasını təşkil etməlidir (2; 102)

Müasir Azərbaycanda kooperasiyalaşma siyasətinin fəlsəfi baxımdan qiymətləndirilməsi üçün iqtisadi forumlar keçirilmişdir. Həmin forumlarda kooperasiyalaşma siyasəti ilə bağlı fəlsəfi məsələlər – Müasir Azərbaycanda kooperasiyalaşma siyasətinin mahiyyəti, nəyə görə kooperasiya haqqında qanunun verilməsinin vacib olması və bunun statistik göstərilməsi, kooperativlərin yaradılmasının Azərbaycanın iqtisadiyyatına nə kimi üstünləklər verəcək və sosial vəziyyətdə həyat səviyyəsinə necə təsir edəcək, qarşıda duran çətinliklərin həlli yolları, xarici ölkələrin təcrübəsindən istifadə edilməsinin əsaslandırılması, konkret olaraq bugün üçün edilməli məsələlər və digərləri yuxarıda dolğun şəkildə işıqlandırılmışdır.

## ƏDƏBİYYAT

1. Eldar Quliyev "Etibarlı ərzaq təminatı sistemi: kooperasiya və inteqrasiya problemləri", Bakı: 2013, s. 302

2. Ələkbərov Rövşən "Müasir şəraitdə kooperasiyanın təşkilati mexanizmlərinin təkmilləşdirilməsi", i.ü.f.d elmi dərəcəsi almaq üçün dissertasiya, Bakı: 2017, s. 154
3. Əlisa Zeynallı "Aqrar-sənaye kompleksi sahələrində kooperasiya və inteqrasiya münasibətləri: nəzəri və təcrubi məsələlər", Bakı: 2017, s. 748
4. Həsən İsrafilov "Qloballaşma şəraitində istehlak kooperasiyasının təkmilləşdirilməsi istiqamətləri", Bakı: 2009, s. 464
5. V.İ.Lelin "Kooperasiya haqqında", Baki:1956, s. 12

**A philosophical view of the policy of cooperation in modern Azerbaijan**

**SUMMARY**

**Key words:** *Production Cooperatives, Consumer Cooperatives, Cooperative Policy, Agriculture, Subsidies, Cooperatives*

Laws implemented by national leader Heydar Aliyev in the field of co-operation in the agrarian sector and continuing of his policy by President Ilham Aliyev, have increased interest to agriculture. Implementing cooperative law partially eliminated the gap in the agrarian sector. However, this policy must be followed consistently and practical steps must be taken to strengthen the activities of production and consumer cooperatives. The impact of modern Azerbaijan's co-operation policy on social-economic development and improving living standards has been significant over the past few years. The article extensively describes the benefits, challenges and goals of co-operation for the current situation in Azerbaijan. There are shown ways to overcome the problems of implementing co-operation policy in Azerbaijan. In addition, the article highlights how important it is to Azerbaijan by statistical info. From foreign experience, Europe and several Asian countries, which have undergone a historic development of the co-operation, have been shown to have better social economic development. From these experiences, ways have been shown to stimulate the development of agricultural cooperatives in modern Azerbaijan. As a result of the policy of co-operation, more rural areas are located in the regions, which will reduce unemployment and economic expansion in suburban places.

**Философский взгляд на Кооперативная политике в современном Азербайджане**

**РЕЗЮМЕ**

**Ключевые слова:** *Производственные кооперативы, Потребительские кооперативы, Кооперативная политика, Сельское хозяйство, Субсидии, Кооперативы*

Законы, принятые общенациональным лидером Гейдаром Алиевым в области сотрудничества в аграрном секторе и продолжения его политики президентом Ильхамом Алиевым, повысили интерес к сельскому хозяйству. Реализация кооперативного права частично устранила слабость в аграрном секторе. Однако этой политике необходимо последовательно следовать, и должны быть предприняты практические шаги для усиления деятельности производственных и потребительских кооперативов. Влияние политики сотрудничества современного Азербайджана на социально-экономическое развитие и повышение уровня жизни за последние несколько лет было значительным. В статье подробно описываются преимущества, проблемы и цели сотрудничества для текущей ситуации в Азербайджане. Показаны пути преодоления проблем реализации политики кооператива в Азербайджане. Кроме того, в статье подчеркивается, насколько это важно для Азербайджана со статистической информации. Исходя из зарубежного опыта, Европа и некоторые азиатские страны, которые пережили историческое развитие кооператив, показали лучшее социально-экономическое развитие. Из этого опыта были показаны пути стимулирования развития сельскохозяйственных кооперативов в современном Азербайджане. В результате политики сотрудничества в регионах будет больше сельских районов, что приведет к снижению безработицы и экономической экспансии в пригородных районах.

*Redaksiyaya daxilolma: 03.02.2020*
*Çapa qəbul olunma: 10.02.2020*

UOT(4794)

# MÜASİR DÖVRDƏ AZƏRBAYCANDA KOOPERASİYA SİYASƏTİ

***G.Ş.Quliyeva***
***Azərbaycan Dövlət Aqrar Universitetinin***

**Açar sözlər:** *kooperativ, kooperasiya, qanunvericilik bazası, dövlət siyasəti*

Kooperasiyalar haqqındakı daha dolğu gerçəkliklər belədir ki, o insanı istehsal, xidmət, ticarət və digər bu kimi sahələrin sahibkarı etməklə, onun yaradıcılıq imkanlarını aşkara çıxarır. Təsadüfi deyildir ki, məhz kooperasiya ölkələrdə əsaslı dərəcədə sosial-iqtisadi inkişafa təkan verərək, bir sıra neqativ halların qarşısını almağa şərait yaradır, əhalinin ərzağa, istehlak mallarına, müxtəlif xidmətlərə olan tələbatının ödənilməsinin ən vacib amilinə çevrilir. Kooperasiya özünün fəaliyyət mexanizmi olan kooperativ hərəkatı vasitəsi ilə ölkənin iqtisadiyyatının müxtəlif sferalarını əlaqələndirir. Müasir dövrdə genişlənən qloballaşma və dərinləşən liberal iqtisadi proseslər kooperasiyanın sadə istehsal və xidmət sektorundakı fəaliyyətini gücləndirməklə yanaşı, onun elm, təhsil, mədəniyyət, informasiya vasitələri və üstün texnologiyalar istehsalı sferalarına çıxışını təmin etmişdir.

Azərbaycanda kooperativlərin hüquqi vəziyyətini Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 109-cu maddəsi müəyyən edir. Məcəlləyə uyğun olaraq kooperativin üzvü Məcəllənin tələbinə cavab verən və kooperativin nizamnaməsində müəyyənləşdirilən qaydada və həcmdə üzvlük haqqı, mütləq və əlavə pay haqqı ödəmiş və kooperativə qəbul edilmiş, onun fəaliyyətində iştirak edən və səs hüququ olan fiziki və ya hüquqi şəxsdir. Bu o deməkdir ki, istehsal kooperativində iş əsas sayıldığından kooperativin üzvü kooperativin fəaliyyətində şəxsi iştirak etməli, kooperativin nizamnaməsinə cavab verməli və pay haqqı ödəməlidir [1].

Səs hüququ ilə kooperativin üzvlüyünə qəbul edildikdə kooperativin öhdəliklərinə görə subsidar cavabdehlik daşımalıdır. Kooperativlərin nizamnamələri kooperativə daxil olan şəxslər üçün digər tələbləri də nəzərdə tuta bilər, məsələn, müəyyən şəxsi keyfiyyətlərə uyğun gəlməsini. Elmi ədəbiyyatda bu tələbin abstraktlığı dəfələrlə qeyd edilirdi. Bundan başqa, bu norma kooperativdə üzvlüyün açıqlıq prinsipini pozur. Kooperativin ortaq (assosiativ) üzvünə gəldikdə demək lazımdır ki, bu, Mülki Məcəllənin tələblərinə cavab verən və kooperativin nizamnaməsində müəyyənləşdirilən qaydada və həcmdə üzvlük haqqı və yalnız mütləq pay haqqı ödəmiş və kooperativə qəbul edilmiş, onun fəaliyyətində iştirak etmiş və Məcəllədə nəzərdə tutulan hallar istisna olmaqla səs hüququna malik olmayan fiziki yaxud hüquqi şəxsdir. Göründüyü kimi, Azərbaycanda kooperativçilikdə assosiativ üzvlüyə yol verilir. Kooperativin assosiativ üzvü fiziki yaxud hüquqi şəxs olmaqla, ödədiyi pay haqqı üzrə dividendlər alır, kooperativin fəaliyyətilə bağlı öz pay haqqının dəyəri həcmində ziyanın riskini daşıyır. Fərq ondadır ki, kooperativdə assosiativli üzv səs hüququna malik olmur. Demək lazımdır ki, xaricdə isə qanunla və kooperativin nizamnaməsi ilə qoyulmuş məhdudiyyətlər nəzərə alınmaqla assosiativ üzvün səs hüququ vardır [4].

Bütün təşkilatlar üçün ümumi olan bu əlamətlər kənd təsərrüfatı kooperativlərinə də xasdır. Bununla yanaşı kooperativlərin fəaliyyətində onların yaradılması və fəaliyyətinin prinsipləri mühüm rol oynayır. Bunlar əsasverici hüquqi başlanğıc olmaqla bütün növdən olan kooperativlərin eyniliyini saxlamağa, hüquqi şəxslərin kooperativin təşkilati-hüquqi formasını digər təşkilati-hüquq formalarından fərqləndirməyə imkan verir. Odur ki, onlar “kooperasiyanın sarsılmaz tələbi, güc və enerji mənbəyidir” [2].

Kooperativlərin birinci ilk, fərdi olaraq istehlak prinsipi Rodçel şəhərindən olan kooperatorlar tərəfindən formalaşdırılmışdır. Onlardan əsasları aşağıdakılar idi: qərar qəbul edilərkən payların miqdarından asılı olmayaraq «bir üzv bir pay», kooperativdə yalnız təmiz mallar, təmiz çəkidə və dəqiq ölçüdə satılır, pay gəliri kooperatorların sosial ehtiyaclarına yönəldilir, gəlirin əsas hissəsi alınan mallara görə üzvləri arasında bölüşdürülür, kooperativ siyasi və dini məsələlərdə neytrallığa əməl edir. Bu prinsiplər özlüyündə bütün dünyada geniş yer almışdır. Belə ki, müasir kooperativlərin fəaliyyəti «kooperativlərin bir sıra dəyərlərinə əsaslanır: qarşılıqlı yardım, qarşılıqlı cavabdehlik, demokratiya, bərabərlik, haqq, həmrəylik və bir sıra etik prinsiplərə: düzlük, aşkarlıq, sosial cavabdehlik və digərlərə qayğı». Beləliklə, kooperativin təşkilati formasının əsas əlamətləri aşağıdakılardır: kooperativdə ilk əvvəl kapitalın yox, şəxslərin birləşməsi; kooperativ fəaliyyətin məqsədi kooperativ üzvlərinin təkcə maddi yox, həmçinin sosial tələbatlarının təmin edilməsi; kooperativdə könüllülük əsasında üzvlük; demokratik idarə-

etmə; kooperativin fəaliyyətində iqtisadi iştirak [3]. Kooperativ dəyərlər öz əksini Qanunda da tapmalıdır. Kənd təsərrüfatı kooperativlərinin təşkili və fəaliyyətinin əsasını təşkil edən prinsiplərə bunlar aid ola bilər: kooperativin üzvlüyündə könüllülük. Bu prinsip o deməkdir ki, Qanunun və kooperativin nizamnaməsinin tələblərini təmin edən hər bir şəxs kooperativin üzvü ola bilər və öz ərizəsi ilə onun tərkibindən çıxa bilər; kooperativin istehsal və digər təsərrüfat fəaliyyətində iştirak edən üzvləri üçün qarşılıqlı yardım və iqtisadi gəlirin təmin edilməsi; kooperativ üzvlərinin şəxsi əməyi yaxud təsərrüfat fəaliyyətində iştirakı nəzərə alınmaqla kooperativin gəliri və ziyanının onların arasında bölüşdürülməsi. Göstərilən prinsip Mülki Məcəllənin maddəsində əksini tapır: istehsal kooperativlərində kooperativ ödəmələri kooperativin üzvləri arasında il ərzindəki əmək ödənişlərinə, istehlak kooperativlərinin üzvləri arasında isə onların təsərrüfat fəaliyyətindəki iştirak payına mütənasib olaraq bölüşdürülür.Bu mexanizm kooperativ üzvlərinin, kooperativin fəaliyyət nəticələrinə olan marağının artmasına təsir göstərir; kooperativin iştirakçısı olmayan şəxslərin onun fəaliyyətində iştirak məhdudiyyəti. Kooperativin ilk əvvəl öz üzvlərinin tələbatlarının ödənilməsinə yönəldiyini nəzərə alaraq, kooperativ qanunvericiliyi, kooperativin üzvü olmayan şəxslərin iştirakını məhdudlaşdırır, yaxud qadağan edir.

XX əsrin əvvəlində Azərbaycanda yaranmış Kooperasiya institutu bütün yüzillik ərzində respublikanın dirçəlişində çox mühüm təsisatlardan biri olmuşdur. Sovetlər dönəmində Azərbaycan əhalisinin 2/3 hissəsinə müxtəlif ticarət, ictimai iaşə, tədarük və s. xidmətləri göstərən bu sahələr respublikanın müvafiq istiqamətdə bütün dövriyyəsinin 30-35%-ni əhatə etmişdir. İttifaqın dağılması və yeni iqtisadi sistemə keçid şəraitində uzun illər mövcud əlaqələrin qırılması,ilkin dövrlərdə kooperasiya mühitində böhranlı vəziyyət yaradaraq, onun rəqabətliliyini zəiflətmiş və bazar münasibətlərinə transformasiyasını ləngitmişdir.

Müstəqil Azərbaycanda bazarın sosial-iqtisadi mühitində keyfiyyət dəyişiklikləri sürətlənir, qarşılıqlı qlobal asılılıqlar dərinləşir. Hazırda kooperativlər Azərbaycanda əsas mal istehsalçıları sayılırlar. Bütün dünyada məlum olan hüquqi şəxslərin təşkilati-hüquq forması kimi kooperativlərin üstünlükləri Azərbaycanda da məlumdur. Kooperasiyanın pozitiv rolunu Azərbaycanda kooperativlərin tarixi iş təcrübəsi də təsdiq edir.

Kooperasiyaların inkişafı üçün Azərbaycanda kifayət qədər imkanları mövcuddur. Bununla belə yeni kooperativ təsisatlarının yalnız aqrar sektorunda və ticarət sahəsində deyil, xalq istehlakı malları, məişət xidmətində, hətta elm, təhsil, mədəniyyət və informasiya vasitələri sferalarında da təsisatlandırılması institutsional və iqtisadi baxımdan əhəmiyyətlidir. Bu reallıq dünya iqtisadiyyatında kooperasiyanın sürətlə inkişaf etməsi, bir sıra inkişaf etmiş ölkələrdə isə onun ümumi daxili məhsulda xüsusi çəkisinin yüksəlişi və rəqabət qabiliyyətinin artması ilə bağlıdır.(5)

Bazar iqtisadiyyatı ilə uğurla irəliləyən respublikamızda da kooperasiyanın inkişafı üçün maksimal şərait və real imkanlar mövcuddur. Bunun üçün aşağıdakı tədbirlərin keçirilməsi vacibdir:

- Kooperasiya prinsiplərinin möhkəmləndirilməsi istiqamətində təşviqati işləri gücləndirmək;
- Kooperativ sektorda fəaliyyət göstərən insanlara dövlət qayğısını artırmaq;
- Kooperasiyanın fəaliyyət səmərəliliyini stimullaşdıran əlverişli iqtisadi mühiti formalaşdırmaq;
- Mövcud normativ-hüquqi bazanın genişləndirilməsinə və təkmilləşdirilməsinə nail olmaq;
- Kooperasiyanın diversifikasiyası prosesinin reallaşdırılması üçün yeni fəaliyyət istiqamətlərinin təsisatlandırılmasını və məhsul çeşidinin artırılmasını stimullaşdırmaq;
- Kooperativ hərəkatı aktivləşdirən uzunmüddətli dövlət proqramları hazırlamaq və reallaşdırmaq

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Mülki M əcəlləsi. Bakı: Qanun, 2008, 640 s.
2. Аграрное право: Учебник (С.А. Боголюбов, М.М. Бринчук, Н.О. Веедышева [и др.], отв. ред. М.И. Палладина, Н.Г. Жаворонкова. М.: Проспект, 2012. 432 с.
3.«Kənd təsərrüfatı kooperasiyası haqqında» Azərbaycan Respublikasının Qanun layihəsi, 2013.
4. Козырь М.И., Палладина М.И. Еще раз о правовом положении субъектов сельскохозяйственной кооперации в России, 2008.
5. H.A.İsrafilov "Qloballaşma şəraitində istehlak kooperasiyasının təkmilləşdirilməsi istiqamətləri" Bakı: 2010

## The state policy and legislative base improvement of cooperation in Azerbaijan


### SUMMARY

**Key words:** *cooperative, cooperation, legislative base, state policy*

The paper discusses the basic provisions on cooperatives provided for by Art. 109. Civil Code of the Republic of Azerbaijan.The legal status of cooperation is analyzed, a comparison with other states is given. Also summarizes the current state of cooperation, problems and some elements of its ways improvement. Qualitative changes are accelerating in the socio-economic environment of the market in independent Azerbaijan, and deepening global interdependencies. Currently, cooperatives are the main commodity producers in Azerbaijan.


## Совершенствование законодательной базы кооперации в Азербайджане и государственная политика


### РЕЗЮМЕ

**Ключевые слова:** *кооператив, кооперация, законодательное право, государственная политика*

В работе рассматриваются основные положения о кооперативах, предусмотренные ст. 109 гражданского кодекса Азербайджанской Республики. Анализируется правовое положение кооперации, дается сравнение с другими государствами. Также обобщается современное состояние кооперации, проблемы и некоторые элементы путей ее совершенствования. Качественные изменения в социально-экономической среде рынка в независимом Азербайджане ускоряются, углубляя глобальную взаимозависимость. В настоящее время кооперативы являются основными товаропроизводителями в Азербайджане.


*Redaksiyaya daxilolma: 03.02.2020*
*Çapa qəbul olunma: 10.02.2020*

**UOT 9(4794)**

# TÜRKİYƏDƏ KOOPERASİYA SİYASƏTİ VƏ ONUN NƏTİCƏLƏRİ

***Ç.Q.Səfərova***
***Azərbaycan Dövlət Aqrar Universiteti***

**Açar sözlər:** *kooperasiya, qloballaşma, istehsal, fiziki şəxs, kooperativ hərəkatı, iqtisadi göstəricilər*

Türkiyədə kooperativlərin inkişaf tarixini araşdırarkən, bu institutun hələ çox qədimlərdən türk millətinin kəndlərində geniş yayılmış «İməclik» qurumu və XIII əsrdə Anadolu Səlcuqlu Dövlətinin son dövrlərində ortaya çıxan «Ahi Birlikləri»nə gedib çıxdığını görürük. Belə ki, kooperativlər kimi daimi qurumlar olmasalar da, kəndlərdə ortaq sütxanalardan, camaşırxanalardan istifadə, kəndin heyvanlarını otlatmaq üçün ortaq çoban tutma, qarovulçu tutma, yol salma, ortaq qoruq və otlaq formalaşdırma kimi işlərin kəndlilər tərəfindən «İməclik» qurumu yolu ilə həyata keçirdiyinə şahid oluruq.Ancaq iqtisadi ədəbiyyatlarda Türkiyədə müasir kooperatif hərəkatının təşəkkülü Osmanlı və Respublika dövrlərinə ayrılmaqla öyrənilir. Osmanlı dövrü Türk ko-operativ hərəkatının banisi Midhət Paşa, Respublika dövrü Türk kooperativ hərəkatının banisi isə Atatürk qəbul edilir [4].

Türkiyədə kooperativ düşüncəsinin və hərəkətinin inkişafı Mithat Paşa tərəfindən qurulan «Məmləkət Fondu»(Memleket Sandığı) ilə başladı.Cümhuriyyətin ilk illərində qurulan kooperativlərin çoxluğu Atatürkün kooperativlərə nə qədər əhəmiyyət verdiyini göstərməkdədir. 1929 və 1935-ci illərdə verilmiş kənd təsərrüfatı kredit və kənd təsərrüfatı satış kooperativləri qanunları ilə Türkiyədəki kooperativlər ədədlərində əhəmiyyətli artımlar görülmüşdür. 1950-ci illərdə Kooperativ düşüncəsində bu sürətli inkişaf daha sonrakı illərdə verilən qanunlarda və planlarda özünü göstərməyə başladı. Həm hüquqi, həm də iqtisadi baxımdan kooperativ sözünün çoxlu tərifləri verilmişdir. Sözün mənası hesab edildikdə, əsasən əməkdaşlığı təsvir etməklə, hüquqi və iqtisadiyyat baxımından fərqli şəkildə müəyyən edilir.Latınca Cooperatia sözündən əmələ gəlmiş və əməkdaşlıq etmək mənasında işlədilir. İqtisadi cəhətdən müxtəlif təriflərdən bəziləri bunlardır: Kooperativ bölüşdürülməsindən əziyyət çəkənlər üçün tarazlığı aradan qaldırmaq və bölüşdürmədə tarazlığı yaratmaq məqsədi ilə öz istəkləri ilə birləşərək yaratdıqları kollektiv bir müəssisədir."[6]. Dünyadakı kooperativ hərəkatı sosial-mədəni-iqtisadi-siyasi vəziyyətlərlə ilə əlaqədar hər ölkədə fərqli xüsusiyyətlərə malikdir.Türkiyədə kooperativ hərəkatı Osmanlı imperiyası dövründə Mithət paşanın məmləkət sandıqları ilə başlamış və sonrakı illərdə dövrün şərtlərinə uyğun olaraq tədricən irəliləməyə davam etmişdi. Türkiyə XIX əsrin ortalarına qədər nizamlı təşkilatlara nəinki kənd təsərrüfatı krediti sahəsində deyil, həm də iqtisadi fəailiyyətin heç bir sahəsində də rast gəlinməmişdi. Fermerin təşkilata bağlamadığı bir kredit mexanizmin təkərləri arasında,sərvətçilərin ağır faizləri altında əzildiyinin görülməsi kooperativ kənd təsərrüfatı kredit sisteminə ehtiyac olduğunu ortaya qoymuşdu.Mithət paşa əvvəlcə Niş və daha sonra Silistre və Vidinin birləşməsi nəticəsində meydana gələn Tuna vilayətində qubernator olarkən kəndlilərin kənd təsərrüfatı kredit sisteminə qovuşmasındakı çətinliyi görmüşdür ona görə də 1863-cü ildə Tuna vilayətinin Pirot qəsəbəsində birinci təşkilatı qurmuş və 1867-ci ildə rəsmilik qazandırmışdır. Bu təşkilata da "Məmləkət sandığı " adı verilmişdir [5].

Məmləkət Fondları kəndlilərə şəxsi zəmanət və ya girov əsasında ən çoxu bir il müddətinə, aylıq 1%-lik ödəmə şərti ilə və 200 quruş və ya 20 lirədən çox olmayan məbləğdə kredit verirdi. Mənfəətin bir qismi isə sərmayəyə əlavə edilirdi. Bu zaman bir Məmləkət Fondunun kredit verə bilməsi üçün sərmayəsinin ən azı 200 altın olması şərti qoyulmuşdu. Bu fondlar sonralar aktiv dövlət müdaxiləsinə məruz qalmış və XIX əsrin sonlarına doğru idarəolunmaz bir prosesə daxil olmuşdur. Nəticədə 1888-ci ildə onlar tamamilə ləğv edilərək əvəzinə bu gün də fəaliyyət göstərən Ziraat Bankı qurulmuşdur. O zaman ləğv edilən 250 fondun təxminən 2 milyon altın məbləğindəki sərmayəsi Ziraat Bankına verilmişdir [6].

Türkiyə Republikasının qurucusu, Türk Mədəni İnqilabının ideoloqu Mustafa Kamal Atatürk Türkiyə Respublikasının quruldüğu ilk illərdə, hətta ondan da bir neçə il əvvəl bütün sahələrdə olduğu kimi, cəmiyyətin iqtisadi təşkilatlanmasının forma və prinsiplərinin seçilməsi məsələlərinə də öndərlik etmiş və nümunəvi şəxsi təşəbbüsləri ilə prosesə dəstək vermişdir. Respublikanın ilk illərindən Atatürk kooperativ hərəkatına xüsusi önəm vermiş və Türkiyənin aqrar sektorunun və regionlarının inkişaf etdirilməsində əvəzedilməz rolu olduğunu dəfələrlə qeyd etmişdir. Hətta xalqına örnək olsun deyə, 2 kooperativin də ortağı olmuşdur [6].

Atatürkdən sonra Türkiyədə kooperativ hərəkatının inkişafı bir qədər səngisə də, ölkənin planlı inkişaf yoluna daxil olduğu 1960-cı illərdən başlayaraq bu sahədə də önəmli inkişaf baş vermişdir. Xüsusilə Türkiyə dövləti tərəfindən regional və aqrar inkişafın əsas vasitələrindən biri kimi qəbul edilən kooperativlər 1969-cu ildə qəbul edilən 1163 saylı «Kooperativlər Qanunu» ilə modern inkişaf yoluna qədəm qoymuşdur. Qanuna əsasən Türkiyədə qurulan kooperativləri aqrar və qeyri-aqrar kooperativlərə bölmək mümkündür ki, hazırda birincilər Türkiyə Respublikası Kənd Təsərrüfatı və Kənd İşləri Nazirliyi, ikincilər isə Sənaye və Ticarət Nazirliyinin tənzimləmə və nəzarəti altında fəaliyyət göstərirlər.

Bu gün Türkiyədə kooperativlər müəyyən bir inkişaf səviyyəsinə gəlib çatsa da, mütəxəssislərə görə bu mövcud potensialdan çox-çox aşağı səviyyədədir və bu potensialın reallaşdırılması üçün mövcud problemlərin aradan qaldırılması zəruridir [6]. Bu problemləri aşağıdakı kımı qruplaşdıra bılərık:

-  Maliyyə problemləri;
-  Təşkilati problemlər;
-  Təhsil problemləri;
-  Kooperativ-dövlət münasibətlərindəki problemlər;
-  Nəzarət problemi;
-  Sosioloji və psixoloji problemlər.

Türkiyədə kooperativ-dövlət münasibətlərində də bir sıra problemlər vardır. İlk növbədə, kooperativlər dövlət qurumlarından çox asılı vəziyyətdədir ki, bu da onların professional inkişafına mane olmaqdadır. Həmçinin, kooperativlərin siyasi maraqların təsirinə məruz qalması da ciddi səviyyədədir.

Ölkədə kooperativlərin inkişafına mane olan faktorlardan biri də sosioloji və psixoloji faktorlardır. Belə ki, düşüncə sistemi, adət və ənənə ilə köhnə vərdişlər, kooperativlərə qarşı

bir şübhəçliyin yayılmasına səbəb olmuş, yeniliyə qarşı bir müqavimət yaratmışdır. Mülkiyyət problemi bu sahədə ən önəmli problemlər arasındadır. Belə ki, torpaq bölgüsündəki nisbətsizlik böyük torpaq sahiblərinin kooperativlərə qarşı çıxmalarına səbəb olmaqda və hətta kooperativlərin özəl mülkiyyəti aradan qaldıran, kollektiv kooperativlərin yayılmasına mane olmaqdadır. Bunlarla yanaşı, ölkədə insanların bir-birinə güvən səviyyəsinin getdikcə aşağı düşməsi və kənddən şəhərə köç də kooperasiyanın inkişafına təsir göstərməkdədir. Xüsusilə, köç səbəbindən aqrar kooperativlərin əksəriyyətində yaşlı əhali daha yüksək paya sahibdir ki, bu da onların dinamik inkişafına mənfi təsir göstərmə dədir [2].

Türkiyədə kooperativlərin sayca ən çoxu - 31327-i, təxminən 57%-i Mənzil-tikinti

Kooperativləridir. Bu kooperativlər, aşağı və orta gəlirli türk vətəndaşlarının mənzil ehtiyaclarını mümkün qədər aşağı qiymətlərlə təmin etmək məqsədilə qurduqları kooperativlərdir. Türkiyədə ilk mənzil kooperativi 1887-ci ildə İstanbulda etnik ingilislərin bəzi məmurları tərəfindən şirkət adı ilə qurulmuşdur [4]. Mənzil-tikinti kooperativlərindən sonra sayca ikinci sırada Aqrar İnkişaf Kooperativləri dayanır. Bunların sayı 7461, üzvlərinin sayı isə 790 min nəfərdən çoxdur. Mühərrikli Nəqliyyatçılar Kooperativləri isə Türkiyədə sayca (5356) üçüncü yeri tuturlar. Bunlar nəqliyyatçılığı peşə kimi seçən şəxslər (avtobusçular, taksiçilər, ağır yük daşıyıcıları, dəniz yük daşıyıcıları) tərəfindən qurulan kooperativlərdi. Türkiyədə Aqrar Kredit Kooperativləri də həm öz sayları,həm də üzvlərinin sayına görə önəmli yeri tuturlar. Aqrar Kredit Kooperativləri, üzvlərinin qısa və ortamüddətli kredit ehtiyaclarını təmin edir. Çuğundur Əkinçiləri Kooperativləri sayca az olsa da, 1,6 milyona çatan üzvlərinin sayına görə Türkiyədə ilk sıradadır. Bu kooperaativlər daha çox xammal və təchizat təminatı sahəsində fəaliyyət göstərir və üzvləri olan şəkər çuğunduru istehsalçılarını bu xammal və təchizatla (toxum, gübrə, dərman, maşın və.s) topdan təmin edərək, münasib şərtlərlə satmaqdadır [3].

Tütün Türkiyədə təxminən 500 min ailə tərəfindən 300 min hektarlıq sahədə istehsalı həyata keçirilən bir bitki olmaqla, ölkə iqtisadiyyatı üçün məşğulluq və gəlir təmini ilə yanaşı, həmçinin mühüm valyuta mənbəyidir. 1969-cu ildə isə 1196 saylı «Tütün Aqrar Satış Kooperativləri Qanunu» qəbul edilmiş və o tarixdən Tütün Aqrar Satış Kooperativlərinin geniş yayılmasına başlanmışdır [7].

Bütün ölkələrdə olduğu kimi, Türkiyədə də kiçik tacir və sənətkarların, kiçik sənaye müəssisələrinin maddi təminatları olmadığından özəl banklardan birbaşa kreditalma problem vardır. Bunun müəyyən qədər də olsa həlli məqsədilə üzvləri tacir və sənətkarlar adından ortaq və bərabər formada banklardan kredit almalarını təmin etmək məqsədilə Tacir və Sənətkarlar Təminat Kooperativləri qurulmuşdur.

1967-ci ildən başlayaraq, Türkiyədə turizm kooperasiyası da geniş yayılmağa başlamışdır. Bu gün bu kooperativlər Turizmi İnkişaf Etdirmə Kooperativləri adı ilə fəaliyyət göstərirlər. 1980-cı illərdən sonra daha sürətlə inkişaf edən bu kooperativ növü əsasən Türkiyənin Egey və Aralıq Dənizi sahilləri ilə Nevşehirdə fəaliyyət göstərməkdədir. Mədəniyyət və Turizm Nazirliyi öl-

kədə turizm kooperasiyasını təşviq etmək məqsədilə öz nəzdində Turizmi İnkişaf Etdirmə Kooperativləri İdarəsini belə qurmuşdur [7].

Türkiyədə kooperasiyanın inkişafında dövlətin təmin etdiyi dəstəklərin də mühüm payı vardır. Onların əsasında da vergi azadolmaları və güzəştləri dayanmaqdadır. Hazırda Türkiyədə kooperativlərə Korporasiya Vergisi, Gəlir Vergisi və Əlavə Dəyər Vergisi kimi qanunlarda müxtəlif təşviqlər nəzərdə tutulmuşdur. Həmçinin, bəzi rüsum və ayırmalardan da güzəştlər vardır. Türkiyədə kooperasiyanın inkişaf perspektivləri baxımından 2007-2013-cü illəri əhatə edən IX İllik İnkişaf Planındakı müddəalara nəzər yetirmək də zəruridir. Ölkənin Avropa Birliyinə üzv olması prosesinə kömək edəcək təməl strateji əhəmiyyətli sənəd olan bu indikativ plan təsisatın maliyyə təqvimi nəzərə alınaraq 7 illik hazırlanmışdır. Planın Avropa Birliyinə Qoşulma Prosesi adlanan bölməsinin 50-ci maddəsində Avropa Birliyinə üzvlük prosesinin cəmiyyətin bütün təbəqələrinə təsir göstərəcəyi qeyd edilmişdir. Üzvlüyün əhatəli bir şəkildə baş verməsi üçün işçi işəgötürən və mülki cəmiyyət qurumlarının prosesə aktiv qoşulmalarının təmin ediləcəyi qeyd olunur. Həmçinin 273-cü maddədə mülki cəmiyyət qurumlarının aktiv köç və plansız şəhərləşmədə meydana gələn uyğunlaşma problemini həll etməyə yardımçı ola biləcəyi ifadə edilmişdir.[1] Bu baxımdan kooperativlərin də rolu bu istiqamətdə artacaqdır. Planda eyni zamanda ölkənin ən önəmli problemlərindən birinin aqrar sektordakı aşağı məhsuldarlıq olduğu göstərilir. Ölkənin rəqabət qabiliyyətini azaldan mühüm faktorlardan olan bu problemin həlli məqsədilə, aqrar sektordakı istehsal qurumlarının, o cümlədən kooperativlərin də aktiv şəkildə dəstəklənəcəyi qeyd olunmuşdur. Göründüyü kimi, Türkiyədə kooperasiyanın inkişafının bundan sonrakı mərhələsi, daha çox bu qurumların Avropa Birliyi standartlarına yüksəldilməsi ilə yadda qalacaqdır.

## ƏDƏBİYYAT


1. H.A.İsrafilov.Qloballaşma şəraitində istehlak kooperasiyasının təkmilləşdirilməsi istiqamətləri. Bakı: "Elm", 2009, s. 464

2. Bilgin N., Tanıyıcı Ş., Türkiye'de Kooperatif ve Devlet İlişkilerinin Tarihi Gelişimi, Mustafa Kemal Üniversitesi İktisadi İdari Bilimler Fakültesi Dergisi Yıl: 10 Sayı, 15 Aralık 2008, s.159

3. .İnan İ.H., Türkiye'de Tarımsal Kooperatifçilik ve AB Modeli, İTO Yayınları, No. 2008, 73, Genişletilmiş 2. Baskı, İstanbul: 2008, 279 s

4. Koç H. Kooperativçilik Bilgileri, Nobel Yayın Dağıtım, Gözden Geçirilmiş II. Basım, Ankara: 2001, 187 s

5. Memleket Sandıkları Nizamnamesi, 17 Rebiülevvel 1284 (1867), Madde: 6.

6. Mülayim Z.G., Kooperativçilik, Yetkin Yayınları. Ankara: 2006, 503 s

7. Müftüoğlu H., Aydos V., Türkiye'de Kooperatifçilik: Türk Konut Kooperatifçiliğine Alternatif Bir Model: Almanya, İstanbul Ticaret Odası No. 2001-46, İstanbul: 2001, 103 s.


## SUMMARY


There are problems A number of cooperative-state relations in Turkey Developed countries are far superior to other countries for their economic performance. Cooperative relationships are currently characterized as social movements. The relations of production in this sector as well, with all the features of the property is reflected in its implementation. Realization of property also plays an integral part of social and economic relations in production relations. In general, the unique advantages of cooperative relationships have always distinguished them from other commercial structures. Undoubtedly, the state in the development of cooperation in Turkey the support they provide is also important.


## РЕЗЮМЕ


Есть проблемы ряда кооперативно-государственных отношений в Турции. Развитые страны намного превосходят другие страны по своим экономическим показателям. Кооперативные отношения в настоящее время характеризуются как социальные движения. Производственные отношения в этом секторе, а также со всеми особенностями имущества отражается в его реализации. Реализация собственности также играет важную роль в социально-экономических отношениях в производственных отношениях. В целом, уникальные преимущества кооперативных отношений всегда отличали их от других коммерческих структур. Несомненно, для государства в развитии сотрудничества в Турции поддержка, которую они оказывают, также важна.



*Redaksiyaya daxilolma: 03.02.2020*
*Çapa qəbul olunma: 10.02.2020*

UOT 9(4794)

# İNKİŞAF ETMİŞ ÖLKƏLƏRDƏ KOOPERASİYALAŞMA SİYASƏTİ

*S.Q.Əlizadə*
*Azərbaycan Dövlət Aqrar Universiteti*

**Açar sözlər:** *kooperasiya, təsərrüfat, iqtisadiyyat, ölkə, cəmiyyət*

Kooperasiya münasibətlərinin sosial-iqtisadi inkişafda rolunun yüksəlməsinə adekvat olaraq artıq iqtisadiyyatda kooperativ kapital formalaşmışdır ki, bu da nəticə etibarilə istehsalçılarının və ticarət şəbəkələrinin kooperativ mənfəət əldə etməsinə gətirib çıxarmışdır. Məhz bu deyilənlərə müvafiq olaraq kooperasiya münasibətlərinin və bütövlükdə kooperativlərin nəzəri aspektləri işlənib hazırlanmış, artıq beynəlxalq kooperasiya hərəkatı təşkilati struktur kimi fəaliyyət göstərməyə başlamışdır. Beynəlxalq kooperasiya öz inkişafının tarixi dövrlərində təsərrüfat həyatına tam mənası ilə təsir göstərmiş və hazırda dünya miqyasında müxtəlif kooperativ forma və birliklərin geniş şəbəkələri formalaşmışdır. Uzun müddətli tarixi dövrdə bazar iqtisadiyyatının prinsipləri və qanunauyğunluqları əsasında iri əmtəə istehsalının təşkilində beynəlxalq kooperasiya hərəkatı önəmli rol oynamışdır.

Kənd təsərrüfatı kooperativinin ümumi yığıncağı ümumi gəliri, mənfəəti bölüşdürür, həmçinin pul fondunun miqdarını, onun formalaşması üsullarını və xərclənmə qaydalarını müəyyən edir. Fonda ayırmalardan sonra, mənfəətin qalığı kooperativ üzvlərinin dividentlərinə istiqamətləndirilir. Kooperativin əsas fondu isə, pul kapitalının 20%-dən az olmayan ehtiyat fondudur. Müasir dövrdə Şərqi Avropa ölkələrində korporativ münasibətlərin inkişaf etməsi daha çox bazar mexanizminin inkişafı və əhalinin tələbatının ödənilməsi ilə bağlı olan ölkə iqtisadiyyatında ərazi və sahə xüsusiyyətlərini daşıması ilə əlaqədar olmuşdur. Bu ölkələrdə sənaye sahələri ilə müqayisədə kənd təsərrüfatı sahəsi bazar münasibətlərinin tələbatına daha çox uyğunlaşdırılmışdı və buna müvafiq olaraq da burada şəhər iqtisadiyyatında dövlət müəssisələri hakim mövqe tutmuşdur [5]. Onların iqtisadiyyatında tarixən kooperativ münasibətlərə əsaslanan qarışıq iqtisadiyyat formalaşmışdır. Bu, iqtisadiyyatın fəaliyyəti isə daha çox aqrar və ərzaq sferasında özünü göstərmişdir. Bu sfera isə nəticə etibarilə daha çox daxili bazarın tələbatının ödənilməsi istiqamətində fəaliyyəti özündə əks etdirir. Bu nöqteyi nəzərdən regionda kənd təsərrüfatının və ərzaq təhlükəsizliyi üstünlük təşkil etməsinə görə yaradılan kooperativ birliklər də məhz bu missiya üzrə fəaliyyət göstərmişdir. Bu baxımdan isə məhz kooperativ cəmiyyətləri daha çox daxili bazarın tələbatının ödənilməsinə istiqamətlənmişdir. Şərqi Avropa ölkələrində də kooperativ tipli təsərrüfatlar üstünlük təşkil edir. Bu ölkələrdə aqrar islahatların aparılması qarışıq təşkilati və hüquqi formalardan ibarət iqtisadiyyatın formalaşmasına gətirib çıxarır. Yenilikçi aqrar iqtisadiyyatın formalaşdırılması prosesində böyük təşkilatlarda kənd təsərrüfatı məhsullarının konsentrasiyası və sayı azalır. Məsələn, son illərdə Rusiyada kənd təsərrüfatı təşkilatlarının sayı 28,6 mindən 20,3 minə, faizlə desək 29% azalıb [2]. Nəzərdən keçirilən dövrdə kənd təsərrüfatı istehsal kooperativləri üçün ən az azalma nisbəti müşahidə edildi. Onların sayı 9 921 ədəd azalıb.

Kooperativ hərəkatı Fransada da geniş yayılmışdır. Bu hərəkatı əsasən Fransız utopik sosiolistləri dəstəkləyirdilər. Belə ki, XIX əsrin 30-cu illərində Parisdə dülgərlər, fəhlə-zərgərlər, daşyonanların kooperativləri, habelə Lionda istehlak cəmiyyətləri yaradılmışdı. Almaniyada kəndli, kustar peşə, təchizat və yardımçı istehlak kooperativləri də bu dövrdə geniş vüsət almışdı. XIX əsrin ikinci yarısında ABŞ-da, Kanadada, Skandinaviya ölkələrində Balkanlarda istehlak kooperativləri sürətlə yayılmağa başlayır [1].

XX əsrin əvvəllərində Asiya, Latın Amerikası və Afrika ölkələrində kooperativ hərəkatı genişlənir. Birinci Dünya Müharbəsi ərəfəsində Qərbi Avropa ölkələrində 20 milyon adamı, o cümlədən Böyük Britaniyada 3 milyon adamı birləşdirən 120 min ilkin kooperativ təşkilatı fəaliyyət göstərmişdir [6].

Kooperasiya insanı istehsal, xidmət, ticarət və digər bu kimi sahələrin sahibkarı etməklə, onun yaradıcılıq imkanlarını aşkara çıxarır. Təsadüfi deyildir ki, məhz kooperasiya ölkələrdə əsaslı dərəcədə sosial-iqtisadi inkişafa təkan verərək, bir sıra neqativ halların qarşısını almağa şərait yaradır, əhalinin ərzağa, xalq istehlakı mallarına, müxtəlif xidmətlərə olan tələbatının ödənilməsinin ən vacib amilinə çevrilir. Kooperasiya özünün fəaliyyət mexanizmi olan kooperativ hərəkatı vasitəsi ilə ölkənin iqtisadiyyatının müxtəlif sferalarını əlaqələndirir, təsərrüfatçılığın mühüm sahələrindən biri kimi, bazar iqtisadiyyatına uyğun gələn yeni iqtisadi təfəkkürün formalaşmasına zəmin olur.

Aqrar sahə milli iqtisadiyyatın mühüm tərkib hissələrindən biri kimi istər ölkənin ərzaq təminatı və təhlükəsizliyinin ödənilməsində, istərsə də regionların sosial-iqtisadi inkişafında olduqca böyük əhəmiyyətə malikdir. İqtisadiyyatın müxtəlif sahələrində olduğu kimi, aqrar sahədə də birgə məqsədlərin həyata keçirilməsi, daha uğurlu nəticələrin əldə olunması ən mükəmməl səviyyədə öz həllini iştirakçıların səmərəli əməkdaşlığına və ayrı-ayrı təsərrüfat subyektlərinin resurslarının könüllü birləşdirilməsinə əsaslanan kooperasiya əlaqələrinin qurulması ilə tapır. Ona görə ki, kooperasiyaya əsaslanan iqtisadi inteqrasiya və əlaqələr aqrar sahədə məhsul istehsalı, tədarükü, emalı, saxlanması və istehlakçılara çatdırılması istiqamətində iqtisadi fəaliyyətin, sahədaxili bölmələrin bir-birinə yaxınlaşması, uzlaşdırılması, həmçinin bir-birinə istehsal və iqtisadi cəhətdən uyğunlaşması prosesidir.

Fransada müxtəlif dövrlər ərzində yaradılan kooperativ cəmiyyətləri və istehlakçı kooperativ hərəkatı kooperasiya haqqında qanunun qəbul edilməsi ilə daha da təkmil formada fəaliyyət göstərməyə başladı və ölkədə Kooperativ ittifaqları yarandı [7]. Fransada yaradılan bu kooperativ ittifaqları əsasən topdansatış tədarükçülərinin cəmiyyəti şəklində fəaliyyət göstərirdi. Fransada baş verən proseslərə nəzər salsaq görərik ki, İngiltərədən sonra Fransada istehlak kooperativlərin formalaşması və inkişafına görə, bu ölkə də kooperativlərin vətəni hesab edilir.

Fransa və İngiltərədən sonra kooperativlərin vətəni hesab edilən üçüncü ölkə isə İtaliyanı hesab etmək olar. Burada da ilk kooperativlər XIX əsrdə istehlak kooperativləri kimi yaranmağa başlamışdır. Lakin bununla yanaşı, İtaliyada ilk kooperativlər yaranana qədər kooperativlərin fəaliyyətinə uyğun bir formada qarşılıqlı yardım cəmiyyətləri mövcud olmuşdur. İtaliyada kooperativlərin özünün spesifik xüsusiyyətləri var idi. Buna misal olaraq qeyd edə bilərik ki, bu dövrdə İtaliyada fəaliyyət göstərən kooperativlərdə orta bazar qiymətindən aşağı qiymətə kreditlə reallaşdırılırdı. Sonrakı illərdə kooperativ hərəkatı daha da genişlənərək milli kooperativ Liqasının yaradılması ilə nəticələndi [3].

Milli kooperativ Liqası isə daha çox topdansatış tədarük cəmiyyətləri qismində kooperativ təsisatlar kimi fəaliyyət göstərirdi. XIX əsrdə Almaniyada kooperativlərin yaradılmasını ilk dəfə zəruri olan, onun kartof və bir sıra ərzaq məhsullarının əldə edilməsi və buna uyğun həyata keçirilən tədbirlərlə reallaşmışdır. Almaniyada yaradılan ilk kooperativlər istehlak cəmiyyətləri formasında fəaliyyət göstərərək, mədən sənayeçiləri tərəfindən təsis edilmişdir. Məhz bu dövrdən mədəni və təsərrüfat cəmiyyətlərinin ittifaqı formalaşaraq bu formada istehlak cəmiyyətləri yaradılmışdır. Sonrakı illərdə isə Almaniyada kredit kooperativləri fəaliyyət göstərirdi. Ümumilikdə tarixi dövr ərzində Almaniyada müxtəlif kooperativ formaları yaranmış və genişlənərək inkişaf etmişdir [4].

Bu dövrdə istehlak kooperativlərinin təşəkkül tapdığı ölkələrdən biri də Belçika olmuşdur. Gent şəhərində yaradılan kooperativ hərəkatı tezliklə ölkənin müxtəlif şəhərlərinə də yayılmış və ilkin olaraq bu kooperativ cəmiyyətləri istehlak cəmiyyəti formasında fəaliyyət göstərmişlər.

Sadaladığımız ölkələr nəzdində Avropa kooperativ hərəkatında kooperativ cəmiyyətlərinin yaradılmasını ümumiləşdirərək qeyd edə bilərik ki, 19-cu əsrdə Avropanın bütün ölkələrində bu proses geniş vüsət almışdır. Yalnız bu ölkələrdə deyil, eləcə də Çexiya, Slovakiya, Macarıstan kimi ölkələrdə də kooperativ münasibətləri formalaşmış və inkişaf etmişdir. Lakin Avropanın digər ölkələrindən fərqli olaraq, kəndli təsərrüfatının üstünlük təşkil etdiyi bu ölkələrdə nisbətən bu münasibətlər məhdud xarakter daşımışdır. Eləcə də Bolqarıstan və Rumıniyada istehsal kooperativlərinin formalaşmasına yolların inkişafında bir sıra məhdudiyyətlər mövcud olmuşdur. Amerikada kooperativ cəmiyyətlərinin yaranması təcrübəsinə nəzər salsaq görə bilərik ki, burada spirt istehlak cəmiyyətləri, tədarükçü klubları adı altında formalaşmışdır. XIX əsrdə Amerikada kooperativ münasibətlərinin inkişafı əsasən kooperativ liqasının fəaliyyətinə uyğun baş verirdi [8].

Kənd təsərrüfatında kooperativ sahəsini dövlətin maliyyə yardımının heç də az təsirsiz, ancaq kiçik miqyaslı tədbirlərindən biri də birbaşa subsidiyalar və onların fəaliyyət bazarlarının sığortalanmasıdır.

Kənd təsərrüfatı kooperativləri sadə və mürəkkəb təşkilati hüquqi formalarda inkişaf edirlər. Məhsul istehsalçılarının birliklərinin mürəkkəb formaları sadə formalarından az təsadüf olunurlar və istehsal prosesinin bütün tərəflərinin əhatə edirlər. Sadə ortaqlıqlar fermerlər tərəfindən hər hansı bir istehsalat sahəsində məsələn, satış, təchizat , maliyyə təminatı və ya istehsalat vasitələrinin istifadəsi sahəsində səylərin birləşdirilməsi məqsədlə yaradılır.

İstehsalatın tam ictimailəşdirilməsi nümunəsi kimi İsrail kibusları çıxış edirlər. Ancaq tam mənada bu təşkilatlar kooperativləri deyildir, çünki bu kibuslarda əməyin maddi və kommersiya motivləri mənəvi əsaslarla əvəz olunmuşdur. Kooperativ birliklərinin mürəkkəb formalarına

Almaniyada, Yaponiyada, şərqi Avropa ölkələrində və digər ölkələrdə rast gəlinir. Məsələn, İtaliyan şərabçılıq kooperativi "Pontasevo" yalnız tənəklər becərmir, yüksək keyfiyyətli şərab istehsal etmir, həm də ictimai fondların hesabına kooperatorları kreditlə, mənzillə, tərbiyə müəssisələrinin (uşaq bagçaları) xidmətləri ilə təmin edir, uşaqların təhsilini təşkil edir, səhiyyə tədbirləri kompleksini həyata keçirir.

## ƏDƏBİYYAT


1. Кочкарова З.Р. « Особенности развития сельскохозяйственной кооперации в 20-30 годы». Владикавказ.2000, с. 47
2. А.П.Макаренко. Теория и история кооперативного движения. М.: 2002, с. 18
3. Ə.Bayramov. Regional iqtisadi inteqrasiya: nəzəriyyə və praktika. Bakı: 1997, s. 22
4. H.A.İsrafilov "Qloballaşma şəraitində istehlak kooperasiyasının təkmilləşdirilməsi istiqamətləri" Bakı: 2010, s. 39
5. M.Əhmədov. Qloballaşma və milli iqtisadiyyatın inkişaf problemləri. Bakı 2002, səh. 54
6. А.И.Крашенинников. Кооперация в современном мире. М.: 2004, с. 62
7. Вахитов К.И. Кооперация. Теория, история, практика. Избранные изречения, факты, материалы, комментарии. М.: 2006, с. 23
8. Макферсон Я. Принципы кооперации XXI века. Белгород 1998, с. 55


## SUMMARY


**Key words:** *cooperation, property, economy, country, society*

Thus, international experience in the development of cooperative relations in the agricultural sector shows that the agricultural sector has a high level of cooperation in all developed countries, where the agricultural sector has great potential. In the agricultural sector, based on cooperative relations, development is faster and more productive. In any country where cooperation is developing, joint ownership in the agricultural sector is preferable, and agricultural development in this country is stable and intensive.


## РЕЗЮМЕ


**Ключевые слова:** *кооперация, хозяйство, экономика, страна, общество*

Таким образом, международный опыт развития кооперационных отношений в аграрном секторе показывает, что аграрный сектор имеет высокий уровень сотрудничества во всех развитых странах, где аграрный сектор имеет большой потенциал. В аграрном секторе, основанном на кооперационных отношениях, развитие происходит быстрее и продуктивнее. В любой стране, где развивается кооперация, совместная собственность в аграрной сфере является предпочтительной, и аграрное развитие в этой стране стабильное и интенсивное.



*Redaksiyaya daxilolma: 03.02.2020*
*Çapa qəbul olunma: 10.02.2020*

UOT 9(4794)

# QƏRBİ AVROPA ÖLKƏLƏRİNDƏ KOOPERASİYALAŞMA SİYASƏTİNİN AQRAR SAHƏNİN İNKİŞAF ETDİRİLMƏSİNDƏ ROLU

***F.B.Əliyeva***
***Azərbaycan Dövlət Aqrar Universiteti***

**Açar sözlər:** *iqtisadiyyat, inkişaf, kooperativ, münasibət, ölkə*

